# AZƏRBAYCAN

**1’2016**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN**
**AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini:** **Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Tofiq MAHMUDOV**

***REDAKSİYA HEYƏTİ:*** **Ağasəfa, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Əli Əmirli, Yaşar, Asim Yadigar, Elçin, Əjdər Ol, Musa Yaqub, Afaq Məsud, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Vaqif Yusifli, Fəxri Uğurlu, Paşa Əlioğlu, Əli İldırımoğlu**

| **Redaksiyanın ünvanı:** | **Çapa imzalanıb:** | **E-mail:** |
|---|---|---|
| Bakı - Az1000<br>Xaqani küçəsi, 25 | 24.12.2015<br>**Sifariş 3999** | **intigam.gasimzade@gmail.com**<br>**qasimzadeh@azyb.az** |
| **Telefonlar:**<br>*Redaksiya –*<br>498-78-10<br>493-28-32<br>493-28-34<br>*Mühasibat –*<br>493-29-41 | Tiraj 600<br>**Kağız formatı**<br>70x108 1/16 - 6,5<br>kağız vərəqi<br>13 çap vərəqi<br>18,2 şərti çap vərəqi | **Qiyməti**<br>**1 manat 50 qəpik**<br><br>**Bakı şəhəri,**<br>**“Azərbaycan”**<br>**nəşriyyatının mətbəəsində**<br>**ofset üsulu ilə çap olunur** |

**Çap olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir.**

## BU SAYIMIZDA:


### 2 0 Y a n v a r ... 2 6 i l

MƏZAHİR SÜLEYMANZADƏ - Yanvar düşüncələri.........................................3
ƏHMƏD QƏŞƏMOĞLU - Cavanşir ( poemadan parçalar)……………………......11

### P o e z i y a

MUSA YAQUB - Şeirlər…………………………........................……….15
AĞASƏFA - Şeirlər………………………………......................……………79
CAVİ DAN - Şeirlər ………………………….......................……………….116
QARDAŞXAN - Şeirlər ………………………......................……………123
NİSƏ BƏYİM - Şeirlər………………………….........................…………….153
FAZİL AYDIN - Şeirlər ……………………………………...............……160

### N ə s r

ZAHİD SARITORPAQ - Kül (roman)……………….....................……………28
ALPAY AZƏR - NATO və Rembrandt; Qəribə xahiş (iki hekayə)....................138
VÜSAL NURU - Luvrda hadisə (hekayə) .........................................................150
CAVİD ZEYNALLI - "Dərd qapını tapmır" (hekayə).......................................185

### D r a m a t u r g i y a

İLQAR FƏHMİ - Son reportaj (pyes)...................................................................86

### Ə l a ğ a V a h i d - 1 2 0

VAQİF YUSİFLİ - "Səni zəmanə yetirməz dübarə..." .......................................126
SONA XƏYAL - Əlağa Vahidin mənzum məktubları........................................133
ƏLAĞA VAHİD - Şeirlər...................................................................................136

### E s s e

QAN TURALI - Yad et məni, qəmli - qəmli yad et!.. ........................................163

### Y e n i t ə r c ü m ə l ə r

ALEKSANDR KERDAN - Mundir (hekayə)....................................................175
KATE ÇOPİN - Peşmanlıq (hekayə)....................................................................181
LAO MA - Zaman (hekayə) ..............................................................................183

### X a t i r ə l ə r , d u y ğ u l a r

QƏŞƏM NƏCƏFZADƏ - Dəvə.........................................................................192

### T ə n q i d v ə ə d ə b i y y a t ş ü n a s l ı q

SAFURƏ QULİYEVA - "Bir nadan sözünə susuramsa mən..."..........................194

### D ü n y a , s ə n d ə n k i m l ə r k e ç d i . . .

SƏADƏT VAHABOVA - Ömər Faiq Nemanzadə.............................................199

### K i t a b r ə f i .......................................................................206

## ◆ 20 Yanvar... 26 il




*Əcz ilə dönmək ədudən səhlidir, himmət tutub,*
*Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək!*

**M.Füzuli**

* * *

# YANVAR DÜŞÜNCƏLƏRİ

1990-cı ilin 20 yanvarınadək sovet ordusu Almatıda, Tbilisidə, Vilnüsdə də dinc əhaliyə qarşı silah işlətmişdi. Amma Bakı qırğını həm miqyasına, həm də onu həyata keçirənlərin vəhşilik dərəcəsinə görə misilsiz idi. Azərbaycan paytaxtının küçələri qan selinə dönmüşdü. Analarımızın, bacılarımızın ah-naləsi ərşə yüksəlmişdi.

Mitinqlər keçirildi, cinayət işi qaldırıldı, təhqiqat komissiyaları yaradıldı, qalaq-qalaq sənədlər Moskvaya göndərildi, Milli Məclisdə müzakirələr oldu, müxtəlif illərdə müxtəlif adamların adları çəkildi, amma bu boyda hadisəyə hüquqi qiymət verilmədi, bircə nəfər də olsun cinayət məsuliyyətinə cəlb olunmadı.

Hər il "Şəhidlər Xiyabanı"na getdik, qırmızı qərənfillərdən xalı toxumaq bacarığımızı bütün dünyaya göstərdik. Şairlərimiz şəhidlər haqqında şeirlər yazdılar, bəstəkarlarımız mahnılar bəstələdilər, mollalarımız şəhidlərimizin ruhuna dualar oxudular. Şəhid ailələrinə imtiyazlar verildi, bəzi şəhidlərin yaşadıqları binalara xatirə lövhələri vuruldu. "Şəhidlər Xiyabanı"nda möhtəşəm abidə ucaldıldı, abadlıq işləri görüldü. Beləcə, illər gəlib keçdi. Cinayət göz qabağında ola-ola məsuliyyətə cəlb etməyə bircə nəfər də olsun cinayətkar tapılmadı. Yalnız təbii fəlakətlər zamanı belə olur: tufan

qopur, zəlzələ baş verir, sel gəlir, yüzlərlə insan fəlakətin qurbanına çevrilir; təbiəti isə cəzalandırmaq mümkün olmur. Bunun üçün heç bir dövlətin cinayət məcəlləsində müvafiq maddə yoxdur. Sanki Bakıda da, sadəcə, təbii fəlakət baş vermiş, göydən yerə yağış əvəzinə güllə yağmışdı. Nə əmr verən olmuşdu, nə də bu əmri misli görünməmiş vəhşiliklə yerinə yetirən. İllər ötdü, şəhidlərimizin qanı yerdə qaldı. Onların xatirəsini əbədiləşdirsək də, ruhunu sakitləşdirə bilmədik...

20 Yanvar qırğınını xalqımızın tarixindən silib atmaq mümkün olmayacaq. Mən Qara Yanvar hadisələrinin həm şahidiyəm, həm də şəhidi. Çünki mənim "Səhər"imə də düşmən gülləsi dəyib. Mən yüzlərlə adamın gözü qarşısında güllələnmiş bir qəzetin baş redaktoruyam. Hər dəfə bu hadisələr yada düşəndə "Səhər"i də xatırlayacaqlar. Çünki "Səhər" 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış ən böyük söz abidəsidir. Nə vaxtsa bu fikri nəzmə də çəkmişəm:

***"Səhər" mənim ikinci övladımdı,***
***Şərəfimdi, şöhrətimdi, adımdı.***
***Mən "Səhər"dən güc almışam,***
***Mən "Səhər"lə ucalmışam!..***
***"Səhər" şəhid qəzet, "Səhər" vüqarlı,***
***"Səhər" uca dağdı, zirvəsi qarlı...***
***"Səhər" anaların qanlı göz yaşı,***
***"Səhər" tarixlərin dəqiq yaddaşı,***
***20 Yanvarın səlnaməsidir!***
***"Səhər" şəhidlərin döyünən qəlbi,***
***Uca fəryadıdır, gələn səsidir!***
***Mən memar deyiləm, amma ki, "Səhər",***
***Mənim ucaltdığım söz abidəsidir!***

* * *

... Hava işıqlananda artıq atəş səsləri kəsilmişdi. Tanklar, zirehli maşınlar bizim küçəmizdən - Mətbuat prospektindən keçib Ali Sovetin (indiki Milli Məclisin - red.) binasına tərəf gedirdilər. Eyvana çıxmaq təhlükəli idi, əli avtomatlı əsgərlər hər an atəş aça bilərdilər. Ona görə havanın tam işıqlanmasını gözlədim. Bir qədər sonra radio şəbəkəsi ilə Mixail Qorbaçovun yanvarın 19-da imzaladığı fərman rus dilində səsləndirildi. "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq olunması haqqında" SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı şəhər sakinlərinə tanklar, sovet əsgərləri paytaxtımızın küçələrində qırğın törədəndən sonra çatdırıldı. Açığı, fövqəladə vəziyyətin, komendant saatının nə demək olduğunu da bilmirdik, sovet əsgərinin öz xalqına güllə atdığına da inanmırdıq...

İctimai nəqliyyat işləmirdi. Hər yer nəzarətə götürülmüşdü. Küçələr tanklarla, zirehli maşınlarla dolu idi. Adamlar ora-bura qaçışırdılar, ara-sıra evlərin həyətlərindən atəş səsləri eşidilirdi. Bakı sakinlərinin gözlərindən rus əsgərlərinə nifrət hissi oxunurdu. Əsgərlər bakılılarla ünsiyyətə girməsələr də, ara-bir gülümsəyirdilər. Sonradan məlum oldu ki, gecə Bakıda nə baş verdiyindən heç bu əsgərlərin özlərinin də xəbəri yoxdur. Qırğını Rostov və Stavropol vilayətlərindən gətirilmiş, aralarında xeyli erməni olan muzdlular törədiblər. Hərə bir söz danışırdı, şayiələr baş alıb gedirdi. Qəzetlər çıxmırdı, televiziyanın enerji bloku partladılmışdı. Bakıda nə baş verib? Bir jurnalist kimi bu suala cavab tapmaq, həqiqəti, ilk növbədə, öz xalqımıza, sonra isə




dünya ictimaiyyətinə çatdırmaq bizim üzərimizə düşürdü.

... Mətbuat prospektindən Bülbül prospektinədək yolu piyada necə qət elədim, heç özüm də bilmədim. İşə tələsirdim, qəlbimi qəribə bir hiss bürümüşdü. Özüm-özümü aldatmağa, ovundurmağa çalışırdım. Yox, gecə yüzlərlə adamın qanına qəltan edilməsi xəbəri, yəqin ki, şayiədir. Bax, indi redaksiyaya gedəcəyəm, müxbirlərimizin hazırladıqları xəbərləri oxuyub mətbəəyə göndərəcəyəm. Tanklardı da, gəliblər, beş-on günə onları da şəhərdən yığışdırarlar, həyat öz axarına düşər. Mən hərbi müxbir olmuşam, əsgərlərimizin mənəvi saflığından, öz xalqına məhəbbətindən yazmışam. Yox, onlar silahsız adamlara, dinc şəhər sakinlərinə atəş açmazlar...

"Nizami" kinoteatrının qarşısında məsul katibimiz Şakir Yaqubovla qarşılaşdım. Qucaqlaşdıq. Bir-neçə dəqiqə beləcə biri-birimizə sarılı qaldıq. Heç birimizin ağzından bir kəlmə də çıxmadı. Sonra yeraltı keçidlə "Kommunist" qəzetinin qarşısına çıxdıq. Qapının sağında və solunda iki əsgər dayanmışdı. Silahlarını şaqqıldadıb bizi içəri buraxmadılar. Dedilər ki, binada heç kəs yoxdur. Rəfail Nağıyev də gəldi. Əsgərlərə başa saldı ki, biz "Kommunist" qəzetinin rəhbərləriyik, bura bizim iş yerimizdir. Nəhayət, içəri keçib üçüncü mərtəbəyə qalxdıq. Heç birimiz otağımıza getmədik, elə dəhlizdə dayandıq. Sonra Zülfüqar Rüfətoğlu gəldi. Daha sonra Araz Qurbanov, Əfqan, Tahir Aydınoğlu bizə qoşuldular. Flora Sadıqovanı görüb təəccübləndik, qadın olsa da, özündə cəsarət tapıb redaksiyaya gəlmişdi. Vaqif Bəhmənli, Hidayət Elvüsal, Nazilə Abdullayeva, Pərinaz Səmədova, Bəxtiyar Sadıqov, Rafiq Hacıyev... "Kommunist" qəzetinin redaktoru Cəmil Əlibəyov aramızda yox idi və...redaksiya əməkdaşlarının fikrincə, heç olmamalı idi. Çünki Kommunist Partiyasının törətdiyi bu cinayətdən sonra respublikamızda "Kommunist" adlı qəzet çıxa bilməzdi." Bu qanlı qırğının, amansız faciənin səbəbkarı Əbdürrəhman Vəzirov və onun komandası olduğu üçün Cəmil Əlibəyovun da redaktor kimi bizim kollektivə dönüşünə bəraət yoxdur." Yekdilliklə qəbul etdiyimiz qətnamədə elə belə də yazılmışdı. Qərara aldıq ki, biz "Səhər" qəzetini buraxmalıyıq. Elə oradaca iş bölgüsü aparıldı, jurnalistlərə, fotomüxbirlərə tapşırıqlar verildi. Üstəlik, mən Şakir Yaqubovla birgə Mərkəzi Komitəyə getməli, Cəmil Əlibəyovla görüşüb onun istefa ərizəsini almalı idim. Bu, bir gün sonra, yanvarın 21-də olacaqdı.

Hələlik isə... Misli görünməmiş vəhşilik törədilmişdi, dünya ictimaiyyəti bundan xəbər tutmalı idi. Bəs, nə etməli, necə etməli? Mənim və Rəfail Nağıyevin hökumət telefonumuz var idi. Ağlımıza gələn o oldu ki, başqa respublikalarda yaşayan dostlara, tanışlara, lap elə adını eşidib üzünü görmədiyimiz adamlara zəng vuraq, onlara Bakıda sovet ordusu tərəfindən dəhşətli cinayət törədildiyini bildirək. Telefonçu qızlarımız sağ olsunlar, heç beş-on dəqiqə keçməmiş bizi Özbəkistanla, Gürcüstanla, Belorusiya ilə, Qazaxıstanla, Ukrayna ilə calaşdırdılar. Rəfail Nağıyev də, Şakir Yaqubov da, mən də, gözlərimizdə yaş, qışqıra-qışqıra danışırdıq: "Xəbəriniz var, Bakıda qan su yerinə axır, sovet ordusunun əsgərləri Mixail Qorbaçovun

tapşırığı ilə yüzlərlə, minlərlə silahsız adamı qətlə yetiriblər!" Hər telefon danışığından sonra biri-birimizin üzünə baxır, sanki demək istəyirdik ki, gördün, qatil Qorbaçovun atasına necə od vurdum!

Azərbaycan Jurnalistlər İttifaqının sədri Hacı Hacıyevin iştirakı ilə jurnalistlərin dünya xalqlarına müraciətini hazırlayıb, Zülfüqar Rüfətoğlu ilə xarici işlər naziri Hüseynağa Sadıqova göndərdik. Xəbər tutduq ki, Mərkəzi Komitənin qarşısında mitinq keçirilir. Müraciətin bir nüsxəsini də Tahir Aydınoğlu ilə mitinqə göndərdik ki, orada oxunsun. Mənə xarici ölkələrdən çoxlu zənglər olurdu. Dəhşətli xəbər müxtəlif vasitələrlə onlara çatmışdı, ancaq peşəkar idilər, ilk mənbədən informasiya almaq istəyirdilər. Onlar üçün rus dilində "Səhər" qəzetinin bəyanatı" nı hazırladım. Bəyanatda deyilirdi:

**"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun silahlı birləşmələri müxtəlif istiqamətlərdən Azərbaycanın paytaxtı Bakı şəhərinə hücum etmişlər. Yüzlərlə əliyalın, günahsız insan qətlə yetirilmişdir. Yaralıların sayı-hesabı yoxdur. Öldürülən dinc Bakı sakinləri arasında qocalar, qadınlar, uşaqlar var.**

**Bakıda fövqəladə vəziyyət elan olunub, küçələr tanklarla, zirehli avtomobillərlə, silahlı əsgərlərlə doludur. Televiziya, radio işləmir, qəzetlər çıxmır, hələ qanı yuyulmamış küçələrdə ictimai nəqliyyat gözə dəymir. Sakinlər çaşqınlıq içindədirlər. Şəhərdə qorxunc şayiələr dolaşır. Adamlar Sov. İKP MK-nın Baş katibi Mixail Qorbaçovu, SSRİ müdafiə naziri Dmitri Yazovu, öz xalqını qoyub qaçmış Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovu bu misli görünməmiş cinayətin əsas günahkarları hesab edir, Kommunist Partiyasının bu əməlinə etiraz əlaməti olaraq, tonqal qalayıb partiya biletlərini kütləvi surətdə yandırırlar.**

**Bakı qan içində, bütün dünyadan təcrid olunmuş vəziyyətdədir. "Səhər" qəzetinin əməkdaşları fövqəladə vəziyyət şəraitində öz həyatlarını təhlükə qarşısında qoyub materiallar hazırlayırlar. İndiki şəraitdə qəzet buraxmaq mümkün olmadığı üçün həmin materialları müxtəlif yollarla xarici kütləvi informasiya vasitələrinə göndərməyə çalışırıq. Ümid edirik ki, dünya ictimaiyyəti günahsız xalqımıza qarşı törədilən vəhşilikdən xəbər tutacaq, öz etiraz səsini ucaldacaqdır."**

Mən həmişə iftixar hissi keçirirəm ki, "Səhər" 20 Yanvar hadisələri zamanı xarici kütləvi informasiya vasitələri üçün ən etibarlı mənbə olub.

* * *

Yanvarın 21-də Şakir Yaqubovla Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə getdik. Binanın ətrafına çoxlu adam toplaşmışdı. Partiya biletlərindən tonqal qalamışdılar, adamlar Qorbaçova lənət oxuya-oxuya tonqala yaxınlaşır, qəzəblə partiya biletlərini alovun üstünə atırdılar. Mən də biletimi atdım. Amma qəflətən qəlbimdən qəribə hisslər keçdi, partiya bileti əvəzinə ürəyim od tutub yandı. Əlimi uzadıb alovlanmaq üzrə olan bir dəstə partiya bileti götürdüm, axtarıb onların arasından özümünkünü tapdım, qalanını yenidən alovun üstünə atdım. Bu hərəkətim camaatın etirazına səbəb oldu. Amma dedim ki, jurnalistəm, partiya biletini yandırmaqdansa, Mixail Qorbaçovun atasını yandıracağam. Yekəpər bir kişi qəzəblə boğazımdan yapışdı. Amma orada məni tanıyanlar da var idi. Yekəpəri kənara çəkib, - işin olmasın, - dedilər. - O, həqiqətən "Səhər" qəzetinin redaktorudur...

Bir neçə gündən sonra tonqaldan götürdüyüm bu partiya bileti məni, bəlkə də, ölümün pəncəsindən xilas edəcəkdi...

Mərkəzi Komitədə heç kəs yox idi. Şakir Yaqubovla mərtəbələri gəzib-dolaşıb MK katibi Rafiq Zeynalovu tapdıq. O da Cəmil Əlibəyovu çağırtdırdı. Redaktorumuz qərarımızdan təəccüblənsə də, inad göstərmədi. Ərizəsini yazıb MK katibinə verdi...

Üstündən illər keçəndən sonra Şakir Yaqubov da, mən də etiraf elədik ki, o zaman görkəmli yazıçımız Cəmil Əlibəyovla bağlı verdiyimiz qərar ədalətli deyildi. Biz emosional stress vəziyyətində olduğumuza görə bu addımı atmışdıq. Yeri gəlmişkən, Cəmil Əlibəyovla bağlı başqa bir hadisədən söhbət açım. Bu xatirə də elə 20 yanvar hadisələri ilə bağlıdır. Yanvarın 16-da "Kommunist" qəzetində "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı dərc olunmuşdu. Həmin gün xalq şairi Bəxtiyar Vahabzadə redaksiyaya gəlmişdi. Onu otağıma dəvət edib hal-əhval tutmaq istədim. Amma çox əsəbi idi: "Hanı o Cəmil? Tez məni onun yanına apar!" Redaktorumuz Cəmil Əlibəyov redaksiyada yox idi. Bəxtiyar Vahabzadə isə təkidlə onu tapmağı tələb edirdi: "Gör Cəmil hardadırsa, tez gəlib məni o əclafın yanına aparsın! Yoxsa ürəyim partlayacaq!" Məlum oldu ki, "əclaf" deyəndə Bəxtiyar müəllim Vəzirovu nəzərdə tutur. Bir qədər sonra Cəmil Əlibəyov da gəlib çıxdı. Onların arasında çox sərt bir söhbət oldu. Cəmil müəllim Bəxtiyar Vahabzadəni sakitləşdirə bilmirdi. Nəhayət, onu maşına əyləşdirib Rəhmanın (C. Əlibəyov Vəzirova belə deyirdi) yanına apardı. Sonradan eşitdik ki, Bəxtiyar Vahabzadə Vəzirovun da otağında əsəblərini cilovlaya bilməyib, Moskvanın qərarına görə birinci katibə sərt təpki göstərib. Böyük şair xalqımız üçün təhlükənin yaxınlıqda olduğunu hiss edirmiş...

* * *

20 Yanvar qırğını qəflətən, özü-özünə baş vermədi. Bunun çox ciddi səbəbləri var. Hadisədən illər keçsə də tarixçilər, siyasətçilər, şahidlər müxtəlif iddialar irəli sürürlər. Əslində bu misli görünməmiş cinayət barədə ilk cəsarətli fikri Ümummilli liderimiz Heydər Əliyev söyləyib. Biz 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində Heydər Əliyevin verdiyi bəyanatı tərcümə edib şəhərdə yaymışdıq. "Səhər"in 1995-ci ildə nəşr etdirdiyi "Qətiyyətin təntənəsi" kitabında bu barədə ətraflı məlumat var. Heydər Əliyev 20 Yanvar qırğınını "milli faciə" adlandırmış, cinayətkarların ciddi cəzalandırılmasını tələb etmişdi. Bütün dünyada tanınmış siyasətçinin fikirləri beynəlxalq aləmdə də geniş əks-səda doğurmuş, informasiya blokadasının yarılmasında böyük rol oynamışdı. Heydər Əliyevin qətiyyəti bizə də inam vermiş, cəsarətimizi artırmışdı.

...Əslində yanvarın 22-də "Səhər"in materialları hazır idi. Amma qərara gəldik ki, qəzetin əsas materialı 20 Yanvarın günahsız qurbanlarının dəfnindən reportaj olmalıdır. Mən bu "günahsız qurbanlar" ifadəsini elə-belə işlətmədim. O zaman düşmən gülləsinə tuş gələnlərə ekstremist də deyirdilər, saqqallı da, yaraqlı da... "Şəhid" ifadəsini də ilk dəfə "Səhər" qəzeti işlətdi.

Şəhidlərin dəfnindən reportajlar hazırlayan yaradıcı qrupa Vaqif Bəhmənli rəhbərlik edirdi. Redaktorluq vəzifəsini mən yerinə yetirirdim. Texniki işlərlə, qəzetin tərtibatı ilə Şakir Yaqubov məşğul idi. Ən çətin iş - "Səhər"in çapına hərbi senzorun razılığını almaq məsuliyyəti Rəfail Nağıyevin üzərinə düşmüşdü. O, general-mayor Aleksandrov ilə gərgin danışıqlar aparmalı idi.

On bir nəfərin qələmindən çıxmış “Vətən bu gün ağı deyir...” reportajını həyəcansız oxumaq mümkün deyildi. Bir-neçə dəfə qələmi yerə qoyub göz yaşımı sildim. Cavan oğlanların, qadınların, uşaqların tanınmaz hala salınmış şəkillərinə baxanda isə özümü ələ ala bilmədim, hönkürtüm bütün redaksiyanı bürüdü. Nazilənin ürəyi dözmədi, yerə yıxıldı. Pəri də ona qoşuldu. Flora Sadıqova isə telefonla neçə gündür məndən nigaran qalan anamı ovundururdu...

Sabah “Səhər”i əlinə götürəcək hər bir oxucunun aqibəti belə olacaqdı...

* * *

Yuxusuz gecələrdən, min bir əzab-əziyyətdən, hərbi senzorla gərgin danışıqlardan sonra məlum oldu ki, “Səhər”in “Azərbaycan” nəşriyyatında çap olunma ehtimalı sıfıra bərabərdi. Mətbəə fəhlələri tətilə qoşulublar və işə çıxmaq fikrində deyillər. Linotipçi yox, metranpaj yox, çapçı yox... Dost-




tanışın evinə adam göndərdik, ərkimiz çatanlara zəng vurduq. Gəlmədilər... Qəzet buraxmağın, xalqımızı informasiya ilə təmin etməyin vacibliyini izah etməyə çalışdıq. Xeyri olmadı...Kimsə bildirdi ki, Tətil Komitəsinə rəhbərlik edənlərdən biri də həmkarımız Nəcəf Nəcəfovdur. O gəlib bizə desə, “Səhər”i çap edərik. Ancaq fövqəladə vəziyyət şəraitində onun bura gəlməsi mümkün deyil, çünki o, Xalq Cəbhəsinin fəallarından biri kimi axtarışdadır, hərbçilər Nəcəfi görən kimi həbs edəcəklər.

Yenə dadımıza Rəfail Nağıyev çatdı. General-mayor Aleksandrovla danışıb onun xidməti maşınını Əhmədliyə - Nəcəf Nəcəfovun dalınca göndərdi. Özünə də dedi ki, soruşsalar, de ki, “Səhər” qəzetinin şöbə müdiriyəm. Nəcəf peşəkar jurnalist idi, materiallara baxan kimi, heyrətini gizlədə bilmədi. Fəhlələri çağırtdırıb müvafiq tapşırıq verdi. Yalnız bundan sonra “Səhər”in istehsal prosesi başlandı. Hətta axşam türk dünyasının böyük şairi Oljes Süleymenov da Aydın Məmmədovla birgə mətbəəyə gəlib bizimlə görüşdü, məsləhətlər verdi.

Bakının səhəri yenə “Səhər”lə açıldı. Unudulmaz Xəlil Rza Ulutürk belə bir şeir də yazmışdı: “Çıxdı “Səhər” qəzeti, səhər boyandı qana...” Bilmirdik

ağlayaq, yoxsa sevinək. Günortaya yaxın iki milyon tirajla çap olunmuş "Səhər"in nüsxələri iri bağlamalar şəklində yük maşınlarına yükləndi. O vaxt qəzet paylamaq qəzet buraxmaqdan da çətin idi. Bu işi könüllü gənclər öz üzərinə götürmüşdülər. "Səhər" dolu yük maşınları "Fəxri Xiyaban"a tərəf istiqamət götürdü. Bir azdan hamının əlində "Səhər" var idi...

... Otağımın pəncərəsi o vaxtkı Kirov, indiki Bülbül prospektinə açılırdı. Oradan baxanda gördüm ki, bizim redaksiya ilə üzbəüz parça mağazasının qarşısına çoxlu adam toplaşıb. Sən demə, bizdən qəzet götürən gənclər "Səhər"in səhifələrini mağazanın vitrininə yapışdırıblarmış. Küçədən keçənlər şəhidlərin şəkillərinə baxıb fəryad qoparıblar. Əsgərlərlə əhali arasında mübahisə düşmüşdü. Özümü yetirib gördüm ki, "Səhər"i vitrinə yapışdıranları tutublar. Əsgərlər deyirdilər ki, onlar qanunsuz vərəqələr yaymaqda təqsirli bilinirlər. Mən vəsiqəmi təqdim edib dedim ki, bu, qanunsuz vərəqə yox, qanuni qəzetdir. Əsgərləri inandırmaq üçün komendant V. Dubinyakın qəzetdə rusça dərc olunmuş əmrini də göstərdim. Deyəsən, inandılar, gəncləri buraxdılar, ancaq əhalinin dağılışmasını tələb etdilər. Adamlar isə "Səhər"in yapışdırıldığı vitrinə baxmağa can atırdılar. Birdən küçədə zirehli maşın dayandı, xeyli zirehli əsgər yerə tökülüşüb izdihamı mühasirəyə aldı. Qəfildən atəş açıldı, mağazanın vitrini çilik-çilik, "Səhər" qəzetinin səhifələri isə deşik-deşik oldu. Külək qəzetin səhifələrini yaxınlıqdakı yeraltı keçidə tərəf apardı, adamlar da qıy-qışqırıq salıb dağılışdılar.

Mən sevimli qəzetim "Səhər"in güllələnməsini öz gözlərimlə gördüm. "Səhər" şəhid olmuşdu...

* * *

"Səhər"in növbəti nömrəsində 20 Yanvar şəhidlərinin və qanlı şənbə günü yaralananların siyahısını dərc eləmişdik. Siyahıda 137 şəhidin, minə yaxın yaralının adı var idi. Çox çətinliklə hazırladığımız siyahını hərbi senzorun etimadını qazanaraq, lap dəqiq desək, onu aldadaraq qəzet səhifəsinə çıxarmışdıq. Ürəyimə dammışdı ki, bunu mənə bağışlamayacaqlar.

Mətbəədən evə gec gəlsəm də, yorğun olsam da gözümə yuxu getmədi. Tez-tez dönüb divardakı saata və mışıl-mışıl yatan beş yaşlı oğluma baxırdım. Qəflətən qapının zəngi çalındı. Yenə saata baxdım: doqquzun yarısı idi. Durub qapını açdım. İki əli silahlı əsgər və bir mülkü geyimli adam idi. Əsgərlərdən biri soruşdu: - Məzahir Süleymanzadə sizsiniz? Başımla işarə elədim ki, bəli, mənəm. Dedilər beş dəqiqə vaxtın var, hazırlaş, bizimlə gedəcəksən. Mülkü geyimli adam hələ mənə canıyananlıq da elədi: - Məzahir müəllim, əynini bir az qalın elə, bəlkə, evə gec qayıtdın...

Ürəyimdə dedim ki, hə, bəlkə də, heç qayitmadım...Ömür-gün yoldaşımı oyatmadım. Oğlumun üzündən öpüb evdən çıxdım. Amma ayaqlarım getmirdi, qəlbimi qorxu hissi bürümüşdü. Birdən nəyisə xatırlayıb geri döndüm, sənədləri saxladıgımız qovluqdan bir-neçə gün əvvəl tonqala atdığım partiya biletimi götürüb yenidən oğlumu öpdüm. Aşağıda məni hərbi maşın gözləyirdi. Maşının qapısını açdım, başımı qaldırıb bir daha dördüncü mərtəbəyə, öz eyvanımıza baxdım. Üstümə su töküldü. Yoldaşım idi, arxamca su atırdı...

Maşında heç birimiz danışmadıq. Mənzil başına da tez çatdıq. Bir də gördüm ki, Azərbaycan Televiziyasının həyətindəyik. General-leytenant Ovçinnikov burada otururdu. Məni onun yanına apardılar. Bu generalı birinci dəfəydi görürdüm. Stolunun üstündə "Səhər" qəzetinin son iki nömrəsi var idi. Məni başdan-ayağa süzüb yavaşca soruşdu:

-Niyə təxribatla məşğul olursunuz? Bax, ötən nömrədə yazmısınız ki, rus əsgərləri gecələr Bakı mağazalarının şüşələrini sındırıb oğurluq edirlər. Bu gün də bu boyda siyahı vermisiniz. Ruslara qarşı nifrət oyatmaqda məqsədiniz nədir? Hərbi senzordan soruşuram, deyir mənim xəbərim yoxdur. Odur ki, sizə hərbi komendantın əmri ilə 30 sutkalıq həbs cəzası verilib. Bir azdan bu cəzanı çəkmək üçün Ulyanovsk həbsxanasına göndəriləcəksiniz.

Heyrətdən donub qalmışdım. Anamı, oğlumu gözümün önünə gətirdim. Qorxu hissi məni bürümüşdü. Heç özüm də bilmədən partiya biletini çıxarıb generalın stolunun üstünə atdım: - Baxın, mən Azərbaycanda yeganə adamam ki, bu bileti ürəyimin başında gəzdirirəm. Mən “Kommunist” qəzetinin redaktoruyam! Siz məni həbs etdirə bilməzsiniz! Mən Qorbaçova yazacağam, sizdən şikayət edəcəyəm!

Ovçinnikov Mərkəzi Komitəyə zəng vurub kimisə çağırtdırdı. Çox keçmədi ki, Tofiq Rüstəmov otağa daxil oldu. General ondan soruşdu: - Bu cavan oğlan deyir ki, “Kommunist” qəzetinin redaktorudur. Siz onu tanıyırsınız?

-Bəli, tanıyıram, yoldaş general, mənim tələbəm olub. - Tofiq müəllim əl uzadıb mənimlə görüşdü. - “Kommunist” qəzetinin redaktou yox, redaktor müavinidir. Yəqin, indi redaktoru əvəz elədiyinə görə belə deyir.

General partiya biletimi özümə qaytarıb kiməsə zəng elədi: - Məzahir Süleymanzadə ilə bağlı 30 sutkalıq həbs qərarını hələlik şərti hesab eləyin.

Unudulmaz Tofiq Rüstəmov “Kommunist” qəzetinin redaktoru olanda bu hadisəni tez-tez xatırlayırdıq...

...”Səhər” qırx gün şəhidlərimizə yas saxladı. Unudulmaz Məmməd Aslan “Ağla, qərənfil, ağla!” şeirini “Səhər” üçün yazmışdı. Əzizə Cəfərzadə ağılarını, bayatılarını “Səhər”ə göndərmişdi. Bəxtiyar Vahabzadə, Fikrət Sadıq, Musa Yaqub, Sücaət, Xalidə Hasilova, Rəfail Nağıyev, Hidayət Elvüsal, Şakir Yaqubov, Vaqif Bəhmənli...şəhid ruhunu “Səhər”də oxşamışdılar. “Səhər”i oxuyandan sonra cırıb atmırdılar, hörmətlə, ehtiramla yadigar saxlayırdılar...

* * *

2000-ci il yanvarın 19-da Respublika sarayında ümumxalq hüzn mərasimi keçirilirdi. Ümummilli liderimiz Heydər Əliyev salona daxil olub öz yerində əyləşəndən sonra diktor elan elədi: “Qanlı yanvar günlərində öz sözü ilə xalqa sədaqətini sübut etmiş insanların ölkəmizdə xüsusi yeri, xüsusi hörməti vardır. Həmin günlərin təkrarolunmaz ab-havasını bərpa etmək üçün bu mərasimdə onlardan bir neçəsini dinləməyə ehtiyac vardır”.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadə, xalq şairi Bəxtiyar Vahabzadə çıxış etdikdən sonra tribunaya məni dəvət etdilər. “Səhər” qəzeti jurnalistlərinin 1990-cı ilin Qanlı Yanvar hadisələri zamanı informasiya blokadasını necə yarmalarından danışdım. Gözüm salonda oturub diqqətlə mənə qulaq asan Heydər Əliyevdə idi. Deyəsən, çıxışımdan razı qalmışdı. Mərasimdən sonra Ümummilli liderimiz mənə yaxınlaşıb: - Siz o faciəli günlərdə əsl jurnalistika qəhrəmanlığı göstərmisiniz, çox sağ olun! - dedi. Bu sözlər mənim jurnalist əməyimə verilən ən böyük mükafat idi...



***Məzahir SÜLEYMANZADƏ***



*Əhməd QƏŞƏMOĞLU*

**CAVANŞİR**

***(poemadan parçalar)***

**20 yanvar**

...1990-cı il, 19 yanvar, axşamçağı,
Biləcər yolunun üstü
camaat ocaq qalayıb, üzlərində bir qürur,
qalxır tüstü...

...Müzakirə edirlər...
- qoşun yeritməzlər Bakıya... qorxudurlar, dedi bir cavan,
- vallah, hər şey gözləyirəm bunlardan, dedi başqa birisi...
- bir azdan silah paylayacaq Xalq Cəbhəsi, dedi bir qız,
gəlsələr biz də qabaqlarına çıxarıq,
qumbara, yanar butılka atarıq...

...Bu zaman gözlərindən od yağan,
üz-gözü nur içində Allahyar
od götürdü tonqaldan,
qədim türk əsgəritək, atdı onu ağzına,
səsləndi:
- kim gedirsə, qoy getsin! tək də qalsam, qalacağam!
gəlsin qoşun! güllələrin hədəfində,
tırtılların altında qalacağam!
əlimizdən nə gəlir bu vətənin yolunda,
heç nəyə imkan yoxdu.
deməsinlər qaçdılar,
mən şəhid olacağam, buna gümanım çoxdu!

Allahyarın bu sözünə, dindi cəsur insanlar-
gənclər, qocalar
dedilər getmərik biz!
ağır günündə vətən təəssübsüz qalar.

...axşam saat on birdə, birdən, gizlindən
Bakının kəndlərindən çıxdı tanklar...
tarix belə dövrana
ağlayıb qara bağlar...
gurladıqca tankların səsi...
iblis qol-qanad açırdı,
mələklərin kəsilirdi səsi....
tanklar, bu qəvi tanklar irəlilədikcə
qanrıldı sanki, gecənin qolu sındı...
tanklar cumdular Azərbaycanın üstünə.
sanki torpaq yol vermək istəmirdi, qışqırırdı:
- dayanın cəlladlar!
nəşəli-nəşəli əzib keçdilər....
ağaclar kəsmişdi yolu, qışqırırdılar:
- dayanın cəlladlar! əzib keçdilər.
toyları çalınmamış,
hələ bir-birindən ömür şirinlikli
"hə"ləri alınmamış
oğlanların, qızların arzuları
karıxmış bulud kimi bağırdılar:
- dayanın cəlladlar! əzib keçdilər...
körpə uşaqların ömür sevinci çıxdı,
bir əllərində gəlincikləri, bir əlində daraqları,
oyuncaq avtomatları,
qışqırtıydı onların
ən iti yaraqları,
əzib keçdilər...

şəhidlər ağlar kimi?
qan axdı çaylar kimi.
baş itirdi bu yer, göy
dəli haraylar kimi...

bu da Bakı....
hər tərəfdən, qaranlıqdan qatar-qatar,
gözləri alov dolu, quduztək cumdu tanklar,
tonqal ətrafında oturmuşdu
qocalar, cavanlar, uşaqlar.
qadınlar qışqırdı: - aman tanklar! kişilər təmkinlə:
- görmürlər əliyalınıq? bizə neynəyər onlar?
gələrlər, başa sallıq, deyərik sizi aldadırlar!
deyərik, şəhər sakitlikdir,
bura qoşun soxmaq nakişilikdir!

tanklar, ölüm dolu o tanklar
tonqal başına çatar-çatmaz
əli avtomatlı, saqqallı neçə nataraz,

gülləni dolu tək yağdırdı camaatın üstünə -
hara gəldi qaçan kim,
öz canından keçən kim!
yaralananlar, qan içində
tırtılların altından çıxarırdı
daha ağır yaralıları...
asimana qalxırdı qışqırtıları.
yazıqlar qan - tər içində xilas etdikcə ətrafdakıları,
qan aparırdı özlərini, yıxılırdılar...
sual dolu gözləri...

neçə igid bir anda
göllənən qana düşdü,
yüz-yüz meyit, yaralı düşdü,
yan-yana düşdü...

qulaqları qanatdı qadın fəryadları,
qudurğan əsgərlər:
-"turki", "turki!" bağırıb boşaltdılar neçə dəfə
avtomatları...
tanklar, tankdakılar
fərəh, sevinc içində
elə bil hardansa
onlara baxan rəhbərin önündən
paraddan keçirdilər...
qabaqlarına nə keçsə, əzirdilər, biçirdilər.

neçə yük maşını əzildi, yerlə yeksan oldu,
neçə dirək yan-yana düşdü, üstü tamam qan oldu...
tankdakılar xumar gözlərlə,
ən müdhiş üzlərlə, vəhşi baxışlarla
göz vurdular bir-birlərinə,
yerlə yeksan elədilər, nə keçdi qarşılarına...

yeridi tanklar düşüb qalmış meyitlər üstündən,
yaralı, can verən şəhidlər üstündən,
əzib torpağa, daşa suvadılar...
tankdakılar qəh-qəhlə:
- "ubey turka!" deyib, iblistək uladılar.
sonra çıxıb tankdan
bir andaca yığdılar meyitləri,
aparıb gizlində yox elədilər...

...Sonra,
ovdan sonra nəşələnən ovçular tək, soldatlar
artırmaq istəyərək quduz sevinclərini,
atəşə tutdular
Bakının dəhşətə gəlmiş evlərini...

yanvarın iyirmisində, gecə saat ikidə işğal olundu Bakı.
raport verdi Kremlə qoşunbaşı:
- Bakı bizimdir!

dərhal sərt komendant saatı qurdular,
hamını zorla evlərinə qovdular...
uladı Moskva televizorları:
- Bakıda bir dəstə
narkoman, avara insanlar
rusları, erməniləri qırmaq istərkən
qarşısını aldı rəşadətli sovet əsgəri...

...şəhidlər!!! nurlu insanlar...
körpə uşaqlar, cavanlar, ahıllar
onları tanıdıqca hər kəs hönkürər, ağlar...
gözlərindən ilahi aləmlər boylanan
nurlu, gənc şair,
qucağı gəlincikli körpə qız uşağı...
ağbirçək ana,
ömrü vətən eşqiylə şölə verən gənclər...
gül kimi qalxan bir ailənin əlvan,
çiçəkli budağı İlham,
onun adını dünyaya yayan,
dözməyib şəhid olan Fərizə...

...Demə, həmin gün evdən çıxmazdan əvvəl,
əməllicə yuyunub, qüsllənib, tərtəmiz,
təzə paltarlarını geyinib, deyib:
- qədim el adətincə, bir evdə yeddi oğul varsa,
biri
yurda yağı gələndə şəhidlik, qurbanlıqdır.
eşidənlər ağlayıb, deyiblər:
-getmə! gör necə yaraşıqlı,
boylu-buxunlu cavansan!
zarafat eləyib:
- qurban yaraşıqlı qoçdan olar!
sağollaşıb hər kəslə
dövrana gücü çatmayan Allahyarın,
gücü özünə, sözünə çatıb...
üz-gözü nurdan xınalı qurbanlıq qoç kimi
ölümün üstə gedib...
şəhidlərin içində
özünü qurban deyən allahyarlar çox idi...
qurbanlıq olaraq da
mübarizə aparır, vuruşur bu vətənin igidi!...

...Şəhidlər xiyabanı oldu Dağüstü park,
o vaxt belə işlədi fələyin əlində çarx...

## ◆ Poeziya



*Musa YAQUB*

# *MƏNİM GİLEYLƏRİM MEHRİMDƏN GƏLİR*

### İKİNCİ NƏFƏS

Yay da son bahardan gülümü dərdi,
İndi payızı da qış tələsdirir.
Birinci nəfəsim budaq əyərdi,
İkinci nəfəsim yarpaq əsdirir.

Birinci nəfəsim, dur ocaq qala,
Nə olub, od yolun bağlanıb qalıb?
İkinci nəfəsim çöküb dəsmala,
Eynəyin gözündə buğlanıb qalıb.

Sən də düş yoxuşdan, tələskən ovçum,
İkinci nəfəslə dağ aşmaq olmaz.
İndi nəfəsimlə isinmir ovcum,
Birinci nəfəslə yarışmaq olmaz!

Qara saç gizlədib, örtüb yaşımı.
Kaş belə qalaydı axıra kimi.
Düşürtdüm aşağı süfrə daşımı,
Mən endim araqdan çaxıra kimi.

Solan gül kolunda göy sarmaşıqlar
İkinci nəfəsdən bitib, bəlkə də.

Mənim də könlümdə yandı işıqlar,
Nəfəsim o gülə yetib, bəlkə də.

İskəndər quşuydum dağ-dərəsində,
Uçub o yerlərə yetmərəm daha.
Nəfəsim təngidi bağ bərəsində-
Qayıtdı! ... Qayıtdı!...
Şükür Allaha...

***Payız 2015***
***Bakı***

## ZOĞAL AĞACI

Mən də yaranmışam, mən də bitmişəm,
Bilmirəm heç hansı kama yetmişəm.
Demirəm baharla həmişəliyəm,
Sevgidə bir topa bənövşəliyəm.

Olmadım meşənin
Şip-şumal ağacı, sığal ağacı,
Çiçəkdə tələsən, barda gecikən
Zoğal ağacıyam, zoğal ağacı...

## PAYIZ ÜŞÜYÜR

Nə yaman tez gəldi qışın soyuğu,
Yuvası üşüdür qaratoyuğu,
Payız üşüyür...

Bir sərçə sığınıb quru budağa
Payızın fikrini çəkir, deyəsən.
Sünbülotu yerə dikib başını
Yaza toxumunu əkir, deyəsən,
Payız üşüyür...

Gün dəyən əbrüşüm yarpaqlarında
Sanki əllərini isidir payız.
Qızılı yarpaqlar qaralıb bir az,
Elə bil Gədəbəy misidir payız.
Payız üşüyür...

Üryanlar titrəyir soyuq küləkdə,
Söhbət indi oddan, körükdən gedir.
Qovaq yelpiklənir gümüşü rəngdə,
Budağın zəhləsi yelpikdən gedir
Payız üşüyür...

Yoxdu yarpağında o zövqü - səfa,
Şehotu üstündə buğlanır hava.
Damlalar böyüyür düşür torpağa.

Yapışıb qanadı kəpənəklərin,
Arılar özünü çəkir qırağa
Payız üşüyür...

Yığılıb bostandan əllər, ətəklər,
Çürük yemişlərin ağarır dişi.
Yığıb arısını qaçır pətəklər,
Şanda arıların yarımçıq işi,
Alıb yarısını qaçır pətəklər
Payız üşüyür...

Addımdan qaralan qırov cığırlar,
Əriyə-əriyə yola çıxırlar.
Payız yoxuşunda sinəm tövşüyür
Payız üşüyür...

## ÖZÜMƏ OXŞATMA

Sevgi kitabımın üz qabığında
Ağ mərmər kimidir göz qabağında -
Yəqin ki, bir eşqin düşüb mehrinə
İki əl qovuşub bir-birinə -
Yuyunub, daranıb, süslənib durub
Bu pambıq barmaqlar, bu əlçim əllər.
Ovcumun içində quş ürəyitək
Necə də döyünür göyərçin əllər!

Görəsən, bu əlin sahibi kimdir?..
Əlimdə titrəyən bir sarı simdir -
İncə barmaqlarda çalınıb gedir,
Sonra da əlimdən alınıb gedir -
Əlimi əlinə öyrədən əllər,
Bir sarı sim üstə söylədən əllər...
Gorəsən, bu əlin sahibi kimdir?..

Lap uzaq bir ulduz bürcündə qalan,
Ürəyin gizli bir küncündə qalan,
Bəlkə, taleyimin qismət əlidir,
Gizli bir görüşün fürsət əlidir?!
Məni öz mehrinə öyrədib gedib,
Hicranı könlümü göynədib gedib.

Cökə budağıdır, heyva yarpağı,
Damarı naxışdır, hamarı incə,
Üzümdə - gözümdə tumarı incə,
Telimi sığala öyrədib gedib.
Məni gül camala öyrədib gedib,
Görəsən, bu əlin sahibi kimdir?..

Ürəyim əlimdə olan vaxtları,
Demə ki, bədənim, dilim yaşayıb
Özüm olmamışam tutacaqlarda,
Göyərçin bir əlin qonşuluğunda
Çırpına-çırpına əlim yaşayıb-
Sonra düşüb gedib ümid dalınca.
Bir sevda havası alıb yaşayıb
əli əllərimdən üzülən əllər,
balı barmağından süzülən əllər.

Əzizim, sən Allah, sıxma əlimi,
daha tabım yoxdur sıxıntılara.
Daha tabım yoxdur ayrılıqlara.
Qəfil hicranlardan gəlmişəm zara.
Neynirsən bu soyuq, şaxta əlləri,
Neynirsən mehirsiz taxta əlləri?

Payız yarpağıtək çil-çil əllərim...
Başını qanadı altına salıb
Durub mürgü döyəntək durna kimi,
Qalıbdır qoynumda xəcil əllərim.
Bəlkə də, hardasa yaşadır məni
İndi söz əllərim, şəkil əllərim.
İndi ömrüm də bir nağıl kimidir -
Əlini əlimə öyrətmə belə,
Telimə telimə öyrətmə belə.

## BİR TOPA BULUD

***Ağsaqqalımız Fəttah Heydərova ithaf***

Sən dedin, mən gördüm bu möcüzəni-
Başının üstündə bir topa bulud
Yayın qızmarında qoruyur səni,-
Yolunu ram elə, könlünü uyut...
Çətin olan kimdi, işi asan kim?..
Üstündə göylərin sərin nəfəsi-
Buluda minnətçi salmamısan ki,-
Bu tale qisməti, Tanrı kölgəsi...

Səhrada tək ağac, bir nəsib, niyaz
Durub hər adamın yoluna çıxmaz,
Hər kəsin ki bəxti belə oyanmaz,
Başının üstündə bulud dayanmaz.

Bir də yaxşıları salıram yada,
Nuhun gəmisi də hələ yaddadır;
Bir əlçim buludun "Gəmiqayada",
Bir topa buludun Batabatdadır.

İndi zor içində asıb-kəsən kim,
Var-dövlət üstündə durub əsən kim?...
İndi incidi nə, burda küsdü nə?...
Sən dövlət dalınca düşməmisən ki,
Var da o buluddan yağıb üstünə -
Bu tale sirridi,
Bu Tanrı mehri...

Belə qəsd içində, qərəz içində
Əsəbi qorumaq çətindi, vallah.
Qəzəbi saxlayıb hirsi soyutmaq,
Qərəzi qorumaq çətindi, vallah.
Günahlar içində, tamah içində,
Bu əyri çəkidə, ölçü-biçidə
Tərəzi qorumaq çətindi, vallah.

O topa buludun ildırımı yox,
Şimşək qəzəbi yox, can qırımı yox...
Axı, yaxşılığın, xeyirxahlığın
İnsanlıqdan başqa bir durumu yox?!

Bilməzdim mən sənə şeir yazaram,
Başqadı şairin könül şahlığı.
Könlümün səsinə qulaq asmışam...
O topa buludun xeyirxahlığı
Səni nişan verib, mən də yazmışam.
Döşdə göz ağacım dağdağanımdan
Muncuq düzəltmişəm, təsbeh asmışam.

***Yay 2015***
***Buynuz***

## YAŞAMALIYIQ...

İndi yaşamaq da bir oyun olub,
Nə olsun ağlımız, ruhumuz ayıq-
Bu namərd dünyayla qolboyun olub,
Dünyanın mərdiylə yaşamalıyıq,
Dünyanın dərdiylə yaşamalıyıq.

## RUH SÖHBƏTİ

Bu dəfə sənincün gül gətirmədim,
Amma ürəyimdə qalmadı əhdim -
Qəbiristan gül açıb bu bahar çağı.
Arada bir topa lalə ocağı
Elə bil əlimdən düşüb odlanır,
Qaymaq çiçəkləri həndəvərində,
Göy otlar içində zərnişan yanır.

Tək bənövşə bitib lap yaxınında,
Mənə deyəcəyin gizli sözündü-
Xırda ləçəklərdə titrəyir səsin.
Atam da, anam da yatır yanında,
Necə danışaq ki, eşidilməsin,
Gəl sükut içində, mələk dilində,
Bənövşə dilində, lalə dilində,
Gül-çiçək dilində danışaq bu gün.

Cəhənnəm, yəqin ki, çiçək bitirməz,
Bu incə çiçəklər cənnətdən gəlib
İncədən incə.

Kim gedib görüb ki, biz də eləcə...
Gəl cənnət dilində danışaq bu gün,
Cənnət ağacımız tubu dilində,
Təbiət dilində danışaq bu gün.

Şehotları heç saxlamır göz yaşını,
Muncuqları töküləcək bir nəfəsdən.
Zəncirotu zəncirləyib baş daşını,
Guya hara çıxacaqsan bu məhbəsdən?

Bir də qulaq verək o qərib səsə,
Qoyub başımızı gedər - gəlməzə,
Daş məhbəs dilində danışaq bu gün.
Sonuncu sözünü tuta bilmədim,
Son nəfəs dilində danışaq bu gün.

Yatır daş altında ömürlər, illər,
Daşlarda çatlar var, torpaqda qatlar,
Xəzəli başında qaldırıb otlar,
Sarmaşıq üstündə hörüb çələnglər,
Yəqin ki, ruhundur bu kəpənəklər-
Kəpənək dilində, ruhun dilində,
Bir mələk dilində danışaq bu gün.

Qəbrin min rəng alıb
bu bahar çağı,
Bənövşə dillisən lalə ocaqsan.
Asmışam könlümü gül yarpağından,
Baxsan, ürəyimi tanıyacaqsan.

***Yay 2014-cü il***

## QƏZƏL

Bu necə sevgidir, eşqin cövhəri
Qanıma, canıma sirayət eylər.

Füzuli demişkən, Kuyi-yar vətən,
Könlüm bu vətəni ziyarət eylər.

Ayəti - Kürsünün ucalığından
Tanrım hər duamı gül ayət eylər.

Könlüm sən tərəfdən arxayın olsa,
Bütün hicranları nəhayət eylər.

Hələ ilk sevgiylə qiyamım qalıb,
Qiyamətə qədər qiyamət eylər.

Nə durub baxırsan, xumar baxışlım,
Elə bir baxışın kifayət eylər.

Mənim gileylərim mehrimdən gəlir,
Sənə xırda-xırda şikayət eylər.

Kürreyi - ərzimiz eşq aləmidir-
Uçub könlüm quşu səyahət eylər.

Musa məhəbbətin haqq dərgahıdır,
Məni eşq yoluna hidayət eylər.

***Payız 2015***

## BİR DƏ GÖRDÜM...

***"Xətainin qılıncını suvardım..."***
***M.Araz***

Bir də gördüm,
Xətainin qılıncından
Qan əvəzi bal süzülür,
Qılıncının dəstəyinə
Bülbül qonur, gül düzülür,
Qını dönür qələmdana
bu qılıncın.

Qələm olur yavaş-yavaş.
Qılınc qələm olan yerdə
Dünya başqa aləm olur
yavaş-yavaş,
Döyüş yeri çiçəklənir
Gülüstani-İrəm olur
yavaş-yavaş.

Bir də gördüm Xətaidi,
Bu qələmlə şeir yazır,
Ürəklərə mehr yazır:
"Qızılgül, baği-bostanım,
nə dersən?!
Fəda olsun sənə canım,
nə dersən?!"

Nə gözəldir yarına
Şah yalvarışı...
Şükür, Tanrım, şükür sənə,
Bir qılıncı qələm edib
Öldürürsən bir qəzəbi,
Bir döyüşü, bir savaşı.
Köhnə yaram qövr elədi,
Bir də gördüm,
Xətainin qılıncıdır
          dövr elədi
Gəlib oldu
Məmməd Araz karandaşı,
          göyərdi...

## QOCA VƏLƏS

Budaqları yorğun düşən,
Yarpağına qırğın düşən
Gövdən düyün, para-para,
Qabığında balta yeri
Köhnə yara,
İçin qalay, çölün bürünc,
Sonuncu səs, axır nəfəs,
          Qoca vələs!
Bəs hardandı səndə bu güc?-
Bizə mətləb anlatmısan,
Kökün üstə kök atmısan,
Hər şivin bir ağac olub,
Pöhrən qulac-qulac olub-
İmana bax, amana bax,
Güvəndiyin gümana bax.

Taqor deyir...
Hər doğulan təzə uşaq -
Tək Allahın hələ bizə-
İnsanlara inanmağı
          deməkdir bu.

Yəni insan tərəfində
Dayanmağı deməkdir bu.
Bu kəlama qulaq asdım,
Ürəyimə səni yazdım,
          Qoca vələs!
Vuran insan, qıran insan...
Amma yenə
İnsanlara inanmısan,
Bu inanca görə sag ol!
Şiv ağaca görə sag ol!

Sən deyirsən: - Mən gedirəm,
Qalanlara salam olsun!
Mən deyirəm: - kök üstə kök
Salanlara salam olsun.
Sən deyirsən-
Qırğınlara xitam verən
mişarlara, baltalara
dəhrələrə salam olsun.

Mən deyirəm:-
Bizə qalan bu şivlərə,
pöhrələrə,
Qızılyarpaq cöhrələrə
Salam olsun.
Pöhrənəfəs, yaşılhəvəs
Qoca vələs!
Meşəmizin qoca yaşı,
Yurdun ulu vətəndaşı,
Ömür keçir, gün əriyir,
Doymaq olmur bu dünyadan
Tamaşadır bu dünyanın
İşi, qərəz,
Qoca vələs! Qoca vələs!

## ÖMRÜMÜZƏ BİR BAXIŞ

***Klassiklər demiş:-***
***Keçmişə gəşt,***
***Keçənə güzəşt,***
***Gələni düzəlt.***

Keçib də bir əsrin aşırımından,
Suların açdığı dağ şırımından,
Zirvəyə qalxmışıq, enib gəlmişik.
Ömrümüz cox düşüb səhv cığırlara,
Sonra o cığırdan dönüb gəlmişik.

Biz nələr çəkmişik eniş, yoxuşda...
Ömrə vurduğumuz əyri naxışdan
Bəzi düz işlərlə dəydi aramız,
Pozuldu sıramız, güzəranımız,
Əyildi arxımız,
Döndü çarxımız
Heyf! Heyf! ..

Heç biganəliyə əlac olmadı,
Şərikli qoz əkdik yol qırağında
Heç biri böyüyüb ağac olmadı.
Boz üzün rəngi var, boz bizə qaldı;

Elə cür tozanaq qaldırdılar ki,
Qoz çıxdı aradan, toz bizə qaldı.
Heyf! Heyf! ..

Aşkarda qaynayıb daşa bilmədik,
Hərəmiz bir yanda meydan suladıq,
O suyu zəmiyə qoşa bilmədik.

Qurudu bağlarda əriklərimiz,
Çəkdi yaxasını şəriklərimiz.
Ağac kovquşunda ocaq qaladı,
Bağban oğurladı, şərik taladı.
Əmək şəriylikdi, günah şərikli;
Guya yadımıza tamah düşmədi.
Hərə yaxasını çəkdi bir yana,
Heç kəsin boynuna günah düşmədi.
Heyf! Heyf! ..

Gedişlər ayrıydı, məqsədlər ayrı,
Ürəklər başqaydı,sifətlər ayrı,
Şərik işimizdə gülüş ayrı cür,
Qanunlar ayrıydı, sənədlər ayrı...
Böyüklər həm kürsü davalarında...
Çobanlar xoş yaylaq havalarında
Dumanda sürünü verdi güdaza,
Elin var-dövləti çıxmadı yaza.
Heyf! Heyf!...

Balanı ayırdıq öz anasından,
Ah, o küdükçülər, o nökərçələr!-
Dedik öküz olmaz ev danasından,
Qoymadıq kəl olsun şərik kəlçələr.
Heyf, üzdən gedən şumlarımıza,
O şumda bitməyən tumlarımıza.

Köhnə tərəzimiz yadlar əlində,
Oldu pay üstündə çox savaşımız.
Yükümüz əyildi atlar belində,
Düşdü qəribliyə pərsəng daşımız.
Heyf, daşımıza, torpağımıza
Bizdən ayrı düşən oylağımıza!

Hərəmiz bir yanda yuva isidib,
Ömür sürütmüşük,
Can çürütmüşük
Yenə göyərmişik,yenə qalxmışıq-
Qoymadı birləşək təkəbbürümüz,
Yeyən yüzü oldu, əkən birimiz.
Quş da ney səsinə qanad saxlamış-
Həsir, Məmmədnəsir - sadə ev-eşik-

Yastı balabanda dil açan qamış
Bizə ilişəndə qəmiş demişik.

Ad qoya bilmədik öz nəhrimizə,
Güvənə bilmədik öz mehrimizə-
Şimaldan küləklər, qərbdən kələklər,
Dürrələr, dürəklər ayırdı bizi.
Namərdlər qoydular bayırda bizi:
Mənafe oyunu düşdü araya,
Gərək özünüdərk ayılda bizi...
Nə deyim, vallah!

Axır yad əlindən çıxdı yaxamız
Öz-özümüz olduq, özcə ağamız,
Öz əlimiz oldu, öz qapazımız-
Zəmini verdilər meydan aldılar;
Görək neyləyəcək qapaz vuranlar,
Görək neyləyəcək qapazaltılar,
Nə deyim, vallah!

Ah, biz bu yolları necə keçmişik-
Tarixlə baxanda yüz illər keçir,
Ömürlə baxanda bir ildi sanki-
Biz dedik xəyanət ölənlə ölər,
Təzə gələnlərlə dirildi sanki.
Heyf! Heyf!...

Palıd qoltuğuna aldı söyüdü,
Dəyişdi dünyanın köhnə öyüdü.
Dövrün həm avandı, həm tərsi bizim,
Xeyirli iş görür tutma əlimi!..
Əxlaq dərsimizin, xalq dərsimizin
Gərək millət olsun ilk müəllimi,
Ne deyim, Vallah!..

Şoudan təptəzə mərəkə qurduq,
Səsi gizlətməyə xora düşmüşük.
Bir yaşayış üçün şəbəkə qurduq,
Gördük ki özümüz tora düşmüşük.

Bəlkə də, insanın ilk ayrılığı-
Girdi aralığa mülk ayrılığı.
İtirdik əvvəlki izlərimizi...
Hasarlar meşəyə, cığır bulağa,
Çəpərimiz bağa buraxmaz bizi,
Heyf! Heyf..

Mən necə dözüməm, mən necə tabam?!
"Dünya düzəlmir ki, düzəlmir, babam."
Təzə xəyanətlər dirilib gəlir,

Hiylələr, nifrətlər yeriyib gəlir.
Sanki bir-birinə qənimdi insan...
Ölkə var, vurulur hər tərəfindən,
Şeytan tərəfindən, şər tərəfindən
Ağır durumlara nəhayət gərək,
İndi hansı rəngdə siyasət gərək?!

Bəs mən harda durum, harda dayanım?
Bəs sən nə deyirsən, ay müsəlmanım?!
Sən, ay Səudiyyə Ərəbistanı,
Sən nə deyirsən?!
"İŞİD" mən-mən deyir,
Yəmən nə deyir?

Neft yükü altında qırıldı belim,
Köhnə ingilisim, təzə Nobelim,
Sən, ərəb əmiri, a Dubay şeyxi,
Köhnə alman reyxi, sən nə deyirsən?!

Hanı hər ölkənin ədalət payı,
Öz əməlləridir, gəlir üstünə;
Tutub Avropanı qaçqın harayı.

Mən daha durmaram yol ayrıcında,
Bağlanıb qalmışam doğma obama,
Bəs sən nə deyirsən, Barak Obama?!
Nə deyim, vallah!

## UZAQ... UZAQ

Mənim incilərim hara daşındı?!
Bəlkə, yaddaşımdı, bəlkə, yaşımdı,
Sellər sal daşımı yudu, apardı,
Xatirə gözlərin çıxıb yadımdan,
İllər yaddaşımı yudu, apardı-
Gözümdən yaş kimi üzülüb gedib.
Saçın pəncərədə pərdələnərdi,
O da qumaş kimi süzülüb gedib-
Sozala-sozala sönüb o çıraq,
Uzaq...Uzaq...Uzaq... Dünyadan uzaq.

Xatirə ulduza, xatirə aya,
Necə baxacağam mən bu dünyaya?
Daha səndən sonra şöhrət-şanım yox,
Sənə oxşatmağa bir nişanım yox,
Toranlıq içində bir xəyalsayaq,
Uzaq...Uzaq...Uzaq...Dünyadan uzaq.

Qalsaydı aynada zərrə şəfəqin,
İşığı mənə də, bəlkə, düşərdi.

Ruhun yaşamağı yalandır, yəqin,
Olsaydı, üstümə kölgə düşərdi -
Nə yerdə xəbər var, nə göydə soraq,
Uzaq...Uzaq...Uzaq...Dunyadan uzaq.

Bilmirəm hardansa səsin gələrdi,
Deyərdim yuxuma gəlsin, gələrdi,
İndi gecə uzun, gündüzlər yasaq,
İndi qürub yaxın, indi dan uzaq,
Uzaq...Uzaq...Uzaq... Dünyadan uzaq.

Allah, xatirə də ölərmiş belə,
İllər izimizi silərmiş belə...

Dünyanın sükutu üstümə enir,
Nə yarpaq oxuyur, nə çay danışır,
Nə torpaq diksinir, nə cığır dinir,
Yol duman içində, çöl-bayır sazaq,
Qapanıb o qapı, sönüb o ocaq,
Uzaq...Uzaq...Uzaq...Dünyadan uzaq.

Sənli xatirəmi necə ayıldım?
Mən necə qayıdım evə - eşiyə-
Hicrana qayıdım, qəmə qayıdım,
Mən hara qayıdım, kimə qayıdım?
Şimal qütbü kimi xatirə otaq...
Uzaq...Uzaq...Uzaq...Dünyadan uzaq.

Bələd deyiləmmiş yaddaş sirrinə...
Dözdüm son dözümə, son taba kimi...
Payızlar bənzəmir biri - birinə,
Xınalı barmağın bir xəzəl üstə.
O da əriyibmiş kəhrəba kimi-
Kəsilib o budaq, gedib o yarpaq...
Nə xəzan rəngi var, nə yazdan soraq.
Uzaq...Uzaq...Uzaq...Dünyadan uzaq.

Göynədi yaddaşı kor olan sinəm,
Bu hansı özüməm? Bu hansı mənəm?
Mən məndən alınıb, cismi-can uzaq,
Nə fərqi, ya dünən, ya min il qabaq,
Məzar novbəsini dəyişdi torpaq-
Uzaq...Uzaq...Uzaq...Dünyadan uzaq.

# ◆ N ə s r

*Zahid SARITORPAQ*

# KÜL

◆ ***Roman***



**...Bilirəm, bu gecə səni acılı bir qurd dişləyib; sifətin, qolların lötür-lötürdü... Gün o gün olsun, içini də sevgi adlı acılı bir dərd dalasın... Dalasın bir gögeyin kimi. İçin lötürləməsə, ruhunun Qiyaməti heç vaxt başlamayacaq; sən nəinki məni, yaşadığımız dünyanı, elə özünü də heç vaxt başa düşməyəcəksən...**

***– 1 –***

Kəbirədən ötrü damarlarımı doğradığım o ilin yayını Allah ömrümə yazmasın. O yay həm Kəbirə başqasına ərə getdi, həm atamı torpağa gömdük, həm də mən ölüb ölümdən qayıtdım...

Sonralar başıma gələnlərin yanında o yay yaşadıqlarımın toyagetməli olduğunu deyənlər də tapılar. Amma dərd dərddi, ürəyə doldusa, ağırı, yüngülü birdi, tərəziyə vurmağa ehtiyac qalmır.

Cızdağımı çıxaran həmin yayın axır-axırında lap başımı itirmişdim. İyunu, iyulu birtəhər yola versəm də, nəfəsi küləş qoxulu avqustun tərli qoltuğunda tıncıxıb üzülmüşdüm. Gözüm baxa-baxa, sevdiyim qızın qapısında toyxana qurulurdu. Onun toyxanasına mənim vayxanam da demək olardı. Elə sanırdım dünyada əl uzadıb xilas ola biləcəyim bütün budaqlar budanıb, təşnəmi yatıracaq bütün bulaqlar quruyub... O dağ ki mənim ürəyimə çəkilmişdi, ərşə-gürşə qarşı ağır bir qazavat başlamalıydı içimdə, cəngi qiyamətə qədər sürəsi bir savaş başlamalıydı. Amma hələ ki, canımda bir tərpəniş yoxuydu, hələ ki, çökürdüm. Elə bil, zəlzələyə düşmüş köhnə bir binaydım, bütün dünya yığışıb tamaşama durmuşdu, mənsə səsimi çıxarmadan, lap səssiz filmlərdəki kimi lay-lay, divar-divar, tavan-tavan uçulurdum içimin zülmət zirzəmilərinə... Üzümə baxanlar halıma acıyırdı. Canımı qoymağa yer tapmırdım. Tanış-biliş, yaxın-uzaq adamlar qulağım eşidə-eşidə: "Bu bədbaxt lap ölüb sabaha qalıb. Zalım balası, elə bil, heç bu dünyanın məxluqu deyil" - deyirdilər. Baxanlar elə bilirdi, əlimi hər yerdən üzüb, qaxılıb öz içimə sakitcə ölümümü gözləyirəm. Bəzən özüm də şübhələnirdim, yaşaran gözlərimi doğranmış biləklərimінqanıqurumuş cuna

sarğılarına sıxıb düşünürdüm: axı, mən bədbaxt oğlu nə yaşamışdım, ömürdən-gündən nə tarçıxımı götürmüşdüm ki, pirani qocalar kimi səhəri axşama, axşamı səhərə calaya-calaya sakitcə gün keçirib ölümümü gözləyəydim.

Hərdən fikirləşirdim: yəqin, bu dünyaya adi bir insan kimi deyil, poçt qutusuna salınmış bir zərf kimi düşmüşəm; hələ uzun zaman bu qutunun zülməti içində gözləməyə məhkumam və bəlkə də gözəl günlərin birində, nəhayət, kimsə bu mübhəm qutunun qapağını açacaq, məni buradan çıxarıb öz ünvanıma çatdıracaq. Bəs bu qutunu kim açacaqdı? O ünvan deyilən hardaydı bəs? Göydəydimi? Yerdəydimi? Ayrı bir aləmdəydimi? Hansı xarabadaydı, axı? Görəsən, heç o gözəl gün gələcəkdimi? Tərs kimi, həmin qutunun yanında oturub dəmisini tüstülədə-tüstülədə nigarançılığımı çəkə biləcək Novruzəlidən-filandan da yoxuydu ki, bu dünyada özümə bir qahmar olduğunu bilib təsəlli tapaydım.

Baxanlar deyərdi ki, sarımı udmuşam. Əslində qorxmurdum, nədən qorxacaqdım ki? Ölümdən o yanası yoxdu ki? Qorxsaydım heç canıma qəsd edərdimmi? Sadəcə, ruhən bir qaranlıq içindəydim. Uzun illərdi belə yaşayırdım. Belə yaşamağa vərdiş etsəm də, bir obaşdanlıq xoruzu kimi daim işıq sarıdan səksəkədəydim. Yəni, obaşdanlıq xoruzu kimi məqamım gələndə qayım səsimi ucaldacağıma inanırdım, o anı səbirsizliklə gözləyirdim, haçansa sözümü deyə biləcəyimə cani-dildən əmin idim. Amma nə deyəcəkdim? - bax onu bilmirəm... Deyiləsi sözlər vaxtında deyilməliydi, amma deyilmədi, gəlmədi bu qurumuş, bu lal olmuş dilimin ucuna... Bütün günü özümçün küncdə-bucaqda, gözdən-könüldən uzaq yerlərdə, gizlinbasırıqda isqıya-isqıya sülənə də bilərdim - amma sülənmirdim; gün uzunu məsum, günahsız vaxtı öldürməklə başımı orda-burda girləyə də bilərdim - amma etmirdim bunu; istəsəydim bir zamanlar çəkişərək kəllə-kəlləyə gəldiyim, igəşdiyim adamlarla yenə də öcəşərdim - amma belə bir niyyətim yoxuydu... Heç nədən qorxmurdum, yox. Bəlkə də, məni qorxaq göstərən başqa əlamətlər vardı görünüşümdə, bilmirəm. İşlərim tərs-avand gedirdi, heç nə dəyişmir, elə bil, adına vaxt deyilən, zaman deyilən bu cançürüdən gərdiş orduya təzəcə düşmüş əsgər kimi uzun-uzadı təpik döyməyə məcbur edilmişdi, yerindəcə sayırdı, əvəzində mən üzülürdüm.

Yaydan sonra o ilin payızı da bir xeyli sıxdı məni. Bir yandan Kəbirəni itirməyim ucbatından yaşadıqlarım, bir yandan da qədim, unudulmuş, "kəndistana" oxşayan bu şəhərin - bu rayon mərkəzinin gündəlik süst həyatı bütün ömrümü alt-üst eləyirdi. O payızın cançürüdən sis-dumanı, günlərlə yağıb da qurtarmaq bilməyən çiskin yağışları, elə bil, bir yandan mənə "çıx buralardan get..." deyirdi, bir tərəfdən də başıma başqa oyunlar gəldi. Vaxtilə ikinci kursunda oxuduğum universitetin kitabxanaçılıq fakültəsini atamın təkidiylə tərk etmişdim. Sonralar cürbəcür adamlara ağız açıb min cür əzabla işə düzəldiyim rayon maliyyə şöbəsindəki o kiçicik vəzifəmi itirmək sarıdan canımı saran şübhələr çin oldu. Çox çəkmədi, müdirimiz dəyişəndən sonra idarəmizə tez-tez yoxlamalar gəlməyə başladı. Atamın zəhələsi gedən kitabxanaçılıq peşəsinə yiyələnməyimə son verəndən sonra, o, mənimçün saxta bir diplom almışdı. Xəbərim olmadan Bakıdan, bir tanışının əliylə “Neftçilər” metrosunun yanından almışdı onu. Atam rayon maliyyə şöbəsinin müdiri Qiyam müəllimlə dost idi. Qiyam müəllim balacaboy, lovğa, dağar, cırılğan bir kişiydi. Bu adam ürəyiyumşaq, xeyirxah, hamıya əltutan bir insan olsa da, görünüşü qətiyyən qəlbimə yatmırdı, baxanda elə bilirdim dükançı Mayısın qənd torbasıdı - həmişə özünü çəkir, dığ-dığ dığıldayırdı. O, vəzifəsindən

gedəndən sonra, işdə heç bir himayədarım qalmadı. Saxta mühasiblik diplomumun zibilinin çıxacağından qorxub, ərizəmi yazıb özxoşuma işimdən əl götürdüm. Bu da bir ayrı cür dərd oldu mənə. Bir yandan da evdə anamsız - tək qalmağım bezdirirdi məni. Tez-tez Bakıya - anama dəyməyə gedirdim, o da halıma üzülürdü. Anam lap atam sağlığından yataq xəstəsiydi. Yolu keçəndə göyərtisatan Əyyubun oğlu Vedrəbaş Dilqəm vurmuşdu 011-lə, onurğası çox pis zədələnmişdi. Bakıda əməliyyat olunsa da, atam dünyanın pulunu töksə də, xeyiri olmamışdı, yatağa möhtac qalıb əriyib çöpə dönmüşdü, amma həkimlər deyirdi ki, ürəyi sağlamdı - yaşayacaq. Dəli-dolu qardaşım Xanoğlansa hələ türmədəykən xəbər göndərmişdi ki, "çıxan kimi harda tutsam, yortacam o oğraşı, yaxşısı budu, mən çıxanacan hara açılırsa açılsın, gözümə görünməsin". Dilqəm də qaçıb getmişdi Tiflisə, bibisigilə, elə indi də orda yaşayır, qorxudan doğulub-böyüdüyü yerlərə həsrətdi. Amma mən onu tanıyırdım, fağır, zəhmətkeş, başıaşağı bir oğlanıydı, bilirdim ki, qəsdən eləməyib, Allahın qəzasıdı, yəqin o da istəməzdi belə olsun... Di gəl, yenə də, haqq qazandırmıram, canı çıxaydı, ehtiyatlı olaydı gərək. O vaxt Xanoğlandan betər qəzəbliydim. İndi düşünürəm ki, həmin vaxt əlimə düşsəydi, bilmək olmazdı, yəqin mən də xurd-xəşil eləyərdim onu. Həmişə xeyirxahlığıyla, xanım-xatınlığıyla seçilən anam şikayətçi olmadığına görə Vedrəbaşı tutmadılar. Amma, eşitmişdik ki, kalan xərcləri çıxıb. Deyirlər, oğlunu qurtarmaqdan ötrü atası fağır o vaxt elədiyi borc ucbatından neçə il soğan kimi soyulub. Axırda da fikirdən üzülüb ölüyə tay olmuşdu.

Atam öləndən sonra Akif dayım: "Turac, səni bu dıydıq gədələrinin umuduna qoymaram..." - deyib, yığışdırıb anamı öz yanına, Bakıya apardı. Sürmə dayıdostum öz bacısı kimi baxırdı ona. Dayım uzun illərdi banklardan birində mühasib işləyirdi. Var-dövləti başından aşan bir adamdı, amma neçə ildi övladı olmurdu. Doğmadığına görə bir neçə dəfə arvadını boşamaq istəmişdi, anam araya girib qoymamışdı. Allah da sonradan onlara iki uşaq - bir qız, bir oğul payı verdi. Anam əsl ağbirçəklik eləyib savab iş gördüyünə, yuvasını dağılmağa qoymadığına görə, Sürmə dayıdostum onu çox istəyir. Ancaq mən ürəyimin dərinliyində dayımın bizdən zəhləsi getdiyini bilirəm. O, yaxşı dostları olan, əli hər yerə çatan bir bank işçisi olsa da, şəxsən nə mənə, nə Xanoğlana kömək edir, işə-zada düzəltmək barədə heç nə demir, bir adəti var - istəyir həmişə ondan asılı olaq. Sağlığında fərli-fərasətli atamı heç bəyənmirdi, dalıyca həmişə təhqir yağdırır, qulağımız eşidə-eşidə: "Hayıf gül kimi bacımdan, gör bir kimə qismət oldu!.. Meşənin ayısına!" - deyirdi. "Meşə" deyəndə, bilirdim, atamın dağ kəndindən olduğuna, rəhmətlik babam Xanmusanın ölənəcən meşəbəyi işlədiyinə işarə vururdu. Dayım atamın dalıyca söyüb-söylənəndə, Xanoğlanın qulağı çalmışdı, anama demişdi ki, "ona denən, mən dayı-mayı hərriyən döyüləm haaa, bağırsaqlarını qıçlarına dolayaram!.. Bəsdi papamın qarasına danışdı, sözü varsa, kişidisə üzünə desin, beynimi xarab eləməsin, kəlləm çönər, cırığ-cırığ eliyərəm haa onu!" Nəsə, o, sevmirdi bizi. Anamdan soruşanda: "Mən bilmirəm - deyirdi - amanın günüdü, bircə qardaşım var, onu da perikdirməyin, işiniz yoxdu, Allah xətrinə!.." - yalvarırdı.

Bakıya gələndə hər dəfə imkan eləyə bilməsəm də, çalışırdım ki, anama tez-tez baş çəkim. Aptekdən rezin əlcək alıb aparır, saçlarına, ayağına xınanı özüm qoyurdum, əllərinə də yaxırdım, o buna vərdiş eləmişdi, artıq uzun illərdi beləydi, bir az gecikən kimi: "Tağı da gəlmədi, xınamın vaxtı keçir..." - deyərdi, amma xına məsələsində heç kimi yaxına buraxmazdı,

"Xınamı Tağı qoyanda canım rahat olur..." deyər, məni gözlərdi. Mənim sarıdan bircə dərdi evlənməməyim idi. Yanımda əlli qızın adını çəkirdi, heç birinə razılıq vermirdim, ağlayırdı. Bacım Gülsümdənsə heç nə ummazdı, "yad qapısındadı, kəsikdi..." - deyərdi. Xanoğlandan söz düşəndəsə, ağlamsınar, gözləri dolar: "ondan əlimi üzmüşəm, Tağı! Rəhmətlik Qurbanşah həmişə deyirdi ki, bizim Xanoğlan adında yumurtamız lax çıxıb... Neynək... keşkə səndə olan anacannılığın bircə damcısı onda olaydı... Amma mən üzülmürəm vallah, qoy harda olur olsun, yansın çırağı, gəlsin işığı, Allah canına dəyməsin təki... Bircə tabutumun altına verəcəyi çiynindən savayı, ondan heç bir umacağım yoxdu..." - deyib gözünün qorasını sıxardı.

İşsiz qalandan bəri xalturaya əl atmışdım. Bakıya adam aparıb-gətirməklə çörək pulumu çıxarırdım. Bu işi mənim beynimə uşaqlıq dostum Əli yeritmişdi. O da köhnə QAZ-24-üylə xaltura eləyirdi. Bakıda adam yığdığımız yerin yiyələrinə ayda altmış manat "yer haqqı" verirdik, rayonda - otuz manat. Əli məni bu işə calayandan əlim çörəyə çatmışdı. Maşın atamdan qalıb. Xanoğlan ikinci "srokdan" çıxan ili, yəni qollarımı doğradığım il, heç yaram sağalmamışdı ki, atam bir axşam yatıb ayılmadı. Hüzrdən sonra ictimai iaşə idarəsinin müdiri, atamın uzaq qohumu, həm də can-ciyər dostu Lökdodaq Nəbi ailəmizin böyük oğlu kimiXanoğlanı çağırtdırıb dedi ki, "o kababxananı açmaqdan ötrü Qurbanşah rəhmətlik çox zülüm çəkib, Allah göydən baxır, qorxuram, mən oranı başqa adama verə bilmərəm. Gəl sənin adına "aformut" eləyək, işlət. Rəhmətlik özü də sağlığında bu barədə mənə üz vurmuşdu. İstəsən, kiməsə qeyri-rəsmi sata da bilərsən, çünki dədən oraya çox xərc çəkib, yəni qoy halallıq olsun, dar ayaqda rəhmətliyin pulları geri qayıtsın ki, ruhu inciməsin. Mənim də hörmətim o olar ki, obyekti kimə satsanız həmin adamı oraya müdir kimi, özü də havayı, bir qəpiksiz işə götürərəm".

Bundan istifadə eləyən Xanoğlan çörək ağacımız olan bu obyekti nə işlədən kimi işlətdi, nə də əllərində pulları qapımızı kəsdirən müştərilərə satdı. Əvəzində günlərin bir günü hamımızdan xəbərsiz kababxanamızı qumara qoydu, uduzdu, bir də ayıldıq ki, it də gedib, ip də... Ondan sonra anamla mən qorxuya düşdük. Anam atamın qanuni vərəsəsi kimi maşını, evi tezbazar mənə bağışladı. Amma bunu da deyim ki, Xanoğlan bu barədəağzını da açmadı, incik-filan düşmədi, imtina ərizəsinə gözünü yumub qol çəkdi. Anamla mən qorxurduq ki, Xanoğlan evi də, maşını da kiməsə uduza bilər. Bundan ötrü notariusu maşına qoyub xahiş-minnətlə evə - şikəst anamın üstünə gətirdim, cibinə pul da basdım. Ev mənim adıma keçirilsə də, noolsun, burada iki qardaş ölənəcən yaşamalıyıq düşünürdüm, ayrı cür ola da bilməzdi. Amma maşın köhnə də olsa işimə yarayırdı.

Maşından söz düşmüşkən... Maşın mənim bütün həyatımı alt-üst elədi. Əvvəllər düşünürdüm ki, keşkə heç o olmayaydı, Xanoğlan onu da uduzaydı qumarda. Gedib diləneydim, amma onun sükanı arxasına keçməyəydim... Sonralar isə səhv düşündüyümü anladım. Nə isə...

Xanmusa babam demişkən, qışın boğaz heyvanlara bala atdıran, gəlinlərin əlini un çuvalında donduran sərt çağıydı, şaxta adamı bıçaq kimi kəsirdi.Ölkədə vəziyyət gərginiydi, hara gedirdinsə, hamı mitinqlərdən, ermənilərin azğınlığından, Moskvanın üzgörənliyindən, rəhbərliyimizin zəifliyindən danışırdı. Bezmişdim day bu söz-söhbətdən. Bakıdan mindirdiyim adamlardan birini, gecə gözü 4 nömrəli sovxoz qəsəbəsinə düşürüb qayıdırdım. Sərnişinim iyrəndiyim həmin məsələlərdən yol boyu

söz açıb o qədər başımı xarab eləmişdi ki, əlhəmim çaşmışdı. Bircə evə tez çatmağı düşünürdüm. Əhəng bişirilən kürəxananın yanından keçdim, məşhur qoşa vələsə çatmamış sərt döngədə maşın bircə göz qırpımında yoldan çıxdı, heç cür yığışdıra bilmədim, sürüşüb özüm tərəfdən sürətlə işıq dirəyinə çırpıldı, çırpılmağıyla da gözümə qaranlıq çökdü, ağlım gizləndi... Sonra nə oldu, bilmirəm. Aradan nə qədər vaxt keçdi, yadıma gəlmir. Heç nə xatirimdə deyil. Sonra elə bil, illərlə yatmışdım, ayıldım, qaşımın üstündə böyük bir çapıq vardı, axan qanım quruyub kəsmişdi, heç bir ağrı-zad hiss eləmirdim. Nə vaxt yerə - qarın içinə düşdüyümdən xəbərim yoxuydu. Yerdən quş kimi qalxdım. Əynim yuxa vəziyyətdəydi. Hara gedim, hara gedim... üz tutdum ilk ağlıma gələn, ən yaxın yer saydığım, vaxtilə atamın işlətdiyi, indi isə meşə idarəsinin muzeyi olan keçmiş kababxanaya sarı. Həmişə maşında olduğuma görə qalın geyinmirdim, bu üzdən də donurdum. Titrəyə-titrəyə uzun bir yol keçib, vaxtilə çörəyini yeyib bəy kimi böyüdüyümüz həmin o köhnə kababxanaya gəlib çıxdım. Gecə təzəcə düşmüşdü. Dediyim kimi, əynimdə nazik gödəkçə, ayağımda adi ayaqqabı, barmaqlarım şaxtadan tökülə-tökülə, donub-gizildəyən əllərimə hovxura-hovxura, Allahı çağıra-çağıra dərənin bu üzüylə mən yorturdum, o üzündəsə, deyəsən, qanımın iyinə yalquzaq ulayırdı. Eləcə yol gedirdim, alnımda da böyük bir çapıq... Bu heç çapıq da deyildi, yekə bir ceviz gizlənə bilən bir çuxur idi ki, ortasından, yəni dibindən - xıncım-xıncım olmuş alın sümüyümün arasından başımın içinə gecənin eşşəköldürən şaxtası vıyhavıyla dolurdu. Bir zülümlə gəlib muzeyə çatdım, gördüm bağlıdı, işıqları sönüb. Pəncərəsindən olduqca zəif işıq gələn gözətçi damının qapısını döydüm. Əslində, burda gözətçi damı yoxuydu. Bura keçmiş kababxananın anbarıydı, eyni zamanda gözətçi - yəni Davud burda qalırdı. Deyəsən, əvvəlcə o, gələnin yəqin bir gecə yolçusu olduğunu düşündü. Qapını aralayanda gözlərinə inanmadı: bu, mən idim - "adı bəlli qoç Koroğlu". Hə, mən idim, mən!.. - nakam eşqi ucbatından bir zamanlar hamının dilində-ağzında gəzən, söhbətlərin yavanlığına dönən, haqqında bir doğru deyiləndə, yüz də yalan uydurulan, xeyir-şər yığıncaqlarında, çayxanalarda, dükan-bazarda söz-söhbətlərə bais olan, gah şar kimi üfürülüb göylərə qaldırılan, gah da daş kimi yerlərə çırpılan - mən!.. Mən idim gələn! - intihar eləyib ölə bilməyən Tağı... Bir vaxt ölümlə qucaqlaşsa da, doğmalaşa bilməyən, sivişib Əzrayılın cəngindən çıxan Tağı... Anası dayı qapısında, qardaşı qürbətin girdabında, bacısının ixtiyarı bir daşürəyin əlində olan, bir də... bir də ki, Kəbirəsi Aranın ilan mələyən ucqar kəndlərindən birində yad bir ocağın çırağını yandıran bədbəxt Tağı...

Amma o, ya qaranlıqda tanımadı, ya da gözlərinə inanmadı, qapının arasındaca dayanıb gözlərini qıydı, soruşdu:

- Kimsən? Nə istəyirsən?

-Davud, mənəm... - öz səsimdən qorxdum; dilim-ağzım soyuqdan üyüşmüşdü...

Qucaqlaşdıq. Başında cunadan qalın sarğı vardı. Üzü güclə görünürdü. Beş ay öncə zurnaçı Kərimin oğlunun sünnət toyundan kefli gələndə qonşumuz Sitarə xalagilin qapısında yıxılmışdı. Elə oradaca qalmışdı... Səhər alatordan onu qəssab Qasım kişi görüb evlərinə xəbər eləmişdi...

Hə, indi, məni bağrına basandan sonra, çiyinlərimdən yapışıb qolları bərabəri özündən araladı, gecəni bürümüş qar işığında hər şeydən qabaq başımın çapığına baxdı, içini çəkdi:

- Ox!.. ox!.. Can-can!.. - dedi. - Deməli, sən də gəldin, Tağı?

“Necə yəni mən də gəldim?” - heç nə başa düşmədim. Ardıyca dodağı altda mızıldanıb köksünü ötürdü:

- Hə də... gəlmisən də day... Mən də söz tapdım soruşmağa...

Yenə bir şey anlamadım. Hava küləksiz olsa da şaxta kəsirdi. Qarağaclı dərənin dibindən nifrin bir uğultu gəlirdi.

Şose yolunun qırağında, şəhərdən xeyli aralı, dərə boyu səpələnmiş qocaman qarağacların sıxlığındakı bu yer xudmaniydi. Axır vaxtlar fauna-flora muzeyi edilmiş bu yerin tarixi qədim idi. Buranı vaxtilə atam seçmişdi.Ətək-ətək pul töküb, icazəsini bir zülümlə alaraq, burda gözəl bir kababxana tikdirmişdi. Yolçular burada dincəlməyi xoşlayardılar. Bu kababxananın ətrafı geniş idi, beş addımlığında soyuq sulu gur bir bulaq axırdı, qarağaclı dərəyə enən yol tava daşlarla pillə-pillə döşənmişdi, yamac boyunca ağacların altında səliqəylə qurulmuş köşklərin ətraflarında əkilmiş həmişəyaşıl sarmaşıqlar buranın gözəlliyini daha da cazibəli edirdi. Yayda kababxana gecə səhərəcən işləyərdi. Dərəyə enən yamaclıqda ağaclar altında oturmağa yer tapılmazdı. Amma qışda yollar buz bağlayanda buralara gəliş-gediş bir qədər qəlizləşərdi, demək olar, düşəndə bir müştəri gələrdi.

Keçmiş əsgərlik yoldaşım, gözətçi Davud məni tanıyınca, həm də bu qiyafədə, özü də yalqız görüncə, qapını cırıltıyla açdı üzümə. İçəridən spirtli, sirkə-sarımsaqlı, qıncıxmış bir isti, ağır bir hava vurdu məni, həm də, elə bil, burda ölü iylənmişdi, adam ögümək istəyirdi. Bu dəqiqə havanın nə qoxumasının məndən ötrü fərqi yoxuydu. Canımı isti yalayınca, elə bil dünyanı mənə verdilər, çünki soyuqdan donurdum.

- Keç içəri...

İçəri girincə alaqaranlıqda Davudun tək olmadığını anladım, qapının ağzındaca duruxub dayandım. Küncdə yanan neft lampasının önünə karton qoyulduğundan içərinin işıqlanması çox zəif idi. Amma bura istiydi, soba gur-gur gurlayırdı, xaşın iyi bürümüşdü hər yanı, yəqin axşamdan dəmə qoyub, sabaha hazırlayırdılar. Davud köhnənin "xaşistiydi", bunu da yəqin özüyçün hazırlayırdı. Köhnə, dəmir çarpayıda oturan qadının üzünə işıq düşmürdü, odu ki, onun kim olduğunu kəsdirə bilmirdim, amma gözümü zilləyib durmuşdum.

Davud bir də yarama baxdı, sonra mıxçadakı ağ məhrəbanı götürüb uzununa iki yerə şırıqladı, üsulluca alnımı sarıdı, sarğının bir ucunu da çənəmin altından keçirib başımın əmgək yerində düyünlədi.

- Niyə duruxmusan, keç otur. - O, əlini çiynimə vurub gülümsünürdü. - Nə yaxşı gəldin Tağı, bu Məlişin də başı batsın!.. İbnədi də, qardaş, ibnə! Tərsliyi tutub, öldür deyir içmərəm. Yarım arağın əlində təkbaşıma giriftar olmuşam, ləzzət eləmir, vallah. Keç otur. Peçin yanına keç...

Keçərəkdə divara bərkidilmiş güzgü qırığına gözüm sataşdı, üzüm aydın görünməsə də, sarğılı başımdan, üzgün bənizimdən qorxdum, lap meyitə oxşayırdım.

İçəridə heç kim yox imiş kimi, çarpayıda oturub saymazyana saçlarını yığmaqla məşğul olan qadına baxan Davud başıyla məni göstərdi:

- Məliş, görmürsən? Tağıdı gələn... - dedi.

Qadın bəlkə də saç sancaqlarını dişləri arasında tutduğundan qımıldanıb bir söz deyə bilmədi. Dağınıq tellərini arxaya toparlayıb səliqəyə sala-sala, sonra da yekə döşləri az qala pırtlayıb çıxan xalatının yaxasını düymələyə-düymələyə, xala xətrin qalmasın, bircə kərən: "hmm..." elədi. Adını eşidən kimi dilxor oldum. Gecə gözü burda olacağını, nədənsə ağlıma gətirməmişdim. Bu, xalçaçı Güləndamın qızı Məliş idi. Bizdən üç-

dörd məhlə aşağıda olurdu. Orta məktəbdə on il paralel oxumuşduq. Başdanxarabın biriydi. Yadıma gəlir ki, bir dəfə, deyəsən, onuncu sinifdəydik, fizika dərsiydi, bizim İzzət müəllim xəstələnib dərsə gəlməmişdi, siniflərimizi birləşdirmişdilər. Uşaqların Faradey ayaması verdiyi başqa bir fizika müəllimi - onların sinif rəhbəri Mirzə Qayıbov Məlişi ayağa durğuzub dərsini soruşdu. Dərsi bilməyən bu eybəcər qız burnunun suyunu axıda-axıda birdən ağladı: "Məəllim, iki vermə, noolar, qurban olum, vermə iki, yoxsa anam öldürəcək..." - "Niyə?" - "Anam deyir ki, oxu, elm adamı ol. Deyir, iki alsan səni kəsərəm..." - "Bəs niyə oxumursan?" - "...Oxuyacam, vallah..." - "Yəni, sən doğrudan da oxuyub elm adamı olmaq istəyirsən, bala?" - "Hə... vallah, elm adamı olmaq istəyirəm, məllim..." Hamı güldü, rəhmətlik Şit Məhərrəmin lap hırrası tutdu. Faradey onun qurcuxduğunu görüb: "Nə mızıldanırsan orda? Ayağa dur görüm!" dedikdə, Şit Məhərrəm qalxıb: "Məllim, Məlahət elm adamı olmayacaq, yox, bilirsiz nə olacaq?.." - "Nə?" - "Deyim, deməyim?.." - "De görüm nə deyirsən! Artislik eləmə!.." - "Hi-hi... Elm adamı yox... məəllim, Məlahət qəşəy bir... el madamı olacaq!.." - deyincə, sinifə əvvəl bir sükut çökdü, sonra qəfildən bir uğultu, bir gülüşmə qopdu ki, ilahi, gəl görəsən, qızlar yer-yerdən ağız-ağıza verib Məhərrəmi söydülər, "tərbiyəsiz!" dedilər. Hətta, Faradey kimi ağır bir kişi də əvvəl özünü saxlaya blımədi, xoruz səsi eşitməmiş bu cinasa dodağı qaçdı, amma tez də özünü yığışdırıb qaş-qabağını tökdü, Şit Məhərrəmi lövhənin qabağına çıxarıb qulağının dibini qızdırdı. Məliş də: "El madamı anandı, bacındı!" - deyib ona hücum çəkdi, üzünü cırdı. Çox-çox sonralar rəhmətlik Şit Məhərrəmin bədahətən dediyi o vaxtkı o iki kəlmə söz gerçəyə çevrildi. Məliş erkən başsız qaldı - atası qırçı Şəmmədin qəfil ölümündən sonra, anası pis xəstəliyə tutulub tezliklə vəfat etdi, az sonra da qardaşını qonşuda toy axşamı qumar oynayanda bıçaqlayıb öldürdülər. Məlişin bir yaxınduranı olmadı, doğmaca dayısının kiçik oğlu İmanla nə qələt elədisə, elə ona da qoşulub Rusyətə getdi, dörd-beş aydan sonra İmanın onu Novosibirskdəki gül bazarında yalqız buraxıb bir "xaxluşkayla" Moskvaya qaçdığı, tamam başsız qalan Məlişin pis yola düşdüyü xəbəri yayıldı. Sonralar gəlib Həştəraxanda avar millətindən olan bir leş balığı alverçisiylə "cütləşib" yaşayırmış, amma bu da uzun çəkməyib. Babal yuya bilmərəm, Məliş orda nə qələt eləyibsə, balıq alverçisi bir gün onun cibinə azdan-paradan pul qoyub, qatara mindirib üzü bu yana yola salıb: "Bir də buralara gəlmə!.." - deyib. Aradan on ildən çox vaxt keçimişdi, Rusyətdən gələndə onu tanımaq olmurdu, Məliş tamam dəyişmişdi, insan necə dəyişərmiş, ilahi! Gələndən sonra çox keçmədi ki, bu muzeyin yerindəki kababxanada - atamın yanında işə düzəldi. Gecələr də evinə getmirdi, "mehribançılığı", "üzüyolalığı" ucbatından çox qələtlər eləyirdi. Tezliklə dilə-dişə düşdü. Bir başında öskürəndə, o biri başında: "deyəsən, top atdılar" deyilən bu sözbaz, vedrəbağlayan, itoynadan rayon mərkəzində - bu qədim şəhərdə, demək olar, hamı onu tanıyırdı. Neçə dəfə kişiyə dirənmişdim ki, "o qəhbəni ordan çıxart, qoy cəhənnəm olsun, haqqında əlli cür söz-söhbət dolaşır." Atam: "Ağıllı ol! - Demişdi. - Nə çörək qazanıramsa, onun gücünə qazanıram, müştərilərim onun üzünə gəlir. Onun yerinə gətirib namuslu birisini qoyacam, acından barmağımızı soracağıq... Sənə isti-soyuğu var? Özüyçün işləyir də, kimə nə pislik eləyir ki?" Şit Məhərrəmlə hərdən rastlaşırdıq. Ona bu ayama elə-belə verilməmişdi, doğrudan da adamla yeri gəldi-gəlmədi şit zarafat eləyirdi, day bilməzdi ki, sözündən inciyən olar, ya olmaz, ağzına gələni danışardı, uşaq vaxtı elə məni də dolayardı, harda görsə: "Tağı,Tağı, ay Tağı... Qaldır

göyə baydağı, Gəl oynayaq qaytağı..." deyib çırtma çala-çala mənə lağ eləyərdi, bu söz uşaqların da ağzına düşmüşdü. Bir gün Xanoğlan eşidib, onu qəşəng çırpmışdı, Şit Məhərrəm də day yığışdırmışdı o sözü. Hə, biz onunla hərdən rastlaşırdıq, söz sözü çəkib Məlişdən düşəndə, xozu-xozu deyirdi: "Gördüüün? Mən demişdim dəəə o vaxt, demişdim dəəə, qardaş... Mən ağzıəyrini boynunun dalından tanıyıram... Məliş əsil "el madamına" döndü, gördün ki, mən deyən oldu..."

Amma dünyada çox qəribə şeylər olur. Çiskinli bir payız günü Şit Məhərrəm köhnə evlərinin şifer damını təmir edəndə, ayağı sürüşüb kəllə-mayallaq yıxıldı, boynu qırılıb öldü. Cənazəsi yerdən götürüləndə keçmiş sinif yoldaşlarından ən çox ağlayan da elə Şit Məhərrəmin o "el madamı" ayamasını yarlıq kimi alnına yapışdırdığı Məliş oldu, bunu gözlərimlə görməsəydim, bəlkə də inanmazdım.

- Nə təərsən, ay Tağı? - Zalım qızının səsi də dəyişmişdi. Elə bil, paxmel bir kişi səsiydi.

- Yaxşıyam, Məliş.

- Doğrudan yaxşısan, Tağı?

- Maşını vurmuşam qoşa vələsin yanında...

- Gərək bura gəlməyəydin...

- Qovursan məni?.. - Güldüm.

O, duruxdu:

- Mən nəçiyəm ki, Tağı? Bu başıdaşdı canım sənə qurban, mən nəkarayam ki?.. Qələt eləyərəm mən... Qurbanşah dayının çörəyini qarnımdan ərsinlə də qaşısan getməz. Haqqı var üstümdə. Səni həmişə orda görməyə vərdiş eləmişəm, çem burda.

- "Çem"inə quzu kəsim, Məliş, nə çox çərənlədin sən?.. - Davud söhbətə qoşuldu. Sonra sobaya bir-iki yarmaça odun atdı, lampanın qabağına qoyulmuş karton parçasını götürdü, içəri işıqlandı. Sarğısı əmmamə kimi olan başını bədəvi ərəblər kimi yelləyə-yelləyə Məlişə dedi: - Məliş, birdəfəlik yadında saxla ki, bura heç kim təsadüfən gəlmir. Gələnlərin də hamısı... elə bizim gündədi. Bildin? Di göstər boynunu, qoy Tağı baxsın.

- Nəyinə baxacaq ki? Onsuz da başıma gələni eşidib yəqin...

- Yox, eşitmək ayrı, göstər, qoy baxsın...

Məliş boynuna dolanmış ağ kətan sarğını açdı, altında barmaq yoğunda gömgöy kəndir izi zol durmuşdu, boynunun, boğazının dərisi hərləmə qapqara qançır olmuşdu.

- Gəl yaxından bax...

- Burdan da görürəm elə...

Neynirdim yaxından baxım. Bilirdim ki, İman Rusyətdən qayıdandan üç gün sonra Məlişi məcbur eləmişdi həyətdəki köhnə odun damında özünü assın. Göstərdiyi bu kəndir yerləri də elə indiyəcən dildə-ağızda dolaşan o intiharın izləriydi... Amma Davud niyə istəyirdi ki, mən onu görüm - bilmirəm... Mən yaxınlaşmasam da, Məliş özü yaxınlaşdı, amma zalım qızından elə bir qoxu vurdu ki, az qala ürəyim çalxalandı, lap cəmdək iyi gəlirdi. Davud yaxınlaşıb onun boynunun sarğısını səliqəylə yerinə doladı.

Atam burda o keçmiş kababxananı işlədəndə Davudu qarovulçuluğa mən düzəltmişdim. Kababxana muzeyə dönəndə onu elə qarovulçu kimi də saxlamışdılar, çünki həm başıaşağı adamdı, həm də buralara yaxşı bələddi. İndi özünü elə aparırdı ki, elə bil, göbəyi burda kəsilib, elə bil, heç burdan qıraqda bir gün də yaşamayıb. Onu başa düşmək olardı, sonsuzluq ucbatından ailəsi dağılmışdı, evə getməsinin mənası yoxuydu, burda

qalmağa məcbur idi, mağıl başını qatırdı. Deyəsən, Məlişnən də curraşmışdı ki, o da yanında qalırdı. Yoxsa, mən onları bu qədər yaxın görməmişdim, bu barədə heç vaxt fikirləşməmişdim, aralarında nəsə olmasını heç ağlıma da gətirmirdim. Nədənsə, Davuda ürəyim yanırdı, həmişə ona yazığım gəlirdi. O vaxt başına gələn faciəni eşidəndə Bakıdaydım, lap ürəyimin başı sökülmüşdü. Qəribədi ki, onun da mənə yazığı gəlirdi, deyirdi nə vaxtacan subay gəzəcəksən, atan da öldü toyunu görmədi, var-yatırın da çıxdı əlindən, amma hələ də subaysan... Var-yatır deməklə, o, başqa şeyə işarə vururdu. Atam ürəyinin xəstə olduğunu bildiyindən, Lökdodaq Nəbiyə arxayın olub dövlətin bu obyektini lap dədə malı kimi qardaşımla mənə vəsiyyət etmişdi. Amma kişinin qırxı çıxar-çıxmaz Xanoğlan buranı qumarda rəhmətlik "vor-zakon" Şükürün əmisi oğluna, köhnə şərab zavodunda direktor işləyən erməni Surenin şəriki Xıncır Rafiqə uduzmuşdu və belimizi qırmışdı. Sonra uzun müddət Rafiqin qardaşı Topal Fəti işlətdi buranı. Xanoğlanı da hələ "filan qədər borclusan", "tavandasan" deyib didərgin saldılar, özünə də "srok" qoydular, getdi Rusyətə. Elə o gedəndi.Üstündən uzun illər keçsə də ondan xəbər-ətər yoxdu, Rusyətdən gələnlərin də heç biri "gördüm" demir, elə bil, ona bir bəhanə gərəkmiş itib-batmağa. Mən yetim isə qalmışam təkcə. Xanoğlan hələ yeniyetmə olanda anaşa üstə tutulmuşdu, atam onu qurtara bilməmişdi. Sonra Bakıda Təzə bazarın yanındakı pivəxanada adam bıçaqladı, yenə getdi "sroka". Türmədə tamam korlanmışdı, deyilənə görə, bir nömrəli qumarbazmış, amma biz onun həmişə uduzduğunu eşidirdik. Ondan heç birimizə hayan yoxuydu. Bacım Gülsümün də əli mənə çatmır, çünki yeznə Mirbaba çox soyuq, daşürək, mızı adamdı, qoymur onu bizlərə gələ. Yeməyimi özüm bişirirəm, pal-paltarımı özüm yuyuram. Tək yaşamağa alışmışam.

Davud indi var-yatır deyəndə, yaxşı mənada bu məsələyə - Xanoğlanın kababxananı uduzmasına işarə vururdu. Noolsun, Xanoğlan uduzdu, “vor-zakon” Şükür razborkada öldürülən kimi hökumət buranı Xıncır Rafiqgilin əlindən aldı, çevirdi muzeyə.

Davud özü pis adam deyildi, amma dədəsini heç vaxt rayonda it yerinə qoyan olmamışdı, yastı-yapalaq bir kişiydi, sol qıçını da çəkirdi. Deyilənə görə, uşaq vaxtı, lap beşinci sinifdə oxuyanda pilləkəndən yıxılıb şikəst olmuşdu. Həm qıçı qırılmışdı, həm də beyni zədələnmişdi, olmuşdu səy. O, ömrü boyu komunxozda zibilatan işləmişdi, adına Səy Usub deyirdilər. Onun adıyla bağlı lap indiyəcən çoxlu məzəli əhvalatlar danışırlar. Deyirlər, bir vaxtlar hər gün Allaha məktub yazırmış, məzmunu da beləymiş ki, bəs, “ay Allah, kasıbçılıqdan ölürəm, imkanın varsa, mənə iki yüz manat pul göndər.” Məktubuna ünvanını da yazırmış, sonra onu içinə qaz doldurduğu uşaq şarına bağlayıb göyə buraxarmış, özü də altında dayanıb şellənə-şellənə baxarmış. Bir gün keçir, beş gün keçir, necə olursa, onun hər gün yazıb ərşi-əlaya göndərdiyi məktublardan biri rayon milis şöbəsinin həyətinə düşür. Bu zaman rəis həyətdə işçilərini sıraya düzüb qarşılarında çıxış edirmiş. Boşalmış şar düz onun qabağında yerə düşür, şara bağlanmış kağız nəsə diqqətini çəkir... Əlqərəz, götürüb oxuyur, doyunca gülür. Üzünü işçilərinə tutub: “Ə, - deyir, - davay, adama beş-beş yığın, bu kişiyə göndərək, prosta məzəyçün...” Kimin ağzı nədi rəisin sözündən çıxsın. Yığırlar, amma nə qədər əlləşirlər, yüz əlli manat düzəlir, iki yüz alınmır. Verirlər sıravi işçilərdən birinə ki, çatdır kağızda göstərilən ünvana. O da aparıb verir. Səy Usub sayıb görür ki, pul yüz əlli manatdı. Təzədən Allaha bir dənə də məktub yazır. Bu dəfə yazır ki, “Ay Allah, çox sağ ol,

göndərdiyini aldım, amma sənə qurban, pulu göndərəndə milis işçiləriylə göndərmə. Bunların hamısı anasının əmcəyini kəsən şeylərdi. Sayıb görürəm, köpəy uşağı üstündən çırpışdırıb, əlli manat əskik gətiriblər...”

Hədsiz düşüklüyünə görə, onu heç vaxt toya-vaya çağırmazdılar, doğrudan da səy idi, ağzının danışığını, hərəkətini bilməzdi. Özü isə, öldür - yas yerlərinə ayağını basmazdı; bəzi qocalar kimi üçə, yeddiyə, qırxa xeyrat yeməyə getməzdi. Səy Usub toyları sevərdi, toy yiyəsini tanıdı-tanımadı, gedib toyxana çadırlarını çöldən aralayıb uşaq kimi sevinə-sevinə baxardı. Uşaqlara qoşulub məclis qurtaranacan toyxana çadırlarının yanında vaxtını gic-gic keçirərdi, toy qurtarandasa, kişilərin arxasıyca axsaya-axsaya, həm də kişi-kişi geri dönərdi. Evdə arvad-uşaq soruşanda ki: "Əşi, bəs hardaydın?" Deyərdi: "Toyda. Bəs görmürsüz camaatnan toydan gəlirəm?". Soruşanda ki, "Bəs toy necə keçdi?" Şellənə-şellənə, səy-səy: "Əla! - deyərdi. - Əla keçdi toy! Pəh-pəh! Yedilər, içdilər, dağılışdıq..." Onun bu “Yedilər, içdilər, dağılışdıq..." kimi sadə sözləri bizim şəbədəbaz rayon mərkəzində dildə-ağızda zərb-məsələ çevrilmişdi...

Amma Davud başadüşən oğlanıydı, göyşəsə ətini yemək olardı, həmişə atasına görə xəcalət çəkərdi, keflənəndə özü bu barədə danışardı, özü də ürək ağrısıyla. Axırda da özünə təsəlli verirmiş kimi: "Mən ana nəslimə çəkmişəm, ana nəslimdə urusların iyirminci ildə güllələdiyi Uğur bəy kimi yaxşı kişilər olub..." - deyərdi. Səy Usub iki il bundan qabaq öldü. Yalan-doğru, deyirlər, ölməmişdən iki gün qabaq Allaha bir məktub da ünvanlayıbmış. Guya yazıbmış ki, “Qurban olum, gəlirəm eey, qarşıla... Yolu-zadı tanımıram...” Nə bilim, bizim höt-hötü camaatdı daa, ağızlarına nə gəldi danışırlar, toqquşdururlar özlərindən. Amma yenə də bu bəyənmədiyimiz camaat... Camaat sağ olsun, onun yas məclisini yaxşı yola verdi, kasıblıqdan zülüm çəkən Davud xərcə-filana düşmədi.

Məliş gəlib bir dönüş xaş qazanını qarışdırdı, sonra böyrümdə oturdu. Burnunu çəkə-çəkə:

- Niyə bu gündəsən, Tağı? - Dedi. - Qorxmusan maşın sürüşəndə?

-...

- Dilini pişik yeyib? Hı? - Şit-şit böyrümü dümsüklədi.

- Məliş, sən atanın goru, başlama da yenə... - Bunu Davud dedi. -Qoy bir qırışığı açılsın da, nə dirənmisən qardaşıma? Yaxşısı budu, araq süz...

Ardıyca da mənə baxıb gülümsünərək göz vurdu:

- Zalım qızına, elə bil, kərtənkələ matoru qoyublar, dayanmaq nədi bilmir...

Gülüşdük.

Bilərəkdən Məlişə cavab verməк istəmirdim, bilirdim baş qoşsam saqqızımı oğurlayacaq, sorğu-sual başlayacaq. Sonra da gəl bunun cəngindən qurtar görüm necə qurtarırsan. Məliş məni çox istəyirdi, bilirəm. Amma mənim ondan zəhləm gedirdi, görməyə gözüm yoxuydu, nəsə heç ona qanım qaynamırdı. Bir dəfə bir hadisə olmuşdu, məni çox istəməyini ondan bilirəm. Atamın bir qarpızsatan dostu varıydı - Qubad. Hər mövsümdəkababxananın qabağında maşınını saxlayır, qarpız satırdı. Hələ onda atam sağıydı. Bir dəfə Qubad kişi müştəriyə qarpız satır, kəsdirirlər, içi ağ çıxır, qəti şirinliyi olmur. Əvəzinə başqasını verməк istəyəndə müştəri istəmir ki, yəqin hamısının içi belədi. Qubad kişi deyir: "Qardaş, bunun tağı ölüb eey, ona görə belədi... Gəl başqasını verim, gör nə qəşəngdi". Bilmirəm ya müştərinin qulağı ağır eşidir, ya başa düşmədiyindən soruşur ki, "noolub deyirsən?" Gur səsli Qubad kişi bir az da ucadan, bağıra-bağıra izah eləyir: "Qardaş, tağı ölüb eey, tağı! Ona görə sozalıb..." Bu vaxt Məliş

müştəriyə qulluq eləyib əlində qab-qacaq dərədən qalxırmış, bunu eşidir, əlindəkiləri yerə salıb qəfildən elə qıyya vurur, elə qıyya vurur, gəl görəsən... Üzünü cırır, dizlərinə-dizlərinə şapaddayır. Kababxananın müştəriləri, işçiləri yüyürüb gəlirlər, soruşurlar: "bəs bu nə fəryaddı? nə baş verib?" Məliş hönkürə-hönkürə, dili dolaşa-dolaşa: "Qubad dayı deyir ki, bəs, Tağı ölüb eey, Tağı!.. Vayy, vayy, yazıq Tağı!.. Qurbanşah dayı eşitsə, ürəyi partdayacaq!.." - deyib özünə əl qatır. Qubad kişi bunu eşitcək işi başa düşür: "Ay bədbaxtın qızı, - deyir - nə cırırsan özünü!? Mən qarpızın tağı ölüb demişəm eey, qarpızın! Başa düşürsən tağ nədi? Tağ eey, qarpız tağı!.." Hə, o məndən ötrü belə bir həngamə durğuzmuşdu, xəbər tutanda ona qarşı acığım bir az səngimişdi, amma yenə də zəhləm gedirdi.

O vaxt Məliş Rusyətdən təzə qayıtmışdı, mənə çox "xod" eləyirdi ki, ilişsin, amma mən də saqqalı ələ vermirdim, bilirdim bircə dəfə yaxınlıq eləsəm, onu öz əllərimlə boynuma mindirəsi olacam, o da, necə deyərlər, "ayaqlarını sallayıb" şellənəcək, yəni iş sarıdan sığortalanacaq, arın-arxayın kababxanada bildiyini eləyəcək... Düzdü, mən buralara çox nadir hallarda gəlirdim. Atamın iş yerinə niyə gəlməliydim axı? Amma Məliş bilirdi ki, burda işləməsini istəmirəm, onu görməyə gözüm yoxdu və gec-tez onu burdan rədd elətdirəcəm. Bir dəfə bura təzə düzələn vaxtlarında özünə də demişdim bunu. Demişdim ki, "yer tapmadın işləməyə?.." Cavabında: "Qurbanşah dayım özü götürüb məni bura. Tağı, qurban olum, yəni mən pis qızam?" - deyib şıvranmışdı. Başımı bulayıb getmişdim. Yəqin, ürəyi xarxarada qalmışdı, mənim onu işdən çıxartdıracağımdan qorxmuşdu, rast gələndə əlli oyun durğuzurdu ki, qırışığım açılsın. Amma indi harda işlədiyini bilmirdim, deyəsən, kababxana bağlanandan sonra heç yerdə tikiş tutub durmurdu, tez-tez yerini dəyişirdi.

- Bura xoşuna gəlir, Tağı?

Çiyinlərimi çəkdim. Yəni burda xoşagələsi nə var ki?

- Öyrəşəcəksən... A tarısı qannı, niyə öylənmədin sən? Kəbirə deyib durdun eləcə. Axırı da ki, belə... Heç o Kəbirə qancığın, o çənginin xəbəri varmı indi səndən?

O, özü də bilmədən sonda dedikləriylə içimin kül altında qalmış közünü qurdaladı, köhnə yarama toxundu. Düzdü, toxunub qurdaladığı Kəbirə adlı bu köhnə yaramın qaysağı çox qalın olsa da, belə məqamda hər dəfə pis olurdum. Gör aradan neçə illər ötmüşdü, di gəl xeyri yoxuydu. Nədənsə, neyləyəcəyimi, bu zəhləmgetmiş eybəcər qadına bu an nə cavab verəcəyimi bilmədim, ixtiyarsız əlimi uzadıb araq süzdüm...

Doğrudan da, Kəbirə nə vaxtsa mənim bu bədbaxt ömrümün bir parçası olmuşdu. Mən ona lap uşaqlıqdan - on üç yaşımdan, pioner düşərgəsində gördüyüm andan vurulmuşdum. Cəmi dördcə gün bir yerdə, bir düşərgədə qalmışdıq. Sonra o, getmişdi, mən də iki gün sonra dözməyib qaçmışdım. Bibisi qızı, bizdən dörd-beş yaş böyük Mahirə qarmon çalırdı, düşərgənin musiqi rəhbəriydi. Deyəsən, vurulmağımı anlamışdı, qızı düşərgədən çıxarıb evə yolladı, çünki Kəbirənin də mənə meyli vardı, Mahirə bunu sezmişdi. Meyli vardı deyəndə, yəni bir-iki dəfə üzümə gülümsəmişdi, "hansı məktəbdə oxuyursan? neçədə oxuyursan?" - soruşmuşdu, vəssalam. Amma mən, bax, bu qısa "təmasdan" sonra gecələr yata bilmirdim, gözümü çadırın boz tavanına zilləyib, cırcıramaların üzücü, sehirli səsini dinləyə-dinləyə, onu düşünə-düşünə səhərin açılmasını həsrətlə gözləyirdim. Kəbirənin nəlbəki boyda gözləri vardı. Yadıma gəlir ki, mən ona özlüyümdə "Almagöz" deyirdim. Nədənsə, ilk günlər hər onu

görəndə Xanmusa babamın tez-tez mızıldadığı "Alma gözlü, qız birçəkli Qırat gəl..." qımqıması düşürdü yadıma... Mən həmin o dörd gündə çox isnişmişdim ona... Gəlişimin ikinci günüydü, şam yeməyindən sonra çadırın qabağındakı skamyada Mahirənin qarmonunda "Durnalar" mahnısını çalırdı, hərdən də qara kipriklərini alma gözlərinin üstündən qaldırıb mənə gülümsünürdü... Sonra mən uzun illər hər axşam, ikicə dəqiqəlik də olsa, həmin mahnını dodaqaltı oxuyurdum, lap ürəyimdə də olsa oxuyurdum, elə bilirdim bircə gün oxumasam, Kəbirəyə, sevgimə xəyanət etmiş olacam... "Bir zaman havada, Qanad... qanad saxlayın..." Uzun illər eləcə oxudum, uzun illər... Onunla heç bir əlaqə qura bilmədim, dalıyca oxuduğu məktəbə gedirdim, qardaşı Müzəffərdən də qorxmurdum, dəlinin biri olsa da, çəkinib-eləmirdim, bəlkə də bilsəydi, vurub öldürərdi məni. Kəbirə məni görəndə eləcə gülümsünüb keçərdi, dilim-ağzım bağlanardı, heç nə deyə bilməzdim, heç nə... Sonralar böyüdük, hiss edirdim ki, yavaş-yavaş soyuyur məndən, bəlkə də onu dəlicəsinə sevdiyimi bilmirdi, bəlkə də bilirdi, məncə, sadəcə, fərsizliyim xoşuna gəlmirdi, illər ötdükcə onu ayrı oğlanlarla deyib-gülən görürdüm, elədə, elə bil, ürəyimə bıçaq soxurdular, günlərlə özümə qapılıb yeyib-içmirdim, dilimin altından su da keçmirdi, ölüb-dirilirdim, anam yazıq mənə noolduğunu bilmirdi, eləcə üzülürdü. Məktəbi qurtarandan sonra, Kəbirə artıq yanımdan yad bir adam kimi keçirdi, heç üzümə də baxmırdı. Mənsə,bircə gün onu görməsəm ölərdim. Bir neçə dəfə evlərinə zəng eləmişdim, hər dəfə də dəstəyi qardaşı götürmüşdü, cavab verməmişdim, o da məni qəşəng söyüb-yağlamışdı... Əsgərliyə getməmişdən iki gün qabaq rastlaşdım, dostlarımla azacıq vurmuşdum, özümü saxlaya bilmədim, "salam" dedim, üzümə baxdı, tükü də tərpənmədi, keçib getdi, bilmirəm dodağı altında mənə "əleyk" elədi ya yox. Əsəbimdən işıq dirəyinə var gücümlə bir yumruq ilişdirdim, dörd barmağım sıyrılıb əzildi, ağrısından sabahacan yata bilmədim, səhər əlimin şişdiyini gördüm, demə üçüncü barmağımın qatlanacaq sümüyü çatlayıbmış, əlimi gipsə qoydular, bir gün sonra yer üzündə müqəddəs saydığım nə varsa, hamısını söyə-söyə, özümü yamanlaya-yamanlaya, əli gipsdə əsgərliyə getdim, Sibirə düşdüm, Ulan-Ude şəhərinə, tikinti batalyonuna. Amma Kəbirəni də içimdə əzizləyə-əzizləyə "apardım" özümlə, o soyuq yerlərdə yaz kimi isitdi ürəyimi... Mən qayıdandasa artıq o, çoxdan aranın ucqar rayonlarından birində yaşayan dul xalasının yanına getmişdi. Sonsuz xalası ərindən qalma ev-eşiyini Kəbirəyə vəsiyyət etdiyindən, onu göndərmişdilər ki, xəstə arvadın qulluğunda dursun. Orada da bir kənd feldşeri dalıyca gəlib-getmiş, adamlarını göndərib nişanlanmışdı. Sən demə o bədbaxtın evi yoxuymuş. O, Kəbirənin xalasının əri tərəfdən qohumuymuş, bu işi də, elə o dul küpəgirən özü düzüb-qoşubmuş... Yeri gəlmişkən, əvvəllər mən evdə heç kimə deməmişdim Kəbirə barədə, bircə Gülsüm bilirdi, o da mənə xısınlamışdı ki, "qaqa, atamız o qızın qapısına elçi getməz, bəs eşitməmisən, o qızın anası əvvəllər pozğun olub? Çalış, heç adını tutma. Xanmusa da bilsə, səni öldürər, o qızgilin əsli-kökü yoxdu, yaxşısı budu, özünə başqa qız tap..." Özümə qapılıb qalmışdım. Qalmışdım fikirləşə-fikirləşə. Ağıllı fikirləşincə də, dəli vurub çayı keçmişdi - Kəbirə nişanlanmışdı. Əslində o vaxt, necə deyərlər, fikirləşməyə başım yoxuydu, sadəcə olaraq onu sevirdim, ağlıma heç nə batmırdı, kəlləmdə ilan-qurbağa oynaşırdı, söz deyiləndə mənə çatmırdı, key-key durub baxırdım, bu işin axırının necə olacağını heç vaxt fikirləşə bilməzdim, çünki dəlicəsinə sevirdim onu.... Amma onun məni sevməsinə əmin deyildim,

soruşmağa cürətim çatmırdı, yoxsa yəqin ki, bir çarə qılardım... Əslində, kiminsə əliylə məktub da ötürə bilərdim, ancaq qorxurdum birdən "yox!" cavabı alam, ürəyimi parçalayan buydu... Hə, mənim bütün bədbəxtliyimin kökündə haçansa eşidib qorxacağım o "yox!" cavabı dururdu. Ona görə də bütün taleyimi buraxmışdım Allahın umuduna... Ərə gec getdi Kəbirə. Heç bu tərəflərə gəlmirdi, dul xalasının yanında - Aranda olurdu. Amma toyundan bir az əvvəl, gəlmişdi, görünür, toya hazırlaşırdılar. Univermaqda qonşumuz Tarıyelin gəlini - sinif yoldaşı Simuzərlə rastlaşıbmış. Simuzər deyib ki, "bəs Tağı sənə görə evlənmir, səni o cür sevir, niyə ona getmirsən?" O da cavabında deyib: "Neynir o məni? Xəstə anasına qulluq eləməyə alır? Hi-hi-hi... Qoy Tağı hoppanıb tayını tapsın..." Bunları Simuzər bacıma danışanda eşitmişdim. Onların xəbəri yox idi ki, mən bu vaxt həyətimizdə qarajdaydım, çömbəlib atamın maşınının təkərlərini qaraldırdım. Onlar qarajın ağzında söhbət edirdilər. Ürəyim ağzımdan çıxa-çıxa hər şeyi eşitdim. Elə oradaca qarajınküncündə bir şüşə qırığı dəydi gözümə, götürüb damarlarımı doğradım, amma ölmək qismətim olmadı, şüşəni qoluma axırıncı dəfə çəkəndə atam içəri girdi və... halımı görcək yazıq kişi: "Ay evi yıxılan canım!!!" - deyib necə bağırdısa, səsi hələ də qulağımdan getməyib. Amma özünü itirmədi, Gülsümlə köməkləşib tez məni maşına basdılar, ildırım sürətiylə xətəxanaya apardılar. Gülsüm qorxusundan maşında "qaqa, qurban olum, qaqa, qurban olum, qorxma, qorxma!.." deyə-deyə doğranmış biləklərimi əllərinə alıb bərk-bərk necə sıxmışdısa, qollarım necə keyləşmişdisə, cərrah Cəsarət doktor dəhşətə gəlmişdi, bacım qan itkisinin qabağını ala bilmişdi. Nəysə... məni xilas etdilər. İki gün sonra Kəbirə gəlin köçdü... Onun Simuzərə dediklərini eşidib nə qədər sınsam da, buna görə ondan soyumağın özülü içimdə qoyulsa da, mən qara sevda deyilən bəlanın burulğanından uzun müddət qurtula bilmədim.

...Biləklərimi doğradığımdan iyirmi bir gün sonra atam öldü.

## *– 2 –*

O gecə, o dar-düdük daxmacığa sığınmış biz üç bədbaxt, artıq yavaş-yavaş yaşa dolan, evlənmək sarıdan, ailə deyilən bir ocağa sahib olmaq sarıdan naxışı gətirməmiş insan adlı biz üç yığvalsız məxluqat, aranı dağa, dağı arana daşımaqdan zövq alırdıq sanki. Davudla araqdan əlli-əlli vura-vura, ötənlərdən-keçənlərdən danışırdıq. Məliş içmirdi, amma o da Rusyətdə gördüyündən, eşitdiyindən söhbət açırdı, çox keçmədi yuxu onu gic elədi, oturmaqdan bezdi, köhnə adyalı üstünə çəkib xoruldadı.

Sən demə, mənim çox şeydən xəbərim yoxmuş, çox şeydən... Bunu çox-çox sonralar, uzun-uzun illər ötəndən sonra anlayacam... Sən demə, mən bəlkə də yer üzünün ən bədbəxt adamlarından biriyəmmiş... Sən demə, qarağaclı dərənin nifrin uğultusu canıma necə hopacaqsa, bəlkə də o səsi ömrümün sonunacan daşımağa möhtac olacam...

Gecə bitmək bilmirdi. Başımız dumanlanmışdı. Davud arağın birini də açmışdı. Onunla əsgər yoldaşımız Rzabalanın intiharından danışırdıq. O cür gözəl, istiqanlı, şir kimi bir oğulun özünü asaraq niyə canına qıydığını başa düşə bilmirdik. Bu ölüm hələ də müəmma olaraq qalırdı.

Sonra əsgərlikdə bir gün bizi gecəylə qaldırıb Volqoqrada aparmaq adıyla hərbi təyyarəylə Türkmənistanın Kuşka şəhərinə necə gətirmələrindən, ordan da səhərisi Əfqanıstana necə aparmalarından danışdıq.

Yadıma gəlir ki, vertolyotumuz Məzari-Şərifə enəndə qaranlıq qarışmışdı. Komandirimiz bizi sıraya düzüb batalyonumuzun görəcəyi işdən danışırdı, tikəcəyimiz bunkerləri bir ay müddətinə təhvil verməsək, çətin olacağını deyirdi, yəni tikintini vaxtında başa vurmasaq, geri qayıtmağımız müşkül olacaqdı. Davud böyrümdə durmuşdu, pıçıldayırdı ki, "biz hara, Əfqanıstan hara? Niyə bizi aldadıb bura gətirdilər, görəsən? Bəs deyirdilər Volqoqrada uçuruq? Heç bir silahımız, sursatımız da yoxdu, yəqin axırımızdı, Tağı, "dux"lar bizi məhv eləyəcəklər tezliklə... Onlar yaman şeydi, deyirlər, hamısı başkəsəndi... " O zaman, orda olduğumuz həmin o bir ay ərzində hər gecə anamı gözümün qabağına gətirib ürəyimdə onunla söhbət eləyirdim. Allaha yalvarırmış kimi, anama yalvarırdım ki, qoymasın məni ölməyə. Elə bilirdim, anam Allaha daha yaxındı və çatdırar dediklərimi... Əsgərlikdən qayıdandan sonra anam deyirdi ki: "Səndən bir ay məktub gəlmədi, amma heç olmayan kimi, hər gecə yuxuma girdin, üst-başın da toz içində... Bir dəfə soruşdum ki, Tağı, üstün niyə toz-torpaqdı? Yıxılmısan? Dedin ki, "yox, ibadət eləyirəm, ona görə belədi..." Dedim: Allah qəbul eləsin, Tağıbala, axı, bu, nə ibadətdi belə? Dedin ki, "sənə ibadət eləyirəm, ay ana, sənə!.. Ayaqlarının altına döşənirəm hər gün!.." Bax, onda ayılıb atanı durğuzdum yuxudan, dedim: "Bilmirəm, uşağım dardadı, günü sabah vayenkomatın cibinə nə qədər istəyirsə pul bas, gətizdir balamı, yoxsa özümü yandıracam..." Yazıq atan o gecə sabahı diri açdı. Ürəyi xəstə adam, səhərəcən zarıdı... Sən demə, səhəri gün vayenkomata gedib dediklərimi bircə-bircə danışıbmış, o da deyib ki, ay Qurbanşah kişi, arvadı bir təhər yola gətir, özünü yandırmasın, oğlunun gəlməyinə cəmi iki ay yarım qalıb..." Amma atam dirənib məni gətizdirmiş-di. Gətizdirənəcən də, aradan on gün keçmişdi, biz Əfqanıstandan Ulan-Udeyə qayıtmışdıq artıq...

Söhbətimizin şirin yerində qapı döyüldü. Məliş yataqda qurcalandı. Davudla bir-birimizə baxdıq, o, hövlanak qalxıb qapıya sarı getdi. Bu zaman elə bil Məlişi gögeyin daladı - gözləmədiyim bir cəldliklə sıçrayıb ayağa durdu, Davud qapını açanacan karton parçasını qapıb neft lampasının qabağına qoydu, içəri qaranlıqlaşdı, ardıyca da pıçıldadı:

- Bu birilər içəridədi, yatıblar. Gələn odu, yəqin...

- Hə, o olmalıdı, ondan başqa kim olacaq ki?.. - bunu da qapıya sarı gedərəkdə Davud mızıldadı.

"Bu birilər içəridədi, yatıblar. Gələn odu, yəqin..." - İlahi, bu nə deməkdi axı? "İçəri" haradı? "Bu birilər" kimdi? Kim yatıb, axı? Heç nə başa düşmürdüm, heç nə... Bir az başımın dumanlı olmasından, bir az da nə baş verdiyini anlamağa macal tapmadığımdan, nə edəcəyimi bilmədim, yerimdə qurcuxmaqla kifayətləndim.

Davud soruşub-elərnədən qapının cəftəsini şaqqıltıyla geri sıyırdı. Qapı açılar-açılmaz içəri əvvəlcə duman kimi qar işığı doldu və bu işığın içində ağappaq saç-saqqalı sırsıra bağlamış, baxışı-duruşuyla filmdəki Dədə Qorquddan seçilməyən, boylu-buxunlu, əl ağacına söykəkli bir qoca göründü. Yavaşdan:

- Həh! Bu da mən!.. Davud usta, vaxtın varsa, vaxtın xeyir!.. Mən gəldim... - deyib gülümsündü.

- Xoş gəlmisən. - Davudun səsi titrədi, udquna-udquna gülümsəməyə çalışdı, elə bil, onun zarafatına bir qədər qorxa-qorxa cavab verdi. - Vaxtın xeyir olsun, doxtur, keç içəri,keç...

Onu ilk dəfəydi görürdüm. Bizim yerlərin adamına oxşamırdı. Üstü-başı, qiyafəsi qəribəydi.

- Sənə yüz dəfə demişəm, doxtur yox, sadəcə, qulyabanı desən, yetər... - O, güldü. Amma hiss elədim ki, Davud özünü yığışdırdı. Qoca masanın arxasına keçmədi. Gülümsəyə-gülümsəyə sobanın yanında durub əvvəlcə, nədənsə, bir xeyli anabarın qaranlıq küncünü, sonra bir anlıq Məlişi, sonra da gözucu məni süzdü, deyəsən, soyuqdan birdən-birə istiyə düşdüyünə görə, gözləri sulandı, əlinin dalıyla üzünü və qırovu əriyən islaq saqqalını sildi, başını tərpətməklə salam verdi. Sonra da mənə sarı əyilib bir qədər ciddi tərzdə:

- Xoş gəlmisən, - dedi. - Birdəfəlik gələnə oxşayırsan... Ya mən yanılıram, hə?

Mən ağzımı doldurub heç nə başa düşmədiyimi demək istəyirdim ki, Davud:

- Hə, doxtur, Tağı mənim əziz qardaşımdı. Mənə də elə gəlir ki, birdəfəlik gəlib... Özü də Qurbanşah dayının istəkli oğludu...

- Yoxsa, sizin Qurbanşahı deyirsən?

- Hə...

- Paho! Paho! - Onun qəlbən heyrət etdiyini gördüm. Əvvəlcə nurlu çöhrəsi bir qədər işıqlandı, sonra yavaş-yavaş tutqunlaşdı. Ah çəkib, alçaqdan, bir qədər də kədərli-kədərli: - Gətir görüm... gətir bir yarana baxım... - dedi.

Özümü pis hiss elədim. Davudun üzünə baxdım, zalım balası elə bil lom udmuşdu, Lenin mavzoleyindəki fəxri qarovulun əsgərləri kimi şam-şax dayanmışdı, qeybdən gələnə oxşayan bu adamın böyründə qıypınıb-eləmirdi də. Amma hərdən üzümə baxıb gözlərini qırpır, sonra da utandığındanmı, qorxduğundanmı, ya nədənsə, bilmirəm, tez də baxışlarını yayındırırdı. Bilmirdim neyləyim. Bu vaxt gözüm Məlişə sataşdı, sobanın qapısındakı gəzdən düşən işıq zolağı onun adyalın altından marıdan gözlərində oynayırdı. Bıldır-bıldır yaş gedən gözlərini mənə zilləmişdi, özü isə titrəyirdi.

Davudun "doxtur" dediyi bu adam mənə yaxınlaşdı, istiqanlıqla əlini çiynimə qoydu.

- Bu gündən sən də qoşuldun bizə... Heç bilirsən nə qədərik? Sayımız-hesabımız yoxdu...

Özümü toparlayıb:

- Səhər açılsın çıxıb gedirəm... Bakıya gedəsiyəm... Maşını pis əzmişəm... - dedim.

- Nə açılsın dedin?.. Səhər?..

O, bir qədər aşağı əyildi, başımın sarğısının düyününü dartışdıra-dartışdıra, gözlərini gözlərimə zilləyib çiyinlərini ata-ata səssizcə gülməyə başladı. Mən onun hülqumundan aşağıda, yəni saqqızlığındakı çökəklikdə qapqara, irinli bir oyuq olduğunu gördüm. Baxanda deyərdin ki, bitişməmiş bu köhnə yara sanki haçansa onun çəlimsiz boğazına saplanmış nizə yeriydi; girdə kəsiyin piyi çıxmış qaralı-qırmızılı qıraqları şişib-köbərlənib çölə qatlanmışdı, ordan üfunət saçırdı, başım gicəlləndi, əlini yüngülcə o yana itələyib ayağa durdum.

O isə, bir addım geri çəkilib, elə gülə-gülə də soruşdu:

- Yəni, açılacaq deyirsən səhər? Hə?

Sonra, üzümə çox qəribə baxdı, mən bu baxışların mənasını min il də yaşasam çözə bilməzdim, buna gücüm çatmazdı. Onun baxışlarında ölməyə də, dirilməyə də şans yoxuydu... Onun gözlərinin içinə sorulurdum elə bil... Ovsunlanmış kimi sorulurdum... Nə ölü kimi ölüydüm, nə diri kimi diri... Bir xeyli beləcə üzümə baxdı, ardıyca kipriklərini qapadı, əllərini başına tutub bu dəfə acı-acı gülümsədi, onun bu tavrı mənim də canımı

acışdırdı... Sonra, astaca qolumdan yapışıb ağır-ağır çömbəldi, məni də ixtiyarsız çökdürdü, bir qədər susdu və çox üzgün bir səslə dedi:

- Görürəm... Sənin bu üzündən baxanda o üzünü görürəm... İçində nə varsa, hamısını görürəm... Özünün bilmədiyin, heç vaxt da bilə bilməyəcəyin şeylər var canında... Zavallı... Hamısı ovcumun içindədi... Sən onlardan xəbərsizsən...

İxtiyarsız:

- Noolub, axı? - pıçıldadım.

- De görüm, canındakı hüceyrələrin cəmi iyirmi üç cüt xromosomdan ibarət olduğunu bilirsənmi? Yox... bilmirsən... De görüm, canındakı iyirmi birinci xromosomun anomaliyasından xəbərin varmı? Hardan olacaq axı?.. Yox... bundan da xəbərsizsən... Sənin kimilərin iyirmi birinci xromosomu şikəst olur, Allahın iyirmi birinci əsri kimi - şikəst, çarəsiz... Bildin? Nə sənin çarən var, nə də iyirmi birinci əsrin!.. Sən də zülümlər çəkəcəksən, o da... Başınız bəladan heç vaxt ayılmayacaq... İyirmi birincilər!.. Siz bədbəxtsiz, iyirmi birincilər!.. Əlini üstünüzdən götürən götürüb...İyirmi birincilər!..

Xromosom nədi? İyirmi birinci əsr nədi? Bu nə danışır, ay Allah? Ətim ürpəşdi. Çömbəldiyim yerdəcə titrəməyə başladım... Bu mənə ən iyrəndiyim fənlərdən - kimyadan, anatomiyadan dərs keçir, nədi?

Elə bil heç dilimə içki dəyməmişdi. Qorxudanmı, ya nədənmi, bilmirəm, tam ayılmışdım. Amma dilim qıfıllanmışdı. Bu qəribə qocaya heç nə deyə bilmirdim. Çarəm qaçmağa qalmışdı, qaçıb qurtulmağa qalmışdı... Onun səsinin, sözünün məngənəsindən haçan qurtulduğumu bilmirəm, qəfildən yerimdən sıçrayıb, sürətlə qapıya sarı götürüldüm...

- Getmə!!! - Məliş çığırdı.

Amma indi heç tank da gəlsəydi qabağımı ala bilməzdi. Cəftəni çəkməyimlə şaxtalı gecənin ağuşuna atılmağım bir oldu. Arxadan qocanın arası kəsilmək bilməyən acı gülüş səsi gəlirdi...

Davudun cıqqırı çıxmırdı. Məliş ağlayırdı...

Eşiyə necə sıçradımsa eləcə də dayandım. Bir addım da nə sağa, nə sola gedə bildim. Yerimdə quruyub qaldım. Dizəcən qarın içindəydim, daxmanın dörd çevrəsindən, hər yandan üzümə par-par yanan gözlər zillənmişdi. Bunlar vəhşiləşmiş it sürüsü də ola bilərdi, elə canavar sürüsü də, nə bilim, lap kaftara da oxşayırdılar. Halay vurub hərəsi bir yanda, üzü anbarın qapısına sarı şöngüdüb oturmuşdu. Amma indi mən bunların nə sürüsü olduğunu ayırd etmək iqtidarında deyildim. Artıq qulağıma bədheybət mırıltı səsləri gəlməyə başladı. Bircə onu deyə bildim ki, "İlahi, sən özün köməyim ol!.." Onu hiss elədim ki, arxadan - qapının arasından uzanan əl qolumdan yapışdı, məni içəri çəkdi. Bu, Davud idi. Qanrılıb üzünə baxdım. Heç nə olmayıbmış kimi:

- Gecdi... - dedi. - Keç içəri...

İçəri keçib qapının yanında çömbəldim, sarğılı başımı əllərim arasına aldım. Təpəmə güllə vursaydılar qanım çıxmazdı. Davud qapının cəftəsini vurdu. Qoca heç nə anlamadığım o qorxunc söhbətini kəssə də, elə bilirdim ki, mənim geri dönməyimə şellənir. Hərdən boğazını arıtlayırdı.

İndi mən poçt qutusuna atılmış bir zərf kimi deyil, hörümçək toruna ilişmiş bir hünü kimi, hansısa bir sərdabəyə salınmış ölü kimihiss eləyirdim özümü... Əslində indi heç ölü kimi də deyildim... Elə bil, bura gəlib çıxmağım, burda baş verənlər həqiqət deyildi, bunları kimsə kənardan nağıl eləyirdi, mən də miskincəsinə susub dinləyirdim...

O, qənşərimdə dayanıb döşəməyə sərilmiş köhnə kilim parçasının üstündə əl ağacıyla xırda dairələrə oxşayan nəsə cızırdı.

- Cavan oğlansan, heç narahat olma, - deyirdi. -Yarana toxunan deyiləm. Heç baxmağıma da ehtiyac yoxdu. Üzülmə. Burda nə var ki? Mən özüm də ilk dəfə bura düşəndə səndən betər olmuşam, Davud da eləcə, Məliş də həmçinin... Biz hamımız bir əlcəyin içindəyik... Yadına gəlirsə, "Bu əlcəyin içində kimləəər var?" deyilən bir nağıl vardı keçmişdə. Xatırlayırsan? Hə? "Tez-tez qaçan siçan... Qur-qur qurbağa... Quyruğu gödəy, dovşan bəy..." Hə, yadına düşdü? "Əlcək" nağılı. Bax, indi biz də o nağıldakı əlcəyin içindəkilər kimiyik. Amma unutma... əgər gəlişin birdəfəlikdisə, lap min illər keçsə də bir kimsə gəlib deməyəcək, soruşmayacaq burda kim var, kim yox... Heç vaxt! Bununla barışmalısan! Birdəfəlik!.. Çünki heç vaxt sənin dediyin o səhər açılmayacaq... Unutma!.. Amma səni bilmək olmaz... Qayıda da bilərsən... Çünki sənin iyirmi birinci xromosomunun əkiz tayı elə iyirmi birinci əsrdi... O da ki, hələ gəlməyib... Bəlkə də səni gözləyir... Sən çox talantlı olmalısan axı, ay mənim sindromum... Yox, deməyimə baxma, onun sənə qətiyyən dəxli yoxdu! Qətiyyən! Səndə özgə əlamətlər var... Sənin dərdin ayrıdı!..

O, bu dəfə də acı-acı gülümsündü, başını qaldırıb hisli tavana baxdı, sonra da mənə bir qədər ayrı tərzdə, sakitcə:

- Bax, tavandan sallanan o hörümçək torundan götür bir az yumurla, başındakı yırtığa qoy, xeyiri var... - dedi. - Həh, qorxma... Unut o lənətə gəlmiş iyirmi birinci xromosomu da, elə iyirmi birinci əsri də... Onlardan xeyir gəlməyəcək... Qalmaq istəsən, qorxma, de, elə günü bu gün apararam səni... Amma getmək istəsən... mənlik deyil haaa...

Davudun cıqqırı çıxmırdı. Məliş ağlayırdı...

Anbarın qaranlıq küncündən - bayaq bu yığvalsız qocanın gözlərini zilləyib baxdığı yerdən əvvəlcə bir xışıltı gəldi, sonra dəhşətli bir inilti qopdu, ardıyca da kimsə çox pis, astma xəstələri kimi xırıldaya-xırıldaya uzun-uzadı öskürməyə başladı. Arada öskürəyini kəsib köntöy-köntöy:

- Aman verin yataq daa!.. - qışqırdı. Öskürəyindən yaşlı bir kişi olduğu sezilsə də, səsini eşidəndə mənə elə gəldi ki, onunla tay-tuş olarıq...

Hər şeyi unutmuşdum, nə baş verdiyini anlamaq iqtidarında deyildim. Çox qəribədi ki, canımda heç bir qorxu-hürkü yoxuydu. Qoca sanki məni unutdu, geri qanrıldı, dodağı altında nəsə deyə-deyə həmin qaranlığa doğru getdi, küncün qabağını kəsib görünməz edən pərdə əvəzinə ipdən asılmış köhnə adyalı əl ağacıyla azacıq araladı və kədərli bir səslə:

- Bağışla, bəy... - dedi - Yata bilmirsənsə, bəlkə, durub gələsən yanımıza?!..

Ardıyca da əl ağacını geri çəkdi, araladığı adyal əvvəlki vəziyyətinə qayıtdı, üzünü Davuda çevirib göz vurdu, bu sözləri isə bilmirəm kimə ünvanladı:

Ay lotu!

Dağıtmısan kampotu!

İstəyirsən dinc olasan, dinc otur!..

Davud heç bir reaksiya vermədi, qoluma girib məni Məlişin uzandığı çarpayıda otuzdurdu. Elə bil, robot kimiydim, ixtiyarım əlimdə deyildi.

Küncdən başqa bir səs də gəldi, kimsə boğulurmuş kimi təngnəfəs soruşdu:

- Doktor, dediyin bəs nooldu? Bütün bunların bir sonu olacaq, ya yox?..

O, yenidən üzünü həmin küncə sarı çevirib ciddi şəkildə:

- Darıxma, lap az qalıb... İş gedir... hər ikinizi aparacam... elə indilərdə... - söylədi və geri dönüncə yenə də kimə dediyi bilinməyən bu anlaşılmaz sözləri birnəfəsə üyüdüb-tökdü:

- Yupyumru! Qapqara! Qıpqırmızı! Tortopuş! Mısmıtığ! Yerə vursan - yer çatdıyar!.. Bəh! Bəh! Bəh!.. Hamınızı aparacam ora!..

Davudun cıqqırı çıxmırdı. Məliş ağlayırdı...

O üzünü Məlişə çevirdi:

- Hə, Məliş, dünənkinin dalısına qulaq as... Deməli, harda qaldıq? Hə, yadıma düşdü... Deməli, gözlərini möhkəm-möhkəm yumursan. Yadında saxla haa, möhkəm-möhkəm! Sonra baxışlarını içəridən zilləyirsən iki qaşının arasına. Baxırsan, baxırsan... O qədər baxırsan ki, Məliş, o zülmətdə, iki qaşının arasındakı yerdə beş qəpik boyda yumru, gur bir işıq əmələ gəlir. Hə, bax, kipriklərini sıxıb-qapamaqla özünü qərq elədiyin o zülmətin içində həmin işığı gözlərinin köməyilə istədiyin səmtə yönəldirsən. Daha doğrusu, haran sənə əzab verirsə, ora yönəldirsən, saxlayırsan o ağrıyan yerin üstündə. O yer qara ləkə kimi görünəcək sənə. Unutma, qara ləkə kimi! O işığı saxlayırsan həmin ləkənin üstündə. O qədər saxlayırsan ki, Məliş... Eşidirsən, dediklərimi?..

- Hə, doxtur, qurban olum, qulağım səndədi...

Məliş ağlayırdı, Davudun cıqqırı çıxmırdı...

- O qədər saxlayırsan, ta ki, o işıq qara ləkəni yeyib əridir. Ağrın yox olur, tam sağalırsan, olursan lap anadangəlmə, lap tapança kimi, lap buz baltası kimi...

Onun dedikləri mənə çatmırdı. Nə qırıldatdığını bilmirdim. Gözüm qapıda qalmışdı. Fikrimdə ancaq burdan necə qaçmağın yollarını götür-qoy edirdim. Deyəsən, hansısa girdaba düşdüyümü anlayırdım artıq. Qoca əlini uzadıb tir-dəstəyin tavana dirəndiyi yerdən sallanan hisli hörümçək torunu üsulluca götürdü, barmaqları arasında yüngülcə ovxalayıb yumurladı, saqqızlığındakı üfunət saçan yara yerinə basdı. Yenə ətim ürpəşdi və silkindim. Məncə o, halımı hiss elədi, yanımdan ötüb geri qayıdanda qarşımda dayanıb əlini sakitcə çiynimə qoydu. Elə bil, bayaq duyduğum o pis qoxu birə-beş artmışdı, ürəyim gəldi durdu ağzımın içində, özümü ögüməkdən güclə saxladım. Onun səsi də dəyişmişdi.

- Qardaşoğlu, dünyanın dörd qıçı var, onun beşini mən yemişəm, başa düşdün?.. Mənə gəlmə!.. Hər şeyi yaxşı bilirəm!.. Onu da bilirəm ki, qəbir daşı məsələsində Qurbanşah kişinin başına nə oyun açmısan... Özünü yaxşı apar, artistlik eləmə...

Məliş əlimin birini ovcunun içinə almışdı, titrəyə-titrəyə sığallayırdı, özü də xısın-xısın, səssizcə ağlayırdı. Bu an, elə bil mənim bu ülfətə ehtiyacım vardı. Başqa vaxt bu zəhləm gedən qadına belə bir yaxınlığa imkan verməzdim. Amma bununla belə, başımın içində bir fikir özünü beynimin divarlarına vurur, aram tapmaq bilmirdi: “Qaçmaq! Nəyin bahasına olursa-olsun, burdan qaçmaq lazımdı, vəssalam!” Bu qoca qətiyyən sərxoşa-zada oxşamırdı, mən də kefli deyildim, elə bil, içməmişdim heç. Tanımadığım bu qocanın “qəbir daşı məsələsi” deyəndə nəyə işarə vurduğunu bilirdim. Sadəcə, o, məni Xanoğlanla dəyişik salmışdı. O “məsələ” mənimlə yox, Xanoğlanla bağlıydı. Məsələ beləydi: deməli, atam ölməmişdən bir-iki il qabaq fikirləşər ki, onsuz da bu ürək xəstəliyi gec-tez axırına çıxacaq, ölüb-eləsə, uşaqlarında o fərasət yoxdu ki, üstünə bir qəbir daşı salsınlar. Ona görə də daşyonan Ələmin yanına gedib sanballı bir mərmər daşı sifariş verir, amma kimdən ötrü düzəltdirdiyini demir, yəni üstünə hələ heç nə yazmamağı tapşırır, deyir ki, sən onu yon, qoy qalsın anbarında. Ələm Xanoğlanın uşaqlıq dostuydu. Kişiyə qiymət oxumamışdan bir gün qabaq, bizə zəng eləyib Xanoğlanı telefona çağırtdırır, “vacib məsələ var, gəl görüşək” deyir. Görüşüncə, “atan kimdən ötrüsə daş zakaz eləyib,

qardaşlığımız xətrinə qiymətdə bir az keçəcəm, amma vallah, eşidəndə incimə, qiymətlər çox bahadı” bildirir. Xanoğlan da özlüyündə qəbir daşını atamızın kimdən ötrü düzəltdirə biləcəyini düşünür, çox götür-qoy eləsə də bir yana çıxa bilmir. Çünki, atam nənəmim də, babamın da qəbrini düzəltdirmişdi. Hələ hamımızdan böyük Məxmər adında bir bacım olub, yaş yarımında qızılcadan pozulub ölüb, onun da üstünə qara mərmərdən daş saldırmışdı. Xanoğlan fikirləşir ki, yəqin atamın pulu çoxdu, əmiləriyçün-filan daş düzəltdirir. Ələmdən soruşur ki, daş neçəyədi? O da qiymətini deyir, Xanoğlan da qızıl-qırmızı kişiyə atmaq istəyir, çünki ondan ötrü fərqi yoxuydu, pul məsələsində ata-zad bilməzdi, gözünün işığı olsa belə keçən deyildi, “nallamalıydı”. Ələmdən soruşur ki, daş neçəyədi? Deyir, məsələn, beşə. Deyir, sən ondan beş yox, on istə, ata mənimdi, xasiyyətini bilirəm, verəcək. Amma alandan sonra beşini mənə verərsən, sənin hörmətini özüm eləyəcəm. Razılaşırlar. Sonra Ələm atamla razılığa gəlir, kişidən Xanoğlan deyən qədər pul qoparır. Ələmin kişidən artıq qopardığı pulun hamısını Xanoğlan tutub ondan alır. Day ona nəsə verib-vermədiyini bilmirəm, amma ağlım kəsmir; Xanoğlan ola, bir şey dadızdıra. Aradan nə qədər keçdiyini bilmirəm, bir gün atam gəlib Ələmə deyir ki, o daşları özümçün düzəltdirmişəm, qoy hələ anbarının küncündə qalsın. Bilirəm, vaxtıma az qalıb, bu yaxınlarda öləcəm, sinə daşımda heç nə yazmasan da olar, amma baş daşımda Qurbanşah Xanmusa oğlu yazarsan, doğum-ölüm tariximi qeyd edərsən, şəklimi çəksən də olar, çəkməsən də, bir də yazarsan ki, oğlanları Xanoğlanla Tağıdan əbədi yadigar... Ələm də görüşüb bunları qardaşıma danışır. Xanoğlan havalanır, bilmir neyləsin, pulları alt vurub, üst çıxdığı üçün yanıb-yanıb tökülür, heç yandan da pul tapmağa ümidi yoxmuş ki, Ələmin əliylə geri qaytarsın. O vaxtlar hələ bir dəfə bərk içib, kefli-kefli gedib Ələmin yanına, anbardakı həmin daşı qucaqlayıb “bağışla, papa, bağışla...” deyə-deyə o daşürək qardaşım, o qəddar Xanoğlan xeyli ağlayıb... Atamı torpağa göməndən sonra qırxı çıxana qədər qəbrin üstünü düzəltdirdik, daşları qoydurduq yerinə, amma orda Xanoğlanın adı yox idi, “Oğlu Tağıdan əbədi xatirə...” yazılmışdı, qardaşım özü qoymamışdı adı yazılsın, necə olmasa, vicdanı ağrıtmışdı onu... Bütün bunları da, məncə, Ələm keflənib hardasa danışıb, elə o vaxtdan da sirrimiz aləmlə bir olub...

- Tağı, qurbanın olum, gör gözümün içində İmanın şəkli qalıb? Mən nə qədər eləyirəm güzgüdə görə bilmirəm axı...

Deyəsən, Məliş fikrimi qocadan yayındırmaqdan ötrü mənə bu sualı verdi. Çünki heç yeri deyildi. Ürəyimdən qara qanlar axırdı, necə deyərlər, az qala adım yadımdan çıxmışdı, belə bir gic sual məni lap ovsanadan çıxartdı, amma dinmədim. O, yenidən böyrümü dümsüklədi:

- Tağı, bax daa, noolar... Deyirlər, axı ölənin gözündə öldürənin şəkli qalır... Bəlkə, qalıb, hə?.. Noolar...

“Məliş, sərəyləmə də, sən canın...” demək istədim, amma son anda özümü saxladım. Məlişin qarayaxalığını bilirdim, zalım qızı atmilçəyi kimi bir şey idi, qır-saqqız olub yapışdısa əl çəkən deyildi. Bilmirdim qocanın cavabını verim, yoxsa bunun gözünün içində İmanın şəklini axtarım, ya durum ayağa bir də eşiyə sıçrayım, görüm bəlkə getdikcə ölü damına oxşayan bu xarabadan bir yana qaça bildim. Ölü damı... Hə, ölü damı!.. Bura lap ölü damıdı ki var! “Ölü damı” dedim, rəhmətlik Narınc xalamın qaynı taygöz Ağasəfər düşdü yadıma. O, uzun illər rayon mərkəzi xəstəxanasında ölü damında - yəni morqda gözətçi işləmişdi. Onu güclə xatırlayıram, öləndə çox balacaydım. Deyirlər, müharibə illəri aclıq olduğu

üçün, ölü damı həmişə dolu olurmuş. Xəstəxananın baş həkimi Adamyan Qurgen adlı bir erməni olur, o da taygöz Ağasəfərə göz verir, işıq vermirmiş, sən demə, onu işdən çıxarıb yerinə öz qohumunu qoymaq istəyirmiş. Bu üzdən, hər gün gəlib onu yerli-yersiz danlayır, başına oyun açırmış. Cana yığılan taygöz bir gün görür ki, artıq dözə bilmir. Ölü damında da meyitlərin sayı çoxalıbmış. Bilir ki, hər gün olduğu kimi Qurgen həkim buraya baş çəkəcək, yenə bir bəhanə tapıb beynini xarab eləyəcək. Əh, deyir, ölmək ölməkdi, xırıldamaq nə deməkdi. Ağlına hardan gəlirsə, ölüləri döşəmədə çılın-çılpaq, böyür-böyürə otuzdurur, kürəklərini söykəyir divara, qabaqlarına da loto kartları düzür. Özü də, eynən eləcə, lüt soyunub oturur onların arasında, qabağında da loto kartları, əlində də loto daşlarıyla dolu kisəcik. Qurgen Adamyan içəri girən kimi taygöz Ağasəfər əlini kisədən çıxarıb loto daşlarından birini qəfil yuxarı qaldırır, var gücüylə qışqırır: “Səksən səkkiz! Davolna!” Baş həkim tir-şap olub bayaq özündən gedir... Və taygözü bu hoqqasına görə altı il həbsə atırlar. Yaşlılar danışıb and içirdilər ki, onun məhkəməsi komediya kimi keçibmiş. Qurgen həkim ifadə vermək üçün məhkəmə zalına girəndə, taygöz çax-çaxın dalından qəfil qışqırıb: “Səksən səkkiz! Davolna!” Baş həkim diksinib yenə buyuxub, onu bir zülümlə özünə gətiriblər, özünə gələn kimi də zaldan çıxıb qaçmağa başlayıb, millət uğunub gedib... Deyilənə görə, Qurgen həkim həqiqətən havalanıbmış... Onu evindən bayır-bacağa buraxmırlarmış, harda görünsə, uşaq-muşaq “Səksən səkkiz! Davolna!” çığıran kimi, ya ürəyi gedir, ya da dördələmə götürülürmüş evə...

- Başa düşdün də dediklərimi?.. İncimirsən ki?.. - Bu, artıq Məliş deyil, qocaydı, yenidən mənə səslənirdi.

Mənsə cavabında nə desəm yaxşıdı? Özümü itirdim, ixtiyarsız:

- Səksən səkkiz! Davolna! - çığırdım və hər şey də ondan sonra başladı.

Bir göz qırpımında əvvəl neft lampası söndü, sonra sobanın qapısındakı gəzdə dil çalan alov şöləsi yoxa çıxıb görünməz oldu. Sonra heç nə eşitmədim... Nə Məliş vardı, nə Davud, nə gözümün odunu alan o qoca, nə də küncdən gələn o səslər. Çünki mən özüm artıq orda deyildim, özüm yoxuydum orda...

## – 3 –

Harda olduğumu anşıra bilməsəm də, gözümü açanda ilk gördüyüm ağappaq tavandakı ion lampasının dinclik dolu, süd bəyazlığında işığı oldu. Yenidən gözüm yumuldu, amma şüurumdan ilk keçən bu oldu ki, lampa yanırsa, deməli, gecədi, hələ də sabah açılmayıb... Sabah açılmayıbsa, deməli, bağrımı yara eləmiş o qocayla bu dəfə əməlli-başlı cəngə girəsiyəm, yenə Məlişin gic suallarını eşidəsiyəm, halıma baxıb cınqırı çıxmayan Davudun üzgün görkəmini görüb ümidsizcəsinə dilxor olasıyam. Həm də, ən əsası odu ki, anbar kimi tanıdığım o müəmma dolu daxmadan yəqin ki, qurtula bilməyəcəm. Çünki sabah açılmayıbsa, deməli, hələ də o qorxunc yırtıcılar, o canavar sürüsü oranı halaya alıb şöngüdüb, qanımın iyini havadan imsiləyə-imsiləyə səbirsizliklə eşiyə çıxmağımı gözləyir... Bir yandan da qarağaclı dərənin ətürpədən nifrin uğultusu canımın içindəydi... Bu, məni məyus elədi.

Bəs onda bura haradı?

Çalışıb bir də gözümü açmaq istədim. Bu dəfə sanki dərin bir dəryanın dibində bir dalğıc kimiydim, qəfil təkan vurub yuxarı qalxmaq lazım idi... Odur ki, qol gücünə, çabalaya-çabalaya “suyun üzünə” qalxdım və çıxan

kimi də dərindən nəfəs aldım. Yenə gözlərim açıldı, yenə həmin dinclik dolu işığı gördüm, bu dəfə gözlərim tez yumulmadı, işığı görməyim bir xeyli çəkdi, sonra bəyaz mələfəli çarpayıda olduğumu sezdim... Elə bil, hansısa dəryanın dibindən suları yarıb çıxmışdım, elə bil, indi kimsə ayaqlarımdan sallanıb məni təzədən aşağıya çəkirdi, mənsə dərindən nəfəs ala-ala çalışırdım bacardıqca "suyun üzündə" çox qalım, buna görə də çabalayırdım... Elə bil, "suyun dibində" ciyərlərimin havasızlıqdan partlayacağını kimsə mənə pıçıldamışdı, ona görə də əlləşirdim ki, bir də aşağıya enməyim... Qulağıma damcı səsləri gəlirdi. İon lampasının süd bəyazlığındakı işığı bir duman kimiydi, elə bil, aramla, hiss olunmadan ruhuma enir, endikcə də qarağaclı dərənin nifrin uğultusu sanki qeyb olur, içim rahatlıqla dolurdu. Amma ayaqlarımdan dartmaqda olan, məni suyun dibinə çəkən o qüvvə də öz işindəydi. Mənsə, çabalayıb dirəniş göstərirdim. Bu məqamda yalqızlıq və sükut ölüm qədər qorxunc olsa da, qulaqlarımda təzə-təzə uğuldamağa başlayan dərin səssizliyi ara-bir eşitdiyim damcı səsləri nizamlı şəkildə pozurdu: tuk...tuk...tuk... İndi ion lampasından ruhuma çökən bəyaz duman, eynən o qoca ilk dəfə anbara girəndə ardıyca qapıdan içəri dolan qar işığına çox oxşayırdı. Amma nə qədər oxşasa da, qarın şövqündən gələn soyuqluqla ion işığının həlimliyi ölçüyəgəlməz dərəcədə ayrı-ayrı şeylər idi və nə yaxşı ki, bunları ayırd eləməyə gücüm çatırdı. Nə isə... İşıq yanırdı - deməli, sabah açılmamışdı. Damcı səslərini açıq-aydın eşidirdim - deməli, düşündüklərim gerçək idi. Bircə məsələni dəqiqləşdirmək qalırdı: mən hardayam?.. bu nə işıqdı belə?.. damcı səsləri hardan gəlir?.. başıma gələnlər nədi?.. dəli-zad olmamışam ki?.. Bunları fikirləşəndə, bilmədim nəyə görəsə, mətləbə heç bir dəxli olmayan, haçansa eşitdiyim, bəlkə də haqqında oxuduğum əcaib bir söz gəldi dilimin ucuna və mən qıypınmadan, nə demək olduğunu düşünüb-daşınmadan pıçıldadım: "Skeytbord..." Elə bu zaman da iki illik tələbəliyim vaxtı dosluq etdiyim Camal düşdü yadıma. Hə... Camal... Camal... Gözəl dost... Yenə pıçıldadım: "Skeytbord..." və yenə də Camalı xatırladım.

Onunla universitetə qəbul olanda dostlaşmışdım. Aranlıydı, çox istiqanlı bir oğlanıydı. Bakı boyda şəhərdə o cür imkanlı dayım yaşasa da, mən Camalla birgə "Sovetski"nin iki siçan dolaşa bilməyən yosmaca evlərindən birində kirayədə qalırdım. Yadımdadı, fevralın çovğunlu bir günüydü, gecə yarısı ayılıb Camalı yerinin içində ağlayan gördüm. Nə qədər soruşsam da səbəbini demədi. Üstündən bir neçə gün keçəndən sonra ürəyim dözmədi, yenidən soruşdum ki, bəs, axı bu nə məsələydi belə. Ürəyimə gəldi ki, bəlkə xərcliyi-filanı qurtarıb, kömək-zad lazımdı, cavabında başını aşağı salıb, "o gün atamın ölən günüydü" - dedi, sonra da əlavə etdi ki, "atamın ölümü heç kimin ölümünə oxşamırdı, çox sirli bir ölüm idi, indiyəcən də hamımızı yandırıb-yaxır..." Day heç nə soruşmadım, bircə kəlmə: "Allah rəhmət eləsin..." deyib söhbəti bağladım. Düzü, ürəyimdə qalmışdı ki, "çox sirli bir ölüm idi" deyəndə Camal nəyi nəzərdə tuturdu? Amma açıb-ağartmaq istəmirdim, "bu, ağ olar" - fikirləşirdim. Üstündən xeyli keçəndən sonra bir dəfə özü açıb danışdı ki, atası sıravi çobanlıqdan kolxoz sədrliyinəcən bir ömür yolu keçib, sədr seçilməsinə görə raykom katibi onu əməlli-başlı soyubmuş, neçə yüz baş qoyun-quzunu, davarı satıb veribmiş ona. Sonra işləməyə imkan verməyib, yenə pul istəyirmiş. Camalın atası başını itirib qalıbmış, amma bir az səbirsizlik eləyib, gedib qəbuluna, deyib ki, sədirlikdən çıxmaq istəyir, işləyə bilmir. Katib gülüb: "Yaxşı" - deyib. Yazıq cəmi yetmiş iki gün, Camalın sözü olmasın, lap Paris Kommunasının

ömrü qədər kolxoz sədri işləyib. O, elə bilib ki, işdən çıxsa, hər şey yaxşı olacaq... Onu isə, işdən çıxaran kimi kolxozda yoxlama aparıb tutublar. Nəyi varsa soyub əlindən alandan sonra, rayon milis şöbəsində deyiblər ki, filan qədər qızılın olduğunu bilirik, gətir, səni buraxaq. "Yoxumdu!" - deyəndə, o qədər döyüblər ki, leşi qalıb. Amma yenə: "Qızılım yoxdu!" - deyib, sözündən dönməyib. Rəis deyib ki, "onda, gedin bunun arvadını gətirin şöbəyə". Kişinin sarsıntıdan dili batıb, elə bilib ki, doğrudan da arvadını gətirəcəklər şöbəyə, havalanıb. Bir il dəlixanada yatandan sonra buraxıblar. Ağlı başındaymış, hamını da tanıyırmış, amma dili açılmırmış. Çıxandan az sonra ölüb. Ölümündən on gün qabaq dili açılıb, ancaq cəmi ikicə kəlmə söz deyə bilib: «Şeytan meşədədi..." - vəssalam. Bütün günü təkrarladığı həmin sözlər olub. Kimi görürmüş, yüyürürmüş üstünə, ağlayıb-sıtqayıb ancaq həmin sözləri deyirmiş. Evdəkilər girinc-giriftar olubmuş. Tanış-biliş, qohum-əqraba bilmirmiş neyləsinlər. Nə meşə? Hansı meşə? Kəndləri Aranda, ilan mələyən bir düzdədisə, meşə hardan onun nitqinə gəlmişdi, o şeytan deyilən nə məsələydi? - heç kim baş açmırmış. On gün ağlaya-ağlaya ancaq: «Şeytan meşədədi..." kəlmələrindən başqa heç nə deyə bilməyib yazıq. Gecə yarısı da oyanıb zarıyırmış: «Şeytan meşədədi..." Canı ağzından çıxanda da yenə yanğılı-yanğılı o müəmmalı kəlmələri deyib, gözlərini yumub... Camalı yandırıb-tökən də o idi ki, atası ömründə bir yol da olsa şeytanla, cinlə maraqlanan adam olmayıbmış, üstəlik, qəribə də olsa, həyatında bir dəfə də meşə görməyibmiş... Ömrü boyu yazda çılpaq dərələrlə kolxozun sürüsünü aparıb meşəsiz yaylaqlara qalxarmış, eləcə də, payızda da həmin yolla geriyə - Arana enərmiş, vəssalam.

İndi mənim "Skeytbord..." pıçıldamağım Camalın atasının "Şeytan meşədədi..." deməsinə bənzəyirdi. Görünür, elə ona görə də əziz dostum düşmüşdü yadıma.. Hə... "Skeytbord..." Bəs bu sözün mənası nəydi, görən? Qətiyyən bilmirdim. Başımı sındırsam da, xeyri yoxuydu.

Tavanı görürdüm, ion lampası yanırdı. İstədim "bura haradı? burda kim var?" - bağıram. Əvəzində yenə: "Skeytbord... Skeytbord..." pıçıldadım. İncəvara, bağırmadım - xırıltılı, əzab dolu bir səslə pıçıldadım. Sonra düşündüm ki, görəsən, bu pıçıltımı özümdən başqa eşidən varmı? Amma təzədən bütün ağırlığımla "suyun" dibinə çökməyə başlamağım fikrimi dağıtdı. Başladım çabalamağa, nə illah elədimsə, xeyiri olmadı, getdikcə, getdim dərinə... Bayaq eşitdiyim və hardan gəldiyini anlaya bilmədiyim o damcı səsləri qulaqlarımda dəmirçi sindanına çırpılan çəkic səsinə dönmüşdü, hər dəfə taqqıldayanda qulaqlarım batırdı... Qollarım sərbəst idi. Neyləyirdimsə, qollarımın gücünə eləyirdim, ayaqlarından cələyə düşmüş bir quş kimiydim, elə hey çırpınırdım, çırpınırdım... Məni aşağı dartan qüvvə amansızıydı, cəngindən qurtula bilmirdim, artıq neyləsəm də xeyiri yoxuydu, boğulurdum. Sonda qulaqlarımda gürz guppultusuna oxşar bir səs eşitdim və deyəsən, varağım çevrildi...

...Bu dəfə gözlərimi açanda həmin anbarın hisli hörümçək torları sallanan çirkli tavanını gördüm. Başımın üstündə dayanan Məliş idi. Sakit-sakit, çiyinləri titrəyə-titrəyə ağlayırdı. Ehmallıca əlini sarığımın altından alnıma tökülən saçlarıma çəkdi:

- Nöş qayıtdın, ay Tağı?.. - pıçıldadı.

Mən çarpayıdaydım. Bir az aralıda Davud yetim kimi boynunu burub durmuşdu. Göz gəzdirdim, qoca yoxuydu. Küncə tərəf boylandım. İpdən asılmış adyalı bir kənara sıyırmışdılar, neft lampasının zəif işığı küncü də işıqlandırırdı, ins-cins gözə dəymirdi.

Ciyərim yanırdı. Dikəlib oturdum. Özümü toparlayıb:

- Məliş, mənə su ver... - dedim.

Məliş bir göz qırpımında suyu hardan gətirdi, başıma necə çəkdim, bilmirəm. Boş parçı dodaqlarımdan aralayanda onun çil basmış eybəcər sifətinə bir xeyli gözümü zilləyib durdum. Vallah, özüm də bilmirəm niyə, o mənim gözümdə bir mələk kimiydi indi:

- Sabah açılmadı, bəs? - soruşdum.

Əvəzində hönkürdü. Heç nə demədən qapıya sarı getdi. Qapını yüngülcə araladı, içəri qarın işığıyla birgə ağ duman kimi soyuq hava doldu. Sonra da üzümə baxdı, yəni "bax, Tağı, hələ qaranlıqdı..." O, qapını örtüncə, gözlərimi bir də hərləyib ətrafa dolandırdım, özümdən ixtiyarsız o qocanı, bir də küncdən gələn o səslərin yiyələrini axtardım. Davud bunu sezdi, sakitcə pıçıldadı:

- Gediblər... Çoxdan yoxdular...

Hələ başıma nələr gəldiyini dərindən anlaya bilməsəm də, bəzi şeylərin fərqinə varmaq istəyirdim.Qalxıb üst-başımı düzəltdim. Heç yerim ağrımırdı. Özümü suya düşmüş, üzməyi bacarmayan bir parabüzən böcəyi kimi hiss edirdim. Elə böcək kimi də yavaş-yavaş qapıya tərəf yönəldim.

- Canavarlardı, itlərdi, nədi... onlar yenə burdadı?

- Yox... Doxturla getdilər...

- Onda mən getdim, Davud.

- Elə biz də gedirik. Gözlə bir beş dəqiqə, buraları sahmanlayım, bir çıxarıq...

O, sobanın üstündə pıqqıldayan xaş qazanını dəsmalla götürüb eşiyə çıxdı və tezliklə boş qazanla geri qayıtdı.

- Hə, Məliş, yalı da tökdüm yerinə...

İndi anladım ki, mən bura gələndən sobanın üstündə pıqqapıq qaynayan xaş yox, yal imiş. Amma Davudun iti olmamalıydı axı. Hə, yəqin onları yemləyir - gözləri işıldayan o bədheybətləri...

- Nə deyirsən, Davud? Başa düşmədim.

- Goreşənlərin yalını deyirəm, tökdüm qablarına...

Ətim ürpəşdi. "Goreşənlərin yalı..." Goreşənlərə də yal bişirərlər?

Yola düşdük. Özümü saxlaya bilməyib bu barədə Davuddan soruşdum. Cavabında bunları dedi:

- O lənətolmuşları bişmişə öyrətməsəydim, indi bizi çoxdan basmarlayıb yemişdilər... Çarəmiz yoxdu, Tağı...

- Hə, Tağı, hə... Düz deyir...

Məliş əlimdən bərk-bərk yapışmışdı, şəhərə sarı yönəlirdik. Yenə qarağaclı dərənin nifrin uğultusu canıma doldu, o üzdə də qurd ulayırdı, amma bizim vecimizə deyildi.

Qoşa vələsdən iyirmi-otuz addım aralı keçdik, maşınım orda yoxuydu. Nədənsə, bu, mənə dərindən təsir etmədi. Elə bil, heç orda qəza törədib leş-lavaş olan mən olmamışdım. Elə bil, o maşın heç atamdan yadigar qalmamışdı. Elə bil, heç çörək ağacım deyildi mənim...

Qalayçılar məhləsindən sola burulub yosmaca evlərin arasıyla üzü yuxarı qalxdıq. Davudun bibisi, tumsatan Bikə burda yaşayırdı. Bu qədim şəhərdə onu tanımayan yoxuydu. "Bikə nərdivanı" deyilən bir ifadə vardı, camaatın dilində dolaşardı həmişə. Guya bu yumağa oxşayan yumruca arvad, Səy Usubun ağıllıca bacısı haçansa deyib ki, tum satmaqdan ötrü rüşvət kimi milis Dədəxana hər ay verdiyi beş manat pulun nə qədərisə Brejnevin cibinə gedir. Onda deyiblər ki, bəs, sübut elə. Bikə də deyib ki, bax, Dədəxana verdiyim beş manatın üstündən o bir az götürür, qalanını

verir uçastkovıya, o da bir az götürür, ötürür rəisə, rəis də öz payını qamarlayıb, qalanını verir ministirə, o da Moskvadakı nazirə, o isə birbaşa Brejnevə. Brejnev də... yox, Leninə vermiyəcək ki, o ölüdü, axı, yıxılıb yatıb behiştdə... Ona görə də Brejnev saqqalıağarmış hamısını basır cibişdanına... Həh, indi gördüzmü Bikənin pulu haralara gedib çıxır?..

Bu yarıhənək, yarıdəyənək, özünəməxsus yozuma şəbədəbaz camaatımız "Bikə nərdivanı" deyir.

İndi onun qapısından keçirdik, Davud bir anlıq dayandı:

- Yaxşı... Mən getdim Bikə bibimgilə. Görüşərik... - dedi.

Məliş əlimi bir az da bərk sıxmağa başladı. Əlimdən elə bərk-bərk yapışdı ki, elə bil, indicə qaçıb gedəcəm.

- Əlimi burax, Məliş, görən olar, - dedim.

- Qorxma, bizi heç kim görmür onsuz da... Elə bilirsən Davud bibisigilə girəndə onu o evdə görən olacaq? - pıçıldadı, əlini yüngülcə boşaltdı.

- Necə yəni... - dayandım, əlimi onun tərləmiş ovcundan çəkərək üzünə baxdım. Üzü buz kimiydi, alaqaranlıqda çox qorxunc görünürdü.

- Hə, Tağı, indi biz lap tünlüyə də girsək, heç kim görməyəcək, arxayın ol...

Başımın içinə ilan-qurbağa doldu elə bil. Onun dedikləri ağlımı qarışdırdı, xırıltılı səsi beynimi cırmaqladı, titrədim...

- Başına at təpib? - soruşdum.

- Hə, Tağı, hə... Əvvəl mən də inanmırdım. Daun kişi başa saldı. Acı da olsa, belədi...

- Daun kişi kimdi, Məliş?

- O qoca... o uzunsaç... səni haldan-hala salan o uzundrazı deyirəm...

- Onun adı Daundu? O nə addı elə...

- Nə bilim, özü deyir ki, adı Daundu, gah doxturam deyir, gah da Qulyabanı. Amma Davud ona Dünyamalı doxtur da deyir hərdən... Yığvalsız nüzul adamdı çox... Bir sürü goreşənlə gəlir gələndə. İstədiyi adamı da qəfil biryolluq aparır... Ona görə ağlayırdım da, Tağı, qorxurdum səni də aparar... Onun zəhmli sözləri çərlədib day bizi. Deyir, darıxmayın, qulaqlarınızı çərtəcəm, ondan sonra sizə oxşayan ekizlər doğulacaq dünyaya... Hər gün mənə deyir ki, İmanın şəkli gözünün içindədi, səndən heç yana qaça bilməyəcək...

Quruyub qalmışdım. Şeytanbazar məhəlləsinin ölgün işıqları yanırdı. Böyrümüzdən-başımızdan adda-budda adamlar adlayıb keçirdilər. Bir kimsə qanrılıb üzümüzə baxmırdı. Rayon mərkəzi ola, gecə gözü qoşa gedən arvadla kişiyə belə etinasızlıq ola... İnana bilmirdim. Elə bil ki, heç biz yoxuyduq, elə bil, varlığımızı duymurdular. Məlişin dedikləri və özümün yavaş-yavaş anlamağa başladıqlarım məni məhv eləmişdi, sadəcə...

- Hə, Tağı, mən özümü asmamışdan qabaq xiyərək xəstəliyindən əzab çəkirdim. Bilirsən xiyərək nədi? Qadın xəstəliyidi... Həkimlər buna fibroma deyirlər, anamdan eşitmişdim ki, lap qədimlərdə xiyərək deyirlərmiş. Müalicəsi də yoxdu. Qadın üçün ölümə bərabərdi... Qanaxma... analıqda şiş... filan... sonsuzluq... axırda da cərrah bıçağı... Sən nə biləsən, axı... - Onun dodaqları səyridi. Çil basmış soyuq üzündə bir məzlumluq dolaşdı. - O qoca bir para şeylər öyrətdi, gözlərimi yumub əməl elədim, inan, azarım canımdan çıxdı... O, xeyirxah olduğu qədər də qorxunc adamdı, Tağı, sənə qurban, özünü gözlə... Amma demədin haa, İmanın şəkli gözümün içindədi, ya yox... Noolar, Tağı...

O yenə əlimdən yapışdı... Gözlərinin içindən elə bildim kimsə üzümə acı-acı gülür. Baxdım, baxdım, gördüm lap İmana oxşayır...Dedim, day

indicə dəli olacam... Var gücümlə əlimi dartıb qaçmağa başladım. Addımlarımı elə sürətlə atırdım ki, az qala ayağımın biri ala dağa, biri qara dağa dəyirdi. Həm də üşüyürdüm... Həm də hara qaçdığımı bilmirdim. Çarxın içindəki dələ kimiydim, qaçdıqca qaçırdım... Məliş dalımca nəsə çığırırdı, amma nə dediyini başa düşmürdüm. Deyəsən, hönkürürdü... Dediklərindən cəmi bircə kəlmə eşidə bildim: “Qayıtma!..”

Bircə onu bilirəm ki, bu, mənim sonu görünməz o gecədə axırıncı dəfə eşitdiyim insan səsi oldu... Sonra, nə bir səs-səmir eşitdim, nə də aydın bir insan surəti gördüm. Keçən dəfə də belə olmuşdu. Uzundraz qocaya özümdən ixtiyarsız “Səksən səkkiz! Davolna!” qışqırıb qeybə çəkiləndə də eynən belə hala düşmüşdüm. Durmadan, nə bilim, nə qədər qaçdım... Elə bir sürətlə qaçırdım ki, evlərin, insanların, ağacların, daşların ancaq siluetini görürdüm, heç nə ayırd edə bilmirdim. Qulaqlarımda gah təyyarə səsləri uğuldayırdı, gah maşın səsləri. Gecəylə gündüzün, yəni işıqla qaranlığın qarmaqarışıq düşməsindən elə bir rəng alınmışdı ki, heç nəyi olduğu kimi görə bilmirdim, həm də, deyəsən, ayaqlarım yerə dəymirdi, çünki ayaq səslərim eşidilmirdi, eşidilən ancaq ürək səsinə oxşayan guppultuydu ki, o da bir quyunun dibindən gəlirmiş kimi, çarəsiz-çarəsiz uzaqlarda itib-batırdı... Bəlkə də, dayanmadan əsən şiddətli bir külək sürətiylə kərən-kərən qət etdiyim yolu ölçüyə vuran olsaydı, dünyanın başına dəfələrlə dolandığıma inanardılar. Hə, yüyürə-yüyürə bu ala-bula, toz-dumanlı, yad dünyanın başına dolandıqca-dolanır, yortduqca-yorturdum. Aradan keçən vaxt barədə isə, heç nə deyə bilmərəm... Beş gün keçmişdi, beş ay keçmişdi, beş il keçmişdi, yoxsa ki, on beş il... bəlkə də az, bəlkə də çox - bunu hardan biləydim? Mən olan aləmdə vaxt ölçüsü yoxuydu axı... Qürbətə düşmüş kimiydim, özgə dildə pıçıldaşırdılar yan-yörəmdə, mağmın-mağmın dinləyib susurdum. Ara-bir içində çabaladığım rəngibilinməz burulğanın səssizliyi o qədər dərinləşirdi ki, az qalırdı qulaqlarım bata. Öyrəncəliydim, bilirdim ki, mənimlə birgə nəfəs alan, artıq özümə doğma bildiyim bu sükutu bir müddət sonra, maşın, təyyarə səsi poza bilər... Bu baxımdan elə bil arxayınlaşmışdım... Amma bir gün, olduğum bu qəribə dünyanın başına dolanıb-yortduğum yerdəcə, qəfildən çox sürətlə, həm də təpəmdən dırnağımacan bütün vücudumla, elə bil, bir divara çırpıldım və canım gizildədi...

* * *

... Gizilti içindəydim bütün. Tanış ion lampası öz yerində - tavanda yanmağındaydı. Soyuq tərin içində çimhaçim islanmışdım. İki nəfər mavi geyimli, ağzı-burnu respiratorlu tibb işçisi (yeri gəlmişkən bu vaxta qədər mən heç vaxt mavi geyimli tibb işçisi görməmişdim, onları ağ xalatda görmüşdüm həmişə) qolumu əlləşdirirdi, deyəsən, sistem qoşurdular. Sonra üz-gözümün, boyun-boğazımın tərini silməyə başladılar. Onlar öz aralarında danışırdılar, biri hərdənbir: “Bu, oyandı, deyəsən... aaaz, Nazzı, bu oyandı eey! İnana bilmirəm, Ətağa cəddi, oyandı!” O biri isə: “Aaz, dayan bir baxım... həə, açıb gözlərini, vallah! Vallah, açıb gözlərini!.. Allah bunun qardaşının canını sağ eləsin! Xanoğlan müəllimçün olmasaydı, bu indi çoxdan oyannığ olmuşdu...” - deyirdi. Sonra onların arasında gedən belə bir söhbəti qulağım çaldı: “Nazzı, darıxma, deyəsən o, çox imkannıdı, yaxşı muştuluğumuz olacaq!... hər şey yaxşı olacaq, inşallah...” - “Aaz, bəxtəvərlikdən dəm vurursan, Feyruz həkim imkan verəcək ki?..” - “Baxma, necə olmasa, həkimdən yana Xanoğlan müəllim bizə də hörmət

eləyər, o boyda iş adamıdı. Deyirsən yəni hər gün bura göndərdiyi adamlar bizə görüm-baxım eləməyəcək? Eşitdiyimə görə, onun yaxşı pul xərcləyən əli var... Necə olmasa, Almaniyadan gətiriləndən bəri, gör nə vaxtdı bu bədbaxtın başı üstündə keşik çəkirik...” - “Aaz, pul zibilin dibi suda deyil eey, gör neçə ildi, on altı ildən yuxarıdı Bakıda, Moskvada, Almaniyada bu yazıqdan ötrü milyonlar töküb qardaşı... On altı il az deyil haa, bir igidin ömrüdü...” - “Elə, Allah da ona görə yetirir də ruzusunu, var-dövləti tökür başından belə qardaşın...” - “Amma gərək bizə xələt-mələt versələr, Feyruz həkim bilməsin, biabırçılıq olar... Zalım oğlu, Qurana əl basdıracaq yoxsa, gərək nəsə alsaq, ondan gizlədək...” - “İndi neyləyək, onsuz da Feyruz həkim yoxdu klinikada. Qoy bunun o arvada oxşayan həkimini, o nemesi... nədi onun familyası?.. nədi?..” - “Şayfler...” - “Hi-hi... yox bir, şifer... hə, qoy onu çağırım...”

Gözlərimi açmışdım. Nə baş verdiyini hələ dərindən anlaya bilmirdim. Başımın üstünə yığışmış üç tibb işçisinin üzünə maddım-maddım baxırdım. Reaksiyalarını hiss eləmirdim, çünki üzləri respiratorla örtülüydü, təkcə gözləri görünürdü. Onlardan biri kişiydi, ucaboy, arıq, uzunsifət göygöz bir adam idi. Deyəsən, alman dedikləri elə bu idi. Mənə baxıb-baxıb yüngülcə gülümsədi, əvvəlcə xaç çəkdi, sonra da bir əlinin yumruğunu düyüb, qolunu dirsəkdən üzünə sarı qatladı və şirin, yad bir ləhcədə astadan bircə kəlmə: “yesss!..” - dedi. Mən bədbaxtsa, bir qədər darıxan kimiydim. Amma xəstəxanada, özü də reanimasiya şöbəsində olduğumu dərk eləyirdim. Di gəl ki, niyə burdayam sualını özümə verməyə gücüm çatmırdı. Hələ könlümün quşu bu dünyada qonmağa bir yer tapmamışdı çünki... Söykənəcəyim, dayağım yoxuydu.Bacasından düşdüyüm bu dünyada hələ ki, “mənimdi!..” deyib sığınmağa bir bucağım yoxuydu...

Sonra o xarici adam getdi.

- Bu əməlli-başlı ayılıb, Nazzı... Görək, yenə o günkü sözü deyəcək? Aaz, nəydi o sayıqladığı? Hə?

- Nə bilim, aaz, o gün şlanqını ağzından çıxarıb təzələyəndə, mənim də qulağım çaldı, svetafor deyirdi, nə deyirdi bu...

Nə? Svetafor? Svetafor nədi? Bunlar nə danışırlar? Kəlləmin içində elə bil burulğan əmələ gəldi, yatmış beynimin üstünü sanki kül basmışdı, sovrulduqca, deyəsən, altından bəzi şeylər közərməyə başladı... Közərdikcə də işığı ağlıma aydınlıq gətirdi. Hə, hə, xatırlayıram, deyəsən... Hə... Svetafor yox, skeytbord! Yadıma düşdü! Hə, skeytbord! Akif dayımın oğlu Cahangirin bütün günü ayrıla bilmədiyi skeytbord! Səhərdən axşamacan ayağı altına qoyub həyət uzunu birböyürlü sürdüyü, bir suyu nəhəng ayaqqabı içliyinə, - azman çəkmə tərliyinə oxşayan, yastı, amma ucları yüngülvari qatlanmış taxta araba, yerdən cəmi beş santı hündürlükdə olan dördtəkərli arabacıq!.. Skeytbord!.. Amma mən niyə bu sözü dilimə gətirmişdim, başıma güllə də çax, anlaya bilmirəm. Özü də, bu, haçan olmuşdu? - yadıma gəlmir. Amma skeytbordun özünü xatırlayıram. Onu dayıma Moskvada Mərkəzi Dövlət Bankında işləyən Qrişa adlı bir həmkarı, yaxın dostu hədiyyə vermişdi, o da xaricdən oğlu üçün gətizdiribmiş, sadəcə, oğlu fərsiz, ağürək olduğundan, bu əyləncəli arabacığı sürə bilməyib ondan imtina eləmişdi. Təsadüfən, dayım da Cahangiri Moskvaya aparmışdı. Qrişa da bu qəribə hədiyyəni ona sürpriz eləmişdi. Dayımın onunla əlaqələri möhkəm idi. İşlədiyi dövlət bankının rəhbərliyi hər il Qrişanı Bakıya göndərirdi. Üzümün, pambığın “pripiskasında” bankla bağlı maliyyə əməliyyatlarının sənədləşdirilib yoluna qoyulması işində uzun həftələr boyunca dayımla birlikdə çalışırdılar.

Pripiskadan bacım Gülsümün əri Mirbaba da hər il yaxşı pul götürürdü. Onun ata-baba evi 4 nömrəli sovxoz qəsəbəsindəydi. Orada balaca həyətyanı sahələri vardı. Barmaq sayı tənəkləri olardı, ya olmazdı. Məhsul vaxtı özünü öldürsə də əlli kilo üzüm gətirərdi, ya gətirməzdi. Amma tonlarla yazdırıb "pripiska" eləyirdilər. Bu işlə məşğul olan bütün sovxoz camaatı kimi, bacımgil də yaxşı dolanırdı, yağın içində "06" da almışdılar, təzə ev də tikdirmişdilər. Di gəl, Mirbaba zırramaydı, adamlıq deyilən şeydən on verst uzağıydı, simicin biriydi, dırnağını yarsaydın, qəpik də çıxmazdı, qohum-əqraba zad da hərrəyən deyildi...

- Necəsən?.. - Qadınlardan biriydi. Sağ əlimdən tutub sakitcə halımı soruşurdu.

Gözlərimi qırpdım... Hə, deyəsən, qırpa bildim gözlərimi: yəni, yaxşıyam. Hə... bu zaman anam.. qəfildən anam düşdü yadıma... Anam hanı?! Anam hardadı?! Mənə noolub görən? Ölmüşəm?.. Ya ölüm ayağındayam, ölürəm bəlkə? Hanı bəs anam... Bu nədi? Ağzımın içinə, düz boğazımın yoluna şlanq soxublar?

Qarmaqarışıq bir səslə: "Ana... Ana..." - zarıdım.

- Nazzı, deyəsən, nəsə deyir bu... eşidirsən?..

Bu vaxt orta boylu, tökməçə bir kişi, boynunda fonendoskop yırğalana-yırğalana gəldi, üzümə baxdı, baxdı, çöhrəsi işıqlandı. Biləyimdən yapışıb nəbzimi yoxladı, sonra fonendoskopun uclarını qulaqlarına keçirib, nazik rezin borucuğun ucundakı yastı, girdə lövhəciyi ürəyimin üstünə qoydu, yerini dəyişə-dəyişə ciyərlərimə tərəf apardı, diqqətlə dinlədi. Sonra cibindən kiçik bir dəftərçə çıxardı, nəsə qeydlər etdi. Bu vaxt içəri iki nəfər də mavi geyimli tibb işçisi daxil oldu. Onlardan biri tez-tələsik göz qapaqlarımı qaldırıb bəbəklərimə baxdı, razılıqla başını tərpətdi və yanındakına nəsə pıçıldadı, eşidə bilmədim. Sonra bayaqkı xarici adam iki nəfərlə gəldi, onlar bir-biriylə anlamadığım hansı dildəsə pıçıltıyla danışırdılar, məni sakitcə böyrü üstə çevirdilər, deyəsən, yançağıma iynə vurdular, elə bildim cır arı sancdı... Sonra da, əllərinə rezin əlcək geymiş bu adamlar bütün bədənimi övkələməyə başladılar. Hərəsi bir tərəfimdən başlayıb xırda-xırda, qırçın-qırçın, aram-aram, ayağımın ucundan başımacan övkələdilər məni...

...İon lampasının işığı söndü.

Həyətimizdəydik. Üzüm çardağımızın altındakı qatlama çarpayıda halsız uzanmışdım. Anamın yaxşı, gümrah vaxtlarıydı, Gülsümlə böyrümdə oturmuşdular. Xanoğlan da ordaydı. Dayanmaq bilmirdi, siqareti siqaretə calayır, var-gəl eləyirdi, yanındakı da dostu Cavanşir idi - "matorist" Qəmbərin oğlu. Cavanşirin anası Xavər xalanın atam tərəfdən bizə qohumluğu da çatırdı. Amma elə də yaxın qohum deyildik, babalarımız uzaqdan-uzağa qız alıb, qız vermişdilər. Cavanşirlə Xanoğlan lap uşaqlıqdan can bir qəlbdəydilər. Aralarından su keçməzdi. O da Xanoğlan kimi türmə çəkmişdi, özü də bir neçə dəfə. Hər dəfə də nəşə üstə yatmışdı, daha doğrusu, nəşə alveri üstə. Cavanşirin ayaması Mığmığaydı. "Şeyburaxan Mığmığa" təkcə bizim rayonda yox, bütün Bakı narkomanlarının arasında da məşhur idi. Onun Bakıdan, Sumqayıtdan, Gəncədən də müştəriləri gəlirdi. Özü də itoynadanın biriydi. Hallanan kimi mırtı tuturdu, təkcə duzlu zarafatlarıyla deyil, həm də hərəkəti, baxışı, duruşuyla adamı qırırdı gülməkdən.Amma butılkayığan Şahnəzərin oğlu, başdanxarab Babaş günlərin bir günü "şey" üstə Mığmığanı bıçaqlayıb oyanlıq elədi. İndiyəcən yadımdadı, cavanlıqda Xanoğlanla birgə gəmiylə Türkmənistanagedib, Nebitdağ şəhərindən satlıq "anaşa" gətirmişdilər,

rayonda buraxırdılar. Bazar “kulokunu” konfet kağızı boyda parça-parça doğrayıb, hər birinin də içinə iki papirosluq anaşa qoyaraq üçbucaq şəkildə səliqəylə bükmüş, elə konfet kimi də yığmışdılar ciblərinə, birini beş manata satırdılar. İkisi də Cavanşirin balaca qardaşı Fazilin işlətdiyi “Gənclik” kafesinin qabağındakı Lenin bağında, skamyada oturub aerodrom şapkalarını peysərlərinə itələmişdilər, ikisi də tünd göy rəngdə “çarliston” şalvar, ağ rəngdə “tvist” ayaqqabı geymişdi. Heç kimdən qorxu-hürküləri yoxuydu. Maqnitafonda Rəmişin “Dolya vorovskaya”sına “polnı xod” vermişdilər, dünya veclərinə deyildi, özləri demişkən, “polnı kayfdaydılar”, çünki “uçaskovı” Qəribovun haqqını çatdırmışdılar. Bu vaxt dostum Əli ilə oturub söhbət eləyə-eləyə çay içdiyimiz həmin kafenin qabağında qırmızı rəngli bir “06” dayandı, bir nəfər düşüb onlara yaxınlaşdı, Mığmığayla o oğlan bir qırağa çəkilib, xeyli xısınlaşdılar, sonra kafeyə girdilər, bir azdan həmin oğlan əlində kağıza bükülü balaca bir bağlama eşiyə çıxdı və cəld maşına minib getdi. Maşın tini burulanda, Mığmığa kafedən çıxdı, əlini əlinə sürtüb bizim yanımızda çay içən Xanoğlana göz vurdu: “yarım kilo!.. ha-ha-ha!.. onun da hamısı “şey” deyildi, Xanış, Ətağa cəddi, tərəziyə qoymamış arakəsməyə salıb, manqalın qırağından qopartdığım yumruq boyda çay daşını kulokun içinə atdım. “Lox” idi, deyəsən, bilmədi. Yarım kilo çəkib qoltuğuna verdim, çıx aradan, dedim, tez elə, görən olar. Zalım oğlu “boy” getdi...”

Mığmığa söhbətini bitirməmişdi ki, həmin qırmızı “06” ildırım sürətiylə geri qayıtdı, dedim indi Kərbəla müsibəti qopacaq. İçindən həmin o taqqana kimi arıq oğlan düşüb təmiz Bakı ləhcəsində bağırdı:

- Alə, əmiyoğlu!.. Alə, qərdeş! Alə, Mığmığa, yekə cayılsan, bu nedü, alə? Bunun içindən qəmbər çıxdı ki!..

Kafenin həyətində, ağacların altında çay içənlər hamısı bu səsə döndülər.

Xanoğlanla Mığmığa bir-birinə baxdılar, ikisi də məst-xumar idi, birdən Mığmığa elə gülməyə başladı ki, az qaldı qəşş eləyə, sonra da gözünü qıyıb, bakılı balasına üzünü tutdu, özü də Bakı ləhcəsində qırıldatdı:

- Alə, bratişka, deyirsən kulokun içindən Qəmbər çıxdı? Həri? Alə, çıx aradan!.. Çıx aradan, alə, çox eşələmə, bir az da eşələsən, Qəmbər yox eey, Xavər də çıxacaq ordan, başa düşdün alə, davay, qoy üstə!..

Bakılı oğlan baxdı, baxdı, aldadıldığını anladı, nəsə demək istədi, Xanoğlanın əlində oynatdığı sümükdəstə bıçağı görüb, dirənib-durmaqdan vaz keçdi. Deyəsən, qorxdu ki, dara-bara eləsə, Xanoğlan onu yorta bilər.Heç nə demədi, hirsindən yerə tüpürdü, maşına minib qapını çırpdı, gəldiyi kimi də getdi...

Mən sonralar öyrəndim ki, bakılılar daşa qəmbər deyirlər. Mığmığasa, söhbəti fırladıb lağ-lağıyçün atası Qəmbəri, anası Xavəri soxmuşdu ortalığa.

Bu hadisə sonralar dillər əzbəri olmuşdu. Xüsusilə də, Mığmığanın “Çox eşələmə, bir az da eşələsən, Qəmbər yox eey, Xavər də çıxacaq ordan...” deməsi cayılların dilindən düşmürdü.

Hə, indi Mığmığa da burdaydı, Xanoğlanla xısın-xısın söhbət eləyə-eləyə, arıq, çubuğa oxşayan barmaqları arasında şaqhaşaqla təsbeh oynadırdı...

Anam hərdən titrək barmaqlarıyla saçlarıma sığal çəkir, əlini üzümdə gəzdirirdi. Hər dəfə əlini üzümdə gəzdirəndə barmaqları, elə bil, süd qoxuyurdu, kəsmik, qaymaq, süzmə qoxuyurdu... Bu qoxunu acgözlüklə ciyərlərimə çəkirdim, bu mənim uşaqlığımın qoxusuydu... Heç yadımdan

çıxmaz, pionerə keçdiyim gün sevinə-sevinə, uça-uça evə gəldim, boynumda da qırmızı ipək qalstuk. Anam həyətdəydi. Çardağımızdan dərib iri, mis teştimizlə bir qalaqladığı kişmişi üzümü yuyurdu. Gözü qəfil boynumdakına sataşdı, "bıy, sənə qurban!.." deyib, tezcənə islaq əllərini ətəyinə sildi, məni bərk-bərk bağrına basdı. "Həmişə belənçiy ol, bala, söyündüm... - dedi. - Allah səni söyündürsün!.." Sonra əlini qoynuna salıb şax bir beşlik çıxartdı. O, pulunu həmişə qoynunda, özü demişkən, "qoşapapağ"ında saxlayırdı (heç bilmirəm bu sözü hardan fikirləşib tapmışdı, sonralar hər yadıma düşəndə gülmək tuturdu məni). Pulu mənə verincə "ana qurban, kinoya gedərsən, dondurma alarsan, məktəbin bufetindən "Qızılgül" limanatı alarsan özünə. Sonra, bilirəm dayanan döyülsən, qalanını da Xəccənin dükanında qəşəy kitablara verib gətirərsən öyümüzə, yavaş-yavaş oxuyarsan özünçün..." - dedi. (O bilirdi ki, əlimə düşən pulu "Qızılgül", "Sumağ" limonadına verib tökürəm qarnıma, həm də kitab dəlisiyəm. İçində yazılanları qandım-qanmadım, cürbəcür kitablar alıb yığıram rəfə, sonra da qışda sobanın böyründə, yaydasa çardağın altında uzanıb bala-bala oxuyuram özümçün.) Sonra da gülümsündü: "bir dayan görüm, Tağıbala, götür, gör nə qəşəy üzüm dərmişəm sənə, lap bal kimidi..." Bütün ömrüm boyu gördüyüm, daddığım çox şeyi unuda bilərəm, amma o gün yediyim o bir salxım kəhrəba sarılığındakı kişmişi üzümün dadı heç vaxt damağımdan getməz... Bir də anam məni bağrına basanda ciyərlərimə çəkdiyim, tərli qoynundan gələn o süzmə, kəsmik, nə bilim, qaymaq qoxusuna bənzər iy unudulmaz heç vaxt...

İndi anamın əllərindən həmin o munis qoxu gəlirdi. Bir əlim isə, bacım Gülsümün ovcundaydı. O da, hərdən əyilib yaşla dolan gözlərimdən öpürdü. Onda daha da kövrəlirdim... Bir az aralıda bir topa adam durmuşdu, öz aralarında nə haqdasa astadan danışırdılar. Heç birinin üzü görünmürdü. Təkcə anamın "can... can..." deməsindən başqa heç nə eşitmirdim o an.

Qəribədi, o adamların arasında Topal ayamalı Güləhməd kişini də gördüm - ömrü boyu rayonumuzda çarıqçı işləmiş Güləhməd kişini. Görəsən o burda neyləyirdi? O, mağmın, fağır bir insanıydı. Xeyli də yaşı vardı. Ömrünün axır-uxurunda Məişət Evinin birinci mərtəbəsində balaca bir köşk götürmüşdü, çarıq çoxdan dəbdən düşdüyü üçün pinəçilik eləyirdi, çəkmə yamayırdı, ayaqqabıların dabanına nal vururdu. Onda xalturaya təzə başladığım vaxtlar idi, bir gün Güləhməd kişi onu Ağsuya aparmağımı xahiş elədi, dedi: orda bir peşə dostu yaşayır, xəbər gəlib ki, ölüb. Bəs, onun yasına getmək lazımdı. Razılaşdıq. Sən demə, bu kişi nə Bakını, nə Şəkini, ümumiyyətlə, bütün ömrü boyu rayonumuzdan başqa heç yanı görməyibmiş. Dediyinə görə, sadəcə, qismət olmayıbmış. Mən eynən belə bir adam tanıyırdım, yəni ölənəcən doğulub böyüdüyü doğma rayonumuzdan heç yeddi ağac da o yana keçməmişdi, bir addım da qırağa çıxmamışdı, adına çörəkçi Qozbel Cuma deyirdilər. Həm də deyirdilər ki, Cuma kişi ilk dəfə televizoru görəndə səksənə yaxın yaşı olub. Görüb də kişinin matıqutu quruyub. Televizorda da balet göstərirlərmiş, əndamları əvərdə qalan yarıçılpaq qızlara baxıb, baxıb, heyrətə gəlib, köksünü ötürüb, deyib: "Şükür, a Qozbel, bunu da gördün! Kül Nikolayın başına! Eşşək gəldi, eşşək getdi bu dünyadan. Bunları görmədi..." Amma Güləhməd kişi Cumanın tayı deyildi, mən onu özlüyümdə dünyagörmüş sayırdım.Özünün heç yanı tanımadığını etiraf etməsi məni heyrətə gətirdi. Yadıma gəlir, onda mayın əvvəliydi, hər tərəf yamyaşılıydı, düzü-dünya gül-çiçək qoxuyurdu, hava aydın və günəşliydi. Ağsu aşırımındakı avtomobil müfəttişliyi postunu

keçəndən sonra, dolaylar başlamamış birinci döngədəncə bütün Aran bir azman tablo kimi, bir xəritə sayağı gözümüz önündə canlandı. Güləhməd kişi heyrətdən içini çəkdi, məndən soruşdu:

- Bacıoğlu, sən Allah, bu görünən torpaqlar hamısı bizimdi?

Dedim:

- Hə.

Bu dəfə lap dərindən, körpə bir uşaq heyrətiylə içini çəkib, "hiii" elədi:

- Pah atonnan! - dedi. - Allah, sən saxla! SSRİ nə boyda olarmış, ayə! Nə boyda olarmış bu SSRİ, hə?!.. Sən atanın goru, bir fikir ver eey...

Sonra hərlənə-hərlənə aşağı endikcə dolaylarda başı gicəlləndi, maşını saxlatdırıb kolluğa soxdu özünü, ögüyüb qusdu. Tezliklə də öz halını unudub, kolların arasından yenə aşağılara boylandı:

- Fikir verirsən, sən Allah? Gör SSRİ nə boydaymış eey, ayə, hə?..

Hə, indi həyətimizdə topalaşanlar arasında, çox qəribədi ki, Güləhməd kişi də vardı. Yox, məni qara-zad basmamışdı, ordaydı, taytıya-taytıya hərlənir, demisini tüstülədirdi...

Tut ağacımızın altında böyük bir masa vardı. Qırağına iri bir ət maşını bərkitmişdilər. Altına da yekə bir teşt qoymuşdular. Bu ət maşınından heç yerdə görməmişdim, lap restoranlardakından da iriydi, adamı dörd yerə şaqqalasaydın rahatcayerləşərdi gözünə. Onun yanında durub ucadan nəsə danışan bir nəfər vardı ki, üzü o yana olduğundan, tanıya bilmirdim. Bu dəmdə o, qəfil şaqqanaq çəkib güldü, üzünü bizə sarı çevirdi, canımdan bir gizilti keçdi. Gördüm ki, bu gülüş tanış gəlir. Özümü toparlayıb, baxışlarımı o səmtə yönəltdim. Görən kimi tanıdım! O idi! Qoca!.. Daun!.. Qulyabanı!.. Doktor!.. Dədə Qorquda oxşayan kişi! Dünyamalı!.. Goreşən!.. Ət maşını bağlanmış masadan, ora toplaşanlardan ayrılıb, əl ağacını yerə vura-vura nəsə üyüdüb-tökürdü, deyəsən, "İyirmi birinci!.. İyirmi birinci!.." deyirdi. Deyə-deyədə mənə sarı gəlirdi... Bağırdım. Bağırmağımla da qulaqlarım batdı...

...İon lampasının işığı çox zəif gəlirdi... Gözümün ucuyla birtəhər baxdım, hə, işıq öz yerində - tavandaydı, yanırdı. Övkələyəndə böyrü üstə necə çevirmişdilərsə, eləcə də qalmışdım. Deyəsən, zarıyıb, öz səsimə oyanmışdım. Çünki tibb işçilərindən biri yavaşdan: "Zarımağını kəsdi..." - deyəndə, qulağım çaldı. Danışmaq istəyirdim. Amma necə danışaydım? Şlanq boğazımın yolundaydı axı. Necə danışaydım? Dilim ağzımda ölüydü axı. Kiminlə danışaydım? Üzümü divara çevirmişdilər axı, heç kimi görmürdüm. Nə də qanrılmağa gücüm çatmırdı. Lap elə kiminləsə danışası olsam belə bilmirdim nədən başlayım, nə deyim, nə soruşum. Ağzımın içi tumturş idi. Elə bil cır alça yemişdim, yoxsa lavaşana turşusu yemişdim, dilim pörşələnmişdi. Elə bil, dodaqlarımı tərpətsəydim içəridən parça-parça olacaqdı. Bir yandan da ki, bu şlanq... Amma gözlərim diriydi. Bircə gözlərim... Bəmbəyaz divara zillənən gözlərim yol çəkirdi özüyçün, sonu görünməyən bir yol... Yolun bəri başında mən idim, o başında nə durduğunu bilmirdim, təbii. Yəqin ki, belə getsə, bilməyəcəkdim də heç... Amma gözlərim elə aydın yol çəkirdi ki... Kömür götürüb içində istədiyini yaza bilərdin asanca, istədiyini çəkə bilərdin...

## *– 4 –*

Artıq iyirmi səkkiz gündü ayılmışam. Ayılmağımı hələ də düz-əməlli dərk eləyə bilmirəm. Başıma gələnlərlə bağlı deyilənlər mənə inandırıcı görünmür. Sən demə, on altı il dünyadan təcrid olunmuş bir

şəkildə - komatoz vəziyyətdə qalmışammış: on altı il, bir ay, on iki gün! A tövbə, əgər inanıramsa! Bu keçən vaxtda nələr olmayıb, nələr?! Anam ölüb... SSRİ dağılıb... Biz indi ayrıca ölkə olmuşuq... Ermənilər, axır ki, Qarabağı alıblar... Xanoğlanın işbacaran, zəmanədən baş çıxaran ağıllı dostları yaxşı yerlərdə çalışırlar və sağ olsunlar, onun özünü də Rusyətdən çağırıb pullu bir işə qoyublar, qorxma, deyiblər, hökümlü kişisən, bacaracaqsan. Bir də deyiblər, bax, vəzifəyə ki, gəldin, var-dövlət, hakimiyyət qoyun quyruğu kimi bir şeydi, başını aşağı sal, yala yalaya bildikcə, kef elə ömrün boyu özünçün, amma dişini basma haa, onda zibili çıxacaq, necə deyərlər, xiyar əyri bitəcək... Bilirəm, bunları yaxın dostu Elcan başa salıb ona. Elcanın atası Sabir Alıyev vaxtilə 2 nömrəli üzümçülük sovxozunun direktoru işləyirdi, atamın da yaxın dostuydu, var-dövləti başından aşırdı, rayonda beş kişidən biriydi. Elcan da ki, gözünün ağı-qarası bircə oğluydu. Cahıllığında anaşa çəkməsə də, yaxşı içməyi vardı Elcanın. Xanoğlanla da çox yaxın idi, rus məktəbində bir sinifdə oxumuşdular. Bir-birlərini həmişə itirib-axtarırdılar. Elcan atasının maşınını götürür, Xanoğlanla tez-tez Bakıya gedib-gəlirdilər. Xanoğlan mənə deməsə də, ordan-burdan eşidib-bilirdim ki, "İnturist", "Bakı", "Moskva" mehmanxanalarına bazlığa gedirdilər, ordakı kafelərdə, barlarda keflənib pozğun qızlarla əlli oyundan çıxırdılar. Deyilənə görə, cahıllığında Elcanla içmək hər oğulun işi deyilmiş. Yadımdadı ki, atası Elcanı Kirovabadda qiyabi instituta düzəltmişdi, həmin ili Sabir Alıyevin əliylə atam da pul verib Xanoğlanın adını yazdırmışdı ora. Bu münasibətlə böyüklərə yalvar-yaxar eləyib icazə almışdılar, bir həftəliyə Kiyevə gəzməyə getmişdilər. Bir gün orda necə keflənirlərsə, küçədə heç bir taksi onları götürmək istəmir, məcbur olub tramvaya minirlər, içəri basırıq olur, turnikdən sallanırmış kimi güc-bəla ilə tutacaqdanyapışıb dururlar. Bir qız da eləcə tutacaqdan birtəhər yapışıb, sallaq vəziyyətdə onların böyründə durubmuş. Elcanın kefli başı necə salıxırsa, qartal dimdiyinə oxşayan burnu qızın qoltuğunun altınagirir, bir xeyli belə gedəsi olurlar. Yayın günü, bərk isti, darısqal, tıxılı-təpili tramvaydakı tünlük, qızın qoltuğundan gələn tər iyi onu möhkəmcə bezdirir, ha əlləşir, basırıqda heç cür burnunu qızın qoltuğundan çəkib çıxarda bilmir, yol uzunu donquldanır, axırda hirslənib gözləri yumulu vəziyyətdə qıza deyir ki: "a qancıq... ya ayağını aşağı sal... ya da tumanını geyin əyninə..." Zalım oğlu o qədər kefliymiş ki, doğrudan da elə bilirmiş yuxarı qalxan qızın qolu yox - qıçıdı, burnu da qızın qoltuğunda deyil - paçasındadı... Xanoğlan deyirdi ki, Elcanın Allah üzünə baxdı, o sözləri öz dilimizdə dedi, rusca desəydi qırğın düşəcəkdi... Çünki tramvayda boksçuya oxşayan, öküz kimi cantaraq oğlanlar da vardı, onlar da kefliydi və bizə pis-pis baxırdılar, xüsusilə də, qızın qoltuğunu burnuyla eşələyən Elcana...

Hə, indi, həmin Elcan böyük, karlı bir işdədi, Xanoğlanı da alıb qanadı altına. Xanoğlan da uzun illərin sınağından çıxmış bir dost kimi arxa-dayaqdı ona, özü dəmaşallah, nəhəng bir iş adamıdı, pula pul demir day. Həm də mən görən Xanoğlandan əsər-əlamət qalmayıb, dəyişib: qalstuk-filan, bahalımaşınlar, köməkçilər, cangüdənlər...

Deyirlər,Məlişi intihara məcbur eləyən İman da ağ günə çıxıb indi:Rusyətdə o da özünə görə söz sahibidi, hər yerə - lap Kremləcən əli çatır...

Heç vaxt görmədiyim cib telefonu, videomaqnitafon dünyanı bürüyüb az qala. Öz pulumuz da var, adına "Məmməd", "Şirvan" deyirlər. Amerika pulu dollar da yaman dəbdədi... Bakıda binalar tikirlər ki, göyün üzündə - adam

baxanda papağı düşür... Hər şey yuxu kimi gəlir lap... Deyirlər, hələ ölkədə o qədər xarici maşın artıb-çoxalıb ki, "Jiquli"lərin üzünə baxan yoxdu... Mənim gördüyüm həyat bütünlüklə kəllə-mayallaq olub, dəyişib. Divarın o üzündəki dünya məndən ötrü sirri-xuda kimi bir şeydi indi.

Xanoğlan birinci dəfə gələndə məni necə qucaqladı, necə hönkürdüsə, o dünyanı görüb qayıtdım, özüm də qoşuldum ona. Xeyli söhbət etdik, axırda: "Darıxma, səni tam sağaltdıracam, tapança kimi olacaqsan, əvvəlkindən də gümrah!" - dedi, sonra da əyilib qulağıma: "Sağal, dur, səni qəşəng bir işə qoyduracam. O gün Elcanla danışıb həll eləmişəm..." pıçıldadı. "Hansı işdi o elə?.." - soruşdum. Gülüb: "Əla bir vəzifədə olacaqsan ...Necə başa salım səni, keçimişdə katib olurdu haa, bax elənçik bir həyat sürəcəksən, bəlkə ondan da yaxşı yaşayacaqsan, bildin?.. Şef olacaqsan, şef... Çim yağ..."- dedi. Başımı yırğalayıb güldüm, heç nə demədim, özlüyümdə: "mən hara, elə bir günü görmək hara..." fikirləşdim. Həm də düşündüm ki, "elə bir həyatın dadına baxmaq, bəlkə də pis olmazdı..."

Günlər keçdikcə, halımın yaxşılaşdığını duyurdum, amma dünyadan xəbərim yoxuydu. Xəbərlərin çoxunu mənə xısın-xısın bacım Gülsüm çatdırırdı. Xeyir xəbərdən də, bəd xəbərdən də gözlərim bulud kimi dolub-boşalırdı. Bu yaxında Mirbaba da ölübmüş. Möhkəm içkili olub, yatıb-ayılmayıb. Gözünün ağı-qarası bircə qızı Laləni köçürən Gülsüm isə, o boyda damın altında yalqız qalıb. Kürəkəni Mirbabanın əmisi oğludu, Tofiqdi adı, torpağı sanı yaşasın, elə onun kimi də zındığın, tərsin biridi, deyir, neçə ildi qızı da götürüb gedib Rusyətə, orda tikinti işinə baxır, hələ gəlmək istəmir, düşəndə bir dəfə zəng eləyir, vəssalam. Yaxşı ki, Xanoğlanın qurdu ulayıb, o boyda nüfuzu var. Şükür, heç olmasa, məni ölməyə qoymayıb, ağlasığmaz pullar töküb yolumda. Gülsümü də alıb qanadı altına, əvvəlcə: "İşləmə..." - deyib, sonra da evdə qalıb darıxmasın deyə, rayonda bağça müdiri qoydurub. Gülsüm danışır ki, Xanoğlan rəhmətlik Xanmusa babamın vaxtilə meşəbəyi işlədiyi Cəngi meşəsində böyük villalar tikdirib. Soruşdum ki: "villa nədi? kapitalistlərinki kimi?" Dedi: "hə, elənçik - birini özünə, birini də Elcan üçün tikdirib." Bu sözlərə heç inanmırdım, necə yəni, dövlət qoruğunda ev tikmək olar? Özü də kapitalistlərinkindən. Bunlar mənə çatmırdı. Bəs partiya hara baxır? Hələ bacım deyir ki, evin açılışında Xanoğlanın bərkgedən dostları yığışıb gəliblərmiş, üç gün, üç gecə yeyib-içib kef eləyiblər. Hələ Rimanın dediyinə görə, qumar da oynayıblar, Xanoğlan üç gündə yüz min dollaracan pul udub... Eşitdiyim bu xəbərdən gözüm kəlləmə çıxır, sonra da: "Bəs Rima kimdi?" - soruşuram. Deyir: "Xanoğlanın ikinci arvadıdı, yəhudi qızıdı, köhnə Bakı yəhudisidi. Çox dünyagörmüş qadındı. Ondan əvvəl birini gətirmişdi Rusyətdən, adı Anyaydı, mehriban bir qız idi, amma nəsə dolanmadılar, Xanoğlan deyir ki, yekəbaşlıq eləyirmiş, cavab qaytarmaq-filan... Elə həmin ili də döydi dalından. Bir qızı da var ondan, Lyuba adında, yeməli bir uşaq idi, verdi qoltuğuna, saldı yola, Xanoğlanı bilmirsən?... Rimadan da bir qızı var - Röya... maraldı deyirsən... amma hələ balacadı...

Anamı soruşuram, anamı!.. Gözümün bulağı qaynama kimi qaynayır, uzandığım yerdəcə hiss edirəm ki, üzümün qırışlarıyla süzülən göz yaşlarımdan boynum-boğazım necə islanır.. "Necə oldu axı?.. Bildimi başıma gələni?" - soruşuram. Səssizcə ağlayır. Mənim də, özünün də göz yaşlarını titrək əlləriylə silə-silə: "Hə, bildi,Tağı, bildi... Heç cür gizlədə bilmədik... - deyir. - Dözmədi... Rəhmətə gedəndə burda yox idin, onda Xanoğlan səni dörd il idi Almaniyaya göndərmişdi. Gözümüzün qaba-

ğındaca, “Tağı...” deyə-deyə tapşırdı canını... Xanoğlan çox əlləşdi - xilas eləyə bilmədi anamızı... Sən yoxsan deyə, ölənəcən əl-ayağına xına qoymağa heç kimə icazə vermədi...”

İçimdə qarağaclı dərənin nifrin uğultusu oyandı... Qulaqlarım yenidən batdı. Gözümün qabağında anamın gözəl surəti canlanırdı, artıq Gülsümün danışdıqlarını eşitmirdim...

* * *

... Daun alaqaranlıqda, elə həmin gözətçi daxmasının qabağındaca hamımızı cərgəyə düzmüşdü. Sıralarda xeyli adam vardı: Davud, Məliş, Xanoğlan, Elcan, İman, Topal Güləhməd, Qozbel Cuma, Taygöz Ağasəfər, Tumsatan Bikə, Səy Usub, Şit Məhərrəm, Mığmığa, Faradey, Qubad kişi, Feyruz doktor, Akif dayım, tibb bacıları, Gülsüm, Mirbaba... Tanıyıb-tanımadığım o qədər adam var idi ki... bəs deyincən...

Hələ “Yeni həyat” kolxozunun qocaman çobanı, “Lenin ordenli” Qardaşxan kişi də dəydi gözümə, qəddi həmişəki kimi şax idi. Yalan-doğru, deyirlər, bir dəfə yaylaqda Qardaşxan kişi ata minib rayona sarı üz tutur ki, gedib bazarlıq eləsin. Duzan yaylaqlarından xeyli aralanıb enibmiş Qozlu çaya sarı, dalıyca çaparaq bir atlı gəlir ki, əşi, qayıt, arvadın can üstədi, ölür. O, qocalığına baxmayıb atı dördnala çapır geriyə, görür çoban-çoluq yığışıb alaçığın başına, qız-gəlin, arvad-uşaq ağlaşır... Qardaşxan kişi: “Nə var?! Nə yığışmısız bura?! Burnunuzun suyunu nə axıdırsız?! Cəhənnəm olun! İtilin burdan!” - deyib bağırır üstlərinə, alaçığın içindəkiləri də, çölündəkiləri də qovalayır, özü girir içəri, yorğan-döşəyə düşmüş arvadının yanına... Deyirlər, yarım saatdan sonra kişi şalvarının belini bağlaya-bağlaya çıxdı içəridən, təzədən atı minib rayona sarı çapıb getdi, bir azdan arvad da başında çərtməsi, belində qurşağı, lap buz baltasıtək, yanaqları qızara-qızara çıxdı içəridən, heç nə olmayıbmış kimi, başını aşağı salıb başladı alaçığın həndəvərini süpürməyə...

Deyirlər, Qardaşxan kişinin Doluxan adında bir dədəsi olub. 60-cı illərdə yüz on altı yaşında ölüb. Doluxan kişi yeniyetmə çağlarında bir gün Küdrü düzündə - qışlaqda heyvan otarırmış, dəmir yolunun təzə çəkilən, qatarların təzə-təzə üzə çıxan vaxtları olub, o isə bunu hələ görməyibmiş. Qatar qamışlığın arasından qəfil necə çıxır, fit verib taqqataraqla necə keçib gedirsə, o, qorxudan heyvanları düzdə buraxıb yatağa sarı götürülür, gəlib deyir ki, “ayə, sən ölməyəsən, nəydisə, uzun, qara bir şey idi, qamışlıqdan çıxıb nərildəyə-nərildəyə baş alıb getdi. Allah üzümüzə baxdı ki, düzünə getdi. And olsun Yaradanın birliyinə, əgər köndələninə, böyüryanı getsəydi, kəndi-kəsəyi süpürüb aparacaqdı...”

Qardaşxan kişinin nəvələrindən biri - Cavad orta məktəbdə mənimlə bir sinifdə oxumuşdu. Bu, onların oturaq həyata başladıqları ilk illərə təsadüf edirdi. Yaxşı mal-qaraları, var-yatırları olduğu üçün Cavad məktəbi bitirəndə dədəsi Qazıxan kişini hərifləyərək iyirmi min pulunu alıb oğlunu rayondakı zootexnikuma düzəltmişdilər. Həmin illərdə iyirmi min ən bahalı ali məktəbin - tibb institutunun qiymətiydi. Ən maraqlısı o idi ki, qəbulda yazılı imtahan verəndə Cavad öz adında səhv eləmişdi: Cava yazmışdı, “d”-nı yadından çıxarmışdı. İmtahan götürən müəllimsə, şellənə-şellənə uşaqların içində Cavadı pərt eləməkçün, bəlkə də məzələnməkçün demişdi ki, “sən adını da yaza bilmirsən? bəs hanı burda “d” hərfi, a bala?” Cavad da ağızdan çox pətərək idi, əsil çoban balasıydı, söz ki gəldi - deməliydi, təpəsinə güllə vursan da, dilinə gələni saxlayan deyildi. O

zaman eləməyib tənbəllik, həmin an bu rüşvətxor müəllimin cavabını vermişdi, demişdi ki, "miyəllimin yekəbaşlığına baxın eey... ay miyəllim, mən "d" yaza bilirəm? "d" yazsaydım, day o iyirmi mini sənə niyə verirdi dədəm, hıı?.." Müəllim uşaqların qarşısında qalmışdı qıqqıldaya-qıqqıldaya...

İndi Qardaşxan kişi kimi Doluxan kişi də, Qazıxan kişi də burdaydı, görünür... Hələ axtarsaydım, Cavadı da tapardım. Çünki tayfa dediyin şey ayrılmazdı, məncə. Həmişə - ölümdə də, dirimdə də birgədi.

Qaynaqçı kamodpaça Mikayıl da dəydi gözümə. Mikayılın dədəsi Əzəmət kişi məşhur tərəkəmə nəsli Cidarlılardan idi. Köçərilik vaxtı, necə olursa, təsadüfən rayon yerində bir toya gəlir. Sən demə, birinci dəfəymiş rayon toyundaymış, həm də, ilk dəfəymiş klarnet görürmüş. Görən kimi böyründəkini dümsükləyib, heyrətlə bağırıb: "Hay dədə vay!.. Gör nə boyda zurnadı, ayə! Xal atıb!.." Hə, onu deyirdim axı, yazıq kamodpaça Mikayıl bir dəfə gecə gözü bacısıgildən qonaqlıqdan gələndə yun darayan Səməndərgilin hasarının dibindən bir "Makarov" tapançası tapmışdı, kefli-kefli göyə bir güllə atmışdı, tutub aparmışdılar itxanaya... Arvadının qızıllarını, qardaşının "Jiquli"sini satıb vermişdi, altı aylıq get-gəldən sonra bir zülümlə canını qurtarmışdı... İndi o da cərgənin bir başında dayanmışdı, əyri qıçları gülməli şəkildə əsirdi...

Bir yanda da el anası Rübabə nənə durmuşdu, daha doğrusu, - el mamaçası. Yumaq kimi bükülmüşdü. Gözünün ağı-qarası bircə oğlu Heydərin Stalinqrad uğrunda döyüşdən qara kağızıgələndən, ta ki axır nəfəsinəcən evində çıraq yandırmamışdı. 50-ci illərin sonlarında rayonda hamı evinə elektrik işığı çəkdirəndə, o, imtina eləmişdi. "Balam zulmatda yatacaq, mən işıqda oturacam?" - demişdi. Bir dəfə də, deyilənə görə, onu cinlər aparmışdı. Hadisə belə olmuşdu: qılınc kimi kəsən şaxtalı bir qış gecəsi qapısı döyülür, iki kişi xeylağı, bir də bir qadın yalvarıb-yaxarırlar ki, bəs, ağrı çəkən bir zahı var, azad olmalıdı, ümidimiz sənədi, amandı, gəl gedək, körpəni tut... Rübabə nənə onlara qoşulub gedir. Gethaget, gethaget... gəlib şəhərin qırağında "At qəbiristanlığı" deyilən kimsəsiz dərəyə çatırlar, burada yaraşıqlı bir ev görür, içi də dolu adam. Onu zahı yatan otağa gətirirlər, çox keçmir, qadını doğuzdurur, körpənin göbəyini kəsir, ciftini götürür, deyirlər: indi quymaq da çal. Necə lazımdısa, böyük bir teştdə quymağı çalır. Sonra doğulmuş oğlan uşağının eşqinə vur-çatdasın başlayır, çalıb-oynayırlar, Rübabə qarını da oynadıb çoxlu şabaş verirlər, başına pul yağdırırlar, deyirlər indi də otur sən də bizimlə quymaq ye. Razılaşır. Süfrəyə oturub "Bismillah..." eləyən kimi dünya başına fırfıra kimi fırlanır... hər yan zülmətə qərq olur, gözlərini yumur ki, "Ay Allah, bu nədi belə? Nə zülmə düşdüm, ya Rəbbim?.." Handan-hana özünə gəlir, gözlərini açınca görür ki, doğrudan da "At qəbiristanlığı" deyilən dərədədi, heç bir ev-filan yoxdu, yalqızdı, əynində bircə gecə köynəyi var, baş açıq, ayaq yalın, ətəyi şabaş əvəzinə quru xəzəllə doludu, qarşısında quymaq əvəzinə iri bir mal təzəyi var, əlində də çömçə yerinə bir ağac... Özündən başqa heç bir ins-cins yoxdu... Ordan titrəyə-titrəyə evlərinə bir zülümlə gəlib çıxır, qohum-qonşunun - Nisə xalanın, Hökmə arvadın qapılarını döyüb ayağa qaldırır, hər şeyi olduğu kimi danışır... Özü də azarlayıb uzun müddət yatağa düşür... O vaxtdan, bu el anası, bu mamaça, bu yengə kimi ad çıxarmış qarı, başını kəs - gecə gözü heç kimin çağırışına getməzdi...

Rübabə qarının ara həkimliyi də vardı, elə dərdlərə dərmanlar bilirdi ki, indikilər yüz il də əlləşsə, tapa bilməz. Bir dəfə uşaq vaxtı, Damar Kubranın yetimçəsi İldırımla qışda Garıslar məhləsində kirşə sürürdük.

Məhlə uşaqlarının hamısı ordaydı. Küçə üstənaşağı olduğuna görə kirşələrimiz uçurdu. Bənna Ələsgər kişinin evinin tinində, maşınlar sürüşüb dəyməsin deyə, dikinə basdırılmış böyük bir dəyirman daşı vardı, Nuh-nəbidən qalma bir şey idi. Qəfildən İldırımın kirşəsi yoldan çıxıb ona necə çırpıldısa, yazığın ağlı gizləndi. Uşaqlarla birtəhər evlərinə gətirdik. Qıçının lülə sümüyü dizdən aşağı xurd-xəşil olmuşdu. Yazıq Kubra xala yığvalsız gədəni altı ay o həkimə, bu həkimə sürüməkdən yoruldu, axırda da dedilər sümüyündə çürümə gedir, qıçı kəsilməlidi. Hə, bax o zaman kimsə Kubra xalaya məsləhət görür ki, tələsmə, sən uşağı bir Rübabə qarıya da göstər. Gətirir, qarı baxır, o dəqiqə də deyir ki, sağaldaram, qorxma. Damar Kubranın sevindiyindən ürəyi gedir. Qarı deyir ki, gözdə-qulaqda ol, qohum-qonşuda qancıq it olmamış olmaz, doğan kimi balasının birini götür gəl yanıma, sonrasıyla işin yoxdu, qırx günə uşağın qıçını sağaldacam. Kubra xala, gəzir-soraqlayır, elə həmin gün üç-dörd küçə o yanda, Qurdlar məhləsində yaşayan quşbaz Temirazın qancığının balalaması xəbərini alır. Gedib dərdini onun arvadına danışır. Arvad ərindən qorxsa da, Damarın uşağına yazığı gəlir, hələ gözü açılmamış küçüyün birini gizlincə torbaya qoyub ötürür ona. Mən bilmirəm nə dərəcədə düzdü, deyirdilər, qarı balaca, birgünlük küçüyün qarnını ülgüclə diri-diri, uzununa yarıb, eləcə İldırımın qaralıb çürüməkdə olan lülə sümüyünün üstünə qoyur və üstündən də yun şalla sarıyır, anasına da tapşırır ki, bax, uşağın çığırığı göyə də çıxsa, sarığı açma haa, qırx gün iylənib qoxusu dünyanı bürüyəcək, amma dözün, başqa əlac yoxdu, qorxmayın, hər şey yaxşı olacaq, qırxıncı günü gətirərsiz yanıma, özüm açacam onu. İldırım yazıq, düz qırx gün çığırıb, səsi aləmi götürüb, amma anası qoymayıb sarığı açsın. Ana-bala iyin-bıyın əlindən gecə-gündüz burunlarına pambıq tıxayırlarmış. Yazıq deyirmiş ki, qoyun qıçımı kəssinlər, razıyam, day dözə bilmirəm, amma açın bu sarığı... Nəhayət, qırxıncı gün anası fağır yetimçəsini anqırda-anqırda gətirir qarının yanına, açırlar, yuyurlar... gül kimi!.. heç elə bil, zədə yeri qaralıb- eləməyibmiş, düzdü, dizdən aşağı lülə sümüyünün yerində hardasa yarım qarış uzunluğunda çökəklik əmələ gəlmişdi, amma sağalmışdı, həm də, elə bil dərisi anadangəlməydi, nə vaxtsa yara yeri olduğu bilinmirdi. Di gəl, bu hadisəni o zaman kimsə rayon qəzetinə çatdırmışdı, Rübabə qarının karikaturasını çəkib, haqqında bir felyeton da yazıb biabır etmişdilər. Amma əsas odu ki, İldırımın qıçı kəsilmədi, o, heç axsamadı da, sonralar hələ yaxşı qaçmağı və futbol oynamağı da oldu...

...Hə, sayıb-sadalamaq mümkün deyildi. İndi bu adamların hamısı burdaydı. Elə bilirdim ki, Daun onları bir göz qırpımında tilsimləyib milçək kimi hörümçək toruna dırmaşdıracaq, sonra da o toru yumurlayıb basacaq mənim yarama... Bu fikrin ağlıma hardan gəldiyini bilmirəm. Elə bilirdim ki, bu uzundraz doktor bu adamları,ən azından, xışmalayıb həvəngdəstədə döyəcək, onlardan məlhəm düzəldib başımdakı çapığa, öz boğazındakı yırtığa qoyacaq və hər şey qaydasına düşəcək... Bəlkə, yardığı o küçük kimi Rübabə qarını paralayıb yapışdıracaqdı buz bağlamış gündoğana və qırx gündən sonra sabah açılacaqdı, hə?.. Yara deyilən, dərd adlanan şeylərin dərmanı bu adamlar idimi, İlahi?.. Bu axmaq fikir hardan girmişdi ağlıma?.. Yox, elə deyildisə, bəs bu adamları o, niyə yığırdı buraya? Qardaşxanın, Doluxanın, Qazıxanın, Cavadın, Mikayılın... burda nə işi vardı, axı? Bəlkə, bu adamları hansısa tiyanda bir-bir qaynadıb alınan cövhəri üfüqlərə çiləyəcəkdi ki, dünyanı bürüyən riyakarlığın murdar qoxusu yox olub getsin?.. Bilmirəm...

Baxanda gördüm ki, doktorun saqqızlığındakı yırtıq bir az da qaralıb, saç-saqqalı bir az da uzanıb, bir əlində, həmişəki kimi, əl ağacı, o birində isə, qəribə də olsa, bir butulka vardı, deyəsən, içindəki su idi. Bir az aralıda goreşənlər halay vurub şöngütmüşdü, elə bil, hamısı onun əmrini gözləyirdi, marıdıb durmuşdular. Başqalarını bilmirəm, mən donub qalmışdım, hissiyyatımı itirmişdim. O, butulkadakından bir qurtum vurdu, sonra onu havaya qaldırıb, elə bil, içində nə qədər qaldığıyla maraqlandı, ardıyca da boğazını arıtlaya-arıtlaya:

- Deməli, belə... deməli, belə... - dedi. - Sən bura gəl, bura gəl görüm, ağsaqqal... bura gəl!..

Onun barmağını uzadıb arxa cərgədən çağırdığı, adı dillər əzbəri, ustad Aşıq Alcan kişiydi. Onun yaşı dinməzcə səksəndən yuxarı olardı. Cılız, çəlimsiz, uzunburun bir kişiydi, sənətkar kimi adı çox məşhur idi. Yadıma gəlir ki, hələ mən uşaq olanda onun balaca, cürə bir sazı vardı, məclislərdə çalanda hamını tilsimləyərdi... O, irəli çıxıb üzünü cərgəyə çevirincə əsməyə başladı, sonra, deyəsən, özündən xəbərsiz şalvarının balağından süzülən sidiyi ayaqlarının arasında göləndi. Amma elə bil, özünün bundan xəbəri yoxuydu. Doktor bunu gördü, özünü o yerə qoymadı:

- Eybi yox, eybi yox, - dedi. - Olan şeydi... Hə, sən indi mənə de görüm, tutaq ki, sən bir quşsan, lap elə bir qu quşusan, ördəksən, qazsan, nəsən... əl-qərəz, belə deyək də... tutalım, dəstədən ayrı düşmüsən, zülmət kimi bir gecədə azmısan, qaranlıq göylərdə qanad çalırsan, bilmirsən bu girdab səni hara aparır, aşağılara da etibarın yoxdu, ovçular marığdadı, yırtıcılar canına vəlvələ salır, bu üzdən enməyə qorxursan... Bu zaman neyləyərdin, hə? Nə çarə qılardın başına, ağsaqqal? De görüm...

O, butulkanı iştahla dodaqlarına dayayıb bir qurtum da vurdu, sonra yenə də, içindəkinin azlığını-çoxluğunu yoxlayırmış kimi, gözləri bərabərinə qaldırıb, daxmanın aralı qapısından süzülən zəif işığa sarı tutdu, böyür tərəfindən içinə baxdı, üzünü qocaya çevirmədən:

- Həh... - dedi. - De gəlsin, görək, nağayrardın?..

Aşıq Alcanı əsməcə yaman tutmuşdu, özünü ələ ala bilmirdi, elə bil, yüzlərlə məclis yola salmış, adamların arasında ömrü boyu dil-dil ötmüş o məşhur aşıq deyildi heç. İndi, o, qarşısında durduğu cərgəyə gözünü gəzdirə-gəzdirə, lap az qala indicə döyülüb qorxudulmuş suçlu bir uşaqsayağı, çarəsizcəsinə dedi:

- Qadan alım... qadan alım, ay doxtur... O zulmatın içində bircə çarəm... bircə çarəm... durna çırağına qalar, başına dönüm... durna çırağına... Hər halda, aşağılarda o çırağı yandırb dam üstünə, çəpərə, təpə başına qoyan tapılar, inşallah... tapılar yəqin... həəə, nöş tapılmır ki, hələ dünya yaxşılardan xali deyil, qurban olum... həəə... qurtularam o zulmatdan...

- Sənin o durna çırağına...qussunlar!.. Manıs ki manıs!.. Keç!.. Keç yerinə!.. Biyabır olasan səni!.. Gör bunun ağlı hansı zamanda ilişib qalıb!...

Qarağaclı dərənin nifrin uğultusu elə bil, bir az da artdı. Gözucu Xanoğlanı, Gülsümü axtardım. Onlar məndən xeyli aralıdaydılar, alaqaranlıqda ayırd eləyə bilmirdim. Akif dayımı isə, görmək belə istəmirdim. Çünki o mənim özümə gəlməyimə, komadan ayılmağıma sevinmirdi, məncə. İlk dəfə mənə baş çəkəndə də, birinci sözü bu olmuşdu ki, yazıq bacım sənin dərdindən çərləyib öldü. Bu sözləriylə, elə bil, ürəyimə bıçaq soxmuşdu. Amma Cahangir yanıma tez-tez gəlirdi, özü də istiqanlıydı, yoldaşını da, balaca oğlunu da gətirirdi. Bir dəfə soruşdum ki, bu qaqaş skeytbord sürmür hələ? Güldü, dedi: əcəb yadında qalıb! Day demədim, pis vəziyyətlərimdə mən niyəsə o sözü sayıqlamışam...

Cahangir mənə çox şeylər danışıb başa salmışdı; Xanoğlanın böyük "avtoritetliyi", "kruqu" haqda danışmışdı, qardaşımın təkcə iş adamı kimi deyil, ümumiyyətlə, çox böyük nüfuzu olduğunu bildirmişdi. "Amma dayısını görən gözü yoxdu... Qohum-əqrabada ağsaqqal bircə dayısı qalsa da, nədənsə, Xanoğlan onu saymır..." - deyib şikayətlənirdi...

Mən içimdə Xanoğlana haqq qazandırırdım.

- Sən zəhmət olmasa bura gəl...

Uzundraz, bilmirəm, kimisə çağırdı, ha boylandım kim olduğunu görə bilmədim. Sonradan-sonraya üzünü cərgəyə sarı çevirəndə gördüm ki, Molla Muxtar kişidi. O, qırx səkkizdə Cənubdan gələnlərdən idi. Mollalıq da edirdi, mürdəşirlik də. Uzun müddət camaat onu imanlı bir ağsaqqal kimi tanıyırdı. Ancaq bir dəfə onun da astar üzü görünmüşdü. Kəndlərin hansındasa ölü yuyurmuş, meyit sahibi qəfildən çadırın altına girir və onu, əlində kəlbətin, mərhumun qızıl dişini çıxartdığı yerdə yaxalayır. Belədə "nə yemisən? - turşulu aş"... camaat onu qəşəngcə çırpıb yola salmışdı. Neçə ay yorğan-döşəkdən qalxa bilməmişdi... Sonra onu nə mürdəşirliyə, nə mollalığa dəvət eləyən olmadığından, köhnə daxmasında bir abid həyatı yaşadı, deyilənə görə, tövbəyə gəlib ömrünü ibadətə sərf elədi...

- Kişi, sən dindarsan, eləmi?

- Hə, doxtur...

- Onda de görüm, tutalım, bir səhrada gedirsən, görürsən bir insan skeleti var, qalıb əvərdə, çölləmənin düzündə. Sən də mömin adam, onun yanından etinasız keçə bilmirsən, mütləq dəfn etmək istəyirsən. Qumluğu eşib onu basdırmaq istəyəndə, səni bir fikir yaxalayır: görəsən, bu, müsəlman skeletidi, yoxsa xaçpərəst? Necə basdırasan onu? Müsəlman kimi sağ çiyni üstə üzü qibləyə, yoxsa xaçpərəst kimi arxası üstə üzü göylərə? Hə, bax, ağsaqqal, onda neyləyərdin? De görüm, necə basdırardın onu? Həh...

Molla Muxtar kişiyə yazığım gəldi, mürmüc olub büzüşdü, lap uşağa oxşadı. Nə cavab verəcəyini bilmirdi. Bir yana baxanda nə deməliydi ki? Bu, çox naqolay bir sual idi. Nə bilsin, o skelet müsəlmanındı, yoxsa xristianın. Hardan bilsin, axı...

Qaranlıqda olsa da, saç-saqqalı külək vurduqca yellənən uzundraza qapının arasından düşən işıq zolağında nəzər salanda, deyirdin, lap kinodakı Dədə Qorqudla bir almadı - yarı bölmüsən. Mən qabaq cərgədə sağ əldə durmuşdum, deyilənləri yaxşı eşidirdim. Bir gözüm də cəhənglərindən selik daman goreşənlərdəydi. Muxtar kişi, elə bil, sualı unutmuşdu, goreşənlərə yanakı baxa-baxaqalmışdı, nə fikirləşdiyini indi fələk də bilməzdi...

Aradan xeyli vaxt keçdi, Muxtar kişidən səs çıxmadı. Uzundraz qoca ona yaxınlaşıb əlini çiyninə qoydu, bir qədər gülümsünüb dedi:

- İndi deyəcəklərimi yadında saxla, ağsaqqal, gərəyin olar... Əvvəla, de görüm haralısan?

- Sarablıyam...

- Cənublu?

- Hə.

- Savadın olmamış olmaz.

- Oxumuşam...

- Onda qulaq as. Bax, həmin o rastına çıxanın müsəlman, ya xaçpərəst skeleti olduğunu bilməkdən ötrü, ən zərif bir sümüyünü, deyək ki, qabırğalarından ən naziyini sındırırsan. Sonra o sındırdığın sümüyün içinə

baxırsan. Əgər sümüyün içində lap iynə ucu boyda sarılıq varsa, o, mütləq müsəlman skeletidi, yoxdusa, yəni sümüyün içi ağdırsa, deməli, xaçpərəstdi, ya da başqa dinin adamıdı. Denən niyə? Çünki adına gərəksiz, mənasız mentalitet deyilən gicbəsərliklər ucbatından həmişə qısılan, "olmaz! olmaz!"lar üzündən daim sıxıntı keçirən, cəsarətindən çox,canında qorxu-hürkü, açıq-saçıqlığından çox, geydirmə həya hissi inkişaf eləyən mağmınların sümüyünün içi mütləq sarılıq keçirir! Tfu! Mütləq! Bildin? Di get, ağsaqqal, yeri!.. Yeri!.. İş əyilib-qalxmaqda deyil eey!... Bir özündən deyəndə, beş də məndən de... Get!.. Səhrada, çöllükdə skeletə rast gəlsən, basdırmamış ötüşüb keçmə, günahdı, day kimliyini ayırd eləməyin qaydasını başa saldım. Tərpən!..

Ürəyim partlayırdı, bilmirdim neyləyim. Alnımdakı çuxurun dibi sızıldayırdı, valım getdikcə çönürdü. Mənim işim fırıq idi, zənnimcə elə burdakıları da yaxşı heç nə gözləmirdi. Ay doğmuşdu. Bu vaxt gözüm Elcanla Xanoğlana sataşdı, yanaşı durmuşdular, səliqəli geyimləri, özlərini tox tutmaları adama ləzzət eləyirdi, dünya veclərinə deyildi, hələ Mığmığa da arxa tərəflərindəydi, təsbehini çevirirdi, onları görməyim canıma bir toxtaqlıq verdi.

Uzundraz qoca əl ağacını yerə vura-vura, cərgələrin qabağıyla beş-on addım atıb dayandı. Əlinin işarəsiylə Məlişi, Davudu çağırdı, nə danışdılarsa, sonra gözucu mənə sarı baxdılar və daxmaya sarı getdilər. Daxmanın qapısını cırıltıyla aralayıb içəri keçəndə, Davud mənə əl elədi ki, gəl. Əvvəl bilmədim neyləyim, sonra heç nə olmayıbmış kimi, irəliləyib daxmaya girdim, qapını örtəndə gözucu Xanoğlana baxdım, üzünün ifadəsi anlaşılmırdı.

Masanın üstündəki bulaşıq, hisli tavanın böyründə, çörək qırıntılarının üstünə tünd yaşıla çalan iri bir milçək qonmuşdu. Daun başıyla həmin milçəyi göstərib üzünü Davuda tutdu:

- O milçəyi diri tutmaq lazımdı.

Farağat dayanmış Davudun qəfildən elə bil qırışığı açıldı:

- Nə var ki onu tutmağa, doxtur, - dedi. - Bu saat alığını aşırdaram...

Davud əvvəlcə o murdar varlıqdan bir qarış aralıda, sağ əliniqiyməkeş kimi dikinə və sakitcə masaya endirdi, yəni, süfrəyə qoydu, barmaqlarını yarıyacan qatlayıb, ovcunu qövs kimi bükdü. Milçək tərpənmirdi. Əlini asta-asta, sonra bir göz qırpımında qəfil necə sürüşdürdüsə, - hopp!! - barmaqları yumuldu, yəni qövs qapandı və Davudun bomboş düyülmüş yumruğunun içindən milçəyin aramsız vızıltısı açıq-aşkar eşidildi.

Bu vaxt qapı açıldı. Xanoğlanla Elcan içəri girdilər, Mığmığa da arxalarıyca. Filmdəki Dədə Qorquda oxşayan qocanın əlindən ağacı düşdü. O, elə bil sarsılan kimi oldu, yüngülcə səndələyib dayandı:

- Dayanın görüm, axı, siz... buna necə cəsarət etdiniz? Necə oldu ki, goreşənlər sizi parçalamadı?..

- Onlar bizim ayağımızı basdalamaz... - Mığmığa güldü. - Urus demişkən, "zaraza k zaraze ne pristayot"...

Qocanın rəngi qaçdı.

Davudun cınqırı çıxmırdı,amma yumruğunun içindən milçəyin vızıltısı gəlirdi. Məliş səssizcə ağlayırdı. Mən anqalı kimi, key-key durub baxırdım.

Xanoğlan üsulluca qocanın əl ağacını qaldırıb özünə verdi. Sonra pencəyini düymələdi, qalstukunun düyününü sıxıb abıra saldı, boğazını arıtlayıb mətləbə keçməmişdən öncə, mənə elə gəldi ki, məqam tapıb Elcana göz də vurdu, sonra üzünü Dauna çevirib amiranə səslə sözünə başladı:

- Hörmətli cənab doktor, bağışlayın... Sizdən üzr istəyirəm... Bizi yanlış anlamayın... Əlbəttə, biz yaxşı bilirik ki, hayana getsək də, axırda keçini keçi ayağından, qoyunu qoyun ayağından asacaqlar. Bizdən əvvəl də belə olub, bu gün də belədi... Amma bir məsələ də var...

- Heç bir məsələ-filan yoxdu, - qoca tez-tələsik onun sözünü kəsdi. - Burda hökmü mən verirəm... Rast ki, risk eləyib girmisiz içəri, sizi ağır imtahan gözləyir. Özü də, göz-zad vurma, sən gedən torpaq yolları mən asfaltlaya-asfaltlaya çoxdan qayıtmışam. Başa düşürsən?..

Mığmığa mızıldanıb qurcalandı, Elcan pencəyinin ətəyini dartışdırdı, Xanoğlanın üzünü sönük bir təbəssüm bürüdü...

Yenə də Davudun cınqırı çıxmırdı,amma yumruğundan milçəyin vızıltısı gəlirdi. Məliş səssizcə ağlayırdı. Mən anqalı kimi, key-key durub baxırdım... Daunun cəhənglərindən selik sallanırdı. Deyəsən, saqqızlığındakı üfunət saçan o iyrənc dəlikdən gələn beyinçatdadan kəsif qoxu bir qədər də artmışdı.

- Sevgi çatışmır... Yoxdu sevgi... - Bunları nədənsə o astadan dedi. - Bədbəxtlər!.. Sevgisiz yaşayıb, sevgisiz ölən bədbəxtlər!.. Sizin üzünüzə sabahmı açılar? Üfüqdəki buzlağı çilikləyib sabahı doğuzdurmaqdan ötrü ling yox, külüng yox, raket yox - sevgi lazımdı, sevgi!.. Bildiz?.. O da ki sizdə olmayıb yerli-dibli! Yoxdu! - Sonra o, əlindəki butulkanı neft lampasının işığına tutdu və Davuda dedi: - O milçəyi gətir sal bu butulkanın içinə. Amma əzmə, diri-diri sal...

- Dox-tur... bu-tul-ka-da... su... su var, axı. - Davud kəkələdi.

- Deyirsən, bo-ğu-lar? - onun gülümsəyə-gülümsəyə Davuda dediyi bu sözlər açıq-aydın istehzayla doluydu.

- Hə... dox-tur... - Davud yenə kəkələdi. - qor-xu-ram bo-ğu-lar...

- Boğulsun daa... Ondan qalıb nə olacaq ki?Boğulub uzaq başı sizin gününüzə düşəcək. Uzaq başı bir-birinizə tay olacaqsız... Onsuz da elə taysız... Sal görüm onu butulkaya! Onu altı aydan, lap bir ildən sonra da dirildərəm, problem yoxdu. Siz öz hayınıza qalın, milçəyin dərdini çəkməyin. O sizdən xoşbəxtdi...

Bu vaxt ağlımdan keçirdi ki, görəsən Xanoğlan, ya elə Mığmığa, ya Elcan niyə bunun nazıyla oynayırlar? Niyə vurub oyanlıq eləmirlər bu qocanı? Axı, bu ağzına gələni danışır! Camaatı hələ bir milçəyə də bənzədir, təhqir eləməkdən yorulmur. Bu boyda yekəxanalıq olar?

Onların üzünə baxanda isə, heç nə anlaya bilmirdim, çünki hamısı yetim quzu kimi boynunu büküb baxırdı.

Davud milçəyi butulkaya saldı. Milçək əvvəlcə suyun üzündə dairə vura-vura bir az çabaladı, sonra arxası üstə üzməyə başladı. Daun səsizcə irişə-irişə onu neft lampasının işığında bir qədər süzdü və birdən üzünü ciddiləşdirib, baş barmağını butulkanın ağzına sıxıb bərk-bərk çalxaladı. Sonra yenidən onu işığa tutdu, milçək artıq suyun üzündə deyil, dibinə yaxın bir yerdəydi, böyrü üstə hərəkətsiz üzürdü, görünür, boğulub ölmüşdü. Qoca yenə irişirdi, həm də gözünün ucuyla içəridəkiləri süzməkdə davam edirdi. O, masadan tıxacı götürüb butulkanın ağzına qoydu, ovcunun içiylə üstündən vurub yerinə oturtdu.

- Sizdən artıqdı bu yəni? Guya hamınız bunun kimi boğulmamısız? Sizin hamınız: ölünüz də, diriniz də bu gündədi elə. Ay bədbaxtlar! Siz həyatın da, ölümün də içində, bax, bu milçək kimi, elə bu cür üzürsüz. Elə deyil? Bəlkə, yalan deyirəm, hə? - O, bir anlıq dayandı, üzünə sanki ağır bir kədər buludu endi, dili-dodağı titrəyə-titrəyə əlavə elədi: - Sevgidən qaçaqsız çünki, sevgidən...

Sonra da qapını açıb var gücüylə cərgələrə sarı bağırdı:

- Mən altı ay, lap bir il sonra bu milçəyi dirildəcəm! Özü də hamınızın gözü önündə!..

Hamı başını aşağı salmışdı, dillənən yoxuydu. Amma mən görürdüm ki, Alcan kişinin canı al qırmızı rəngdə bir güldü və necə qoparılıb yerindən... Molla Muxtarın açıla qalmış ağzından canı necə buxarlana-buxarlana uçub gedir, o biri adamlarında hərəsi bir şəkildə qeyb olmağa başlayır...

Birdən-birə o, qapını örtüb mənə sarı çevrildi və düz üstümə gəlməyə başladı. Nədənsə tavana baxdım. Yenə oradan, tir-dəstəyin qovuşduğu yerdən əlçim-əlçim, tozlu hörümçək toru sallanırdı... "Sizin hamınız: ölünüz də, diriniz də bu gündədi elə..." Onun cəhənglərindən sallanan selik neft lampasının ölgün, cansıxıcı işığında yaşıla çalırdı. "Ay bədbaxtlar! Siz həyatın da, ölümün də içində, bax, bu milçək kimi, elə bu cür üzürsüz..." Hiss etdim ki, üzüm-gözüm üyüşür. Elə bil, canıma minlərlə qarışqa daraşmışdı. "Sevgidən qaçaqsız çünki, sevgidən..."

...Doğrudanmı, bu insanlar sevgisizlikdən bu günə düşmüşdü?.. Nə olmuşdu, axı, bu adamlara? Molla Muxtar kişinin sevgisi nə cür olmalıydı? Kişi elədiyi günahlardan peşman olub, təkliyə çəkilib həyat sürüb də! Ya elə Aşıq Alcan kişinin sevgisi toy mağarından, sazdan-sözdən, şabaşdan başqa hara yönəlməliydi ki? Xanoğlana, Mığmığaya, Elcana sevgidən moizə oxumaq olar heç? Onların öz dünyası var. O birilərin də eləcə...

- Sən... Sən bildin dəə dediyimi...

Onun saqqızlığındakı yırtıqdan gələn qoxu bütün kəskinliyiylə məni vuranda, başım sürətlə gicəlləndi və bayıldım...

Uzun müddət Bakı bulvarındakı "Şeytan çarxı" kimi hərlənən, amma dikinə deyil, eninə, özü də çox iti hərəkətdə olan, hər şeyi cənginə alıb fırladan bir diyircəyin ortasına pərçimlənmiş hiss etdim canımı. "Ay bədbaxtlar!.." Sonrasını xatırlaya bilmirəm. "Sizin hamınız..." Nitqim qurudu, əvəzində ağzımın köpükləndiyini duydum, içimin qaranlığına çökdükcə çökdüm, sonda həsrətində olduğum işıq... hə, süd bəyazlığında və süzmə, kəsmik qoxulu, anam qədər məhrəm bir işıq badam çəyirdəyi kimi qıyıq bir dəlikdən süzüldü, süzüldü... və bütünlüklə məni qoynuna aldı.

## – 5 –

...Otaqda Gülsümdən və tibb işçisi qiyafəsində olan, görünüşündən həkimə oxşayan orta yaşlı, eynəkli bir qadından başqa heç kim yoxuydu. Biri çarpayımın sağında, o biri solunda oturmuşdu. Televizordaydı, ya radioydaydı, bilmirəm, yaxınlıqda "Xan çobanı" çalırdılar, tütəyin səsi adamın içini yalayırdı. Gülsüm barmaqlarıyla alnıma tökülən saçımı geri darayırdı. Eynəkli qadın isə, jurnal oxuyurdu. Sonra o, Gülsümə nəsə pıçıldayıb getdi. Nə dediyini eşitmədim, fikrim musiqidəydi. Musiqi bitincə reklamlar səsləndi, ardınca da bir vaxtlar bütün ruhuma hakim kəsilmiş "Durnalar" mahnısı... "Nazənin-nazənin, edər, edərsiz avaz..." Gözlərimdən sel getdi... Kəbirə! İnsafsız Kəbirə! Həyatımı alt-üst eləyən zalım!..

Gülsüm gözlərimi silir, doluxsunmuş halda məni öpürdü.

- Nooldu, nooldu Tağı, bacı qurban?!..

- Heç... Gülsüm... Heç... - dedim. Bir az keçdi, özümü saxlaya bilmədim: - Kəbirədən xəbərin-zadın var, bacı?.. Haralardadı, görəsən? Yenə Arandadı? - soruşdum.

Mahnının sonlarıydı. “Vaqifin də könlü edər, edər pərvaz... Durnalar, ay durnalar...” Keçmişdə həmişə mahnının bu yerinə çatanda belə oxuyardım: “Tağının da könlü edər, edər pərvaz...” İndi Tağı var? Tağının könlü var? Ruhdu Tağı, ruh!.. Tağı indi İsa Məsih kimi bir şeydi... Bircə çarmıxı çatmır...

- Kəbirə çoxdan qayıdıb Arandan. Boşanıb... Uşağı olmur yığvalsızın. Görüm onu...

- Bacı!...

O, əyilib gözlərimdən öpdü.

- Bağışla, bacı qurban, bağışla... Başım batsın! Yarana toxundum...

Mənsə fikirləşdim ki, doğrudan da,yaram hələ də sağalmayıb.

Bu vaxt eynəkli qadın tələsik içəri girdi, həyəcanlıydı:

- Xanoğlan müəllim gəlir! - dedi.

Sonra iki tibb işçisi də gəldi və məni tələsik dikəltdilər, çarpayının arxasını qaldırdılar, söykəkli vəziyyətdə oturdum. İçəridə səliqə-sahman yaratdılar. Onlar üz-gözümü sildilər, problemim olub-olmamasını soruşdular. Başımı tərpədib:

- Hər şey yaxşıdı, - dedim.

Xanoğlan yenə də başının dəstəsiylə gəlmişdi. Hal-əhvaldan sonra çox da ləngimədi, baş həkimdən nəsə soruşdu, onu dinləyib mənə sarı çevrildi:

- Darıxma, Tağı, bir şey qalmayıb. Bu günlərdə çıxacaqsan... - dedi. Sonra da Gülsümü kənara çəkdi, bir neçə dəqiqə ikilikdə söhbətləşdilər, təzədən yanıma gəlib əlini çiynimə qoydu: - Bir azca da döz. Özün görəcəksən nələr olacaq... Gör lələşin nələr eləyəcək səninçün... Bakıda villa da almışam sənə, yolunu gözləyir. Qapısında da yağın içində cip “Prado”, salafanı üstündə...

- Xanış... qağa...

Sözümün dalını deyə bilmədim, ağlamaq tutunca kəkələdim. O, məni qucaqladı, Feyruz həkimə üzünü tutub:

- Doktor, gəlsənə Tağını sabah göndərəsən evə. Hə? - dedi.- Adam ayırarsan, o dediyin əlavə qulluğu evdə də eləyərlər. Olmaz?

Baş həkim tərəddüd eləmədi, “olar” - dedi. Mən onun Xanoğlanın qarşısında necə farağat durduğunu lap keçən dəfələrdən hiss etmişdim, indisə az qalırdı tir-tir əsə.

Onları ötürməyə qapıyacan özüm də getdim, ehtiyac olmasa da, hər ehtimala qarşı bir qoluma Gülsüm girmişdi, bir qoluma eynəkli qadın. Elə bil kefim durulurdu, özümü yaxşı hiss eləyirdim. Bilmirəm, bu, Xanoğlan sarıdan keçirdiyim qürura görəydi, yoxsa elə həqiqətən də yaxşılaşırdım. Qayıdanbaş böyük pəncərədən şəhərə açılan mənzərəyə baxdım. Dağüstü park sarıda, “Moskva” mehmanxanasının yerində, üzləri şüşə örtüklü üç gözəl binaydı, elə bil, üç nəhəng delfin idi; yerin təkindən sıçrayıb durmuşdu quyruğu üstə. Yeni tikililərdi. Böyürlərində kran görünürdü, yəqin ki, tikintiləri hələ də davam eləyirdi. Mənə gördüklərim nağıl kimi gəlirdi... Əlli yaşımı keçsəm də, elə bilirdim yenicə doğulmuşam. Sanki çoxdan tərk etdiyim doğma yerlərə məni təzədən sürgün etmişdilər. Görürdüm ki, dünya o dünya deyil, dəyişib, çox az şey tanış gəlir. Elə şəhər də, adamlar da...

Axşam yatağıma uzananda Gülsüm mənə hardansa bir dəstə yasəmən gətirdi, qoydu dolabımın üstünə... Bir azdan masajçılar gələsiydi. Amma güllərin ətrini canıma çəkdikcə, fikrim-zikrim qaldı uzaqlarda - o illərdə ki, əlimdə ya bir yasəmən, ya bir qızılgül dayanıb durardım məktəbin tinində və gözləyərdim Kəbirənin gəlişini... O, gəlib keçərdi. Əlimdən heç bir iş

gəlməzdi, sallana-sallana dönərdim hər dəfə. Onu bircə yol dindirməyə, sözümü deməyə cəsarətim çatmazdı. Hər dəfə kor-peşman qayıdar, yol boyu əlimdəki gülü ləçək-ləçək didib-tökərdim... İndi yasəmənlərin iyi burnuma dəyincə, o çağların qoxusu vurdu məni, yaddaşımın dibindən xatirələrim sərxoş-sərxoş baş qaldırdı.

Əlbəttə, hər şeyin bir həddi, bir sərhədi var. “Məni indi heç nə keçmişin cəngindən qurtara bilməz” kimi gic düşüncələrdən uzağam, sözsüz... Özümü toparlayıb Gülsümü çağırmaq istəyirdim ki, masajçıların niyə yubandığını soruşum, elə bil, ürəyimi oxudu, o məni qabaqladı:

- Masajçılar sabah gələcəklər, qrafikləri dəyişib, - dedi. - Aşağıda bir nəfər səni görmək istəyir, növbətçi həkimin yanındadı, bilirsən kimdi? Köhnə dostun.

Elə bil çiçəyim çırtladı.

O axşam Əlinin gəlişi göydəndüşmə oldu. Sabahacan söhbət etdik. Eynəkli qadın mane olmaq istəsə də, Gülsüm onu razı sala bildi. Əli mənə dünyanın gərdişini, bu on altı ildə baş verənləri yerli-yataqlı danışdı. Əlinin səviyyəsinə inanırdım. O da, mənim kimi universiteti yarımçıq tərk etmişdi. Buna atası öləndən sonra məcbur olmuşdu; zaçot, imtahan, kirayə pulu, dolanışığı yola verməkdən ötrü cib xərcliyi havadan gəlmirdi. Əlinin bu pulları ödəyəsi kimsəsi yox idi. Odur ki, tüpürüb getmişdi universitetdən. Atasından qalma avtomobillə anasını, bacısını, ailəsini dolandırmaqdan başqa yolu qalmamışdı. Elə bil, bizim dostluğumuzun tale oxşarlığı da bu yöndən üst-üstə düşürdü.

- İnşallah, haçan çıxırsan?

- Sabah...

- Nə yaxşı... Bütün rayon yolunu gözləyir.

- Niyə?

- Sağalan kimi, yaxşı vəzifəyə gələcəyindən danışır hamı... təkcə dükan-bazarda, çayxanalarda yox, hər yerdə bundan danışırlar...

Məni gülmək tutdu. Xanoğlanın mənə pıçıldadığı sözlər hardansa sızıb, aləmi bir-birinə qatıbmış demə. Özüm bu şeylərə heç cür inanmasam da, əməlli-başlı söz-söhbət gəzirmiş. Necə deyərlər, oğlan evinin xəbəri yox, qız evində dambadurumdu.

* * *

Mən keçmiş Razin qəsəbəsində hər il “mayovka” keçirilən məşhur dağın üstündə tikilmiş gözəl bir villada yaşayırdım. O dağın keçmiş görünüşündən əsər-əlamət yoxuydu, buralar indi villa “meşəliyiydi”. Qulluğumda orta yaşlı iki nəfər - ər-arvad dayanırdı. Üz-gözlərindən, davranışlarından ziyalıya oxşayırdılar, əvvəl-əvvəl onlara baxanda xəcalət çəkirdim, söz buyurmağa utanırdım, amma çox keçmədi, öyrəşdim. Bütün ev işlərini onlar görürdülər. Kişi həyət-bacanı sulayır, təmizləyir, ağaclara qulluq edir, qadın isə biş-düş edir, ev-eşiyin qayğısına qalırdı. Qapıda Xanoğlannın dediyi qara rəngli, hələ selofanı açılmamış həmin cip durmuşdu, açarını mənə verib demişdi ki, “kef elə!..”Mən beləsini ancaq kinolarda görmüşdüm. Düzü, ürəyim rayonu istəyirdi, ata evimizə getmək keçirdi ürəyimdən. Heç cür uyuşa bilmədiyim bu villada özümü naqolay hiss edirdim, elə bil, dilini bilmədiyim əcnəbi, kübar bir qızla tanış olmuşdum, hər addımda səhv edəcəyimi, yanında rüsvay olacağımı gətirirdim gözümün qabağına, utanırdım. Ayaqyolundan tutmuş yataq otağınacan son dərəcə müasir olan bu evdə dinclik tapa bilmirdim, bərk

darıxırdım. Gülsüm yanımda olmasaydı, arabir Xanoğlan gəlib-getməsəydi bağrım çatlardı. Heç nə məni cəlb eləyə bilmirdi: ağlıma gətirə bilmədiyim cib telefonu, çanaq antenalı, nazik ekranlı televizor, video-pleyer... Elə bil, bunları o qədər görmüşdüm ki, doymuşdum artıq.

Hər şey yavaş-yavaş qaydasına düşürdü. Qırışığım açılmışdı. Artıq evdə tikiş tuta bilmirdim. Yavaş-yavaş şəhərə çıxmağa başlamışdım. Şəhərə maşınımda çıxırdım, ancaq çox da uzağa getmirdim. Axır vaxtlar bir kafeyə dadanmışdım, çox qəribə adı vardı: “Demmonus”. Nədənsə lap ilk gündən bura mənə doğma gəlmişdi.Bu kiçik kafedə adam-insan gözə dəymirdi. Bura kafedən çox bara oxşayırdı. Birinci dəfə pivə həvəsiylə içəri girəndə, qırx-qırx beş yaşlarında ofisiant qadıngülümsəyə-gülümsəyə mənə yaxınlaşdı, lap doğma adamlar kimi əl-ələ görüşdü, vallah, yüngülcə boş dursaydım boynuma da sarılardı. Ardıyca da elə həmin yaşlarda bir kişi qırx ilin tanışı kimi yaxınlaşıb ərklə əlini çiynimə qoydu: “Qardaş, necəsən?Belə səni xoş gördük. Nə var, nə yox? Keç, ürəyin istəyən yerdə otur...” dedi. O gün mənə elə xoş üz göstərdilər ki, heç danışılası deyil. Düşündüm, yəqin bunlar Xanoğlanı tanıyırlar, bu xətir-hörmət də ona görədi. Amma sonrakı günlərdə başqa şeylər baş verdi. Gördüm ki, yanılmışam.

...Kafedə mənə xoş üz göstərən həmin kişinin sifətindəki göyümtül çapığı görəndə barmağımı dişlədim: ay dadi-bidad, mən bu adamı tanıyıram axı. Tanıyıram deyəndə, hardasa görmüşdüm və buna yüz faiz əmin idim.

Gülsümü rayona yola salandan, buraya hər gün gəlirdim. Bu adamlar da üzümə sirli-sirli gülümsəyir, sanki mənimlə bağlı hansısa bir gizlin məsələni bilir, amma üzə vurmur, gülümsəməklə işarə edirdilər. Bir gün pivə bakalını yenicə qarşıma qoyub iştahla köpüyünü üfürürdüm ki, “çapıq” kişi masama yaxınlaşdı, sorğusuz-sualsız kətili çəkib oturdu. Həmişəki kimi üzümə irişib dedi:

- Hə, nədi, qardaş, darıxırsan? Bilməmiş olmazsan, görəsən, Dünyamalı doktorun milçəyi hələ dirilməyib ki?..

Elə bildim qəfil elektrik cərəyanı vurdu məni. Pivə bakalı əlimdən haçan düşdü, yarısı mənim, yarısı onun üstünə haçan dağıldı, bilmirəm. Amma o, əlindəki əskiylə süfrəni silə-silə danışmağındaydı; gözünü gözümə zilləyib hırıldaya-hırıldaya yenə nəsə deyirdi. Heç nə başa düşmürdüm, qabaqdakı iki iri, metal dişlərinin dibi göm-göy kif bağlamışdı və mənim fikrim onun dediklərində deyil, həmin iyrənc dişlərdə qalmışdı. Qəfil elə bil gözüm önündən bir kino lenti keçdi: Daunun son toplantısında (belə demək mümkünsə) məndən üç adam solda duran kişini xatırladım. O, kim idi, axı? Elə bu idi də! Hə, bu idi ki var! Üzü çapıq, metaldiş! Tez-tez də böyründəkinə deyirdi: “Apres kirvə, Apres kirvə, sonumuzdu...” Sonra da qorxduğunu gizlətmək üçünbizə sarı qanrılıb yalandan irişirdi, arabir buludlar arasından süzülən Ay işığı, elə bil, onun metal dişlərinin çirkinə bulaşıb qaralırdı və mən niyəsə buna heyifsilənirdim. Ondan arxa cərgədə duran qadın isə, hərdən əyilib kişinin qulağına nəsə pıçıldayırdı, sonra hər ikisi susub başlarını aşağı salırdılar. O qadın elə həmin bu gülməşəkər ofisiant idi! Hə, özüdü ki var! Yekə alınlı, balacaboy Apres kirvə deyilən adam hər dəfə onlara “ara, qorxmayın, bu bir oyundu, vallax...” - pıçıldayırdı,- “uzağı, biz gəbərənəcəndi, hər şey yaxşı olacax...” - deyirdi, sonra da əliylə özündən qabaqda dayanan uzundraz, arıq, alkaşa oxşayan qırmızıyanaq kişini göstərib: “İnanmırsan, Gividən soruş”, ardıyca da xırıltılı səslə: “Elə deyil, qatso?” soruşurdu. O da çiyinlərini çəkərək, “yaxşısını

Tağı bico bilər...” - deyib, başıyla mənə işarə edirdi. (Deyəsən, burada hamı məni tanıyırdı.) Onu da xatırlayıram ki, bu adamların pıç-pıç eləmələri Daunun gözündən qaçmadı. O, Apres kirvə deyilən balacaboy, alnıyekə kişini irəli çıxarıb sual-cavab elədi. Hardan soruşdusa, bu kişi öz keşişindən sitat gətirməklə cavab verdi. Bir xeyli sorğu-sualdan sonra doktor bu adama təzəcə dindirdiyi Molla Muxtar kişini göstərib dedi:

- De görüm sənin keşişağan çox bilər, yoxsa bu molla?

- Doktorcan, savıt tanım, əlbəttə, mənim keşişağam...

- Sənin keşişağan nə bilir, axı?

- Mənim keşişağam çox şey bilir, axpercan... Məsələn, o, həmişə deyir: “Yağar, yağar - gün çıxar...”

- Sənin keşişağan başını daşa döyür! Yağış da yağıb qurtarıb, qar da. Çıxsın da gün! Niyə çıxmır bəs?! A bədbəxt, yadında saxla, günəşi doğurmaq, sabahı açmaq üçün yekə-yekə danışmaq, bic-bic, altdan-altdan iş görmək lazım deyil. Bundan ötrü sevgi lazımdı, sevgi... O da siz bədbəxtlərdə hardan olsun ki?.. Nə sənin keşişağanda belə bir sevgi var, nə də bu mollada. Dərd gələndə, hamınız əhnəz bir quş balası kimi əvədiyirsiz... Siz hamınız elə bir dana-doluğsuz ki, əlinizdən ancaq bir-birinizə gicimək, sataşmaq gəlir. Ona görə də bu gündəsiz... Yenə təkrar edirəm: insan xromosomları arasında cəmi bircə dənəsinin oxşarı yoxdu - bu da insanın sirli məxluq olduğunu bildirir. Oxşarı olmayan 21-ci xromosomdu. Onun anomaliyasından əmələ gələn trisomiya birbaşa şizofreniya deməkdir. Onun da əlamətləri hər birinizdə var, hər birinizdə! Odur ki, kimliyinizdən asılı olmayaraq, hər birinizin sonu vahiməlidi. Buna ən böyük işarə 21-ci əsrdi! 21-ci xromosom - 21-ci əsr! Başa düşürsüz bu nə deməkdi?! İşarəni anlayırsız? Bu əsr də bütün zamanların iyirmi birinci xromosomudu! Ona görə də anomaliyasının analoqu olmayacaq! Unutmayın!..

Molla Muxtar kişi çiyinlərini çəkdi, yəni ki bu deyilənlər mənlik deyil. Apres kirvə deyilən balacaboy, tökməçə, alnıyekə kişi boynunun dalını qaşıdı:

- Axpercan, mən nə bilim o dediklərin nədi? Mənim kimi, çəkməçilikdən başqa heç nədən başı çıxmayan birisi hardan anlasın o sözləri? Qulağım bircə mənə tanış olan “xrom” sözünü çaldı, vəssəlam. Hə, vaxt var idi, xrom çəkmə tikdirərdi camaat, indi heç onun nə olduğunu, necə olduğunu bilən də yoxdu, savıt tanım...

...Üzü çapıq, metaldiş barmen hələ də masaya dağılmış pivəni silə-silə, hırıldaya-hırıldaya təkrar edirdi:

- Görəsən, necoldu, hə? Dirildi o milçək?..

Sükanın arxasına nə vaxt keçib, özümü evə nə vaxt çatdırdığımı bilmirəm. O gün, qulluqçularımın da üz-gözlərindəki xoş qılıqdan şübhələndim. “Məni tək buraxın...” deyib otaqlardan birinə çəkildim. Yorğanın altına girib gözlərimi möhkəm-möhkəm qapadım ki, görüm bu qulluqçuları - bu mehriban ər-arvadı da xatırlayıram, ya yox.

Deyəsən, onları da görmüşdüm... Yüz faiz olmasa da, doxsan faiz buna əmin idim.

Bir gün sonra Əli gəldi. Şəki halvası gətirmişdi. Çay süfrəsi arxasında xeyli söhbət elədik. Amma nə qədər işarə vursam da, qımıldanmadı, onun Dünyamalı doktordan xəbərsiz olduğunu anladım. O, heç bir anlayışım olmayan kompüterdəndanışdı, dedikləri isə başıma girmir, nağıla oxşayırdı. Əli özüylə gətirdiyi təzə qəzetləri mənə verib, bu dəfə bir qədər tez gedəsi oldu, “nəvəmin ad günüdü” dedi. Diksinən kimi oldum: Əlinin nəvəsi də

var. İlahi, yaşımızın baba çağıdı! Mən hələ heç evlənməmişəm də... Qəzetləri vərəqlədim. Orta məktəbdə fransız dili keçdiyim üçün latın qrafikası sarıdan çətinliyim yoxuydu. Ancaq oxumağa hövsələm qalmamışdı.

...Yaşımızın baba çağına bir bax!

Mən bir də o kafeyə ayaq basmadım. Elə bilirdim getsəm, nəsə olacaq. Xanoğlanla tez-tez zəngləşirdik. Pul-para sarıdan qətiyyən korluq çəkmirdim. Onun köməkçisi, adına Qulu dediyi yekəpər cavan üç gün əvvəl beli bağlı bir çin pul gətirmişdi, qoymuşdum evə. Bundan başqa, qulluqçular onun maşınının arxasından xeyli ərzaq boşaldıb, soyuducuya yığmışdılar. Axşamlar qala kimi uca divarlı həyətimizdəki güllüyün ortasında - balaca fəvvarənin yanındakı skamyada otururdum, yorğunluğum çıxırdı. Başıma gələn müsibətin enini uzununa vururdum, uzununu eninə, bir şey hasil eləyə bilmirdim. Daha çox rayona getməyi, orada kimləri görəcəyimi düşünürdüm. Amma Xanoğlandan icazəsiz oraya getmək istəmirdim, qorxurdum acığına gələr.

Bir axşam yenə gözlərimi fəvvarəyə zilləyib oturmuşdum. Qulluqçu Həşim kişi güllüyü sulayırdı. Axşam sərini olsa da tərin-qanın içindəydi.

- Nə yaman tərləmisən, Həşim kişi, xəstələnmisən?
- Mən elə o vaxtdan xəstəyəm də...
- O vaxtdan, yəni, haçandan?
- Sən ki arxası üstə yıxıldın ha, bax, o gündən...

Heç nə başa düşmədim. Necə yəni? Mən harda arxası üstə yıxılmışam ki? Canımdan tanış bir gizilti keçdi. Gözümü balaca fəvvarənin sakit sularına zilləməklə həyəcandan qurtulmağa çalışdım - alınmadı. Yerimdən qalxıb evə sarı tələsdim. Gedərəkdə:

- Mən harda yıxılmışam ki arxası üstə? - mızıldandım.
- Dünyamalı doktorun qəbulunda...

Qarağaclı dərənin nifrin uğultusu hardansa axıb beynimə dolmağa başladı. Əllərimi bərk-bərk qulaqlarıma sıxıb evə sarı yüyürdüm... Amma deyəsən, heç beş addım da gedə bilmədim...

## *– 6 –*

...Bəlkə də, təkcə bizim yerlərin deyil, dünyanın tən yarısının adamı yığışmışdı buraya. Burada, vallah, axtarsaydın avarasından tutmuş, oxumuşunacan,özü də hər millətdən, bütün təbəqələrin insanları vardı. Zəncilər, ruslar, avropalılar, çinlilər, hindistanlılar... nə bilim, bəlkə də, yapon «yakudza»sı, italyan «kamorro»su, rus "skinxed"ləri kimi kriminal sindikatların da nümayəndələri burdaydı. Niyə də olmasınlar? Mığmığa, "vor-zakon" Şükür, İman burada ola bilir, onlar yox? Yəqin, indi özlərini veriblər cərgələrin arasına, sonu gözləyirlər. Xanoğlan da, Elcan da həmçinin... Mənsə, həmişə olduğu kimi, nədənsə yenə qabaq cərgədəydim. Ayın solğun işığı insanların üzündə ölgün-ölgün titrəyirdi. Ürəyim gup-gup vururdu. Çünki ovcumda kimin əlinin olduğunu bilməkdən ötrü oğrun-oğrun sol tərəfə baxanda, Kəbirəni görmüşdüm. Kəbirə mənim içimin xarabalığıydı... Yandırdığım sevgi qəsrindən qalmış kül topasıydı... İndi onun saçları ağappaq idi. Kədər dolu iri gözlərinin qıraqlqarı qırçın-qırçın qırışmışdı. Ona baxdığımı duyub sakitcə məni süzdü və yüngülcə gülümsündü, əlimi ehmallıca sıxdı. Bu, gecikmiş etiraf işarəsiydimi? Ya, bəlkə, mənim ömrümü uzatmaqdan ötrü İlahi bir göstəriş idi ki, uzun illər sonra o, buna ixtiyarsız əməl edirdi? Məliş də bir əlimdən yapışmışdı, axır vaxtlar onu yadıma salanda, ürəyim

sökülürdü... Yığvalsız Məliş!.. Üzünə baxa bilmirdim, boynundakı kəndir izi bir az da qaralmışdı, canından iraq, lap xaltaya oxşayırdı. Necə ki, Kəbirə mənim əlimi sıxırdı, mən də Məlişin əlini eləcə sıxırdım.

- Bu yaxınlarda Kəbirəni qardaşı Müzəffər bir bıçağa qurban eləyib... - Bunları qulağıma Məliş pıçıldadı. - Özü də düz ürəyinin başından saplayıb zalım oğlu...

Udqundum. Gözümün ucuyla əli ovcumda oyur-oyur qımıldanan Kəbirəyə baxdım. Alaqaranlıqda fərqli bir şey sezə bilmədim. Elə həmin Kəbirəydi, amma bir az qocalmışdı.

- Niyə vurub?

- Rayon arvadlarını bilmirsən? Şayiə yayıblar ki, guya kiminləsə "çaşka-loşkadı", qardaşı da eşidib, inanıb. Heç nə... Bədbaxtı nə sənə, nə mənə, nahaqdan vurub oyannığ eləyib...

Susdum. Məlişdən daha heç nə soruşmadım. O isə əlimi bir az da sıxıb:

- Tağı, sənə qurban, - dedi, - çıxart onu yadından... Yazıqsan...

Fikirləşirdim ki, nolaydı, Daun məni də, Kəbirəni də bir cüt göyərçinə döndərəydi, bu qaranlıqda uçub, uçub, çırpılaydıq gündoğanın buzlağına, qoşa öləydik...

Amma sən saydığını say...

Buraya yığılanları Daunun seçdiyi bir dəstə adam cərgəyə düzürdü. Onların içində Davud da vardı, Həşim kişi də. Həşim kişi yaxınlığımdan keçəndə ayaq saxladı, yenə tər-qan içindəydi, əlini cibinə salıb yaylıq çıxardı, gözlərimi silib üsulluca: "ağlama...- dedi, - dözümlü ol.."

Məndən arxada dayananların kim olduğunu bilmirdim. Bayaqdan bəri maraqlı söhbət edirdilər. Söhbətlərindən anlaşılırdı ki, ikisi də professordu. Biri deyirdi:

- Mənim bu doktordan gözüm su içmir, professor, o milçəyi suda yox, spirtdə saxlayır. Suda saxlasa heç nə alınmaz, heç nə... Əlinə imkan düşsə, o, hamımızı klonlaşdıracaq. Qulaqlarımızı çərtəcək, dişi yarımhüceyrəmizin haploid nüvəsini kənarlaşdırıb, özünün seçib-sonaladığı, ürəyi istədiyi başqa bir orqanizmin diploid nüvəsini oraya yeridəcək. Nəticədə bizdən elə bir varlıq əmələ gələcək, elə bir varlıq əmələ gələcək ki... O varlıq, diploid nüvəsi götürülən həmin orqanizmlə bir cüt alma kimi, iki damla su kimi bir-birinə oxşayacaq, geydirmə əkiztayımız çıxacaq üzə, evimiz yıxılacaq...

O biri adamsa belə deyirdi:

- Sizin klonlaşma haqda dedikləriniz, professor, müqəddəs kitabımızda da təsdiqini tapıb. Amma orada, səhv eləmirəmsə, Nisa surəsinin 119-cu ayəsində Şeytanın dilindən deyilir ki, "and olsun onları (yəni, insanları) yollarından sapdıracağam, onları xurafatlara itələyəcəyəm. Mütləq əmr edəcəyəm, onlar davarların qulaqlarını çərtsinlər və Allahın yaratdıqlarını dəyişsinlər..." Professor, bəlkə, sizin dediklərinizin, kitabda göstərildiyi kimi, insana aidiyyatı yoxdu? Hə? Bəlkə, elə heyvan-qaraya, davara aiddi klonlaşma məsələsi... Onsuz da bu doktor keçən dəfə dedi ki, biz - yəni, ölülü-dirili hamımız - komadayıq. Sən bilirsən də... inək ya üzünü Şimala tutub otlayır, ya da Cənuba. Yəni, belə demək mümkünsə, bizim də mal-qara kimi, heç vaxt Qərblə, Şərqlə işimiz yoxdu...Mal kimi üzümüzü Şimala, ya da Cənuba sarı çevirib tıxışdıranda doyur qarnımız, başqa cür rahatlıq tapmırıq... Qəribə məxluğuq çünki...

Davud onlara yaxınlaşıb birini özüylə apardı. Keçərəkdə üzünə baxdım, yekə eynək taxmışdı, kəllə sümüyü əzik kimi gəldi mənə. Daz başı eybəcər haldaydı. Bəlkə də alaqaranlıq olduğuna görə gözümə belə dəydi?!

Bir azdan Həşim kişi də qayıtdı. Biləyimdən yapışıb, əlimi Məlişin ovcundan çıxardı, işarə elədi ki, Kəbirənin əlini buraxım.

- Doktor səni istəyir, - dedi. - Gəl...

Bura artıq qarağaclı dərənin kənarı deyildi. Hara idisə,nə atamın keçmiş restoranı, nə Xanmusa babamın meşəbəyi olduğu yerlər görünürdü. Bir qədər irəlidə Davud həmin əzikbaş professoru aparırdı. Tez-tez də deyirdi: “Sənin işin fırıq olacaq... Sənin işin fırıq olacaq, professor... o nə deməkdi axı “...inək kimi ya üzü Şimala otlayırıq, ya da üzü Cənuba...” fırıq olacaq işin... ”

Niyə belə dediyini bilmirdim.

Həşim kişi mənimlə yolboyu kəlmə də kəsmədi. Yol deyəndə, bu heç yol da deyildi, biz, sadəcə, səssiz insan güruhunun önüylə getdikcə-gedirdik.

...Kəbirəylə qoşa göyərçinə çevrilib uçmaq arzum buz tutmuş gündoğana çırpılmadan çilik-çilik olub töküldü içimə...

Nəhayət, Həşim kişi ucu-bucağı görünməyən, antik yunan amfiteatrına oxşayan bu yerin doktora yaxın olan ən qabaq cərgəsində məni dayandırdı. Tez də Dauna sarı getdi, buludların arasından süzülən Ay işığının ölgün şüaları altında ona nəsə pıçıldadığını gördüm. Doktor çevrilib mənə baxdı, başıyla yüngülcə işarə elədi ki, yaxına gəlim. Qıçlarım əssə də özümü toparlayıb irəlilədim. Onun başı qarışıq idi. Bir az aralıda dörd-beş nəfər tər-qan içində əlləşirdi. Onlar yerə basdırılmış xaç şəkilli böyük bir tir-dəstəyə şəhərin küçələrində gördüyüm yolqırağı reklam lövhələri kimi nəhəng bir ekran quraşdırırdılar. O isə üstündə iri büllur külqabı, naqilsiz mikrofon və ağzı tıxaclı butulka qoyulmuşmasanın yanında dayanıb seçdiyi adamlara göstərişverirdi. Dörd yerdə kamera quraşdırılmışdı. Burada bizi nə gözlədiyindən baş açmırdım. Bir azdan o, mənə gözünün ucuyla baxdı, çox qəribədi, nədənsə yüngülcə gülümsündü. Elə bildim, Kəbirə haqda düşündüklərim ona agah olub... Bəlkə də mənə elə gəldi. Davud tezyaxınlaşdı:

- Tağı, hər şey yaxşı olacaq... Uzağa getmə, burda dayan.

O, masaya yaxın yerdə durmağıma şərait yaratdı. Quraşdırıcılar işlərini bitirdilər, iki yerdən güclü projektor yandı, işıqları tən ortaya qoyulmuş masaya tuşlandı. Mən yarıyacan su olan butulkanın içində milçək ölüsünü gördüm; anladım ki, doktor indi onu dirildəcək. Daun irəli yeridi, gözlərini işıldada-işıldada, ağızlarının seliyini axıda-axıda ardınca gələn nəhəng goreşən sürüsünü geri qanrılıb əlinin işarəsiylə dayandırdı. O, ağ qiyafədəydi; əynində uzun surtuk, boğazında kəpənəyə oxşar qalstuk vardı. Çox yaraşıqlı görünürdü. Qiyafəsində Dədə Qorquddan əsər-əlamət qalmamışdı. Çox diqqət etsəm də, saqqızlığındakı iyrənc dəliyi görə bilmədim, yarasının üstü səliqəli şəkildə bintlə sarınmışdı. Hələ o vaxt Davud mənə demişdi ki, doktor atdan yıxılıb, boğazına ağac çiliyi - palıd qələməsi sancılıb, birdəfəlik yığışıb gəlib buraya... Hə, daha onun uzun saç-saqqalına, səliqəli geyiminə projektorların gur işıqları altında baxanda, təlaş hissi keçirmirdim; bu adam, bir növ, doğmalaşmışdı mənə.

Quraşdırılmış nəhəng ekranda birdən Dünyamalı doktorun masaya yaxınlaşması göstərildi. O, əl atıb butulkanı və mikrofonu götürdü, üzünü qaragüruha tutub ucadan dedi:

- Xanımlar və cənablar! Hamınız buraya niyə toplaşdığınızı yaxşı bilirsiz. Bilirsiz ki, təxminən bir il qabaq bir milçəyi suda boğmuş və onu dirildəcəyimi vəd etmişdim. Artıq heç bir şərh verməyəcəm. Bunu nədən ötrü etdiyimi sonda hamınız biləcəksiz!

O, köməkçi kimi seçdiklərindən birinə başıyla "yaxına gəl" işarəsi verdi, o adam yüyürək yaxınlaşdı, əlindəki ələyi hazır saxladı. Daun butılkanın ağzını açıb suyu ələyə boşaltdı. Sonra başqa bir köməkçini də çağırdı. O da cəld yaxınlaşdı, əlindəki xətkeşin ucuyla ələyin içindən milçək ölüsünü götürüb masanın üstündəki büllur külqabıya qoydu və bütün bunlar nəhəng ekranda göründü. Doktor qabaq cərgədə yerləşdirdiyi on nəfərdən çox adamı işarəylə yanına çağırdı. Cibindən bir qutu "Marlboro" çıxarıb ağzını açdı, içindəkilərdən hərəsinə birini uzatdı. Sonra da "Zippo" alışqanıyla siqaretləri yandırdı.

- Külünü, bax, bu külqabıya çırpın, - dedi. - Çalışın siqaretinizin közünü milçəyə toxundurmayın.

Özü isə o adamların sümürüb külqabıya çırpdığı siqaret külünü əlindəki xətkeşin ucuyla milçək ölüsünün üstünə qalaqladı. O, hər dəfə külü milçəyin üstünə yığanda, elə bilirdim mənim başıma qalaqlayır. Aradan təxminən on dəqiqə keçdi. Artıq adamlar siqaretləri çəkib qurtarmış, doktorun göstərişiylə yerlərinə qayıtmışdılar. Nəhəng ekranda külqabını izləyirdik. Birdən kül topası yavaş-yavaş tərpəndi, "a-a-aa!" eləyən kütlənin heyrəti uzun müddət dalğa-dalğa yerə-göyə, hər yana yayıldı. Bir az da keçdi, tərpənən kül topasının arasından milçəyin özü göründü. Sandım ki, bu, elə mənəm, nələrinsə cəngindən qurtulub azadlığa çıxıram... Əvvəlcə yarısı çıxdı, bir neçə dəqiqə sonra, ucu-bucağı görünməyən nəhəng qaragüruhun heyrət nişangahına çevrilmiş bu varlıq bütünlüklə külü tərk etdi və yavaş-yavaş külqabının dibində gəzişməyə başladı. Özlüyümdə mən də çırpınırdım, elə bil, bu güruhdan, bu gecədən, hər şeydən və hamıdan tamamilə qurtulmağa çalışırdım. Milçək ortada toparlanmış külün həndəvərində aramla bir neçə dəfə dolanıb, üzüyuxarı - külqabının qırağına çıxmağa çalışdı. Amma qabın içi hamar idi deyə uzun müddət bir şey alnmadı. Heyrətdən dilim ağzım-qurumuşdu, içimdə bir qovğa vardı, gəl görəsən! Çabalayırdım, sanki sirli bir qılafın içindəydim və oradan qurtulmaq üçün çarpışırdım. Hər şey yadımdan çıxmışdı. Bir az da keçdi, milçək qanadlarına güc verdi, yerində fırfıra kimi fırlanmağa başladı, bu vaxt mənim başım gicəlləndi. Milçək beş-altı dəqiqə də beləcə əlləşdi, nəhayət, külqabının qırağına qalxa bildi. Mənsə,sanki bir dağın başına çıxdım, özümü bir qayanın sıldırımında dayanıb uçuruma baxırmış kimi hiss etdim. Sonra milçək ləngimədən qabın enli qırağıyla qanadlarını vızıldada-vızıldada bir xeyli dövrə vurdu. Və qəfildən necə uçub getdisə, kameraçılar macal tapıb çəkə bilmədilər...

Mən gözlərimi bərk-bərk yumdum, sandım ki, qurtuldum bu zillətdən.

Daun mikrofonu əlinə alıb sakit tərzdə dilləndi:

- Hamınız gördüz. Milçək külün gücünə komadan ayıldı və uçub getdi... Bir daha deyirəm: sevgisizlikdən sizin hamınız - ölünüz də, diriniz də bu gündədi. Həyatın içində də, astar üzündə də suda boğulmuş milçək kimi komadasız! Təpənizə kül olmayana qədər ayılmayacaqsız!.. Bunu sizə mən deyirəm, mən! Gerisini özünüz bilərsiz... Yadınızda saxlayın, kim olurszsa, olun, - qurtuluşunuz təpənizə olacaq küldədi!... Vəssalam!..

Sonra o dayandı. Mikrofonu masaya qoymaq istədi və birdən nə oldusa, fikrini dəyişdi, mənə sarı ildırım kimi şığıdı, bu dəfə bərkdən-bərkdən:

- Amma yox!.. Sən bura gəl! Bura gəl! Yaxın gəl görüm!.. Qoy səni görüb tanısınlar!.. Bilsinlər ki...

Artıq iş-işdən keçmişdi. Goreşənlər oturduqları yerdən qalxıb cəhənglərinin seliyini axıda-axıda mənə tərəf mırıldanırdılar.

Bu vaxt Məlişin səsi gəldi qulağıma:

- Qaç, Tağı, qaç!... Sənə qurban, uç, uç!...

...Bu vaxt qarağaclı dərənin nifrin uğultusu həmişəki kimi özünü yetirdi. Məni fırtına kimi, qasırğa kimi bürüyüb yumurladı və bir göz qırpımında payız yarpağı yüngüllüyündə olan canımı göy üzünə qaldırdı, sürətlə apardı gündoğanın buzlağına sarı. Amma ora çırpılıb, ya çırpılmadığımı bilmirəm.Çünki sonrasından xəbərim olmadı...

## *– 7 –*

...Alaqaranlıqda, gün doğmamış yola çıxmışdıq. İlk dəfəydi şəhərdən aralanmışdım. “Prado” deyilən bu maşın çox xoşuma gəlirdi. Elə bil bunu icad eləyən heç yer üzünün adamı deyilmiş. Bu qədər dəqiq, gözəl, çevik, rahat maşın ixtira eləməkmi olar? Kopoyoğlunun yaponları əjdahadılar, vallah, kəllədilər.

Rayona gedirdik. Artıq Təzəkəndin yanından adlayıb Pir-Kəşkülün yoxuşunu qalxırdıq. Həşim kişiylə arvadı Qumru arxa oturaqcaqdaydılar. İkisi də yuxulamışdı. Yanımda Xanoğlanın cangüdənlərindən Kərim adlı qaraqabaq, buğa kimi heybətli bir cavan oturmuşdu. Sifətinə baxanda adam vahimələnirdi. Axırıncı dəfə Daun barmağını ona tuşlayıb qəfil soruşmuşdu ki, “Ağlın çoxdu, gücün?” O da qayıdıb nə desə yaxşıdı: “Ağılnan nallasam, gücnən çıxarda bilməzsən...” Daun udqunmuşdu, saqqızlığının üfunəti birə-beş artıb aləmi bürüyüncə cəhənglərindən selik daman goreşənlər mırıldamağa başlamışdı. Amma doktor əlinin işarəsiylə onları sakitləşdirmişdi, Kərim adlı bu adamyeyənə oxşayan cavanın kobudluğunu, nədənsə, bağışlamışdı... Bircə kəlmə: “Bərəkallah, bala, dədənə dəysin... - yanında dayanmış Xanoğlanı göstərib - bax, bu müdirinə dəysin...” - demişdi.

İndi mənim sevincimin həddi-hüdudu yox idi. On yeddi ildən sonra, ilk dəfə doğulub-böyüdüyüm şəhərə getdiyim üçün sevinirdim. Düzdü, məni orada nə gözlədiyini bilmirdim. Xəbərim-ətərim olmadan, soruşmadan ki, razıyam, ya yox, Xanoğlan iki gün idi əmrimi də almışdı. Banklardan birinin rayon filialına rəhbər təyin edilmişdim... Doğrusu, sonuncu dəfə komadan ayılanda Xanoğlanın gətirtdiyi altı almaniyalı həkim məni son dərəcə ciddi müayinə edib müjdə vermişdilər ki, orqanizmimdə xəstəliyimlə bağlı hər cür böhran sona yetib, bir də heç vaxt huşumu itirməyəcəm. Xanoğlan mənə həmin iş yerini gözaydınlığı kimi təşkil etmişdi, əmrimi almışdı. Bu məsələ mənə elə də təsir etməmişdi. Amma başqa ovqatla bağlı içimdə bir toy-bayram vardı. Telefonumu çıxarıb Əliyə zəng elədim. Hal-əhval tutdum. Xanoğlanın axşam Cəngi meşəsindəki villasına gələcəyini, birlikdə olacağımızı, onun göstərişiylə oraya yol aldığımızı dedim. Xahiş elədim ki, o da gəlsin, oturaq, dərdləşək. Bəs mən kimə deməliydim dərdimi? Kimə açmalıydım sirrimi? Əli dedi ki, Bakıya gedir, maşınında sərnişinləri var, indicə Pir-Kəşkülə çatır, görüşüb əlüstü-atüstü söhbətləşərik. Yol qırağındakı məşhur yemiş-qarpız satılan yerdə görüşməyi vədələşdik. Çox keçmədi görüşdük; kənara çəkilib beş-altı dəqiqə söhbətləşdik. Sonra sərnişinlər Əlini tələsdirdilər. O getdi. Düzü, mən əziz dostumla məsləhətləşirdim ki, Xanoğlanın bütün imtiyazlarından, eləcə də yenicə düzəltdiyi işdən imtina etmək istəyirəm. İstəyirəm ki, ucuz-bəsər bir maşın alıb, əvvəllərdə olduğu kimi, yenə xaltura eləyəm. Onun gözləri hədəqəsindən çıxdı: “Ağlını başına yığ!.. Elə şey eləmə! Qətiyyən!.. İndi ayrı zamanadı, - dedi. - O doktora-zada da inanma! Düzdü, orada hamımız dilimizi soxmuşduq qarnımıza. Zalım oğlu hamımızı tilsimləmişdi. Amma

vallah, qiyafəsindən bilinirdi ki, artistin biridi! Amerika casusuna, Avropa agentinə oxşayırdı oğraş. Sənsə, fitə gedənsən...”

Bu sözlərdən canım gizildəmədi. Düzdü, diksinən kimi oldum ki, sən demə, Əli də ordaymış... Hər cürə danlağa, irada hazır idim. İçimdə anlaşılmaz bir toy-bayram vardı. Yox, Xanoğlan gözümün işığı da olsa, məni ölümdən qurtarsa da, kəfənin içindən dartıb çıxarsa da, evdən, maşından, işdən imtina etməliyəm! Mən buna qərarlıyam! Qərarlıyam, vəssəlam! Əlinin də məsləhətinə ehtiyacım yoxdu! Yoxdu, bilmərrə! Bundan sonra heç nə istəmirəm! Dünyadan umacağım da yoxdu! Köhnə evimiz, xəstəliyimə görə alacağım pensiya, ən əsası isə, vicdanımın nəfəsliyindən əsəcək bir udum təmiz hava ölənəcən bəsimdi... Əslində, bu gün mən sevinməməliyəm. Çünki arxa-dayağım, xilaskarım, təzədən bir ömür də yaşasam, xəcalətindən çıxa bilməyəcəyim, canımın bir parçası olan qardaşımla bağlı atacağım qəti addıma görə aramızda ciddi uçurum yaranacaq. Bəlkə o, üzümə də tüpürəcək. Yeniyetmə çağlarımda olduğu kimi: “Maymağın biri, maymaq! Kişi olan bəndə heç sənə bel bağlayar?” - deyəcək. Elə bil, bunu qəsdən istəyirəm, qəsdən! Ağlıma gələn bu fikirlə başıma kül olub, elə bil... Yox, belə deyilsə, içimdəki bu şadyanalıq hardandı bəs, bu büsatın səbəbi nədi görəsən? Yoxsa içimə anlamadığım bir sevginin hımı qoyulub?

...İndi fikirləşirəm ki, bəlkə də, bu toy-bayram, elə doğrudan da, məni o ölü milçək kimi dirildən, dirildib də dünyaya qanadlandıran, təpəmə olmuş külə görədi. Hə, yüz faiz! Başıma kül olub, kül! - doktor deyən küldən... Yoxsa, sabahım açılardımı? Sabahım açılmasaydı, içimə gün doğardımı? İçimə gün doğmasaydı, ruhumdakı bu vur-çatdasın hardan əmələ gələrdi bəs? Vəzifədən? Maşından? Ay tövbə!.. Tüpürüm hamısına! Tüpürüm hər şeyə!

Sorğu-suala da hazıram. Uzaq başı soruşacaqlar:

- Hardan gəlirsən?

Deyəcəm:

- Dünyadan.

Soruşacaqlar:

- Dünya necəydi?

Səy Usubun dediyi kimi bir cavab verəcəm:

- Dünya əlaydı! Yaşadılar, kef elədilər, ölüb getdik...

Yəni Səy usub demişkən: “Yedilər, içdilər, dağılışdıq...”

* * *

Ay səni, doktor! Ay səni, Dədə Qorquda oxşayan kişi!..

“Qamən axan görklü suyun qurumasın... Çapırkən ağ-boz atın büdrəməsin...”

Büdrəməsin, doktor, büdrəməsin! Büdrəsə, qorxuram yenə yıxılarsan, saqqızlığında bir deşik də əmələ gələr, dünyanı bürüyən o qoxu ikiqat artar,insanlar pərən-pərən düşər...

Ay səni, dünyagir qulyabanı! Əməlli-başlı işə saldın bizi! Oyunun olsun!

Dünyaya ediləsi heç bir qarğışım, heç bir nifrinim yoxdu. Özümə bircə alxışım var. Bunu, kimlərsə qarğış kimi, nifrin kimi də anlaya bilər. Budur, hayqırıram: külün mübarək, başım, külün mübarək! İyirmi birinci xromosomundakı şikəstliyin mübarək, canım! Anomaliyası ağıllını dəli eləyib divara dırmaşdıran iyirmi birinci əsrin mübarək, zaman! Buzlağını çiliklədiyim gündoğanın mübarək, ömrüm!..

...Maşının yağ kimi rahat sükanı əlimdə oynadı. Hiss etdim ki, sevindiyimdən əlim əsir. Qaraqabaq, bədheybət cangüdən yavaşca qolumdan dartdı, hökmlü bir tərzdə, soyuqqanlıqla, maşını yolun qırağına verib saxlamağı bildirdi.

- Yerimizi dəyişək, - dedi. - Mən sürəcəm...

Razılaşdım. Yerimizi dəyişəndən sonra sol əlimlə özümdən ixtiyarsız onun kürəyinə şappıldatdım. Donuq sifətini mənə sarı çevirdi.

- Yaxşı oğlana oxşayırsan, - dedim. - Həmişə belə diqqətcil ol! Qara gözlüyünü də tax, yoxsa, gün gözünü qamaşdıracaq indi... Bax, gün doğur...

Onun tükü də tərpənmədi. Üzünü qabağa tutub, maşının sürətini artırdı... Təkcə onu eşitdim ki, dodağının altında çox astadan, deyəsən, bircə kəlmə: "Bədbəxt..." - dedi. Bəlkə də, heç nə deməmişdi, sadəcə, mənə elə gəldi...

Darıxdım. Geri qanrılıb dura-tuta Həşim kişinin dizinə bir qapaz ilişdirdim. Yazıq yuxudaydı. Diksindi və dərhal da soruşdu:

- Nədi, müəllim? Nəsə bir hadisə olub?

Əlimi əlimə sürtüb güldüm:

- Olub, olub!.. Görmürsən, sabah açılıb?! - dedim. - Yatma day!..

Doğrudan da sabah açılmışdı. O, yuxulu-yuxulu maşının pəncərəsindən boylanıb yenicə doğmuş günəşə baxdı, sonra çiyinlərini çəkdi, adəti üzrə yaylığını çıxarıb selin-suyun içində xoşbəxtcəsinə parıldayan gözlərimi sildi, yenə də həmişəki kimi: "ağlama, - dedi, - dözümlü ol..."

Onun bu sözlərinə gülümsünüb bir qapaz da o biri dizinə vurdum.

Bu dəfə o qımışdı. Saçlarımı qarışdırıb:

- Başını çırp, müəllim, - dedi. - Külün içindədi bütün...

Maşının güzgüsünə baxdım. Saçlarımın ağardığını, ya çallaşdığını heç cürə ayırd edə bilmədim. Deyəsən, başım doğrudan da külün içindəydi...

**SON**


# OXUCULARIN NƏZƏRİNƏ!

## 2016-cı İL ÜÇÜN

## "AZƏRBAYCAN"

**jurnalına abunə yazılışı davam edir.**

**"AZƏRBAYCAN"**

**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**

**İNDEKS: 76300**

## ◆ P o e z i y a



*AĞASƏFA*

**QARABULAQDA SƏHƏR DUASI**

Dua oxuyuram səninçin, Vətən,
Əllərim Tanrının ətəyindədir:
Çətin günümüzdə üz tutub gedən
Qürbətdə olanı yurduna gətir.

Dua oxuyuram: açsın güllərin,
Böyründə-başında qanqal bitməsin.
Hopsun ləçəklərə şirəsi yerin,
İşcil arıların uzaq getməsin.

Gülsün üzümüzə torpağın, daşın,
Mahala, tayfaya bölünməz olsun.
Tutulsa göylərin, sərt gəlsə qışın,
Əyni yalınların kürkü xəz olsun.

Dua oxuyuram ana dilində:
Ana sözlərimiz kökdən düşməsin.
Yersiz görünməsin bir vergülün də,
Var olsun dilimin söz birləşməsi.

Yabançı bəstələr getsin işinə,
Axsın dodaqlardan laylan, oxşaman.

...Qalxar dualarım haqqın ərşinə,
İnşallah, çin olar, qalmaz axşama...

**EYNƏYİMDƏ GÖRÜNÜŞ**

Şəhidlər xiyabanında
Külək
Var gücüylə
Sovurur sifətimə qarı...
Şəhid məzarları
Yeriyir gözümdə
Tank kimi...
Qarabağa sarı...

**DÖZÜM**

Mənəm bu daxmanın vəziri, şahı,
Bu həyət-bacanın nökəri mənəm.
Mənim boynumdadır yolun günahı,
Mən özüm özümə qatı düşmənəm.

Məni gözdən salan Tanrıya əhsən,
Tanrı dayım deyil, əmim deyil ki...
Qıy vurub fələklə girərəm bəhsə,
Ürəyim arxayın, əmin deyil ki...

Zamanın ətəyi özgə əlində,
Kasıb daxmamdakı vaxt-zaman ayrı.
Qızım dar daxmamdakı - güzgü əlində,
Güzgüdən keçirir içi-bayırı.

Gündüzlər huş gedir, ağlım uyuyur,
Gecələr bir tabaq ulduz payım var.
Köhnə məzarlıqda oğlum uyuyur,
Taleyin əlində bir qız payım var.

Dünyanın hər üzü mənə doğmadır,
Bəşərin karvanı gözümdən keçir.
Taxtım-paytaxtım da bu dar daxmadır,
Hər işim səbrdən, dözümdən keçir.

Hər kəsin alnında yazı bir cürə,
Mənim də yazımda oğul yası var.
Ruhlara məhrəmdir bu ocaq-hücrə,
Gözümdə ruhların qaraltısı var...

...Gözüm kölgəndədir, qaraltındadır,
Dözür ağrılara paytaxt-ürəyim.
Gözümün işığı qar altındadır,
Dözür, hələ dözür bədbaxt ürəyim...

## QIZIL QƏFƏS

Bu kəndim - ruhumun qızıl qəfəsi,
Bu qızıl qəfəsdə uçmağa yer yox.
Bu qızıl qəfəsdə qızır nəfəsim,
Nəfəsim qızdıqca qaçmağa yer yox.

Bu kəndim - ilk nəğməm, ilkin düşüncəm,
Gözü gül axtaran qəfəs quşuyam.
Hava qaralınca, axşam düşüncə
Göynər ağrılara sinəm aşıyan.

Çökməz bu qəfəsə şirin bir yuxu,
Kipriyim qapanmaz, gözüm yumulmaz.
Kəndin - qızıl qəfəs, qəfəsdə, axı,
Şöhrət istənilməz, minnət umulmaz.

Bu qızıl qəfəsim - Şəhid meydanım,
Bu kəndim - içimdə qopan savaşdır.
Bu kəndim - yaramda son damla qanım,
Son anda gözümdə son damla yaşdır...

***30.04.2014***
***Qarabulaq***

## MİNNƏTSİZ

Boynuma minnət qoyma ha,
Minnət götürən halım yox.
Dilim batmasın günaha,
Vaxt daralır, macalım yox.

Görür fürsətdir, məqamdır,
Cəld tərpənir fürsətgüdən.
İşini bilməz adamdır
Ahılları işdən edən.

Minnət götürməz kürəyim,
Məni kimsə qamçılamaz.
Duz-çörəyim - düz çörəyim,
Üstünə bal damcılamaz.

Geniş dünyam - bu dar koma,
Tanrımıza duaçıyam.
Minnət şirin şeydir... Amma
Mən bir az dili acıyam.

Lap kökdən fəhlə babayam,
Hər ovcumda möhür-qabar.
Hərdən köntöyəm, qabayam,
İnadım - keçilməz divar.

Arxamdır torpağım, daşım,
Bir dəcəl uşaq kimiyəm.
Hələ əyilməyib başım,
Bu dağlarda şah kimiyəm.

Necə vardım elə varam
Yurdum üçün, ölkəm üçün.
Əllərimə minnətdaram
Süfrəmdəki tikəm üçün.

Nadanlar haqqa daş atır,
Haqqı tanımır daş atan.
Məni minnətsiz yaşadır
Torpaq anam, Günəş atam.

***12.08.2014***
***Qarabulaq***

## ON KİŞİ... BİR DOVŞAN...

On kişinin gözünü
Tutmuşdu, örtmüşdü qan.
Yazıq, fağır, kimsəsiz
Dovşan çıxdı taladan.

On kişi - başı qızmış,
Keflənib... çıxıb ova...
On kişi bir dovşanı
Salmışdı qovhaqova.

Gör kim kimə tuş gəlib,
Olub kim kimə yağı.
On kişiyə xoş gəlib
Bir dovşanın qorxmağı.

Canı, ürəyi titrək
Dovşanın bağrı şan-şan.
On kişinin əlində
Girinc olmuşdu dovşan.

Doqquz kişi sürəkdə,
Biri əli tətikdə.
Yazıq dovşan yer gəzir,
Vurnuxur pöhrəlikdə.

On kişi bir ağılda,
Bir dovşan təngənəfəs.
Talada hay-küyə bax,
Meşəni bürüyüb səs.

Girdi xəzəl altına,
Gizləndi bir guşədə.
On kişi bir dovşanı
Gəzir hələ meşədə...

**DAŞLAŞMA**

Rişəm, köküm daşdadır,
Daşa yazılıb yazım.
Dilim-ağzım daş dadır,
Daşa dirənib ağzım.

Əlim daş altındadır,
Nə kölgə var, nə çətir.
Qar-yağış altındadır,
Ovcumda çiçək bitir.

Daş yazı, daş nağılam,
Daş kitabam... Oxu, gör...
Daşa dönmüş oğulam,
Köksümdəki oxu gör.

Daşolmaz nəyim qalıb?
Gözüm yaş, bəbəyim daş...
Bircə ürəyim qalıb...
O da daş olaydı kaş!

**AĞACLARIN VƏFATI**

Durub yasına getdim
Yıxılmış ağacların,
Qırılmış ağacların.
Yarpaqları can çəkib,
Qor olmuş ağacların.

Bu nə yurda qayğıdı,
Bu nə yurda vəfadı?
Bayram gününə düşüb
Ağacların vəfatı.

O ağac üzü üstə,
Bu ağac dizi üstə.
Nə palıd nəfəs çəkir,
Nə can qalıb vələsdə.

Sərələnib talaya
Antey gücündə ağac.
Qaya dibində ağac,
Tala küncündə ağac.

Qolları - budaqları,
Damarları sızlayır.
Gövdələri üstündə
Pöhrələri inləyir,
Mamırları sızlayır.

Bədənsiz, başsız qalıb
Sıra-sıra kötüklər.
Yuvalar quşsuz qalıb,
Zirvələr üz gizlədir,
Yaxa cırır gədiklər.

Sizə nə deyim daha?
Duman örtmüş talada
Bir ağac da mənəm ha,
Ay yolunu azanlar!

Ağaclar, rəhmət sizə,
Lənət sizə, insanlar...
Yetim qalmış pöhrələr,
Kaş başınız sağ olsun.
Mən də sizintək yetim...
Bilməm nə deyim... gedim.
Bilməm nə sayaq olsun?

## QIŞDA QAR İSTƏDİM...

*Saz havasında*
*Zəlimxan Yaquba nəzirə*

Bu zalım balası, elin bəlası,
Bu mahalda qazi, özündən razı,
Məni görən kimi qızardı dazı,
Dedi: - Get, camaat azalanda gəl.

Axır qapısından girdim bərbadın,
Yumşaq kresloda bir kötük-odun
Dedi: - Siyahıda yox imiş adın,
Qeydə düş, dəftərə yazılanda gəl.

Səhər söylədi ki: - Ağrıyır canım,
Korlayıb keyfimi filan-filanım.
İndi, görürsən ki, qaradır qanım,
Keyfim durulanda, saz olanda gəl.

Getdim, bir də gəldim, qaşındı bir az,
Qışda qar istədim, üşündü bir az,
Guya fikrə getdi, düşündü bir az,
Dedi: - Arxayın get, yaz olanda gəl.

Saxladı qapıdan keçəndə məni,
Dedi: - Bezdirmisən üç gündə məni.
Niyə çağırmırsan heç kəndə məni,
Demirsən bağ-bostan sozalanda gəl?

Dedim: - Bu nə sözdür, kənd səninkidir,
Elə fərz elə ki, dədən mülküdür,
İndi boğanaqdır, hələ bürküdür,
Gəl... Amma... Cibimdə qoz olanda gəl.

Bu gün yad qapıya gələn günümdür,
Özümün özümə gülən günümdür,
Sənin gələn günün ölən günümdür,
Daş düşsün o günə!
O gün olmasın!
Durma! Gəl! Məzarım qazılanda gəl...

***Qarabulaq***

*İlqar FƏHMİ*



# SON REPORTAJ

♦ ***Pyes***

***İŞTİRAKÇILAR:***

| | |
|---|---|
| **ƏHƏD LÜTFİZADƏ** | - *Qocaman aktyor. Xalq artisti. 70 yaşında* |
| **KƏRİM** | - *Onun yaxın dostu. Rejissor köməkçisi. 68 yaşında* |
| **TƏYYAR MİRİ** | - *Televiziya filmləri rejissoru. 35 yaşında* |
| **SEYMUR** | - *Telekanalın operatoru. 30 yaşında* |

*Hadisələr böyük teatrlardan birinin səhnəsində, günorta vaxtı cərəyan edir.*

*Teatrın yarımqaranlıq səhnəsi. Yalnız yuxarıdan düşən kiçik bir işıq səhnəni azca işıqlandırır. Zal boşdur.*

*İdman üslubunda geyinmiş Seymur iki kameranı gətirib səhnənin kənarına qoyur və səhnəni diqqətlə gözdən keçirdir. Kameraların ayaqlarını bərkidib bir qədər ortaya çəkir. Sonra səhnə arxasına keçir. Səhnənin işıqları yanır.*

*Səhnədə, bir divarın rəmzi olan dəmir karkas və pəncərə, park skamyası, küçə fanarı və bir neçə başqa dekor elementləri qoyulub. Hiss olunur ki, axşamkı tamaşadan qalıb.*

*(Səhnədə, arxada monitor quraşdırılıb, kamera arxasında dayanan Seymurun çəkdikləri paralel olaraq monitorda da görünür.)*

*Seymur işıqları yandırandan sonra, səhnəyə qayıdır, kənardakı bir kiçik kreslonu sürüyüb səhnənin ortasına qoyur, yenə də kameralarla məşğul olur. Dodaqaltı mahnı oxuyur…*

*Elə bu vaxt telefonda əsəbi danışan, şıq geyinmiş Təyyar Miri içəri daxil olur.*

**TƏYYAR MİRİ** - Mənə dəxli yoxdu, axşam saat ona qədər montajı qurtarsın… Əşi, cəhənnəmə uşağı xəstədi. Mən xəstələndirmişəm onu? Bax, mən deyirəm gecəyəcən montaj qurtarmalıdı. Vəssalam.

*Təyyar telefonu əl çantasına qoyur…*

**SEYMUR** - Yenə nə olub? Akif işi uzadır?

**TƏYYAR MİRİ** - Dəhşətdilər ey. Elə bil mən işimi-gücümü atıb bunu gözləməliyəm.

**SEYMUR** - Onsuz da sabaha elə bir işimiz yoxdu.

**TƏYYAR MİRİ** - *(əsəbiləşir)* Lap elə işimiz yoxdu. Bunun kimə nə dəxli var? Filan qədər maaş alır, canı çıxsın, işini vaxtında təhvil versin. Gündə bir bəhanə tapırlar; uşaq xəstədi, anam zəhərlənib, atam əməliyyata düşdü…

**SEYMUR** - *(təəssüflə)* Akifin işi Allaha qalıb. O boyda külfət oturub boynunda. Mən də həmişə çalışıram ona kömək eləyim, yazıq…

**TƏYYAR MİRİ** - Yaxşı, bəsdi görüm, Akifin vəkili deyilsən *(ətrafa baxır).*

**SEYMUR** - Nə olub yenə? Niyə hirslənmisən?

**TƏYYAR MİRİ** - *(bir müddət susub kameralara baxır).* Guya bilmirsən? Mən iki ildi öz filmimin ssenarisiyçün əlləşirəm. *(kameranı sığallayır)* Bütün instansiyalardan da keçirtmişdim. Şef özü də bəyənmişdi. Elə sevinirdim ki; ... ilk bədii işim olacaqdı… Hanı? İmkan verdilər? Şef saxladı sonraya. *(şefin təqlidini çıxardır)* Bilirsən, oğlum, sən gəl əvvəlcə Əhəd Lütfizadə haqqında filmi çək, bu daha vacibdi. Öz filmini saxlayaq gələn ilə. Hara tələsirsən ki? Hələ cavansan, nə yaşın var? Çəkərsən də… *(nəfəsini dərir. Yenə təəssüflə ah çəkir)* Hələ cavansan, nə yaşın var. Mənə deyir ey. Otuz beş yaşında cavan olar? Mənim taylarım bu festivaldan vurub, o birindən çıxır… *(özündən çıxır)* Tutub salasan təpiyinin altına hamısını… *(dodaqlarını sıxır, yanıqlı tərzdə)* Köməkçisi dedi ki, şef bu günlərdə qol çəkəcəkdi, amma bu iş girib ortaya. Mənim öz ssenarimi saxlayıb, qərara gəlib ki, bu il bu filmi çəkim.

**SEYMUR** - Deyərdin, versin o biri uşaqlara da…

**TƏYYAR MİRİ** - Əhəd müəllim istəyib ki, məhz mən çəkim. *(kinayəli tərzdə)* Kişinin xoşuna gəlib əvvəlki sənədli filmlərim.

**SEYMUR** - *(kameraların nəqillərini bərkidərək danışır).* Fikir eləmə. Daha keçib. Bir illə heç nə olmaz.

**TƏYYAR MİRİ** - *(əsəbi)* Nura çıxıb gedir, axı, Türkiyəyə? Zorla razı salmışdım ki, bu il də gözləsin.

**SEYMUR** - Getsin də. Aktrisa qəhətdi bəyəm?

**TƏYYAR MİRİ** - *(yenə əsəbiləşir)* Eeeh, sən nə başa düşəsən ey? Ssenari Nuranın xarakteri üstündə qurulmuşdu. Həm də, mən söz vermişdim ki, bu film onu bir nömrəli ulduz eləyəcək. Festivallar, müsabiqələr… Bütün Avropanı gəzəcəkdik o filmlə. *(köynəyinin yaxasını açır)* Amma indi yarım il oturub bu bezdarnı qoca haqqında film eləməliyəm.

**SEYMUR** - Elə demə, ağsaqqal adamdı, xalq artistidi…

*Təyyar fikirli halda səhnədə gəzişir.*

**TƏYYAR MİRİ** - Qulaq as mənə. Sən bunu yaxşı tanıyırsan?

**SEYMUR** - *(çiyinlərini çəkir)* Tanıyırsan deyəndə ki, şəxsi münasibətim olmayıb. Uşaq vaxtı televizorda köhnə tamaşalarda görmüşəm, bir-iki dənə də köhnə filmdə. Bilirəm ki, xalq artistidi, qocaman sənətkardı.

**TƏYYAR MİRİ** - Düzdü, Əhəd Lütfizadə xalq artistidi, ölkədə nə qədər mükafat varsa, hamısını alıb. Amma …

**SEYMUR** - Nə amma?

**TƏYYAR MİRİ -** O, istedadsız adamdı, başa düşürsən? İçi boşdu. Böyük qardaşı sovet vaxtında uzun illər Nazirlər Sovetində, Mərkəzi Komitədə yaxşı vəzifələrdə işləyib. Hələ neçə il nazir də olub... Onunçün sənətdə də Əhəd Lütfizadəyə bütün yollar açıq idi. Özünə elə möhkəm yer elədi ki, sonra daha heç kim tərpədə bilmədi onu. *(başını bulayır)* Belələri bilirsən nə qədər istedadlı cavanları məhv edirlər? Yollarını kəsirlər, imkan vermirlər ki, qabağa getsin.

**SEYMUR** - Hə, onu düz deyirsən. Özümüz bəyəm az çəkmişik belə?

**TƏYYAR MİRİ** - Onunçün də biz gərək onu məhv edək. Bu film onun cəlladı olmalıdı. Mən çalışacam söhbətləri - filanı elə qurum ki, o, özü-özünü camaatın gözündən salsın, öz istedadsızlığını, mənasızlığını publik olaraq sübut eləsin.

**SEYMUR** - Başa düşmədim. Elə şey olar? Dəli deyil ki, özü özünü gözdən salsın.

**TƏYYAR MİRİ** - Mən bilirəm neynəyəcəm… İndi eşit, gör bütün çəkilişlərdə sənin boynuna düşən nə olacaq. Birincisi, heç vaxt kameranı söndürmə, hətta mən desəm də. Qoy çəksin hər şeyi. İkincisi də ki, həmişə diqqətin söhbətdə olsun, ən vacib yerlərində iri planda götür, sifətini, əlləri əssə, əllərini, gözləri yaşarsa, gözlərini…

**SEYMUR** - Ağlatmaq istəyirsən bəyəm onu? Neynirsən, qoca kişidi, ağsaqqal adamdı, işin yoxdu.

**TƏYYAR MİRİ** - Elə ağsaqqal-filan deyə-deyə mindirmişik də boynumuza. *(kameraların qarşısına keçir.)* Mən eyni materialdan iki film eləmək istəyirəm. Biri bizim telekanalçün olacaq. Biri də xarici festivallarçün. Əsas gücü ikinci filmə qoymaq lazımdı. Orda bezdarnı bir aktyorun zirvələrə necə çıxmasının sirlərini açacam. Gizli çəkilişləri - filanı da istifadə edəcəm. Amma o filmi burda heç kimə göstərməyəcəm. Ancaq xarici festivallar…

**SEYMUR** - Birdən bizimkilər xəbər tutdular?

**TƏYYAR MİRİ** - Onlar oturub iki filmi tutuşduran deyilllər ki? Eyni adla olacaq da. Hamı elə biləcək ki, mən elə kanalda göstərdiyimiz filmi yollamışam festivala.

**SEYMUR** - Nə bilim, vallah. Problem açarsan ey özünə.

**TƏYYAR MİRİ** - Nə olur-olsun. Ürəyimi boşaltmalıyam. Yoxsa bağrım çartlar.

**SEYMUR** - *(kameralara tərəf gedir)* Yaxşı, onda mən bu kameranı qoyaram ümumi planda özü çəksin, özümsə iri planları ikinci kamerayla işləyərəm …

**TƏYYAR MİRİ -** *(yenə saatına baxır)* Harda qaldı bunlar… Gəl gedək bir siqaret çəkək…

*Onlar səhnədən çıxırlar…*

## – 2 –

*Səhnədə sakitlik. Əlində əsa olan qoca səhnəyə çıxır. Bu rejissor köməkçisi Kərimdir. Yerişindən yorğun olduğu bilinir. Amma ümumilikdə, həm yerişindən, həm də baxışlarından qəribə bir ağırlıq, təmkin, zəhm hiss olunur.*

*Kərim Kameraların tuşlandığı kresloya baxır, nəsə fikirləşir, sanki kameraların rakursu xoşuna gəlmir… Dayanıb həm kameralara, həm də dekorlara baxır.*

*Qəfildən onu öskürək tutur, bir az öskürüb sakitləşir.*

*Elə bu vaxt şıq geyinmiş, qara kostyumlu, boğazına da köhnə xanəndələr kimi yun şərf dolamış Əhəd Lütfizadə şax yerişlə daxil olur.*

**LÜTFİZADƏ** - *(şən səslə)* Televiziya əməkdaşlarına eşq olsun…

*Səhnədə heç kimin olmadığını görür.*

**LÜTFİZADƏ** - Bəs bunlar hanı?
**KƏRİM** - Çıxıblar. Yəqin, kafeyə düşüblər, çay içməyə.
**LÜTFİZADƏ** - Hə, yadıma sal, çəkilişdən sonra qonaqlıq verim onlara. Yoxsa deyərlər Lütfizadə simic adamdı. *(gəlib kameranın qarşısındakı kresloda oturur, qonaqlar olmadığından bir qədər rahatlanır, boşalır sanki. Bir müddət sakitcə ayaqlarını ovuşdurur.)* İki pilləkan qalxıram, dizlərim sınır. Ayaqlarım tutmur daha, Kərim…
**KƏRİM** - Günah özündədi də… Nə qədər onun-bunun problemlərinin dalıyca qaçacaqsan? Ayaq neynəsin? *(gəlib onun yanındakı kətildə oturur)* Eybi yox, iki gün qalıb, qoy yubiley tədbirləri qurtarsın, dincələrsən… Səhər nə olmuşdu? Heç keyfin yox idi?

*Pauza*

**LÜTFİZADƏ** - *(ah çəkir)* Yuxu görmüşdüm, Kərim, elə axmaq yuxu idi ki…
**KƏRİM** - Nə görmüşdün?
**LÜTFİZADƏ** - Görürdüm ki, xarabalıq bir yerdəyik, mən dayanmışam, sən də yanımdasan, əlində də zənbil var. Yerdən xırda daşları, qənbərləri yığırsan zənbilə… Sonra da mənə baxıb deyirsən ki, altmış səkkiz oldu, bəsdi. Yoruldum daha… Elə bu vaxt oğlun zəng vurur, deyir ki, bəs, Əhəd əmi, atam ölüm ayağındadı, səni istəyir. Mən də gülürəm, deyirəm, ay kişi, atan mənim yanımda, bu saat zənbilə qənbər yığır… O da deyir ki, yox ey, ölür, səni görmək istəyir… Mən yenə gülürəm. Axırda uşaq deyir ki, Əhəd əmi, gecikdin, atam uje öldü. *(susub dilxor halda fikrə gedir)*

*Pauza.*

**KƏRİM** - *(fikrə gedir)* Bəs sonra nə oldu?
**LÜTFİZADƏ** - Nə sonra?
**KƏRİM** - Oğlum dedi ki, atam öldü. Bəs sonra nə oldu?
**LÜTFİZADƏ** - Nə olacaq ki? Öldün də…
**KƏRİM** - Yox, ey, sən dedin, axı, mən sənin yanımda dayanmışdın, oğlum zəng vurdu ki, atam can verir…
**LÜTFİZADƏ** - *(təəccüblə)* Necə yəni yanımda dayanmışdın? Sən orda can verirdin, özün də məni görmək istəyirdin. *(gözləri dolur.)* Sonra da öldün…
**KƏRİM** - A kişi, dedin ki, yanımda dayanmışdın, əlində də zənbil, bu yandan da guya oğlum zəng elədi ki, atam ölür…
**LÜTFİZADƏ** - Sən haçandan zənbil gəzdirən olmusan?
**KƏRİM** - Elə demədin bəyəm? (sanki tərəddüd edir) Yuxunu danışırdın da… Yuxuda hər şey olur… *(qəfildən öskürməyə başlayır.)* Bu astma məni əldən saldı lap.
**LÜTFİZADƏ** - *(vahimə içində Kərimə baxır)* Yekə kişisən, ölüb-eləmə, eşidirsən məni? Kişi də altmış səkkizdə ölər? Bağışlamaram sənə, məni qoyub getsən.
**KƏRİM** - Əşi, Allahın işidi.
**LÜTFİZADƏ** - Siqareti də at getsin, eşidirsən? Qoy yubiley-filan qurtarsın, səni aparacam bizim uşaqların klinikasına, qoy əməlli-başlı yoxlasınlar.
**KƏRİM** - Əl çək də, sən mənim canım… Qurdalayıb əlli dənə xəstəlik çıxardacaqlar.

**LÜTFİZADƏ** - Heç nə olmaz, tapıb çıxardarlar, müalicə edərlər. *(ah çəkir)* Bu saat bizim elə vaxtımızdı ki, özümüzdən başqa heç kimə lazım deyilik.

**KƏRİM** - Niyə naşükürlük edirsən? Uşaqların, nəvələrin. Hökümət də səninçün hər şey eləyir.

**LÜTFİZADƏ** - Eh, uşaqlar... *(fikrə gedir.)* Hamı özünü fikirləşir. Odey, neçə vaxtdı mənim yubileyimi gözləyirlər. Hərəsinin öz sifarişi var. Böyük oğlum dirəyib ki, nazirə de, yubiley münasibətiylə bizə təzə ev versin. Kiçiyi yapışıb ki, bizim sədrimiz gələcək yubileyə, xahiş elə, məni şöbə müdiri götürsün. Qız yapışıb ki, Akademiyanın prezidenti olacaq orda, tapşır, mənim doktorluğumu tez keçirtsin... Elə bil yubileyi hökümət mənimçün yox, bunlarçün eləyir. Axırda da altmış beş illikdəki kimi olacaq. Yubiley vaxtı hərə öz problemlərini həll edəcək, sevincək çıxıb gedəcəklər. Verilən hədiyyələri də nəvələrim dartışdırıb aparacaq... Mənsə yenə də gəlib oturacam o boş evdə. Baxacam fəxri fərmanlara, mükafatlara, köhnə şəkillərə... *(ah çəkir)* Dünən Teymurləng çıxdı qabağıma təsadüfən. Tamaşadan çəkilən şəkil... Düşmüşdü şifonerin altına, qalmışdı tozun içində. Götürüb tozunu sildim, baxdım, baxdım... Nə qəşəng tamaşaydı, camaat necə alqışlayırdı... Zal dağılırdı e... Vəli Axundov ayaq üstə əl çalırdı. O boyda Birinci katib... Yadındadı, Kərim?

*Lütfizadə pafoslu görkəm alıb, Cavidin «Topal Teymur» pyesindən fraqment deyir.*

**LÜTFİZADƏ** - Buyurun, şövkətli sultanım, Tanrı qulu Teymurdan ikram və ehtiram görəcəksiz. Lütfən, bu məktubu oxumusunuzmu?

**KƏRİM** - Zatən, yazıldığı zaman oxunmuşdur.

**LÜTFİZADƏ** - İştə, mən bu məktubdakı sözləri unutdum və sizi əfv etdim. Yalnız əfv etmək deyil, məhəbbətinizi də qazanmaq istərəm. Əcəba, bu xüsusda məğrur Yıldırım nə düşünür?

**KƏRİM** - Düşünəcək bir şey yox. Əvət, sən qalibsən. Amma bu qələbə fürsət gözləyən qonşu dövlətləri məmnun etdi. İslam aləmi başsız qaldı.

**LÜTFİZADƏ** - Heç mərak etmə, xaqanım. Sən kor bir abdal, mən dəli bir topal. Əgər dünyanın zərrə qədər dəyəri olsaydı, yığın-yığın insanlara, ucu-bucağı görünməyən məmləkətlərə sənin kimi bir kor, mənim kimi bir topal hökmranlıq etməzdi....

*Onlar oynadıqca, hiss olunur ki, Kərim daha maraqlı, daha səlis oynayır... Qəfildən sanki Lütfizadənin başı hərlənir, kresloya çökür...*

**KƏRİM** - Nə oldu?

**LÜTFİZADƏ** - Heç, başım hərləndi...

*Kərim səhnə arxasına keçir, ona su gətirir, Lütfizadə, içir...*

**LÜTFİZADƏ** - *(zalın dərinliklərinə baxır)* Eh, ay Kərim, hara getdi ömür? Elə bil dünən idi Tomanın üstündə səninlə qan düşməni olmağımız. *(gülümsünür)* Az qalmışdı bıçaqlayım səni Malakankanın tinində. Qan vurmuşdu beynimə... *(Kərimə baxır.)* Hanı o dəliqanlı vaxtlarım?

**KƏRİM** - Qaldı qırx il o tərəfdə...

**LÜTFİZADƏ** - Yox, əşi, heç nə qalıb-eləmədi. *(sanki səsi dirilir)* Mən yenə əvvəlki Lütfizadəyəm, yenə səhnənin aslanıyam...

*Yenə qalxıb pafosla monoloq deyir.*

**LÜTFİZADƏ** -

Atəş, bütün atəş, bəşəriyyət bütün atəş,
Hər bir hərəkət, mənbəi-xilqət bütün atəş..
Zərdüştü düşün, fəlsəfəsi, fikri, dühası,
Həp atəşə yandırmaq istəyirdi bütün dünyanı… adamları…

*Lütfizadənin dili dolaşır, çaşır, susub nəsə fikirləşir.*

*Kərim sakitcə yaxınlaşıb qolundan tutur. Otuzdurmaq istəyir, amma kresloya baxaraq nəsə fikirləşir.*

**KƏRİM** - Çəkil bir dəqiqə…

*Lütfizadə çəkilir. Kərim Lütfizadənin bayaq oturduğu kreslonu kənara sürüyür)*

**LÜTFİZADƏ** - Hara dartırsan onu?

**KƏRİM** - Nəsə xoşuma gəlmədi bu kreslo…

**LÜTFİZADƏ** - *(fikirləşir)* Düz deyirsən… Mənimçün çox kiçikdi. Nəsə sanballı bir şey olmalıdı.

*Hər ikisi səhnə arxasına yaxınlaşırlar, Kərim kreslonu pərdə arxasına itələyir. Lütfizadə gedib səhnənin arxasındakı dekorasiyaları gözdən keçirir, nəhayət, nəyisə göstərir.*

**LÜTFİZADƏ** - Gətir bunu qoyaq ora…

*Kərim də səhnə arxasına keçir və hansısa tamaşanın dekorasiyası olan yaraşıqlı kral taxtını səhnəyə çıxardır, amma tək gücü çatmır deyə, iki qoca bu kreslonu birtəhər sürüyürlər, gətirib kameranın qarşısına qoyurlar.*

**LÜTFİZADƏ** - Hə, bu başqa məsələ. *(şəstlə oturur)*

**KƏRİM** - *(fəxrlə ona baxır)* Səhnəmizin kralı…

**LÜTFİZADƏ** - *(qalxıb, camaat qarşısındaymış kimi, baş əyir)* Çox sağ ol, çox sağ ol… Doğrudan yaraşır ey mənə bu taxt. Bəlkə, Kral Lirin paltarını geyinib gəlim, hə? Tacını da qoyum başıma. O paltarda çəksinlər məni. Bir monoloq da deyərəm.

**KƏRİM** - Əla olar.

*Lütfizadə ayağa qalxıb, Kral Lirdən yenə də pafosla monoloq deməyə başlayır.*

**LÜTFİZADƏ** -

Əs, durma, əs, ey külək,
yanağımızı parçalayana qədər əs.
Yağ, ey yağış, durmadan yağ,
qoy sel bassın hər yeri,
kilsələri, evləri
Siz, ey ildırımın iti odlu oxları,
yandırın mənim ağarmış başımı.

*Təyyar Miri ilə Seymur gəlirlər. Lütfizadə onları görüb monoloqu saxlayır.*

**– 3 –**

*Təyyarla Seymur qocalara yaxınlaşırlar, Seymur nəzakətlə, Təyyar isə bir qədər soyuq salamlaşır. Qocalar onları görcək özlərinə şax görkəm verməyə çalışırlar.*

*Seymur kameralara yaxınlaşıb işə salmaqla məşğul olur.*

**LÜTFİZADƏ** - *(Təyyara baxır)* Təyyar sən olarsan, yəqin? İncəsənət adamı ki var, gərək ən əvvəl geyiminə fikir versin. Camaat bilsin ki, bax, bu rəssamdı, rejissordu, nə bilim, bəstəkardı… *(Təyyarı Kərimə göstərir.)* Bax, o saat bilinir ki, rejissordu… Saçı, geyimi, yerişi…

**TƏYYAR MİRİ** - *(qəfildən)* Yox, bağışlayın, amma rejissor Təyyar mən deyiləm, mən verilişin ssenaristiyəm. Təyyar odu. *(Seymuru göstərir)*

*Kameraların fokusunu düzəldən Seymur diksinir, heyrətlə Təyyara baxır….*

**TƏYYAR MİRİ** - *Hə, odu Təyyar…*

*Kənarda, kətildə oturan Kərim də Seymura baxır, Lütfizadə Seymura yaxınlaşır.*

**LÜTFİZADƏ** - Lap əla, lap gözəl… Üzrlü hesab elə, tanımadım. Rejissordu, operatordu, pomrejdi, belədi də. Həmişə kameranın arxasındadı deyə, sifətləri tanınmır. *(Kərimi göstərir.)* Bu dey, mənim cavanlıq dostum Kərim. Qırx ildi rejissor köməkçisidi, amma heç kim tanımır onu, indiyəcən hər dəfə pensiyasını artırmaqçün mən gedirəm sobesə. Özü gedəndə qalır qapı dalında. Amma artistin epizod oynayanını da hamı tanıyır, hörmət edir.

**SEYMUR** - *(çaşqınlıqla)* Hə, düzdü…

**LÜTFİZADƏ** - Mən sənin filmlərinə baxmışam. Yaxşı işləyirsən. Səməndər Rzayev haqqında filmin əla idi. Amma Həsən Məmmədovdan çəkdiyin film lap çox oynatdı içimi. Rəhmətliklə yaxın dost idim, axı, bir problemi olan kimi o saat mənim üstümə cumurdu. Elə cavanlıqdan… Kövrəltdi məni o film.

**SEYMUR** - *(sıxılaraq)* Çox sağ olun.

*Seymur sual dolu baxışlarla Təyyara baxır, Təyyar gizli-gizli gülümsünür…*

**LÜTFİZADƏ** - Yox, «çox sağ ol» sənə düşür, böyük sənətkarlarımızı o cür təqdim eləmisən.. İndiki cavanların, axı, xəbəri yoxdu onlardan. Fikirlərində ancaq…

*Seymurun telefonuna zəng gəlir, üzr istəyib kənara çəkilir, səhnənin küncündə sakitcə danışmağa başlayır…*

*Lütfizadə Təyyara tərəf gəlir, boğazındakı şərfi açıb təzədən bağlayaraq dillənir.*

**LÜTFİZADƏ** - Bəs sənin adın nədi, oğul?

**TƏYYAR MİRİ** - *(ani özünü itirir, qısa pauzadan sonra gülümsünür)* Şükür…

**LÜTFİZADƏ** - Şükür?

**TƏYYAR MİRİ** - Hə, Hakan Şükür…

**LÜTFİZADƏ** - Lap türk adlarına oxşayır.

**TƏYYAR MİRİ** - Hə, orda oxumuşam, axı… Xaqandı adım, amma orda o qədər Hakan dedilər ki, öyrəşdim. Familyam da Şükürov idi, "ovu" çıxartdım. Oldu Hakan Şükür. Türk üslubunda...

**LÜTFİZADƏ** - Hə, nə olar ki. Qoy türk yolu olsun. Qardaşlarımızdı da. O boyda Hüseyn Cavid türk ləhcəsində yazmırdı bəyəm? *(nəsə fikirləşir)* Amma yaman tanış gəlir ey adın mənə. Elə bil hardasa eşitmişəm.

**TƏYYAR MİRİ** - Çoxlu kitablarım çıxıb, ssenarilərimə filmlər çəkilib.

**LÜTFİZADƏ** - Hə, ola bilər. Yəqin, kitabların üstündə görmüşəm adını.

*Seymur telefonla söhbətini qurtarıb Təyyara yaxınlaşır, hiss olunur ki, onu kənara çəkib, dediyi yalanla bağlı danışmaq istəyir, amma bəhanə tapmır. Nəhayət, ağlına gəlir.*

**SEYMUR** - Gəl çıxaq bir siqaret çəkək...

**TƏYYAR MİRİ -** İndi çəkdik də.

**LÜTFİZADƏ** - Sən canın, tullayın o siqareti bir yana. Qulaq asın ağsaqqal sözünə. Diri-diri basdırmayın özünüzü qəbrə.

**TƏYYAR MİRİ -** Çalışırıq ey, amma alınmır...

*Seymur siqaret yandırıb səhnənin kənarına doğru gedir...*

**SEYMUR** - Gəl, gözləyirəm səni.

**TƏYYAR MİRİ -** Yaxşı, bu saat siqaret götürüb gəlirəm.

**SEYMUR** - Var da məndə...

**TƏYYAR MİRİ -** Ondan çəkə bilmirəm. Bərkdi...

*Təyyar əl çantasına tərəf gedib eşələnir. Seymur çıxır.*
*Lütfizadə isə Seymurun dalıyca baxır.*

**LÜTFİZADƏ** - Çox istedadlı oğlandı. *(Kərimə )* Sən də görmüsən onun filmlərini?

**KƏRİM** - Yox, rastıma çıxmayıb.

**LÜTFİZADƏ** - Verərəm baxarsan.

*Təyyar özü barədə söhbəti eşidib yavaşıyır, özünü siqaret axtarırmış kimi göstərərək, qulaq asır.*

**LÜTFİZADƏ** - *(Kərimə)* Teatrdakı uşaqlar dedi ki, Təyyar Miri özündən razı, lovğa bir adamdı. Elə deyilmiş. Gördün necə qabiliyyətli oğlan çıxdı? Sakit, başıaşağı, sadə. Əsl istedad bunun kimi olar.

**KƏRİM** - Ağac bar verdikcə başını aşağı salmalıdı.

**TƏYYAR MİRİ -** *(müdaxilə edir)* Əşi, çox da şişirtməyin, Əhəd müəllim.

**LÜTFİZADƏ** - Oğul, Hakan Şükür, sən hələ cavansan, başa düşməzsən belə şeyləri... Təyyar o filmlərdə adamın ruhunu silkələyir ey. Başqa heç bir rejissorun filmləri məni o cür tutmayıb. Telekanalın sədriylə danışanda, dedim ki, mütləq o çəksin mənim filmimi. Dedi, bəlkə, yaşlı rejissorlardan birinə tapşırım, dedim istəmirəm. Yetmiş illiyimdi, gərək xətrimə dəyməyəsiz, istəyirəm bu filmi məhz o oğlan çəksin. Başqası lazım deyil...

*Təyyar bir az əsəbiləşir, siqaretini elə səhnədə yandırır...*

**TƏYYAR MİRİ -** Bəlkə, əvvəl elə özüylə danışaydız? Heç özündən soruşduz ki, istəyir sizin haqqında film çəkmək yoxsa yox? Bəlkə, əlində nəsə başqa vacib işi olub? Bəlkə, nəsə problemləri var? Heç film çəkmək halında deyil? Bəlkə, vəziyyəti pisdi?

**LÜTFİZADƏ** - *(narahatlıqla qalxır)* Nəsə olub bəyəm? Həll eləyək də, ölməmişik ki? Bəlkə nəsə həkimlik işdi? Babasili, qrıjası var? Hamısını yoluna

qoyaram, şəhərdəki klinikaların yarısı mənim dost-tanışlarımdı, başıma and içirlər.

**TƏYYAR MİRİ -** *(hikkəylə)* Hə, qrijası var. Bu saat fikri-zikri ancaq qrıjanın üstündədi…

*Əsəbiliklə əlini yellədib siqaretini damağına qoyaraq çıxır….*

**LÜTFİZADƏ** - Ay bala, Hakan Şükür?

***– 4 –***

*Təyyar çıxandan sonra Lütfizadə qayıdıb yerinə oturur.*

**LÜTFİZADƏ** - *(fikirli)* İşdə nəsə problemləri var Təyyarın. Vəziyyəti gərgindi.

**KƏRİM** - Nə problem?

**LÜTFİZADƏ** - Sədr dedi ki, özünə hələ hiss elətdirməmişik, amma işdən çıxartmaq istəyirik. Özünü yaxşı aparmır. Orda-burda ağzına gələni danışır, yekəbaşlıq edir… Dedim , ay kişi, sən hər deyilən sözə fikir vermə, o, istedadlı oğlandı, elələrinin də ayağının altını qazıyan çox olur, olmayan sözü də qoyurlar boynuna…

**KƏRİM** - Hə, düzdü..

**LÜTFİZADƏ** - Dedim, dəymə, qoy mənim filmimi çəksin, sonra mən oturub özüm bir ağsaqqal kimi onunla söhbət eləyərəm, bəzi şeyləri başa salaram. Nəsə, uzun söhbətdən sonra razılaşdı, dedi sizin xətrinizə, hələ dəymirəm ona, qoy çəksin sizin filmi. *(fikirli.)* Amma qrıjasının olmağını bilmirdim. Gələndə soruşaram.

*Bir neçə saniyə susurlar…*

**LÜTFİZADƏ** - *(Kərimə)* Nə danışacaqsan məndən?

**KƏRİM** - Bir şey danışaram da. Cavanlığımızdan, o vaxtkı tamaşalardan…

**LÜTFİZADƏ** - Yox, barmaqarası baxma, ciddi fikirləş. Bu film gərək əla bir şey olsun.

**KƏRİM** - *(başını bulayır)* Yaxşı, çalışaram ciddi danışım, səviyyəli olsun…

**LÜTFİZADƏ** - *(fikrə gedir)* Amma mən qorxuram yaman.

**KƏRİM** - Niyə ki?

**LÜTFİZADƏ** - Yaddaşım axır vaxtlar oyun oynayır elə bil mənimlə… Gah əlli il bundan qabaq olan şeylər gəlib dayanır gözümün qabağında, elə bil dünən olub. Gah da dünən nə yemişəm, onu da yadıma sala bilmirəm. Təzə başlayıb, əvvəl belə şey yox idi… Dünən teatrın direktorunun otağına girmişəm, elə əlimi uzatdım salam verim, birdən adı çıxdı yadımdan. Dayanıb baxıram kişinin gözünün içinə, heç cür yadıma sala bilmirəm adını. Axırı divardakı Fəxri diplom sataşdı gözümə, adı düşdü yadıma. *(başını tərpədir)* Yaxşı deyil. Gərək klinikaya baş çəkim.

**KƏRİM** - Fikir vermə, olan şeydi. Bu saat cavan adamların yaddaşı korlanıb, o ki qaldı biz olaq…

**LÜTFİZADƏ** - *(əsəbiləşir)* Sənin nə vecinə. Özün həmişə iti yaddaş olmusan… Otuz il əvvəl olan şeylər də yadından çıxmır. Ən çox da pis şeylər. Mənə filan vaxtı belə dedin, mənə filan vaxtı belə elədin…

**KƏRİM** - *(qaşqabaqla)* Demək istəyirsən ki, mən kinliyəm?

**LÜTFİZADƏ** - Düz demirəm bəyəm? Keçən həftə dediyin indiyəcən yandırır məni. Amma heç cür yadıma sala bilmirəm nə vaxt olub, harda olub?

**KƏRİM** - *(qəfildən əsəbiləşir)* Yadına düşməz də. Sərf eləmir, axı… O qədər adamın içində məni bir qəpiklik elədin… *(onun təqlidini çıxardır)* Dünyada bir dənə çolaq pomrej var, o da bizim Kərimdi. Özü də həmişə belə qalacaq, nə çolaqlıqdan xilas ola biləcək, nə də pomrejlikdən…

**LÜTFİZADƏ** - *(təəccüblə)* Lap elə demişdim?

**KƏRİM** - Hə, sözbəsöz.

**LÜTFİZADƏ** - *(əlini-əlinə vurur)* Necə yadında qalıb ey. Sonra deyir ki, kinli deyiləm. A kişi, nə vaxt olub elə şey? Axı, niyə dayandığım yerdə sənə belə söz deməliyəm? Bəlkə, içkili olmuşam?…

**KƏRİM** - Heç içkili-filan deyildin. Yetmiş ikinci ildə olub, Tiflis teatrından qonaqlar gəlmişdi, içində üç-dörd mamlımatan arvad vardı. Onların yanında şirinlik eləyirdin. Həmişə belə olmusan da. Arvad görən kimi açarını itirmisən.

**LÜTFİZADƏ** - Heç cür yadıma gəlmir…

**KƏRİM** - Hələ həştad beşdə Kiyevdə…

**LÜTFİZADƏ** - *(Kərimin sözünü kəsib, sakitləşdirməyə çalışır)* Yaxşı da, olub keçib. Bilirsən ki, qadınlar mənim zəif yerimdi. Hamı sənin kimi olmaz, axı. Qırx il bir arvadla yaşamağın özü də qəhrəmanlıqdı. Medal düşür sənə. *(gülür)*

**KƏRİM** - *(ah çəkir. Fikrə gedir)* Hə, düzdü, qəhrəmanlıqdı…

*Pauza.*

**LÜTFİZADƏ** - Qulaq as, sən axırıncı dəfə onu nə vaxt qıdıqlamısan? *(gülümsünür)*

**KƏRİM** - *(fikirli)* Kimi?

**LÜTFİZADƏ** - … Kimi olacaq? Arvadını deyirəm də. Gülnarəni… *(qıcıqlandırıcı tərzdə)* Axırıncı dəfə haçan qıdıqlamısan, çimdikləmisən, ovxalamısan?

**KƏRİM** - *(hirsi hələ soyumayıb)* Başa düşmürəm ey? Mən niyə dayandığı yerdə onu ovxalamalıyam? Xəstə-zaddı?

**LÜTFİZADƏ** - *(bir az səsi qalxır)* A kişi, demək istəyirəm axırıncı dəfə nə vaxt onu qıdıqlamısan, çimdikləmisən, yorğanı çəkmisiz başınıza?

**KƏRİM** - Əşi, bu istidə yorğanı neynirəm ey? Onsuz da ev cəhənnəmdi. *(ciddi səslə)* Bir də ki, mən ona həmişə şəxsiyyət kimi hörmət eləmişəm, xətrini istəmişəm.

**LÜTFİZADƏ** - Xətrini istəmisən? *(pauza)* Əsl qardaş kimi. *(qəhqəhə çəkir)* İndi bildim ki, qocalmısan. Mən nədən danışıram, sən nə deyirsən.

**KƏRİM** - Mən burda astmanın əlində qalmışam belə, adam kimi nəfəs də ala bilmirəm, bu deyir arvad belə, yorğan elə… Bizim arvad bu saat məndən beşbetər, elə gündədi ki, eləsəm-eləsəm, onu ancaq bankələyə bilərəm. Soyuq dəyəndə…

**LÜTFİZADƏ** - Hə, onu yaxşı bacarırsan, bilirəm… Rəhmətlik kassirşamız Maya da, o vaxt həmişə deyirdi ki, Kərim adamı elə qəşəng bankalarayır... *(qəhqəhə çəkir)* Amma, sən mənim canım, ay Kərim, o boyda bədənə necə banka çatdırırdın? Rəhmətlik qapıdan yerləşmirdi, yəqin, otuz-qırx dənə banka gedərdi kürəyinə. *(yenə qəhqəhə çəkir)*

*Kərim də gülür, elə bu vaxt cavanlar içəri girir…*

**KƏRİM** - Yaxşı, bəsdi, cavanlıq hoqqalarımızı qoy bir yana…

*Qocalar özlərini yığışdırırlar.*

**– 5 –**

*Seymurla Təyyar çəkiliş yerinə yaxınlaşır. Seymur susqun görünür, hiss olunur ki, Təyyar onu bu oyunu oynamağa razı salıb.*

*Təyyar Lütfizadəyə yaxınlaşır, Seymursa yenə də kameraları hazırlayır.*

**TƏYYAR MİRİ -** Yaxşı, başlamaq olar. Əhəd müəllim, gərək əvvəlcə…

**LÜTFİZADƏ** - *(onun sözünü kəsir)* Dayan görüm… *(qalxıb Seymura yaxınlaşır.)* Təyyar bala...

*Aşağı əyilib kameranın ayaqlarını düzəldən Seymur ona fikir vermir…*

**LÜTFİZADƏ** - Sənləyəm, ay oğul, Təyyar…

*Seymur sanki yalnız indi hiss edir ki, Lütfizadə onu çağırır. Seymur qalxır…*

**SEYMUR** - Bəli, Əhəd müəllim, buyurun, eşidirəm.

**LÜTFİZADƏ** - Hakan Şükür dedi ki, səhhətində nəsə problemin var?

**SEYMUR** - *(çaşır)* Kim dedi?

**LÜTFİZADƏ** - Hakan Şükür də... *(əliylə Təyyarı göstərir)* Sənin ssenaristin. Nəsə kömək lazımdısa, de, həll eləyək, utanma. Əlimizdə deyil? Mənim həkim dostlarım çoxdu.

*Seymur təəccüblə Təyyara baxır, hiss olunur ki, hər ikisi gülməklərini zorla saxlayırlar.*

*Onların bu vəziyyətini Kərim hiss edir, amma üzə vurmur. Susub baxır.*

*Seymur vəziyyəti başa düşür, özünə ciddilik verməyə çalışır…*

**SEYMUR** - Çox sağ olun, Əhəd müəllim, amma düz başa düşməmisiz. Şəxsi həyatla bağlıdı.

**LÜTFİZADƏ** - Hə, bu başqa… Şəxsi həyat elə şeydi ki, ora kənardan gərək heç kim burun soxmasın. Amma başqa nə işdə problemin olsa, utanma, de. Özün bilirsən ki, bütün xalq mənim başıma and içir. Hələ indiyəcən kiminsə işinin dalıyca düşmüşəmsə, yarımçıq buraxdığım olmayıb. Həll eləməyincə əl çəkməmişəm.

**SEYMUR** - Əhəd müəllim, çox sağ olun. Keçin əyləşin yerinizə, başlayaq yavaş-yavaş.

**LÜTFİZADƏ** - Yaxşı, özün bilən məsləhətdi.

*Gəlib kresloda oturur. Kərim birtəhər qalxıb onun yaxasındakı şərfi düzəldir, yenə kənara çəkilərək aralıdakı kətildə oturur, əsasını çənəsinə dirək verib, baxmağa başlayır.*

**TƏYYAR MİRİ -** *(Lütfizadə ilə üzbəüz oturur)* Əhəd müəllim, əvvəl istəyirəm bir-iki şeyi sizinlə dəqiqləşdirim. Bax, mənim filmlərimdə… *(ani olaraq susub sözünü dəyişir)* bizim Təyyar müəllimlə *(kameranın yanında dayanmış Seymuru göstərir)* birlikdə işlədiyimiz filmlər o birilərdən fərqlənir. Çünki şablon işləmirik, sənətkarın həyatının fərqli, maraqlı, gizli məqamlarına toxunuruq, görünməyən yerləri işıqlandırmağa çalışırıq… İndi əgər istəyirsiz ki, sizin də film belə maraqlı olsun, gərək bizimlə sərbəst olasız, heç nədən çəkinib-eləməyəsiz.

**LÜTFİZADƏ** - *(tərəddüdlə)* Deyirsiz yəni hər şeyi açıb töküm ortaya?

**TƏYYAR MİRİ -** Hər şey deyəndə ki, bəzi qaranlıq məqamları. Hamısına, əlbəttə ki, toxunmaq olmaz.

**LÜTFİZADƏ** - *(bir müddət fikirləşir)* Yaxşı, razılaşdım. Sizin xətrinizə açıb tökərəm hər şeyi. Onsuz da daha yetmişə çatmışıq, bundan o tərəfə daha nədən çəkinəcəm? Təki film mən istəyən kimi maraqlı olsun.

**TƏYYAR MİRİ -** Yaxşı, onda başlayaq. *(Seymura çönür)* Təyyar müəllim, hazırdı hər şey?

**SEYMUR** - Hə, başlaya bilərsiz.

**TƏYYAR MİRİ -**Yaxşı, Əhəd müəllim, ən əvvəl, təbii ki, sənətə gəlməyinizlə bağlı bir-iki sual verəcəm. Amma təkrar edirəm, səmimi olasız. Nə vaxt hiss elədiz ki, mütləq aktyor olmalısız?

**LÜTFİZADƏ** - *(fikirləşir, ağıllı poza ilə danışır)* Bilirsən, əslində, sənət yanğısı elə bir şeydi ki, hər adamın içində var. Hamı həyatda, bir növ, elə aktyordu… Çexov deyib də, eşitməmiş olmazsan. Həyat teatrdı, adamlar da aktyor…

**KƏRİM** - *(kənardan düzəliş verir)* Şekspir deyib onu…

**LÜTFİZADƏ** - Hə, Şekspir… Dediyim odu ki, adam var, yolu bu sənətdən keçir, səhnədə aktyorluq edir, adam da var ki, yolu ayrı olur, həyatda, işdə-filanda oyun oynayır..

**TƏYYAR MİRİ -** Başa düşdüm, Əhəd müəllim. Amma sualıma cavab almadım. Siz öz içinizdə bu yanğını nə vaxt hiss elədiz?

**LÜTFİZADƏ** - Düzünü deyim? *(ani tərəddüd keçirdir)* Heç vaxt…

**TƏYYAR MİRİ -** Necə yəni heç vaxt?

**LÜTFİZADƏ** - Özün dedin ki, səmimi ol, mən də olanı dedim… Teatr bəyəm çörək dükanıdı ki, orda olmasan, acından öləsən, ya da havan çatmaya? Teatrdı da. Olmayacaq, gedib başqa məşğuliyyət tapacaqsan özünə… Mən özüm dəfələrlə getmək istəmişəm sənətdən. Odey, Kərim Allah şahididi…

**KƏRİM** - *(öskürür)* Düz deyir, cavan, dəliqanlı vaxtları idi,

**LÜTFİZADƏ** - Kim bir az əsəbiləşdirirdisə, tüpürürdüm üzünə, gedib ərizəmi yazıb atırdım müdirin üstünə. Amma buraxmırdılar, yalvar-yaxar eləyib saxlayırdılar…

**TƏYYAR MİRİ -** Niyə?

**LÜTFİZADƏ** - Görürdülər ki, mənsiz işləri keçmir, lazımam onlara. Yəni dediyim odu ki, mən teatra daha çox lazım olmuşam, nəinki teatr mənə. Düzdü, sonralar lap çox bağlandım səhnəyə, amma yenə də bir problem olsaydı, rahat ürəklə çıxıb gedərdim…

**TƏYYAR MİRİ -** Belə çıxır ki, sənətə canını qoyan adamlar nahaq əziyyət çəkiblər?

**LÜTFİZADƏ** - *(nəsə fikirləşir)* Yox, niyə ki? Böyük sənətkarlarımız vardı. Səhnənin Allahı idilər. Amma, vallah, o böyüklərin də elə sifətlərini görmüşük ki, adamın başı hərlənib əsəbdən… Odey, Kərim də bilir… Nə bilim, adam gərək əvvəlcə adam ola, sonra o biri şeylər gəlir. Onunçün uşaqlarımın heç birini qoymadım bu sənətə yaxın gəlsin. Düzdü, üçüncü arvaddan olan qızım yaman çox həvəs eləyirdi, hətta dava-dalaşa da çıxırdı mənimlə ki, aktrisa olmaq istəyirəm.

**TƏYYAR MİRİ -** Bəs necə oldu? Gəldi sənətə?

**LÜTFİZADƏ** - Yox, əşi, yaxşı bir oğlan tapıb ərə verdim, sakitləşdi.

**TƏYYAR MİRİ -** Deməli, belə çıxır ki, yaxşı adam olmaq yaxşı sənətkar olmaqdan daha üstündü?

**LÜTFİZADƏ** - *(fikirləşir, tərəddüd edir.)* Bilmirəm ey. Amma adam hərdən oturub fikirləşir. Böyük sənətkar, o dey, gör nə qədərdi. Hamımızı bir yerə yığsalar, bir batalyon olar. Amma böyük şəxsiyyətləri barmaqla saymaq olar. Asan olsaydı, elə hamı şəxsiyyət olardı da…

*Kərim qalxıb üzr istəyir və Lütfizadəyə yaxınlaşır, yavaşca nəsə pıçıldaşırlar, Kərim ona nəsə deyir, sanki irad tutur, sonra keçib öz kətilində oturur.*

**LÜTFİZADƏ** - *(susub nəsə fikirləşir, nəhayət, başını qaldırır)* Qulaq as, Hakan Şükür, bəlkə, bu yerləri çıxardasan? Yaxşı olmadı elə bil. Camaat düz başa düşməz… Deyər, bu boyda xalq artistidi, o qədər mükafatı-filanı var, amma teatr üçün gör nə deyir. Naşükürlük kimi görünər...

**KƏRİM** - Çıxartsaz yaxşı olar. Həm də elə bilərlər ki, köhnə sənətkarlarımıza qara yaxırıq…

**TƏYYAR MİRİ -** Yaxşı, bu xırda şeydi, qayçı əlimizdədi… Şekspirdən sonrakı yerini kəsərik… Əhəd müəllim, bəs incəsənətə daxil olmağınız, bu sənəti seçməyiniz necə baş verdi?

*Lütfizadə Kərimlə baxışır, sonra özünə çox mənalı və dərin görünüş verməyə çalışır, bayaqkından fərqli olaraq, ciddi və ağır pafoslu səslə davam edir, əlləriylə də jestikulyasiya edir.*

**LÜTFİZADƏ** - Sənət elə bir yoldu ki, onu tutdunsa, geriyə qayıtmaq mümkün deyil… Mən yeniyetməlik dövründən həmişə teatra getmişəm, o vaxtın sənətkarlarına qibtə ilə baxmışam. Teatra olan sonsuz sevgim də o vaxt yaranıb. *(danışa-danışa səsinin tonu qalxır, daha pafoslu olur)* Qəti qərara gəldim ki, mən də özümü bu sənətə həsr eləməliyəm, qoy yanım-yaxılım sənət yolunda, səhnədə məşəl olum, gələcək nəsillərə işıq gətirim... O vaxt məndə elə hiss vardı ki, dahilər qarşısındayam. Kimlər var idi səhnəmizdə, ilahi? Baxırdın, adamı vahimə basırdı, birində şir əzəməti vardı, birində əjdaha möhtəşəmliyi… Səhnənin aslanı idilər. Elə xalqın…

**TƏYYAR MİRİ -** *(kinayə ilə)* Deməli, səhnə sizinçün zoopark idi?

**LÜTFİZADƏ** - *(çaşır)* Zoopark niyə?

**TƏYYAR MİRİ -** Demirsiz şir, əjdaha, aslan…

**LÜTFİZADƏNIN** - *(bayaqkı pafoslu səsi yox olur.)* Ay bala, mən məsəlçün deyirəm də… *(narazılıqla başını bulayır)* Eh,sənə nə deyim, gül kimi razqon götürmüşdüm, çaşdırdın məni… *(ah çəkir)* Düzünə qalsa, mən heç aktyor olmaq istəmirdim.

**TƏYYAR MİRİ -** Bəs nə olmaq istəyirdiz?

**LÜTFİZADƏ** - *(ani tərəddüddən sonra)* Cavan vaxtı əla meyxana deyirdim. Bilirsən, nə təbim vardı?

*Kərim kənarda mənalı şəkildə öskürür. Sanki Lütfizadədən söhbəti dəyişməyi tələb edir.*

*Təyyarla Seymur təəccüblə baxışırlar…*

**TƏYYAR MİRİ -** Bəs, niyə tərgitdiz?

**LÜTFİZADƏ** - Atam qoydu ki?! Eşidəndə ki, məhəllədə uşaqlarla həmişə meyxana deyirəm, məni saldı təpiyinin altına.

**TƏYYAR MİRİ -** Niyə ki?

**LÜTFİZADƏ** - Olmazdı, axı… Kişi Ali Sovetdə işləyirdi, böyük qardaşım da Bakı şəhər partiya komitəsinə təzə işə düzəlmişdi. Hər ikisi düşdü üstümə, dedilər ciyərini çıxardarıq, bir də meyxana-filan desən… Amma hərdən uşaqlarla gizlincə yığışırdıq deyirdim. Bir dənə əntiqə qafiyəm vardı…

*Ay can alan can, bizə gəlsin qonaq,*
*Sevgili canan bizə gəlsin qonaq.*

*Meyxananın aslanıyam, şiriyəm,*
*Söz qarışdıran yekə kəfkiriyəm.*

*Ay can alan can kimi oğlanam mən,*
*Geyib dikdaban bizə gəlsin qonaq,*
*Ay can alan can kimi görsənirsən...*

*Lütfizadə çaşır, beytləri qarışdırır, vəzndən çıxır…*
*Kərim qalxıb irəli gəlir, bir az əsəbi müdaxilə edir...*

**KƏRİM** - Əşi, boş-boş şeylərdi, cavan vaxtı elə hamımız elə olmuşuq. Kimi meyxana deyib, kimi şeyir yazıb. Siz keçin əsas mətləbə. Oraları çox qurdalamayın…

**LÜTFİZADƏ** - *(Kərimə)* Elə sözgəlişi dedim, kəsib çıxardarlar…

**TƏYYAR MİRİ -** Əhəd müəllim, bəlkə, doğurdan qafiyə açaq, bir-iki ağız deyəsiz? Maraqlı olar ey tamaşaçılarçün. Əsl sürpriz kimi.

**KƏRİM** - Yox, lazım deyil.

**LÜTFİZADƏ** - Düz deyir. Ehtiyac yoxdu, indi daha deyə bilmərəm, yəqin ki… Nəfəsimi güclə alıb-verirəm. *(nəsə fikirləşir)* Ağasəlim Çıldaq vardı ya… Ustad-ustad deyirdilər. Allah haqqı, qatlayıb qoyardım onu dizimin altına. Heyif, heyif, rəhmətliklər qabağımı kəsdilər, qoymadılar.

**TƏYYAR MİRİ -** Yaxşı *(nəsə fikirləşir),* Əhəd müəllim, çox maraqlı bir detala toxunduz. Atanız böyük vəzifə sahibi idi, sonralar böyük qardaşınız da, bildiyimə görə ömrünün sonunacan Nazirlər Sovetində yüksək vəzifələrdə işləyib, hətta xeyli müddət nazir də işləyib. Bəs siz necə oldu səhnəyə üstünlük verdiz?

**LÜTFİZADƏ** - Rəhmətlik kişi istəyirdi ki, mən də hüquqşünas olum, amma neçə il ora sənəd verdim, girə bilmədim, gücüm ancaq incəsənətə çatdı…

*Kərim yenə mənalı-mənalı öskürür…*

**LÜTFİZADƏ** - Yaxşı da, başa düşdüm.. *(səsinin tonu dəyişir, yenə pafoslu ağır səslə danışır)* Mən o vaxtdan sənətin dəlisi idim. Teatra gedəndə elə istəyirdim ki, bu tamaşa bitməsin, uzansın, mən də günlərlə, həftələrlə oturub baxım. Elə bilirdim, tamam başqa aləmdəyəm, sehrli-tilsimli bir aləmdə. Dəhşət idi… Yeniyetmə vaxtı da hiss elədim ki, yox, səhnədə olmasam, mən yaşaya bilmərəm. Mən səhnədə nəfəs almalıyam, mən o binanın, o səhnənin, o sənətin bir hissəsi olmalıyam. O dahi sənətkarların apardığı yükü mən də çəkməliyəm gələcək nəsillərə… *(pauza verir, sanki düşünərək əsas sözünü yadına salır.)* Əgər dünya indikindən yüz dəfə, min dəfə gözəl olsaydı, amma teatr olmasaydı, mən həmin dünyada yaşamaq istəməzdim.

*Kənarda oturan Kərim sanki qeyri-ixtiyari əl çalır. Lütfizadə yorğun halda nəfəsini dərir, Kərimə baxır. Kərim razı halda başını tərpədir. Hiss olunur ki, bütün bu pafoslu söhbətləri Kərim onun beyninə doldurur…*

**KƏRİM** - *(Təyyara)* Bax, bu yeri xüsusi verərsən. Yaxşı?

**LÜTFİZADƏ** - Hələ istəsən, əvvəlini elə bu fraza ilə başla. Baş sındırmışıq e bunun üstündə…

**TƏYYAR MİRİ -** Yaxşı. *(Seymura baxıb özündənrazı halda göz vurur).* Əhəd müəllim, mən bildiyimə görə, siz atanızı tez itirmisiz…

**LÜTFİZADƏ** - *(ah çəkir)* Hə, mən elə instituta təzə girmişdim, kişi qəzaya düşdü. Şamaxının Raykomuyla bir yerdə. *(bir neçə saniyə susur)* Yaman pis

təsir eləmişdi bizə. Mənə də, qardaşıma da. Nə yaşı vardı ki, kişinin? Əllini təzə keçmişdi. *(təəssüflə)* Yazıq, heç nəvə də görmədi.

**TƏYYAR MİRİ -** Allah rəhmət eləsin… Əhəd müəllim, mən sizin avtobioqrafiyanızı gözdən keçirəndə maraqlı bir detalla rastlaşdım. Siz institutdan sonra bir neçə teatrda işləmisiz, işıqçı, səhnə tərtibatçısı…

**LÜTFİZADƏ** - Düzdü, aktyor kimi qəbul eləmirdilər hələ.

**TƏYYAR MİRİ -** Və altmış altıncı ildə sizi aktyor kimi qəbul edirlər və o saat da çoxlu rollar verməyə başlayırlar.

**LÜTFİZADƏ** - İli dəqiq yadımda deyil.

**TƏYYAR MİRİ -** Həminki altmış altıncı ildə də, sizin böyük qardaşınızı da Nazirlər Sovetində böyük bir şöbənin müdiri qoymuşdular. Sizcə, bu iki hadisə bir-biriylə əlaqəli idi?

*Lütfizadə Kərimə baxır, sonra bir müddət fikirləşir...*

**LÜTFİZADƏ** - Onun buna nə dəxli var? Mən teatra gələndə demişdilər ki, bir-iki il işlə, sonra səni truppaya götürərik. İki ildən sonra da götürdülər.

**TƏYYAR MİRİ -** Məhz qardaşınız vəzifəyə təyin olunan kimi? Özü də o saat da baş rollar verdilər sizə?

**LÜTFİZADƏ** - *(Bir az karıxır)* İndi mən neynəyəydim? Qardaşıma deyəydim ki, vəzifədən imtina elə? Yoxsa, özüm rollardan imtina edərdim?

**TƏYYAR MİRİ -** Niyə əsəbiləşirsiz ki? Mən, sadəcə, oxuduğumu dedim. *(istədiyini aldığına görə, tez söhbəti dəyişir)* Bəs ilk rollarınız yadınızdadı?

**LÜTFİZADƏ** - *(fikirləşir)* Düzü, dəqiq yadımda deyil, çünki eyni vaxtda bir neçə rejissor dəvət elədi məni öz tamaşasında oynamağa… "Uçurum" idi biri, sonra Balzakdan bir şey qururdular, ora da dəvət eləmişdilər. Amma birinci hansının premyerası oldu? *(fikirləşir)* Dayan, yadıma salım…

**KƏRİM** - Aydın idi… Ən birinci onu oynadın.

**LÜTFİZADƏ** - *(sevincək)* Hə, hə, düz deyirsən. Aydın idi. Əla tamaşa alınmışdı.

**TƏYYAR MİRİ -** Bəs ilk tamaşadan nələr qalıb yadınızda?

*Lütfizadə səhv başa düşür, elə bilir ki, Təyyar tamaşanın mətnini nəzərdə tutur.*

**LÜTFİZADƏ** - Yadımda qalıb deyəndə ki… Gör haçan oynamışam.

*Lütfizadə qalxaraq, romantik bir poza alıb pafoslu, faciəvi bir səslə Aydının monoloqundan fraqment deyir.*

**LÜTFİZADƏ** - Ox, Gültəkin, zavallı, neçin belə etdin? Mən, bütün həyatım odlar, qiyamətlər, cəhənnəmlər içərisində belə çırpınırkən, sənin xəyalınla yaşayırdım. Ona gah nifrət, gah pərəstiş, gah şikayət edirdim. O bir Ulduzdu ki, daima ona doğru gedirdim, fəqət indi hara gedəcəyəm, hara? Neçin, kimin üçün yaşayacağam? Ey ulu tanrım, aldığın bu dəhşətli intiqamlar nəyə qarşıdır, nəyə? İstəməm...

*Qəfildən nəyisə unudur, susur, sanki xatırlamağa çalışır. Kərim tez xatırladır.*

**KƏRİM** - Nifrət….

**LÜTFİZADƏ** - Hə, yadıma düşdü… *(yenə pafoslu görkəm alıb davam edir.)* Nifrət artıq... hər bir şeyə nifrət! Nifrət bütün həyata, bütün kainata, bütün varlığa! Nifrət sənə də, varsansa, ey gözə görünməyən, fəqət göz yaşlarından

şərab qayıran, qanlı faciələrdən zövq alan möhtəris fahişə, nifrət! Ox, Gültəkin, sən nə etdin?

*Lütfizadə monoloqu bitirərək, susub başını tutur.*

**TƏYYAR MİRİ -** *(qalxıb yalandan əl çalır.)* Bravo, Əhəd müəllim!
**LÜTFİZADƏ** - Bəsdi? Düzü, bundan artıq yadımda qalmayıb…
**TƏYYAR MİRİ -** Amma düzünü desəm, mən bunu nəzərdə tutmurdum. İlk tamaşanı oynayarkən keçirtdiyiniz hissləri nəzərdə tuturdum. O hisslərdən yadınızda nə qalıb?
**LÜTFİZADƏ** - *(pafosla davam edir.)* İlk dəfə səhnəyə çıxasan, özü də Aydın kimi ağır bir rolda. Romantik qəlbi olan bir insanı cəmiyyətin məhv eləməyi böyük faciədi. Mən də onu yaşayırdım, öz içimdə, öz ruhumda. Böyük faciədi. Hər dövr üçün aktualdı… Gecəmi-gündüzümə qatdım, beş ay yemədim-içmədim, bütün ruhumu qoydum ancaq əsərin üstünə. Və alındı. Camaat da çox bəyənmişdi, hətta qəzetlər də yazırdı ki, hələ bu vaxta qədər heç bir aktyor Balaş obrazının bütün daxili ziddiyyətini, ruhundakı təzadları bu cür yüksək səviyyədə əks elətdirməmişdi. Yazırdılar ki, Lütfizadə bu cavan yaşında…

*Təyyarla Seymur baxışırlar, hiss olunur ki, gülməklərini çox çətinliklə saxlayırlar. Kərim öskürür.*

**LÜTFİZADƏ** - *(ona çönür)* Nədi? Düz deyirəm də. Bütün qəzetlər yazmışdı.
**KƏRİM** - Sən Aydından danışırdın.
**LÜTFİZADƏ** - Hə də, Aydını deyirəm. Böyük faciədi. İki qadın. Biri sadə bir ev qadını, amma təmiz, saf ürəkli Sevil, o biri isə cazibədar, parlaq bir ulduz, amma etibarsız Dilbər. Və bunların arasında qalan Oktay Eloğlu. Bu həm də tək onun faciəsi deyildi, bütün bir xalqın, millətin. Ərəb işğalı, azadlıq mübarizəsi….

*Kərim Lütfizadənin hər şeyi bir-birinə qatdığını görüb müdaxilə edir.*

**KƏRİM** - Yaxşı, Əhəd, çox uzatma. Kifayətdi, keçin o biri suallara.
**LÜTFİZADƏ** - Hə, düz deyir. *(Təyyara)* Bir şeyin üstündə çox dayanmayaq, tamaşaçılar yorular. Amma, bala, Hakan Şükür, o meyxana-filan söhbətini salma filmə. Mən elə ərkim çatdı deyə, ürəyimi sənə açdım. Elə-belə öz aramızda.
**TƏYYAR MİRİ -** Narahat olmayın, Əhəd müəllim, hər şey yaxşı olacaq. (yenə dəftərçəsinə baxır) Əhəd müəllim, Türkiyənin məşhur klassik dramaturqu var, Fatih Terim. Yəqin, eşitməmiş olmazsız. Bizdə də tamaşaları qoyulub…
**LÜTFİZADƏ** - *(oğrun-oğrun Kərimə baxır, nəsə fikirləşir)* Hə, hə, yadıma düşür. Məni də çağırmışdılar, gedə bilmədim. Ancaq dostlar deyirdi ki, yaxşı yazır…
**TƏYYAR MİRİ -** Hə, Əhəd müəllim, həmin Fatih Terimin belə bir fikri var. Mən öz istedadımı yaxşı daydaylarla dəyişə bilsəydim, sənətdə çox şeyə nail olardım.

*Lütfizadə ilə KƏRİM təəccüblə baxışırlar…*

**LÜTFİZADƏ** - Lap elə deyib? Onlarda dayday sözü yoxdu, axı…
**TƏYYAR MİRİ -** Mən təxmini tərcümə elədim də…
**LÜTFİZADƏ** - *(bir az fikirləşir.)* Hakan Şükür, oğlum, Türkiyə ömrü boyu kapitalist ölkəsi olub, milyonçular, sahibkarlar… Yəqin, demək istəyib ki, yaxşı sponsorlarım olsaydı, çox şey eləyərdim. Biz başqa şəraitdə işləmişik. Burda milyonçu vardı ki?

**TƏYYAR MİRİ -** Bəs, yaxşı vəzifələrdə işləyən qohumlar kifayət eləmirdi ki? *(Lütfizadə cavab verməк istəsə də, Təyyar ona imkan vermir)* Əhəd müəllim, bəs böyük qardaşınızın sənətə münasibəti necəydi? Yəqin, sənət həvəskarı olub…

*Kənarda oturan Kərim əsəbiliklə qurcalanır, amma hələ müdaxilə etmir. Hiss olunur ki, əsəbiləşsə də, özünü saxlayır.*

**LÜTFİZADƏ** - *(əlini yellədir)* Zəhləsi gedirdi teatrdan…

**TƏYYAR MİRİ -** Niyə ki?

**LÜTFİZADƏ** - Bezdirmişdim onu da. İki gündən bir cumurdum üstünə ki, filan artistin filan problemi var, filan rejissorun filan işi var… O da, yazıq, bacardığını eləyirdi, amma hiss eləyirdim ki, axıra yaxın lap cana doyub bizimkilərdən.

**TƏYYAR MİRİ -** Eləməzdiz də…

**LÜTFİZADƏ** - Olmurdu, axı… Həmkarlarım idi, illərlə çörək kəsdiyim adamlar idi.

**TƏYYAR MİRİ -** Əhəd müəllim, bəlkə, onlar sizi elə məhz buna görə sənətdə qabağa çəkirdilər? Sizdən işləri keçirdi, ona görə?

**LÜTFİZADƏ** - *(ani olaraq tərəddüd edir)* Olmadı ki… Sən də hər şeyi ora bağlama… Guya sənətdə məndən başqa, adamı olan yox idi? Onda belə çıxır ki, Ələskər Ələkpərov ona görə tanınmışdı ki, Birinci katib Vəli Axundovun dayoğlusu idi? Yox, mən can qoymuşam ey bu sənətdə. Camaat da görürdü, hökumət də.

**TƏYYAR MİRİ -** *(yenə Seymura baxıb gizlincə göz vurur)* Deməli, qardaşınızın sənətlə çox da arası yox idi. Bəs yaxın dostlarınız-filan…

**LÜTFİZADƏ** - Dost deyəndə ki, çox olub, əlbəttə. Amma, bax, bu Kərim var a… Axıra qalan elə bu oldu. (gülümsünür) Hərçənd bir qəpiklik adamlığı yoxdu, zəhər tuluğudu. Əvvəldən də elə bu cür olub. *(Kərimə baxaraq gülümsünür, Kərim qaşqabağını tökür)*

**TƏYYAR MİRİ -** Hə, yəqin ki, Kərim müəllimi çəkəndə də sizinlə bağlı maraqlı şeylər danışar.

**LÜTFİZADƏ** - Mütləq…. Mənim yaddaşım axır vaxtlar şıltaqlıq edir. Amma Kərimin yaddaşı yaxşıdı. Danışar, *(gülümsünür)* elə şeylər danışar ki.

**TƏYYAR MİRİ -** Əhəd müəllim, bəs necə dostlaşdız Kərim müəllimlə?

**LÜTFİZADƏ** - *(əlini yelləyir)* Uzun söhbətdi…

**TƏYYAR MİRİ -** Danışın da. Bəlkə, maraqlı oldu…

**LÜTFİZADƏ** - Hə, maraqlı olar, yəqin ki… Məsələ ondadı ki, mən neçə il bu Kərimlə qanlı-bıçaq olmuşam. Düşmənim idi mənim. Hətta cavan vaxtı Malakan bağında bir dəfə möhkəm davamız düşmüşdü.

**TƏYYAR MİRİ -** *(Təəccüblə)* Niyə ki?

**LÜTFİZADƏ** - Sevdiyim qızı əlimdən almışdı…. Tomanı… bilirsən, nə qız idi? Ölürdüm ey onunçün. Özü ay parçası, yerişi-duruşu… *(qalxıb Tomanın yerişini təqlid edir)* Onunla şəhərə çıxanda hamı bizə baxırdı. *(ah çəkir)* Nişanlanmağa hazırlaşırdıq. Amma bu qaratikan kolu peyda oldu, girdi aramıza, qız da məni qoyub getdi bunun yanına. Adamı da yandıran o oldu ki, özü də heç çox qalmadı onunla. Bir il fırlanıb tulladı… *(Kərimi göstərir)* Siz bunun beləliyinə baxmayın ey. Cavan vaxtı Alen Delona oxşayırdı. Qızlar ölürdü onunçün…

**– 6 –**

*Elə bu vaxt zalın içindən bir qadın həyəcanla içəri girib, «Əhəd müəllim, Əhəd müəllim» çağıra-çağıra səhnəyə tərəf gəlir…*

*Lütfizadə onu görüb Kərimə işarə verir…*

**LÜTFIZADƏ** - Bax gör nə olub? Mən durmayım…
**KƏRİM** - (yerindən qalxır) Narahat olma, siz çəkilişi eləyin, görüm nə istəyir…

*Kərim zala düşüb qadını qarşılayır, onunla nəsə pıçıldaşmağa başlayırlar.*

**LÜTFİZADƏ** - Hə, dostlardan danışırdıq. Düzdü, başqa dostlarım da çox olub, amma ən yaxını Kərimdi. Özü də cavanlıqda bilirsiz nə aktyor idi? Hamı deyirdi ki, dahi aktyor olacaq. İstedadlı, zəhmətkeş. Amma heyif. Qismət deyilmiş. Axmaq bir hadisə oldu…

*Kərim tez yuxarı qalxıb Lütfizadəyə yaxınlaşır, qulağına nəsə pıçıldayır. Lütfizadə Təyyara sarı dönür.*

**LÜTFİZADƏ** - Bala, Hakan Şükür, burda bir problem çıxıb, təcili həll eləməliyəm. Çox çəkməz, elə foyeyə çıxıb bir-iki nəfərə zəng vurmalıyam. Siz istəyirsiz, o vaxtacan Kərimlə bir az söhbət edin…

*Lütfizadə səhnədən düşüb qadına yaxınlaşır, qadın ağlamsınaraq ona nəsə danışır, gərgin söhbət edə-edə zalın içiylə gedərək qapıdan foyeyə çıxırlar…*
*Seymur kameraların arxasından gəlib irəli çıxır, Kərimə baxır.*

**SEYMUR** - Nəsə ciddi problemdi? Bəlkə, sabaha saxlayaq ardını?
**KƏRİM** - Yox, bizim kostyumerdi, oğlu bir az ərköyün uşaqdı, tez-tez hoqqa çıxardır, arvad da cumur Əhəd müəllimin üstünə. Tək uşaqdı, atasız böyüyüb… İndi də institutda dava salıblar uşaqlarla, polis tutub basıb onları içəri.
**TƏYYAR MİRİ -** Əhəd müəllim neynəsin?
**KƏRİM** - *(Qalxıb Lütfizadə oturan taxta yaxınlaşır, dirsəklənir)* Bizimkilər öyrəşiblər, kimin nə problemi oldu, cumur kişinin üstünə. Həm də təkcə teatrdakılar yox ey, qohumları, tanışları, həmyerliləri, nə bilim, qonşuları… Kişini hamı tanıyır, axı, ağsaqqal sənətkar kimi hər yerdə hörmət edirlər. Bu da baxmır yorğundu, xəstədi, iş-gücünü atıb düşür onun-bunun qabağına.

**SEYMUR** - *(Təyyara)* Bəlkə, pauza verib siqaret çəkək?
**TƏYYAR MİRİ -** Hə, olar. *(Kərimə)* Kərim müəllim, siz hazırlaşın, fikirləşin görün nə danışacaqsız, biz də o vaxtacan bir siqaret çəkək…

*Kərim başını tərpədir. Təyyarla Seymur səhnədən zala düşürlər, zalın arxa qapısına tərəf gedə-gedə yavaşdan söhbət edirlər.*

**TƏYYAR MİRİ -** Gördün nə əntiqə dolayıram bunları? Əməlli-başlı keyfim açıldı. Yoxsa səhərdən əsəbimdən partlayırdım. Özü-özünü necə biabır edir ey… Hamısını salacam filmə; meyxanadan tutmuş, nazir işləyən qardaşınacan. Qoy heç olmasa xaricdəkilər bizim qocamanların iç üzünü görsün. Başa düşsünlər ki, bunlar necə dırmaşıblar sənətin zirvələrinə…
**SEYMUR** - Lazım deyil ey.
**TƏYYAR MİRİ -** Lazımdı, qoy görsünlər kimlərin əlində qalmışıq.

*Onlar zaldan çıxırlar.*
*Kərim əsasını taqqıldada-taqqıldada gəlib taxtın üstündə oturur. Rahatlanır, əsasını çənəsinin altına qoyaraq fikrə gedir.*

*Bir müddət fikirləşəndən sonra, qəfildən yerindən qalxır, əsasına söykənərək qaşqabaqlı bir sifət alır və üzünü kameraya tutaraq, aramla, tələsmədən «İblis»dən monoloq deməyə başlayır.*

*İblis, o böyük ad, nə qədər calibi-heyrət,*
*Hər ölkədə, hər dildə anılmaqda o şöhrət,*
*Hər qülbədə, kaşanədə, viranədə iblis,*
*Hər Kəbədə, bütxanədə, meyxanədə iblis,*
*Hər kəs bəni dinlər, fəqət eylər yenə nifrət,*
*Hər kəs bana aciz qul ikən, eylər ədavət.*

*Lütfizadədən fərqli olaraq, Kərim onun monoloqu çox səlis və təsirlidir, şeirlərin formasını, vəznini də düzgün deyir.*

*Kərim monoloqu dediyi müddətdə Təyyarla Seymur zala daxil olurlar, sakitcə zalın kənarıyla səhnəyə tərəf gəlirlər.*

*Kərim onları görmür, Təyyar da əliylə Seymura sakit olmağı işarə edir, hər ikisi səhnəyə qalxan pilləkənin yanında, qaranlıqda dayanıb, Kərimin kameralara üz tutaraq dediyi monoloqa qulaq asırlar. Hiss olunur ki, onun ifası hər ikisini təsirləndirib.*

**KƏRİM** -

Lakin bəni təhqir edən ey əbləhi-miskin,
Olduqca müsəllət sana bil, nəfsi ləimin
Pəncəmdə dəmadəm əzilib qıvrılacaqsan,
Daim ayaq altında qalıb məhv olacaqsan.
Mənsiz də, əmin ol, sizə rəhbərlik edən var,
Qan püskürən, atəş sovuran kinli krallar,
Şahlar, ulu xaqanlar, o çılğın dərəbəklər,
Altun və qadın düşkünü divanə bəbəklər.
Bir hiylə quran tülkü siyasilər, o hər an
Məzhə çıxaran, yol ayıran xadimi-ədyan,
Onlar, fəqət, onlar sizi cignətməyə kafi,
Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi.
Mən tərk edərim sizləri, əlan, nəmə lazım,
Heçdən gələrək heçliyə olmaqdayam azim.
İblis nədir? Cümlə xəyanətlərə bais,
Ya hər kəsə xain olan insan nədir? İblis…

*Kərim qəfildən başladığı kimi qəfildən də susur, kameralara baxır, gözləri yaşarır, gəlib taxtda oturur, həsrətlə kameralara baxır, ah çəkərək zala çönür, elə bu vaxt Təyyarla Seymuru görür.*

## – 7 –

*Gənclər səhnəyə qalxırlar.*

**TƏYYAR MİRİ** - *(səmimi heyranlıqla)* Kərim müəllim, vallah, nə gözəl, nə təsirli… Mən heç bilməzdim ki, bizdə hansısa aktyorda belə energetika var.

**KƏRİM** - *(özünü ələ alır)* Fikir vermə, boş şeydi. Yaxşı vaxtlarım düşmüşdü yadıma. *(bayaq dolmuş gözlərini silir, yenə bayaqkı sərt sifəti bərpa olunur)*

**TƏYYAR MİRİ** - Yox ey, siz nə danışırsız? *(ona yaxınlaşır)* Sizə baxanda bilirsiz nə gəldi fikrimə, Kərim müəllim? Elə bildim, sizinlə Əhəd müəllimin yeri səhv düşüb həyatda. Onun yerinə siz olmalıydız sənətin zirvələrində.

**KƏRİM** - *(sərt)* Həyatda heç vaxt heç nə səhv düşmür. O yerə mən layiq olsaydım, mən də orda olardım.

**TƏYYAR MİRİ -** Bayaq da Əhəd müəllim dedi ki, gənclikdə səhnədə olmusuz. Sonra nəsə baş verib.

**KƏRİM** - Fikir verməyin, sözdü də deyib.

**TƏYYAR MİRİ -** Yox, çox maraqlıdı mənə, Kərim müəllim, nə baş verdi, axı? Nə oldu?

**KƏRİM** - Hə, oldu. *(bir müddət susur, qalxıb əsasını taqqıldadaraq gəzişir)* Üçüncü mərtəbədən yıxıldım…

*Bir müddət susurlar…*

**SEYMUR** - *(o da yaxın gəlir)* Təsadüfən?

**KƏRİM** - Hə, eyvanı rəngləyəndə…

**SEYMUR** - Neçə yaşınız vardı ki?

**KƏRİM** - Nə fərqi var ey. *(bezikmiş səslə)* Cavan idim. Təzə-təzə oynayırdım, yaxşı rollar verirdilər mənə. Sonra da bu hadisə oldu. *(ah çəkir)* Və hər şey bitdi. *(gəlib oturur)*

**SEYMUR** - Bəs, niyə bitdi, axı?

**KƏRİM** - *(onun gözünün içinə baxır.)* Səncə, dünya teatrında çolaq adamın oynaya biləcəyi nə qədər rol var?

**TƏYYAR MİRİ -** Hə, çox deyil.

**KƏRİM** - *(zalın qapısına tərəf baxır)* Əhəd harda qaldı, axı…

**TƏYYAR MİRİ -** Orda, foyedə telefonla danışır. Gah ona zəng vurur, gah buna. *(bir müddət susur, nəhayət, Kərimə çönür)* Onda elə bayaq Əhəd müəllimin dediyi söhbətə qayıdaq. Sizin tanışlığınız. Deyəsən, əvvəldə nəsə narazılıqlar-filan da olmuşdu…

**KƏRİM** - Nə ehtiyac var elə şeylərə? Cavanlıqdan dostuq, vəssalam.

**TƏYYAR MİRİ -** Danışın da, Kərim müəllim. Özümüzük də, kənar adam yoxdu ki. Kamera da sönüb. Sadəcə, maraqlıdı.

**KƏRİM** - *(sərt)* Maraqlı heç nə yoxdu. Cavanlıqdı da. Adam bir gün vuruşar, bir gün barışar.

**TƏYYAR MİRİ -** Bəs, axı, Əhəd müəllim dedi, nəsə qadın söhbətidi. Onun sevgilisini, deyəsən, əlindən almışdız.

**KƏRİM** - Əşi nə sevgili? O vaxt şəhərin yarısı Əhədin sevgilisiydi. Bir dənə arvad buraxmırdı.

**TƏYYAR MİRİ -** *(onu dilləndirməyə çalışır.)* Bəs, axı, Əhəd müəllim dedi ki, yaman sevirdim onu, nişanlanmışdıq, evlənəcəkdik.

**KƏRİM** - *(bir az susub təsdiqləyir.)* Amma onu düz deyir. Fikri ciddiydi. Düzdü, sonra mənə dua eləyirdi ki, nə yaxşı yaxamı qurtardın o ifritədən.

**TƏYYAR MİRİ -** Niyə ki?

**KƏRİM** - Sonra məlum oldu ki, avaranın biriymiş o qız, başıboş, tamahkar. *(ah çəkir, başını bulayır)* Əhədə yaman yer eləmişdi Tomanın onu atmağı. Heç cür barışa bilmirdi. Mənə də ləzzət eləyirdi.

**TƏYYAR MİRİ -** Axı, niyə? Əvvəldən nəsə şəxsi-qərəzliyiniz olub?

*Kərim yenə qalxıb ağır-ağır gəzişməyə başlayır. Əsasıyla səhnənin döşəməsini taqqıldadır, elə bil yerdə nəsə axtarır. Qəfildən Təyyara sarı dönür.*

**KƏRİM** - *(həyəcanlı səslə)* Mən iyirmi beş yaşında burda Hamlet oynamışam. Bax bu səhnədə. Camaat, bilirsən, necə əl çalırdı? Axırda mən yerə yıxılanda hamı hönkür-hönkür ağlayırdılar. *(pauza.)* Bilirsən niyə?

**TƏYYAR MİRİ -** Niyə?

**KƏRİM** - Çünki mənimçün həyatda səhnədən kənarda heç nə yox idi. Bütün adamlar, qohumlar, dostlar elə bil yuxu kimi idi mənimçün. Hətta yaxınlarım; Anam, atam, bacım… Lazım olsaydı, səhnə üçün qurban verərdim hər şeyi. Yaxınlarımı da, uzaqları da… Beləydim. Ətrafdakı adamların da məndən çox xoşu gəlmirdi, çünki heç kimlə dostluq edə bilmirdim, özümə çəkilmişdim. Həmişə də deyirdim ki, neynirsiz mənim şəxsiyyətimi? Lazım deyil, heç kim məni istəməsin. Sənətimi istəyin, özümü yox. Sənətdən kənarda mən yoxam.

**TƏYYAR MİRİ -** Bəs bunun Əhəd müəllimə nə dəxli var?

**KƏRİM** - *(bir az tərəddüd edir)* Mən tanınmağa başlayanda Əhədə hələ heç rol-filan vermirdilər. Elə-belə fırlanırdı teatrda. Sonra qardaşını qəfildən qoydular vəzifəyə. Böyük vəzifəyə… Və başladı.

**TƏYYAR MİRİ -** *(bir az da maraqlanır.)* Nə başladı? Əhəd müəllimin karyerası?

**KƏRİM** - *(fikirli halda)* Hə də… Onu truppaya götürdülər, rejissorlar başladılar öz tamaşalarına dəvət etməyə, baş rollar verməyə.

**TƏYYAR MİRİ -** Deməli, siz qaldız kənarda? *(Seymura çönür)* Görürsən? Mən sənə nə deyirdim?

**KƏRİM** - Yox, mənim işimə ziyanı yox idi. Amma əsəbiləşirdim. Çünki onu mənimlə eyni cərgəyə qoymağa başladılar. Səhnəmizin iki gənc ulduzu, böyük gələcəyi olan iki gənc aktyor-filan. *(dodaqlarını sıxır.)* Nifrət eləyirdim ona. Mən canımı qoyurdum, rollarım da o cür gözəl alınırdı. Onda isə, belə də, ortabab. Düzdü, insafən çox əziyyət çəkirdi, çalışırdı, zəhmətkeş idi. Bircə şey çatmırdı. *(tərəddüdlə)* Ruhu yox idi. *(birdən əsəbiləşir)* Amma hər yerdə ikimizdən danışırdılar, ikimizi yanaşı tərifləyirdilər, başa düşürsən, ikimizi. Həqiqətdə isə, mən tək idim, axı. Məndə olan energetika heç kimdə yox idi. Heç kim mən elədiyimi eləyə bilmirdi. Yaşıdlarımın hamısından artıq idim. Mən tək idim. Tək. *(əsəblərini sakitləşdirməyə çalışır)* Ancaq zorla Əhədi pərçimlədilər böyrümə. Təkliyimi aldılar əlimdən. Hətta ilk Komsomol mükafatını da eyni vaxtda ikimizə verdilər. Nə var-nə var, Səlim Lütfizadənin qardaşıdı… *(gəlib oturur)* Sonra o qız peyda oldu, Əhədlə başladılar görüşməyə. Hiss eləyirdim ki Əhəd, həqiqətən, sevir onu. Bir dəfə Daşkənddə səfərdə olduq. Qısası, bir həftənin içində yoldan çıxartdım onu. Gələn kimi qız Əhədə otval verdi… Axx, ürəyimdən tikan çıxdı elə bil.

**SEYMUR** - Deməli, qisas aldız ondan?

**KƏRİM** - Hə də. Heç olmasa, bu yolla ürəyimi sakitləşdirdim. Əhəd Tomaya kənardan acı-acı baxanda, ləzzət verirdi mənə. Ürəyimdə deyirdim, öl, oğraş, qardaşının hesabına hər şeyi ala bilərsən, amma Tomanı ala bilməzsən.

*Qəfildən susur. Xəyala dalır. Sükut çökür. Nəhayət, bir müddət sonra Təyyar dillənir.*

**TƏYYAR MİRİ -** Axı, dostluq tarixçəsi olmadı bu, düşmənçilik oldu. Bəs dostlaşmağınız necə oldu?

*Kərim yenə bir müddət fikrə gedir,*

## *– 8 –*

*Birdən Kərim Təyyarın sifətinə baxır, nəhayət, üzünün ifadəsi dəyişir, yumşalır.*

**KƏRİM** - Deyəsən, futbolu çox sevirsən…

*Təyyarla Seymur diksinir…*

**TƏYYAR MİRİ -** *(tərəddüdlə)* Belə də… O qədər də yox.
**KƏRİM** - Hə, deyirəm axı. Yoxsa Fatih Terimi məşhur dramaturq eləməzdin.

*Təyyarla Seymur tutulurlar, bir-birinə baxırlar.*

**KƏRİM** - Öz adını da necə dedin? Hakan Şükür? Onun da yaxşı vaxtları vardı. *(fikirləşir)* İndi neynir görəsən? Yəqin, artıq oynamaz. Axır beş-altı ildə səbrim çatmır baxmağa…

*Təyyar bilmir nə desin, bir müddət narahat sükut çökür, nəhayət, Seymur özünü qabağa verir.*

**SEYMUR** - Yox ey, biz elə-belə… Zarafat eləyirdik. Dostyana. Elə bir niyyətimiz yoxdu.

*Təyyar da qısılıb qalıb, hiss olunur ki, bilmir nə desin.*
*Kərim yenə xəyala dalır, əsasını taqqıldadaraq gəzişir. Gəlib Təyyarın yanında dayanır.*

**KƏRİM** - Bilirəm, zəhləniz gedir bizlərdən. *(susur.)* Mən də cavanlıqda eləydim. Stalinski aktyorlar çıxıb oturmuşdu başımızda. Nəfəs almağa imkan vermirdilər. Hamısına nifrət eləyirdim. *(yenə gəzişir. Təyyara çönür.)* Amma Əhəd müəllim sənin xətrini çox istəyir. Doğurdan çox istəyir. Qiyabi də olsa.
**TƏYYAR MİRİ -** *(qəfildən özündən çıxır)* İndi neynəyim? Çalıb-oxuyum ki, Əhəd müəllim mənim xətrimi çox istəyir? Nə xeyri var mənə? O cür filmim yarımçıq qaldı, soxdular bunu ortaya. Bəlkə, hələ başına dolanım? Bəlkə, ayağına düşüm? *(deyinə-deyinə gəzişir)* Dildə hamı çox istəyir. Canımızsan, ciyərimizsən, istedadlı oğlansan, gələcəyimizsən… Üzdə başına dolansınlar, amma işə gələndə, sən hələ cavansan, çəkil dur kənarda. Hələ gözlə, hələ vaxtın deyil, hələ qabaqda qocalar var. *(gəlib Kərimlə üzbəüz dayanır)* Nə vaxt qırılıb qurtaracaqsız, hə?
**KƏRİM** - *(bir neçə saniyə susur.)* Sizinlə bizim aramızda fərq bilirsən nədədi? (pauza) Sən nə vaxtsa bizim kimi olacaqsan, amma biz daha heç vaxt sizin kimi olmayacaqsız…
**TƏYYAR MİRİ -** *(əsəbiliklə siqaret yandırır)* Nə olsun ki?
**SEYMUR** - *(Təyyara)* Burda çəkmə…
**TƏYYAR MİRİ -** Əl çək görüm… *(siqaretdən bir-iki qullab vurur, bir az sakitləşir)* Mən yorulmuşam sizdən, başa düşürsüz? Hamınızdan. Bütün bu qocamanlardan, ustadlardan… Həm də təkcə mən yox, hamımız. Bütün cavanlar.
**KƏRİM** - Bilirəm. Amma ünvanı səhv salmısan. Əhəd müəllim onlardan deyil. Əhəd müəllim başqa adamdı...
**TƏYYAR MİRİ -** *(yenə özündən çıxır)* Əşi, nəyi başqa adamdı? Bir qəpiklik istedadı olmaya-olmaya bu qədər mükafat, fəxri ad, nə bilim nə… Sizcə ədalətdi bu? Nəyin xətrinə? Ona görə ki, qardaşı ömrü boyu böyük vəzifələrdə işləyib? *(əlini yellədir.)* Hələ mən bunun sənətindən film eləməliyəm. Özümün gül kimi işimi qırağa qoyub, bununla məşğul olmalıyım. Məcburi. *(Kərimin gözünün içinə baxır)* Mənim yerimə olsaydız, əsəbiləşməzdiz?
**KƏRİM** - *(pauza. Qəfildən gülümsünür.)* Necə də mənim cavanlığıma oxşayırsan ey… Eynən mənim kimi danışırsan.

*Kərim gülümsünərək gəzişir, amma birdən ciddiləşir.*

**KƏRİM** - Mən də belə qazlıydım. Eyvandan yıxılana qədər... Sonra neçə ay yataqda qaldım. Dedilər, ümumiyyətlə gəzə bilməyəcəksən... Ən uzağı, əlil arabasında...

*Seymur yaxınlaşır, hiss olunur ki, Təyyardan fərqli olaraq, bu yaşlı sənətkarların taleyi ona daha maraqlıdır.*

**SEYMUR** - Bəs teatr? Sənət yoldaşları?
**KƏRİM** - Teatr? *(əlini yellədir)* Heç nə. Mənim gəzə bilməməyim məlum olan kimi, birdən-birə hamı unutdu məni.
**SEYMUR** - Necə yəni birdən-birə? Elə şey olar? Bəs kömək-filan.
**KƏRİM** - Yox, təbii ki, gəlib baş çəkdilər, az-çox əl yetirdilər. Amma elə-belə. Bilirsən, niyə?
**SEYMUR** - Niyə?
**KƏRİM** - Çünki özüm buna layiq idim. Axı, həmişə car çəkirdim ki, mənə ancaq sənətimə görə qiymət verin, sənətdən kənar mən yoxam-filan. Onunçün də yıxılıb şikəst olanda... *(susur)* hə də.. Gördülər ki, tale sənətimin üstündən xətt çəkdi , onlar da mənim üstümdən xətt çəkdilər.
**SEYMUR** - Bəs, axı, gəzirsiz indi?
**KƏRİM** - *(fikrə gedir)* Üç ay sonra Əhəd gəldi yanıma. Əvvəl qaşqabaqla qarşıladım, qovdum, dedim heç kimi görmək istəmirəm. Amma əl çəkmədi, neçə dəfə gəldi. Dedi, dözə bilmirəm sənin bu vəziyyətinə. Axı insansan, əziyyət çəkirsən. Cəhənnəm olsun sənət-filan. Nə olsun ki, daha aktyor ola bilməyəcəksən? İndi gərək hamı arxa çevirsin sənə?
**SEYMUR** - Bəs, axı, düşmənçiliyiniz vardı?
**KƏRİM** - *(Sanki onu eşitmir. Ah çəkir, fikirləşir)* Əhəd dedi, qardaşımla danışmışam, səni Moskvaya göndərəcəyik... Əvvəl razılaşmadım, axırı yola gətirdi məni. Beş-altı əməliyyatdan sonra onurğamın problemini bir az aradan qaldıra bildilər. İl yarımdan sonra ayağa durdum.
**SEYMUR** - Başa düşə bilmirəm. Qəribədi. *(təəccüblə)* Axı, siz Əhəd müəllimə qarşı elə pis hərəkət eləmişdiz...
**KƏRİM** - Siz nə başa düşürsüz ki? *(acı-acı gülümsünür)* Mən şikəst olandan sonra artıq hamının gözündə lazımsız adama çevrildim. *(ah çəkir)* Bircə Əhəddən başqa. Bilirsən niyə? Onun gözündə lazımsız adam yoxdu. Adam var, sadəcə, adam...
**SEYMUR** - Bəs təzədən teatra necə gəldiz?
**KƏRİM** - Onu da Əhəd təşkil elədi. İki il bekar oturdum, axırda dedi ki, gəl rejissorluq elə. Razılaşmadım. Hiss eləyirdim ki, alınmayacaq. İçimdə o təxəyyül yox idi. Əlbəttə, ortabab rejissor ola bilərdim. Amma istəmədim. Axırda rejissor köməkçisi olmağa razılaşdım. Əhəd dedi ki, heç olmasa, teatrda olarsan, evdə otursan, başına hava gələcək...
**SEYMUR** - Deməli, o vaxtdan dostsuz?
**KƏRİM** - Hə, qırx ildən çoxdu.
**TƏYYAR MİRİ** - *(yenə irəli çıxıb müdaxilə edir)* Təəssüf edirəm. Yəqin ki, taleyiniz alınsaydı, böyük aktyor olardız... Amma bir şey maraqlıdı mənə. Siz ki, hər şeyi görürdüz? Bəs Əhəd müəllimə demirdiz ki, ay dost, sən istedadlı adam deyilsən, kiminsə yerini tutma, çəkil kənara, qoy bu işlə istedadlı adamlar məşğul olsun? Bəs demirdiz ona ki, bütün bu tərifləyənlər-filanlar hamısı saxtadı? Niyə gözünü açmırdız? Əgər siz deyən kimi, yaxşı adam idisə, qəbul etməliydi. *(pauza)* Görürsüz? Deməmisiz? Bilirsiz niyə? Çünki xeyri olmayacaqdı. Ona heç nə başa sala bilməyəcəkdiz. Sərf eləmirdi, axı, ona.

Oturmuşdu da özüyçün. Ora dartırdılar, bura dartırdılar, hər yerdə yuxarı başa çəkirdilər, televizordan düşmürdü... Dəlidi ki, bütün bunları atsın? *(danışdıqca qızışır.)* Heç sizə də sərf eləmirdi, axı. Onun hesabına yeyib-içib kef eləyirdiz də... Sərf eləsəydi, deyərdiz. Bəlkə, elə deyil? Yoxsa görmürdüz onun ətrafındakıları?

**KƏRİM** - *(fikrə gedir)* Görürdüm. Hər şeyi görürdüm. Görürdüm ki, qabağa çəkirlər onu. Qardaşına görə. Əvvəl elə bilirdim özü qardaşının adından istifadə edir, amma sonra gördüm ki, bunda günah yoxdu, ətrafdakılar eləyir hər şeyi. Hətta neçə dəfə teatrdan getmək istəsə də, buraxmırdılar. Qızıl yumurtlayan qazı kim buraxar, axı... Həm də sındırmaq istəmirdim onu. Əksinə, mən də inandırırdım ki, o, həqiqətən də, yaxşı sənətkardı. Ayrıca işləyirdim, rolun hər xırdalığını məşq eləyirdim onunla. Günlərlə oturub fikirləşirdim, elə bilirdim ki, səhnəyə elə özüm çıxacam. Özüm oynasaydım, nələr edərdimsə, hamısını ona başa salırdım, göstərirdim. Düzdü, hər şeyi tam mən istəyən kimi alınmırdı onda, energetikası zəif idi, ruhu yox idi, amma bacardığını eləyirdi...

**TƏYYAR MİRİ -** Niyə, axı? Niyə onun üstündə bu qədər əlləşirdiz?

**KƏRİM** - Niyə? *(fikrə gedir.)* Çünki onu yaşatmaq istəyirdim. O, yaşayanda, ətrafındakıları da yaşadırdı... Təmənnasız-filansız. Özündən çox başqalarını fikirləşirdi, onlarçün canını qoyurdu.

## *– 9 –*

*Qəfildən səhnə arxasından Lütfizadənin səsi gəlir.*

**LÜTFİZADƏ** - *(yorğun səslə)* Sən nə bilirsən ki, mən nə fikirləşirdim?

*Hamı təəccüblə səhnə arxasına baxır. Lütfizadə ağır addımlarla arxa tərəfdən səhnəyə çıxır.*

**KƏRİM** - *(təəccüblə zalın qapısına tərəf göstərir)* Bəs sən foyedə deyildin?

**LÜTFİZADƏ** - O tərəfdən dolanıb yuxarı qalxdım, telefonda əsəbiləşdirdilər məni, getdim otağa dərman içdim.

*Lütfizadə gəlib öz yerində oturur. Səhnədəkilər çaşqınlıq içindədirlər, lakin Lütfizadədən nəsə soruşmağa çəkinirlər, bir-birinə baxırlar. hiss olunur ki, bayaqdan danışdıqlarını Lütfizadənin eşitməyi onları çaşdırıb.*

*Yenə Kərimi öskürək tutur, nəhayət, sakitləşir, dərman çıxarıb içir, nəfəsini dərəndən sonra, yavaşca dostuna yaxınlaşır.*

**KƏRİM** - Çoxdan gəlmisən?

**LÜTFİZADƏ** - *(köksünü ötürür.)* Hə, laaap çoxdan.

*Lütfizadə oturub fikrə gedir. Hamı susur.*

*Təyyarın telefonuna zəng gəlir, o, kənara çəkilib pıçıldaşmağa başlayır, tez söhbətini bitirib Seymura yaxınlaşır. Bir müddət hamısı Lütfizadəyə baxdıqdan sonra, nəhayət, Seymur irəli çıxır.*

**SEYMUR** - *(Yavaşca)* Davam edək?

**KƏRİM** - *(tərəddüdlə)* Əhəd...

*Lütfizadə cavab vermir. Təyyar da ona yaxınlaşır.*

**TƏYYAR MİRİ -** Əhəd müəllim...

**LÜTFİZADƏ** - *(sanki bir az özünə gəlir)* Verərsən, mən də oxuyum.

**TƏYYAR MİRİ -** Nəyi?

**LÜTFİZADƏ** - Yazdığın ssenarini.

**TƏYYAR MİRİ -** Neynirsiz ki?

**LÜTFİZADƏ** - Çəkək də... Aparım nazirliyə. Hamısı dost-tanışdı. İmtina eləməzlər. Lazım olsa, kənardan da sponsor taparam.

**TƏYYAR MİRİ -** *(qaşqabaqla)* Çox sağ olun. Mən onu elə öz telekanalımızda çəkəcəm.

**LÜTFİZADƏ** - *(yorğun səslə)* Çəkə bilməyəcəksən.

**TƏYYAR MİRİ -** Niyə ki?

*Lütfizadə cavab vermir, zala baxmaqda davam edir.*

**TƏYYAR MİRİ -** *(sanki əsəbiləşir)* Axı, niyə çəkə bilməyəcəm? O nə sözdü deyirsiz?

*Lütfizadə yenə cavab vermir, Təyyar daha sərt şəkildə nəsə demək istəyəndə Seymur araya girir.*

**SEYMUR** - Düz deyir. Film-filan verməyəcəklər, özünü də işdən çıxartmaq istəyirdilər.

**TƏYYAR MİRİ -** Niyə?

**SEYMUR** - Sənin, məsələn, demək olar ki, həll olunmuşdu. *(Lütfizadəni göstərir)* Əhəd müəllim gəlməsəydi, elə bu ay çıxardacaqdılar.

**TƏYYAR MİRİ -** Sən də dolayırsan məni?

**SEYMUR** - Yox, Əhəd müəllim şefə yalvar-yaxar eləyib ki, üç-dörd ay da vaxt verin, həm mənim filmimi işləyər, həm də o vaxtacan səhvlərini düzəldər.

**TƏYYAR MİRİ -** *(özünü itirir)* Niyə, axı? Mən neynəmişəm ki?

**SEYMUR** - Dilini saxlamırsan orda-burda. Çox danışırsan. Bu bir. İkincisi də ki, *(qocalara baxır, yavaşca)* qızla bağlıdı. Sonra deyərəm hansı söhbətdi...

**TƏYYAR MİRİ -** *(Seymura)* Ola bilməz ey. *(həyəcanla siqaret çıxardır)* O kanalın bütün əsas işləri mənim çiynimdədi. Mən olmasam, batarlar ey onlar.

**SEYMUR** - O qədər belə danışmısan ki, beziblər də səndən.

**TƏYYAR MİRİ -** *(gözləri bərəlir)* Ola bilməz, ola bilməz. Mən özüm gedib şeflə danışaram.

**SEYMUR** - Lazım deyil. Korlayarsan hər şeyi. Bu filmi yaxşı işlə, qurtar, yəqin ki, o vaxtacan sakitləşərlər.

**TƏYYAR MİRİ -** *(Seymura və Lütfizadəyə baxır)* Yox. Mən heç nə çəkməyəcəm, istəmirəm... Sənə xoşdusa özün çək...

**SEYMUR** - Təyyar *(onun qolundan tutub kənara çəkməyə çalışır).* Gəl bura sözüm var sənə...

**TƏYYAR MİRİ -** Əl çək məndən, heç nə çəkməyəcəm, get özün məşğul ol axmaq-axmaq işlərlə.

*Təyyar əsəbiliklə əlini yellədərək, mobil telefonunu çıxardır, kiməsə zəng vura-vura, çaşqınlıq içində səhnədən çıxır.*

**KƏRİM** - Hara getdi o?

**SEYMUR** - Narahat olmayın. Qayıdıb gələcək. Mən onu tanıyıram. *(Lütfizadəyə yaxınlaşır.)* Gəlin davam edək, Əhəd müəllim. Xırda şeylərə də fikir verməyin.

*Lütfizadə sakit oturur, heç nə danışa bilmir…*
*Seymur Kərimə baxır, bir müddət susurlar, Seymur ona işarə edir. Kərim çiyinlərini çəkir, amma nə fikirləşirsə, Lütfizadəyə yaxınlaşır.*

**KƏRİM** - Əhəd… Bəlkə, sabaha saxlayaq çəkilişi?
**SEYMUR** - Fərqi yoxdu, məsləhətdisə sabah davam edək.
**LÜTFİZADƏ** - *(yavaşca)* Çox sağ olun. Yaxşı film verdiz mənə.
**SEYMUR** - Eh, ay Əhəd müəllim, siz onun sözünə fikir verməyin. Təyyarın köhnə xasiyyətidi, heç kimi bəyənən deyil, hamıya yuxarıdan aşağı baxır. Siz narahat olmayın, filmi də əla çəkəcəyik. Onsuz da onun elə bir rolu yoxdu, əslində, işlərin çoxunu mən görürəm.
**LÜTFİZADƏ** - *(gözlərini bir nöqtəyə dikib)* Lazım deyil.
**SEYMUR** - Lazımdı, Əhəd müəllim, vallah, lazımdı. Sizə söz verirəm, əla film olacaq, sizin bəyəndiyiniz əvvəlki filmlərdən də yaxşı alınacaq.

*Lütfizadə yenə susub bir nöqtəyə baxmaqda davam edir, sanki heç kimi görüb-eşitmir. Hiss olunur ki, özü barədə Təyyarla Kərimin bayaq danışdıqları ona yaman təsir eləyib.*

**KƏRİM** - *(yaxınlaşır.)* Əhəd *(susub sifətinə baxır),* ürəyin ağrıyır?
**LÜTFİZADƏ** - Yox…
**KƏRİM** - Bəlkə, davlenin qalxıb?
**LÜTFİZADƏ** - *(halsız)* Yox...
**KƏRİM** - A kişi, rəngin ağarıb bütün. Qoy oturmuşuq, bir şey olar sənə yubiley qabağı. *(onun qoluna girib qaldırmaq istəyir)* Gəl gedək yuxarı, bir az istirahət elə.
**LÜTFİZADƏ** - *(qəfildən yana əyilib onun gözünün içinə baxır)* Yəni mən bu qədər bezdarnı olmuşam?
**KƏRİM** - *(özünü itirir)* Yoox… O nə sözdü deyirsən?
**LÜTFİZADƏ** - *(yenə zala baxır)* Ömrü boyu itin zülmünü verirdin mənə. Eyni kəlməni yüz dəfə dedizdirirdin, eyni jesti yüz dəfə elətdirirdin. Canımı alırdın. *(ah çəkir)* İndi də deyirsən, ruhu yoxdu, bezdarnıdı.
**KƏRİM** - Mən o mənada demədim…

*Sükut çökür.*

**LÜTFİZADƏ** - *(yenə Kərimin gözünün içinə baxır)* Niyə məndən bu qədər zəhlən gedir? Neynəmişəm sənə?
**KƏRİM** - A kişi, özündən niyə məna çıxardırsan axı. Mən heç vaxt…
**LÜTFİZADƏ** - Yoxsa istəyirdin mən də Smoktunovski olum? *(başını bulayır)* Özün onun fanatıydın, məni də zorla ona oxşatmağa çalışırdın ömrü boyu. Məcbur eləyirdin ki, onunla ayaq uzadım. Mən Smoktunovski deyiləm ey, a kişi, mən Lütfizadəyəm. Hərənin öz yeri var.
**KƏRİM** - *(özünü saxlaya bilmir, yavaşca)* Smoktunovski deyilsən ki, iki dənə qıçın boyda uşaq bayaqdan burda səni barmağına dolayır.
**LÜTFİZADƏ** - Yıxılmazdın balkondan, özün Smoktunovski olardın. Mənim də günümü zəhrimara döndərməzdin.

*Seymur təəccüblə qocaların bu qəfil etiraflarına baxır.*

**KƏRİM** - Mən istəmişəm ki, sən hamıdan yaxşı sənətkar olasan. Onunçün əlləşmişəm.
**LÜTFİZADƏ** - *(sönük)* Yalan deyirsən… Sən həmişə məni elə ağır işlərə çəkmisən ki, mən bacarmayım, öz acizliyimi başa düşüm. Qabaqcadan bilirdin

ki, mənim gücümə uyğun deyil, bacarmayacam. Amma yenə əl çəkmirdin. Ləzzət alırdın mənim acizliyimdən… məcbur eləyirdin ki, sənə aşağıdan yuxarı baxım.

**KƏRİM** - *(İnadla)* Çox əziyyət vermişəm sənə. Düzdü. Amma sənin sənətinçün olub hər şey. İstəmişəm bir az da yaxşı olsun, bir az da parlaq alınsın.

**LÜTFİZADƏ** - Çox elə fərqi vardı camaatçün.

**KƏRİM** - *(əsəbiləşir)* Camaatçün fərqi yoxdu, amma mənimçün fərqi vardı. Mən istəmirdim hamı desin ki, Əhəd hər şeyə qardaşına görə nail olub. Başa düşürsən? Mən istəyirdim sən, doğrudan da, böyük sənətkar olasan. Nə olsun ki, adi camaat o qədər hiss eləmir? Sənətkarlar ki, hiss eləyir hər şeyi.

**LÜTFİZADƏ** - *(gözünü zalın dərinliklərindən ayırmadan)* Sən özünün eləyə bilmədiklərini zorla mənə elətdirirdin… *(yorğun)* Zorla. Nəfəsim kəsilirdi. *(Seymura tərəf dönür)* Elə bugünkü çəkilişçün bilirsən nə qədər şey əzbərlədib mənə? Elə bil aktyor deyiləm, filosofam.

**KƏRİM** - Əhəd, mən qırx ildi canımı qoymuşam sənin sənətinçün.

**LÜTFİZADƏ** - Canımı almısan qırx il. *(təəssüflə)* İndi də deyirsən ki, ruhu yoxdu, bezdarnıdı…

*Kərim nəsə demək istəyir, öskürür, səhnənin kənarına çəkilib dərman içir, dekorasiyalara söykənib dayanır, nəfəsini dərir…*

*Yenə sükut çökür… Lütfizadə kral taxtında oturub zala baxmaqda davam edir. Bir müddət sonra Seymur ona yaxınlaşır.*

**SEYMUR** - Əhəd müəllim. Bəlkə….

**LÜTFİZADƏ** - *(sanki onu eşitmir. Kərimin qarasıyca danışır)* Sənəti belə istəyirdin, özün oynardın da… *(Seymura baxır)* O vaxt istədim sürpriz eləyim ona, gedib danışdım, «Əmir Teymur» tamaşasını saldım plana ki, oynasın. Saldı hikkəsinə, razılaşmadı. Mənə də ağzından çıxanı dedi. Zəhər tuluğu… Axırda məcbur oldum, özüm oynadım.

**SEYMUR** - Başa düşürəm, Əhəd müəllim, insandı, yəqin, utanıb ki, o vəziyyətdə səhnəyə çıxsın. Olan olub, keçən keçib. Hər şey yaxşıdı…

**LÜTFİZADƏ** - *(sanki qəfildən nəyisə xatırlayır, narahat olur, səhnə arxasına tərəf boylanır)* Bayaq uşaq yaman əsəbi getdi. O vəziyyətdə çıxar yola, maşın vurub-eləyər onu. *(Seymura baxır)* Götür telefonu, zəng elə ona, yoxsa nigaran qalacam…

*Seymur telefonu çıxardanda, səhnə arxasından Təyyarın səsi gəlir.*

**TƏYYAR MİRİ -** Lazım deyil.

## – 10 –

*Əllərini cibinə qoyan Təyyar tutqun görkəmlə səhnəyə çıxır. Yaman yorğun və sönük görünür.*

**TƏYYAR MİRİ -** Mən burdayam.

**SEYMUR** - *(sanki sevinir. Lütfizadəyə baxır. Yavaşca)* Sizə dedim axı, heç yerə gedən deyil. Onun eləliyinə baxmayın, üzdə belə acıdı, ürəyi yumşaqdı amma.

*Təyyar ağır-ağır Lütfizadəyə yaxınlaşır. Kral taxtının yanında bir müddət sakit dayanır. Hiss olunur ki, həyəcanlıdır. Ağır sükut çökür.*

**TƏYYAR MİRİ -** *(narahatlıqla)* Bağışlayın, Əhəd müəllim…
**LÜTFİZADƏ** - O nə sözdü deyirsən, ay oğul?

*Təyyar başını aşağı salır, hiss olunur ki, utanır, baxışlarını qocanın baxışlarından yayındırır.*

**TƏYYAR MİRİ -** Heç, elə-belə. Deyirəm də. Bağışlayın, Əhəd müəllim. Kobudluq elədim bayaq. Üzr istəyirəm.
**LÜTFİZADƏ** - Allah bağışlasın. *(ah çəkir)* Hərçənd bağışlamalı bir şey yoxdu *(ağır-ağır).* Ürəyində olanları dedin də.
**KƏRİM** - *(arxadan acı səslə.)* İndiki cavanlar belədi də. Qanacaq-qabiliyyət deyilən şey yoxdu. Bilmirlər nəyi demək olar, nəyi olmaz. Zamanə çox korlanıb. Əvvəl belə deyildi….

*Kərim dodaqaltı nəsə deyinə-deyinə arxada gəzişməyə başlayır, əsasının taqqıltıları səhnədə əks səda verir.*
*Təyyar gəlib Kərimin yerində - Lütfizadənin oturduğu iri kreslonun yanındakı kətildə oturur. Amma Lütfizadənin üzünə baxmır. Zala zillənərək, bir müddət susur, nəhayət, yavaşca dillənir.*

**TƏYYAR MİRİ -** Atam hər şənbə gətirirdi məni bura. Həmişə də bileti ön sıraya alardı. Özü də sağ tərəfdə. *(yorğun halda gülümsünür)* Mən uşaq vaxtı sizi çox istəyirdim.
**LÜTFİZADƏ** - Hə, böyüdün, daha istəmədin…

*Təyyar ani olaraq qocanın üzünə baxır, sonra yenə boş zala zillənir.*

**TƏYYAR MİRİ -** Yox, elə deməyin... *(yumşaq səslə)* Hər şey dəyişir, Əhəd müəllim. *(ah çəkir)* O vaxtlar siz bura çıxanda, *(səhnəni göstərir)* səsinizdən səhnə titrəyirdi. İblisdə yadınıza gəlir? *(bir az səsini qaldırır)* Arif, mana bax, sən də mi övhamə qapıldın? Biçarə cocuq, sən də mi iblisə taqıldın? Elə pafosla deyirdiz ki, monoloqu… İndi yadıma salıram, fikirləşirəm ki, o köhnə pafosda da qəribə bir təmizlik vardı. O vaxtın təmizliyi. İndi sənətdə pafos yoxdu, amma heç təmizlik də qalmayıb.
**LÜTFİZADƏ** - *(yavaşca)* Sənətdə heç vaxt təmizlik olmayıb, oğul.
**TƏYYAR MİRİ -** *(sanki eşitmir)* Hətta bir dəfə gül də vermişəm sizə. On dörd yaşında. Antoni və Kleopatraya baxmağa gəlmişdik. Anam da gəlmişdi, gül almışdı. Amma axırda gülü ondan aldım ki, özüm verəcəm… Hamı elə bilirdi ki, o cavan qıza verəcəm, partnyorunuza. Amma mən sizə verdim. İndiyəcəm Kleopatranın sifəti yadımdadı. Elə təəssüflə baxdı ki, mənə.
**LÜTFİZADƏ** - *(gülümsünür)* Nə yaxşı yadında qalıb. *(saatına baxır)* Gecdi artıq, gedək. Yaman yoruldum bu gün.
**TƏYYAR MİRİ -** Hara gedək? Axı, çox az çəkdik.
**LÜTFİZADƏ** - Lazım deyil. Sən də get bir az dincəl. Yubiley tədbirləri qurtarsın, sənin o ssenarinlə özüm məşğul olacam.
**TƏYYAR MİRİ -** Yox, mən istəmirəm o filmi. Mən sizin haqqınızda film edəcəm. *(Kərimə baxır)* İkinizin.
**SEYMUR** - *(yaxınlaşır)* Düz deyir, Əhəd müəllim, çox maraqlı bir film alınar…
**LÜTFİZADƏ** - İndi də mən istəmirəm. *(qalxır)* Öz ssenarini çəkərsən.
**TƏYYAR MİRİ -** Yox ey, Əhəd müəllim, düz sözümdü, sizin taleyiniz, dostluğunuzun tarixçəsi çox maraqlıdı. Çox təsirli bir film alınacaq. Özü də fleşbeklərlə çəkərəm. Sizin söhbətləriniz, xatirələriniz, arada isə qayıdarıq keçmişə, iki cavan aktyor sizin gəncliyinizi oynayar… Əla bir sevgi üçbucağı çıxar. O aktrisa xanım və siz ikiniz.

*Kərim yaxınlaşır, hiss olunur ki, söhbət ona maraqlı gəlib.*

**KƏRİM** - Düz deyir ey, Əhəd, pis olmaz. İki cavan oğlan bizim rolumuzu oynayar. Malakan bağındakı davamızı da çəkərlər. Bıçaq çıxartmışdın ey üstümə.

**LÜTFİZADƏ** - Lazım deyil. *(qaşqabaqla)* Gərək vurub öldürəydim səni o vaxt. On beş il yatardım, heç olmasa sonra rahat nəfəs alardım. *(dodaqlarını sıxır)* Mənim ruhum yoxdu, bezdarnıyam.

*Kərim də nəsə demək istəyir, amma yenə qəhərlənir.*

**SEYMUR** - Elə deməyin, Əhəd müəllim, siz çox istedadlı sənətkarsız.

**LÜTFİZADƏ** - *(çevrilib onun gözünün içinə baxır.)* Ələ salırsan məni?

**TƏYYAR MİRİ -** *(müdaxilə edir.)* Yox, düz deyir. Təbii ki, hər dövrün özünün sənət estetikası var. Ola bilər ki, indiki tamaşaçı bir az bəyənmsəsin sizin oyununuzu. Amma o vaxtlar… *(nəsə fikirləşir, hiss olunur ki, qocanı sakitləşdirməkçün söz axtarır)* O vaxtkı tamaşaçının rəğbətini qazanmaq indikindən min dəfə çətin idi. Axı, o vaxtlar camaat da sənəti çox sevirdi. Qiymətləndirirdi. Həm də tələbkar idi.

**LÜTFİZADƏ** - *(başını tərpədir)* Onu düz deyirsən. Tələbkar idi.

**TƏYYAR MİRİ -** Əlbəttə. İndikilərin bəyəndiyi nədi bəyəm? Şitlik-filan… Bütün günü KVN-ə baxsınlar. Belə tamaşaçının rəğbətini qazanmağa nə var ki? Çıx meymunluq elə, əl çalsınlar. *(səsi dəyişir)* Amma o vaxt ayrıydı axı. Camaatın incə ruhu vardı. Siz də o cür tələbkar tamaşaçıların sevgisini qazana bilmisizsə, deməli doğurdan da böyük sənətkarsız. Bundan böyük xoşbəxtlik ola bilər? O vaxtlar hər şey fərqliydi… *(nəsə xatırlayır)* Hətta Birinci katib də hər ay gəlirdi e tamaşaya… Respublikanın rəhbəri.

**LÜTFİZADƏ** - Hə, düzdü, gəlirdi… tez tez. *(laqeydliklə göstərir)* Orda - lojada otururdu.

**TƏYYAR MİRİ -** Özü də sizin oyununuza ayaq üstə əl çalırdı.

**LÜTFİZADƏ -** Hə. *(laqeydliklə təsdiqləyir)* Ayaq üstə əl çalırdı… *(qəfidən canlanır, taxtdan qalxıb kənarda dayanan Kərimi göstərir)* Amma bu çolaq pomrej deyir ki, mənim ömrü boyu ruhum olmayıb, bezdarnıyam.

*Kərim də əsasını silkələyərək əsəbi addımlarla onlara yaxınlaşır…*

**KƏRİM** - Mən elə demədim, niyə başa düşmürsən, ay insan, ay…

*Kərimi yenə öskürək tutur, bu dəfə heç cür sakitləşmir, Təyyar onu kral taxtında otuzdurur, Seymur tez səhnə arxasına keçir, su gətirir, Kərimi özünə gətirməyə çalışırlar…*

*Lütfizadə təəccüb və qorxu içində onlara baxır, sanki heç nə başa düşmür.*

*Təyyar Kərimin bayaq içdiyi dərmanı çıxardır, ona içirtməyə çalışır, Seymur su verir, yaxasını açır. Lakin qəfildən Kərim xırıldayıb hərəkətsiz qalır.*

**TƏYYAR MİRİ -** *(cəld qalxır)* Həkim… həkim çağırmaq lazımdı…

*Təyyar özünü itirmiş halda səhnə arxasına qaçır…*

*Seymur isə Kərimin nəbzini yoxlayır, gözlərinin içinə baxır, nəhayət, qorxu dolu baxışlarla Lütfizadəyə baxır…*

**SEYMUR** - Gecdi…

*Seymur ayağa qalxıb ah çəkir, iki addım kənara çəkilir, çömbəlib oturur.*

*Lütfizadə bir müddət, heç nə anlamırmış kimi, Kərimə baxır.*

*Kərim hökmdar taxtında qəribə bir əzəmətlə oturub, başı və əli yana sallanıb, əsası da ayağına söykənib. Bərəlmiş gözləri açıq qalıb.*

*Lütfizadə sanki qorxa-qorxa ona yaxınlaşır.*

**LÜTFİZADƏ** - *(titrək səslə)* Kərim… Ay Kərim. *(bir müddət ona baxır)* Hara gedirsən? Uşaqlar kino çəkəcək ey bizim haqqımızda… Sən olmasan, mən necə oynayacam, ay Kərim?

*Lütfizadə taxtın yanında, Kərimin oturduğu kətildə oturur, onun əlindən tutur.*

**LÜTFİZADƏ** - Axı, sən söz vermişdin ki, tək qoymayacaqsan məni… *(susur)* Amma aldatdın… Axx, yalançı, riyakar… Sən ömür boyu məni aldatmısan. İndi də aldatdın.

**SEYMUR** - *(qalxıb ona yaxınlaşır.)* Əhəd müəllim.

**LÜTFİZADƏ** - *(Seymura baxır. Taxtın üstündə yayılmış Kərimi göstərir)* - Əslində, bura onun yeriydi. Onun. Qırx il kənardan baxdı səhnəyə, heç olmasa, öləndə öz yerini tapdı… Mənsə, deyəsən, öləndə də öz yerimi tapmayacam.

**SEYMUR** - *(onun qolundan tutur)* Gəlin aparım sizi otağa…

**LÜTFİZADƏ** - Dəymə… *(dodaqlarını sıxır, aramla)* Bütün mükafatları almışdım. Yalnız biri qalmışdı. Onu da yetmiş illiyimdə aldım.

**SEYMUR** - *(başa düşmür)* Nə mükafat?

**LÜTFİZADƏ** - Tənhalıq. Bu da son mükafat. *(Kərimin meyitinə baxır, ona müraciətlə)* Onu da sən verdin mənə. Çox sağ ol. Çox sağ ol, əziz dost… *(Kərimin əsasını götürür, başını onun sallanmış əlinə söykəyib zalın dərinliklərinə baxır. Donmuş gözlərində yaş gilələnir)*

*Elə bu vaxt Təyyar həyəcanla içəri girir.*

**TƏYYAR MİRİ -** Zəng elədik, indi təcili yardım gələcək…

*Təyyar susub Kərimə, onun yanında oturan Lütfizadəyə və Seymura baxır. Sanki vəziyyəti başa düşür.*

**SEYMUR** - *(Təyyara yaxınlaşır)* Təbrik edirəm. (qırıq səslə) Ən yaxşı filmini çəkdin.

**TƏYYAR MİRİ -** *(anlamır)* Nə film?

**SEYMUR** - Kameraları söndürməmişdim, axı.

*Seymur sakitcə kameralara yaxınlaşır. İşıqlarını söndürür.*

*Həzin bir musiqiylə yavaş-yavaş səhnə də qaranlıqlaşır.*

***Son***



*Cavi DAN*

**HAVA NƏM BULUDLU...**

İlahi,
bu gecə açıb qəlbimi
Səndən bircə misra şeir istəsəm,
Sənin yaratdığın,
mənim sevdiyim
o Adam üçün,
nolar, bircə misra şeir ver, desəm,
məni qınamaz ki,
bu an
savaş gedən ölkələrdəki
əsir qadınlar,
məni qarğımaz ki,
min il qadınsız,
milyon il şeirsiz qalan adamlar?!
İlahi,
gün çıxıb, səhər olunca,
bu Adam qoxulu qərib şəhərdə
dünyanın ən axmaq qadını olub,
o şəhər qoxulu qərib Adamçın
bir misra,
bir misra şeir istəsəm,
İlahi,
mən onsuz ölürəm, desəm,
nolar,
Sən də salma kişiliyinə,
gülmə!

...ağlayacam...axmağam axı?!
İlahi,
bir misra şeir ver mənə,
nolar,
baxsana bir, adamlar baxır,
ayıbdır axı?!.

## SƏRGƏRDAN RUHLARTƏK

Hardasa küləklər əsir xəfifcə,
Hardasa Gün doğur suların üstdən,
Hardasa kimsə də təkdir bu gecə,
Gözləri yol çəkir yolların üstdən.
Musiqi dinləyir, şeirlər yazır,
Yuxusu yox olmuş şairlər yəqin,
Hardasa misralar uçuşur hazır,
Sərgərdan ruhlartək kimsəsiz, itkin...
Sobada odunlar kül olub, sönüb,
Obada kabuslar dolaşır, gəzir,
Hardasa şairlər misraya dönüb,
Hardasa küləklər, küləklər əsir...

## DÜNYA BAŞINA DOLANA

Oturub Süd yolunun üzərində,
ayaqlarını sallayasan qara-qura yarğana,
keçirəsən planetləri bir-bir
barmaqların arasından o yana, bu yana...
Dünya başına dolana...

## KÖHNƏ QƏZET KİMİ QADIN

Köhnə qəzetə bənzəyirdi qadın,
Oxunmuşdu başdan ayağadək,
Vərəq-vərəq didilmişdi ömrü,
Sözbəsöz əzbər tanınırdı buralarda,
Sözsüz, köhnə filmlərtək...
Söz bilirdi iki dənə:
- Allah yolunda..., - pıçıldayırdı hər gün
Allahın yaratdığı yolun kənarında.
Qəpik-qəpik cingildəyirdi qulaqlarında həyat,
Addım-addım keçirdi yanından,
Adam-adam keçirdi...

Qəzet sıxmışdı ayaqqabısının içinə,
Don vurmasın dabanından.
Donmuşdu saçları
Yanvar Günəşi altında.
Bircə gün vardı yadında:
Günəşi unutduğu gün...

Köhnə qəzetdən gəlmiş jurnalist isə
Çəkirdi şəklini sağdan, soldan, qabaqdan...
İşıq saçdı fotoaparatın gözü,
Gözləri qamaşdı qadının,
Günəşi xatırladı.
Gülümsədi, dilləndi birdən:
- İmkan ver, saçlarımı darayım...
Hanı, harda qaldı bu daraq...
İmkan ver, arayım...

## ABREK ÜÇÜN

Yağışın altında
Köhnə bir adam dayanıb,
Çətirini evində unutmuş,
Evini yuxusunda.
Dimdikli papaq var başında.
Adam
Hardasa 60, ya da 65 yaşında.
Paltosu haçansa sobaya yapışıb, yanıb.

Əlcəksiz əllərini
60, ya da 65 manat gizlətdiyi ciblərində tutmuş,
Yağışın altında,
Ömrün yarıdan çoxu tərəfdə
Bütün ümidlərini atdığı üçün ağlayır.
Bir də, bu səhər pianosunu satdığı üçün...
Barmaqları üşüyür adamın,
Nə pis üşüyür...

## ƏFV

Sən də mənə daş atmısan,
sən də!
Bax,
barmaqların hələ də ağrıyır,
əllərin bulaşıq, qara,
gözlərinin hər giləsində
bir damla qan şəkli donub.

Üç il əvvəl,
beş il əvvəl,
nə fərqi var, haçan,
necə, nədən olub?

Üzülmə!
Üzünə durub əllərin, bilirəm,
o sevdiyim əllərin -

...daş bulaşıqlı,
saçlarım rəngli...

Gəl,
gəl öpüm gözlərini,
dodaq boyamda gizlənsin
günahın.

## SOYUQ

Soyuq, sopsoyuq şəhərdəyəm indi,
Günəşdən sonra
orda-burda işıldayan küknar bəzəkləri,
küləyin gətirdiyi
mavi-boz dəniz nəfəsi,
köhnə,
sovetdənqalma
heykəlin yanında oynayan uşaqlar,
sınıq araq şüşəsi,
arvadı cavan ölmüş
ortayaşlı kişinin kədərli siqareti,
yolu keçən saçıyanmış yava qadın,
buludlar var bir də.

Saçlarımı yandırıb
yava qadın cürətiylə
yanaşmaq istəyirəm
ortayaşlı kişiyə,
"siqaretiniz olmaz, cənab?"
pıçıltısıyla
kədərini alıb
sinəmə çəkmək keçir ürəyimdən,
ölmək istəyirəm
ölmüş arvadının əvəzinə,
ğülümsəsin təki.

Bir də,
bir də ki
heykəlin yanında oynayan uşaqlara
Sovetdənqalma
qəhrəmanlıq nağılları danışmaq istəyirəm,
yaxındakı evin pəncərəsindən
anaları çağırmamış.

Soyuqdu şəhər, soyuqdu,
közərən siqaretlər isitmir adamları,
işıldayan bəzəklərsə küknarları.

Hardasan?
Zəng etsənə!
Azıram, yolları qarışdırıram,
vurnuxuram ora-bura...
Aha!
Diksinirəm qatar səsinə,
hardasa yaxınlıqda vağzal olmalı, xatırlayıram.
Getmək lazım bu şəhərdən,
getmək lazım,
elə sabah səhərdən...

## KAFKA ÜÇÜN KONSERT

Fərz edək ki,
indi bu an
bu səhnədə, yuxarıda oxuyan
elə Jozefinadı -
bir az utancaqdı, millidi,
bir az avropasayağı,
bir az da rusdillidi -
üzünə ələk tutub,
ətəyinə külək.

Fərz edək ki,
indi bu an
bu səhnədən aşağıda oturan
elə burjuy məmurudu -
bir az ağır-batmandı, millidi,
bir az avropasayağı,
bir az da rusdillidi -
ayıbını əlləriylə örtüb,
əllərini əməlləriylə.

Fərz edək ki,
indi bu an
bu səhnədən uzaqlarda uyuyan
elə ac qalmaq məharətlisidi -
bir ələklik un istər yeməyə,
bir küləklik don - geyməyə,
öz əlidi, öz əməlidi,
sarsaqdı, axmaqla, dəlidi...
amma, vallah,
o da bir az millidi!

## GƏLƏN DƏFƏ YAŞAMAQÇIN

sol əlimin içində
ömür xətti
qırıq-qırıq,

haça-haça...
baş xəttinin sonundasa
ulduz yanır
tam
Saturn barmağının altındaca...

budur,
bu da ürək xətti-
iki yerə bölünmüş,
iki eşqin
biri Yerin,
biri isə Göyünmüş...

ah...
çeçələ barmağımı
büküncə də
bir dərin
və
iki zərif xətt görünür-
bir oğulun,
iki qızın işarəsi...

əl forması- fəlsəfi,
baş barmağım-
iradə və qürur rəmzi...

boşla görək zarafatı,
xürafatı,
Xiromant!..

mən
alnımda açılacaq
qırışları gözləyirəm-
o xətlərə
yeni tale yazacağam
gələn dəfə
yaşamaqçın...

## SEVMƏK...

Tanrının işinə qarışmaqmış sevmək …
ağlamaq,
elə hey ağlamaqmış demək…
cənnəti boş səhralara çevirməkmiş,
cəhənnəmin alovunu söndürməkmiş,
yerə vaxtsız su basqını gətirməkmiş
damla-damla…

Tanrının işini qarışdırmaqmış sevmək…
qısqandırmaqmış Onu bir az,
həsəd hissi yaşatmaqmış,
"…bir insanın sevgilisi,
bir insanın sevimlisi
olmaq nəymiş…" marağına
tuş etməkmiş…
…
Tanrının işinə qarışmaqmış sevmək …
Tanrının işinə qarışma…
...sevmə…

## HƏMİN GÜN

Həmin gün
bu balaca şəhərin
kibrit-kibrit daxmalarında
işıqlar daha gur yansın
istəyirəm,
insanlar daha gümrah oyansınlar,
pəncərələr daha geniş açılsın
ümidlərə...

Həmin gün
kimsə ölməsin buralarda,
mən də gizlədim
hələ də səni Tanrım bildiyimi...

Səhərin alatoranında
Azan səsinə açım əllərimi,
ovuclarımın içi yansın,
gözlərindən
Günəş boylansın
ümidlərə açılmış
pəncərələrə...

Həmin gün
kimsə bilməsin buralarda,
mən də gizlədim
hələ də sənin üçün öldüyümü...

Qayıdacağın gündən danışıram...
Qayıdacağım gündən...



## *QARDAŞXAN*

* * *

Sahil dabanına tüpürür dəniz
küləyə qoşulub qaçmaq istəyir
ağzı köpüklənən natiq kimi o
Azadlıq meydanı açmaq istəyir

yağış dalğasında qar dalğasında
bəyaz asilik var hər dalğasında
sabunlu kəndiri dar dalğasında
yellənir
            özünü asmaq istəyir
yelkənsiz qayıqlar sahildən bağlı
qumluqda batıblar əlli ayaqlı
dəniz ki özünə çəkir qayığı
dalğa ki sahilə atmaq istəyir

bu başsız külək də lap eyləyib ağ
dənizə dağ çəkir
            hər dalğa bir dağ
bir tufan qaldırıb ya xilas olmaq
ya da öz içində batmaq istəyir

* * *

Gücü dahisində uca millətim
qatilliyə enən cahillərin var
dalğasında qanad açan dənizin
ilantək sürünən sahilləri var

dalğanın silləsi gülllədən betər
tutur sahillərin qumlu üzünü
o yan bu yanı da sahillər olan
dəniz dalğa dalğa döyür dizini

dənizin dibi də sahildir amma
bu sahil bənizdə olmaq istəmir
bu yastı yapalaq sahilə anam
adam heç dəniz də olmaq istəmir

* * *

Ay sarvanı ulduz karvanı
karvansaray oldu göy üzü
qaranlığı alaq eləmək
əldən saldı ayı ulduzu

tum ağ çıxdı qara qabıqdan
günəbaxan gün baxdı yerə
çırtlayan kim bu günü tumtək
toxum kimi əkən kim ömrə

* * *

Bütün dünyalar divar
bütün divarlar saat
bütün saatlar ölüm
bütün ölümlər həyat

bütün həyatlar yoxuş
bütün yoxuşlar qadın
bütün qadınlar eniş
bütün enişlər kişi

bütün kişilər yağış
bütün yağışlar arşın
bütün arşınlar Vətən
bütün Vətənlər behişt

* * *

Gözübağlı doğulduq
gözüaçıq olmağa
gözüaçıq ölərik
gözləri bağlanmağa

bu açıq kor yaşayış
kiprik çalmaqla bitər

göz açıb yummağımız
bir göz qırpımı qədər

göz açdığımız həyat
göz açmağa qoymaz heç
həmişəlik yummamış
göz açmağa dəyməz heç

* * *

***"Hamı azadlığını pulnan alır"***

***Cavi Dan***

Ruhun azadlığından
pulun azadlığı çox
pulun azadlığında
ruhun azadlığı yox

pul pul yanır azadlıq
qəribədir hər nəsə
vallah pulsuz azadlıq
lazım deyil heç kəsə

Azadlıq meydanında
oynayır pul köhləni
təkcə ruhlar pula yox
azadlığa köklənir

* * *

gözüm Yer yarımkürəsi
qarası quru ağı su
gözümün ağı qarası
gözümün işığı gedir

ağ gedir qara azalır
su gedir quru azalır
gözümün nuru azalır
gözümün işığı gedir

qaranlıq dünyaya uyub
işığı duyanı qoyub
işıqlı dünyanı qoyub
gözümün işığı gedir

# "SƏNİ ZƏMANƏ YETİRMƏZ DÜBARƏ..."



– I –

Əsrin əvvəlləri. Bakıda, "Məcməüş-şüəra" ("Şairlər yığıncağı") ədəbi məclisinin növbəti yığıncağı. Bura tanınmış şairlər, ədəbiyyat biliciləri və musiqiçilər cəm olmuş. Təkcə şeir məclisi deyil, əsl ürfan-sənət ocağı, mərifət məkanı, zövq mənbəyidir bura. Yarandığı gündən Bakı-Abşeron şairlərinin üz tutduğu, hünərini, şairlik qüdrətini əyan etdiyi bu məclis XIX əsrin səksəninci illərindən əhli-zövq adamlarının, fazil insanların doğma məkanına çevrilib. Görün kimlər yetişib, kimlərdir ustad şair kimi təkcə Bakıda deyil, Azərbaycanın digər bölgələrində də məşhur olan şairlər- bu məclisin yaradıcısı və rəhbəri Məhəmmədağa Cürmü, Ağadadaş Sürəyya, Ağakərim Salik, Mirzağa Dilxun, Mikayıl Seydi, Əbdülxalıq Yusif, Əbdülxalıq Cənnəti, Haşımbəy Saqib, Muxtar Bisavad, Ağadadaş Müniri, Azər Büzovnalı… İndi bu məclisdə onların bir çoxu iştirak eləmir, dünyalarını dəyişiblər. Amma məclisə yeni, cavan şairlər gəlir, ustadlardan şeir-sənət dərsi keçirlər. Kim bu dərsləri yaxşı mənimsəyirsə, ustadların gözünün işığına çevrilir.

Adətən Əbdülxalıq Yusifin evinə toplaşırlar. Məclisin öz "nizamnaməsi", öz gedişi var. Əvvəlcə klassik şairlərin şeirləri təhlil olunur, qəzəllər şərh edilir, sonra o qəzəllərə yazılan nəzirələr oxunur, sonra da hər şair yeni yazdığı şeirlərini oxuyur.

Yenə bir gün məclis arəstə imiş. Təzə-təzə şeirlər yazan Əlağa adlı bir cavan şair də bura təşrif gətirib. O, sakitcə oturub yaşca böyük müasirlərinə qulaq asır. Amma bilir ki, onu da dilləndirəcəklər, təbi varmı, yoxmu imtahana çəkəcəklər. Qorxub eləmir. Şeirlər oxunur, nəzirələr söylənir, indi isə cavanları dinləmək lazımdır.

Əbdülxalıq Yusif üzünü Əbdülxalıq Cənnətiyə tutub deyir: "Bir qafiyə aç, Mirzə!" Cənnəti bir azca fikrə gedib bu beyti söyləyir:

***Piri təbimdən cavanlar istəmişlər tazə söz,***
***Onların zənnimcə var təbində biəndazə söz.***

*Yusif o beytin davamını gətirir:*

***Arifən-billah olan hər gün yazar min tazə söz,***
***Sahibi təbi-səlim yazmazdı biəndazə söz.***

Yusif beyti qurtaranda Əlağa həyəcana gəlir. Onun bu halını gözdən qaçırmayan Yusif üzünü ona tutub deyir: "Oğlum, Əlağa, bəlkə, dalını sən gətirəsən?!.."

Elə bil Əlağaya ilahidən bir vəhy gəlir. Ustad Yusifin ona üz tutması içindəki poeziya qığılcımlarını alova çevirir:

***Təngidir qönçə dəhanın, gec gəlir avazə söz,***
***Bir sənəmdir nazənin, qoymuş özünü nazə söz.***

***Sordum ağzın sirrini hər kimsədən, ey tazə gül!***
***Tapmadı, yüz min xəyal etdi bu məxfi-razə söz.***

***Olmasa ustadı bəzmində sözün billah qəbul,***
***Pirilər yazsın cavanlarçın yenə bir tazə söz.***

Şeir qurtaran kimi Əbdülxalıq Yusif yerindən qalxır, Əlağanı qucaqlayır, alnından öpür:

-Əlağa innən belə məclisimizin həm üzvü oldu, həm də vahid şairi. Mən ona VAHİD ləqəbi verirəm. İndi ki, belə oldu, bu qəzəlin möhür bəndindəki "billah" sözünü Vahid sözü ilə əvəz et:

***Olmasa ustadı bəzmində sözün Vahid qəbul,***
***Pirilər yazsın cavanlarçın yenə bir tazə söz.***

O gündən - həmin məclisdən sonra Əlağa Məmmədqulu oğlu İsgəndərov Əlağa Vahid təxəllüsüylə şeirlər yazır və çox keçmir ki, məşhurlaşır.

## – *II* –

Əlağa Vahid Bakıda, dülgər Məmmədqulu kişinin ailəsində dünyaya göz açmışdı (1895). Atasını erkən itirmiş, böyük əmisi Məşədi Ağabəyin himayəsində böyümüşdü. Bir az mollaxanada oxumuş, amma ehtiyac üzündən "təhsilini" yarımçıq buraxmış, tütün fabrikində çilingər köməkçiçi işləmişdi. Mollaxananı bəyənməmişdi, sonralar "Mollaxana" poemasında buradakı "təhsildən" narazılığını ifadə etmişdi.

Vəssalam, onun bütün ömrü boyu aldığı "təhsil" elə bu olmuşdu. Bəlkə də, yeganə Azərbaycan şairidir ki, heç bir təhsil, məktəb üzü görməyib. Böyük Xaqani Şirvani əmisi Ömər Osman oğlunun yanında zəmanəsinin elmlərini mənimsəmişdi. Əmisi oğlu Vəliyəddin Osman Ömər oğlu isə onu bir alim və şair kimi yetişdirmişdi. Dahi Nizami Gəncəvi isə mükəmməl mədrəsə təhsili görmüşdü. "Xəmsə"də də dövrünün bütün elmlərinə vaqif olduğu açıqca görünür. XIII əsr şairi Zülfüqar Şirvani, XIV əsr şairi Arif Ərdəbili, XIV-XV əsrlərdə yaşamış Nəsimi də mükəmməl təhsil görmüşlərdi. Dahi Füzuli də universal bilik sahibiydi, əksər elmlərə yiyələnmiş, Mövlana zirvəsinə yüksəlmişdi. Daha sonrakı əsrlərdə Molla Pənah Vaqifin, Bakıxanovun, Mirzə Şəfi Vazehin, Zakirin, Axundovun, Seyid Əzimin, Natəvanın və digər ustadların da öz zamanlarına görə müəyyən təhsil aldıqları, bir deyil, bir neçə elmə yiyələndikləri barədə məlumatımız var. Amma Əlağa Vahidin təhsili yox idi. Füzuli, Nəsimi, Axundov, Seyid Əzim öz doğma dillərindən başqa bir neçə dil də bilirdilər və o dillərdə də əsərlər yazırdılar. Vahid isə yalnız şəxsi mütaliəsi, fitri istedadı sayəsində bu pleyadaya qoşula bildi. O, ərəb və fars dillərini bilmirdi, amma klassik poeziyanı bütün incəliklərinə qədər mənimsəmişdi, hətta yaradıcılığının ilk illərində yazdığı şeirləri qəliz ərəb-fars kəlmələri ilə doluydu. Vahid Xaqanidən 13 qəzəl, Nizamidən 10 qəzəl, 3 qəsidə, Nəvainin "Fərhad və Şirin" poemasından 600 misra, Füzulinin farsca divanından 92 qəzəl, 44 qitə tərcümə eləmişdi. Təbii ki, ona sətri tərcümələri təqdim edirdilər və Vahidin poetik məharəti bu tərcümələrə can verirdi. Deməli, Vahid yeganə şairdir ki, heç bir təhsil görməsə də, fitri istedadı

sayəsində zəmanəsinin böyük şairləri ilə bir sırada dura bildi, duruş gətirə bildi. Görkəmli ədəbiyyatşünas, akademik Həmid Araslı sonralar etiraf edəcək ki, Vahidin farscadan etdiyi tərcümələr bu sırada ən yaxşı tərcümələrdir.

Onun haqqında ötən illərdə yazılan, ya dolayısı ilə, ya da birbaşa deyilən mülahizələrlə tanış oldum. Bu yazılarda Vahid işsiz-gücsüz, ömrünü meyxana, içki məclislərində keçirən, ancaq qəzəl yazmaqla baş girləyən bir bəndeyi-həqir kimi təqdim edilir. Amma belə deyil. Əvvəla, o, atasının yolunu -dülgərlik sənətini seçdi, bu sənət ona maddi ehtiyaclarını aradan qaldırmağa kömək edirdi. İkincisi, həm Şura inqilabından əvvəl, həm də iyirminci-otuzuncu illərdə o, Bakıda çıxan qəzet və jurnallarda müntəzəm çıxış edir, mənzum felyetonlarını dərc etdirirdi. O, heç vaxt işsiz qalmayıb, iyirminci illərin əvvəllərində "Tənqid-təbliğ" teatrında işləməyə başlayıb, musiqi dəstəsinin müşayiəti ilə tamaşa zamanı satirik şeirlər oxuyub. Elə iyirminci illərdə "Kommunist" qəzetində müxbir kimi çalışıb, "Əsər ki qaldı cahanda" kitabının müəllifi Məhəmməd Nuru oğlunun (bu yazıda onun bir çox məlumatlarına istinad etmişik-V.Y.) yazdığına görə, Vahid 1928-1937-ci illərdə "Azərnəşr" mətbəəsində və "Ədəbiyyat qəzeti"ndə işləmiş, sonralar kolxoz-sovxoz teatrlarında ədəbi rəhbər olmuş, Dövlət Filarmoniyasında çalışmışdır. Böyük Vətən müharibəsi illərində isə Vahidin gecəsi-gündüzü olmamışdır, o, Azərbaycanın kənd və şəhərlərində, hərbi hissələrdə, kolxozçular və döyüşçülər qarşısında şeirlər oxuyur, qələbəyə inam oyadırdı. Bu, əsl vətənpərvərlik nümunəsiydi və 1943-cü ildə bu fəaliyyətinə görə Vahid Əməkdar İncəsənət xadimi fəxri adına layiq görülür. Müharibədən sonrakı illərdə də Vahid "işsiz" qalmır, qəzet və jurnallarda satirik şeirləri ilə çıxış edir, klassik irsin tərcümə və təbliği sahəsində işlərini davam etdirir.

Vahidin əsərlərinin nəşrinə gəldikdə isə, bu sahədə də onun heç bir çətinliyi olmayıb. Sağlığında on üç kitabı nəşr edilib (Bunların doqquzu "Qəzəllər", ikisi "Meyxanalar", ikisi satirik şeirlərdir. Vəfatından sonra da Vahid unudulmadı, seçilmiş əsərləri və ayrıca "Qəzəllər" kitabı bir neçə dəfə oxuculara təqdim olundu).

1965-ci ilin son sentyabr gününü isə heç vaxt unutmaq olmaz. O gün bütün Bakı Vahidi son mənzilə - Natəvan adına klubdan Fəxri xiyabana yola salırdı.

## *– III –*

Onun üç ustadı olub. O, Azər Buzovnalıdan şeir-sənət sirlərini mənimsəyib. Yəni bu ustad-şagird münasibətini məktəb təlimi kimi də anlamaq olar. Ancaq elə ustadlar var ki, sən onları görməsən də, rəsmi olaraq onların məktəbində müdavim olmasan da, onlar sənin mənəvi müəllimin, mürşüdün hesab oluna bilər.

Sabir və Füzuli! Əlağa Vahid böyük Azərbaycan ədəbiyyatına bu dahilərin ruhunu yaşadaraq gəlib. Sabir satiraları və Füzuli lirikası Vahidin nəinki dilinin əzbəri, dizinin qüvvəti, gözünün nuru, həm də ömür boyu sənət dərslikləri olub. Öncə Sabir- axı, Vahid ədəbiyyata satirik şeirlərlə gəlib və bu şeirlərdə Sabirin təsiri danılmazdır. Elmsizliyin, cəhalətin, nadanlığın, köhnəliyin, avamlığın tənqidini əks etdirən satiralarında o, Sabir yolunu davam etdirirdi. Təbii ki, Vahid öz satiralarında Sabir səviyyəsinə yüksələ bilmədi və bunu heç düşünmürdü də. Bu fikri Əli Nəzmi, Əliqulu Qəmküsar, Bayraməli Abbaszadə, Ordubadi, Cəfər Cabbarlı haqqında da söyləyə bilərik. Amma bu satiriklər böyük ustadın ənənəsini yaşatdılar, onların hər biri satiranın ciddi ədəbiyyat olduğunu və millətin özünü dərk etməsində əhəmiyyətli rol oynadığını sübut etdilər. Vahid ömrünün sonuna qədər böyük qəzəlxan olmaqla yanaşı, satirik şair kimi də bu ənənəni yaşadanlardan biri oldu.

Füzuliyə gəldikdə isə...



*Qurban Pirimov, Əlağa Vahid və Cabbar Qaryağdıoğlu*

Bir gün şairlər məclisində Füzuli sənətindən söhbət düşür. Əlağa Vahid deyir:

-Füzulinin hər bir qəzəli möcüzədir. Mən təəccüb eləyirəm ki, bu böyük ustad, fövqəladə zövqə malik olan şair o zaman nə əcəb peyğəmbərlik iddiasında olmayıb. Əgər belə bir fikrə düşmüş olsaydı, kəlamlarını möcüzə kimi təqdim edib məqsədinə nail olardı.

-Ay Vahid, siz özünüz də Füzuli yadigarı, Füzuli şagirdisiniz.

Vahid etiraz etmiş, demişdi ki:

-A kişilər, nə deyirsiniz, mən Füzulinin şagirdinin şagirdi ola bilmərəm. O kişi aləm olub. Onun əsərləri dəryadır. Mən də o dəryadan bircə qaşıq götürə bilmişəmsə, o da çay qaşığıdır. Mən bu barədə yazmışam ki: "Böyük Füzulilərin xaki payının biriyəm".

## – *IV* –

Sual olunsa ki, Azərbaycan yazılı ədəbiyyatında ən uzunömürlü şeir forması hansıdır? Əlbəttə, QƏZƏL,- cavabını verərik. Qəsidələrin bir hissəsi (nəsib) kimi diqqəti cəlb edən qəzəldə qadınlara olan sevgi hissləri tərənnüm olunurdu. Vətəni Ərəbistan olan qəzəl sonralar digər Şərq xalqları poeziyasına da təsir göstərir və hətta bir janr kimi hakimiyyəti ələ alır. Ərəb şairi Ömər ibn Əbu Rəbiə qəzəli qəsidədən ayırır və 6-8 beytlik şeirləri ilə ilk qəzəlxan kimi tanınır. Bizim ədəbiyyata isə qəzəl bir şeir forması kimi XI əsrdə daxil olur və ilk qəzəllər Qətran Təbriziyə məxsusdur (Bu haqda mərhum professor Azadə xanım Rüstəmovanın "Klassik Azərbaycan ədəbiyyatında qəzəl" əsərində təfərrüatı ilə söhbət açılıb).

Biz qəzəl xüsusunda söhbəti davam etdirmək fikrində deyilik. Bu şeir formasının uzunömürlü olması, elə bizim zəmanədə də öz missiyasını yerinə yetirməsi ayrıca bir söhbətin mövzusudur. Böyük inkişaf yolu keçən, klassik poeziyamızın aparıcı janrı hesab olunan, ictimai-siyasi həyatımızın, mənəvi dünyamızın, fəlsəfi fikrimizin ifadəsi kimi qəzəlin tarixini xatırlatmaq istəməzdik. Ancaq Azərbaycan ədəbiyyatında üç böyük sənətkarın üç qəzəl sarayı ucaltdığını mütləq nəzərə çarpdırmalıyıq. Füzuli, Seyid Əzim və Əlağa Vahid. Təbii ki, qəzəl yaradıcılığını təkcə bu üç şairin xidmətləri ilə

məhdudlaşdırmaq olmaz. Həsənoğlu, Qazi Bürhanəddin, Kişvəri, Həbibi, Nəsimi, Xətai, Saib Təbrizi, Qövsi Təbrizi, Nəbati, Natəvan kimi ustad şairlərin də heç bir vaxt öz bədii təravətini itirməyən qəzəllərini unutmaq insafsızlıq olardı. Lakin qəzəli elita janr səviyyəsinə qaldıran, onu yaşadıqları dövrün və sonrakı əsrlərin ədəbi yaddaşına çevirən bu üç müəllif qəzəlin məzmun və formasında sözün həqiqi mənasında bir inqilab yaratdılar. O inqilabın bütün parametrlərini öncə Füzuli cizgiləndirdi- qəzəli struktur baxımından dolğunlaşdırdı, onun yeni fiqur və obrazlar sistemini formalaşdırdı, ən başlıcası isə "məndə tofviq olsa, bu düşvarı asan eylərəm" məramına sadiq qalıb Azərbaycan türkcəsində misilsiz nümunələr yaratdı, dilimizin poetik qüdrətini nümayiş etdirdi. Amma ən böyük missiya isə kamil Eşq konsepsiyasını yaratmaq oldu. Füzulidən sonra gələn şairlər də bu yolu davam etdirdilər. Seyid Əzim Şirvani isə XIX əsrdə Füzulinin binasını qoyduğu o sarayın yanında, amma ona bitişik yenisini yaratdı, onun qəzəllərində yeni poetik çalarlar, cizgilər, təzə və təravətli bədii təsvir vasitələri və əlbəttə, XIX əsrin bədii təfəkkürü öz əksini tapdı. Seyid Əzimin bir xidməti də onda oldu ki, o, Füzuli ilə Vahid arasında mənəvi varislik körpüsünün əsasını qoydu.

Nəhayət, Əlağa Vahid. Qəzəl janrının sonuncu korifeyi. Vahidin qəzəl yaradıcılığı, Azərbaycan poeziyasında bu janrın oynadığı rol heç də tam, yəni elmi-tənqidi fikir baxımından dolğun şəkildə işıqlandırılmayıb. Bu yazıda Vahidin qəzəl janrına gətirdiyi yenilikləri, bir novator kimi yerinə yetirdiyi missiyanı yığcam şəkildə nəzərə çarpdırmaq istərdik.

1. Vahid XIX əsrdə başlanan, amma tam şəkildə reallaşmayan bir vəzifəni həyata keçirdi. Qəzəli xəlqiləşdirdi. Onu həm məzmunca, həm də formaca geniş xalq kütlələrinin istifadəsinə verdi. Qəzəli mümkün qədər ərəb və fars kəlmələrindən təmizlədi, qəzəl birbaşa xalqın auditoriyasına daxil oldu. Qəzəl xalqın bütün zümrələrinin, təbəqələrinin mənəvi dünyasına yol tapdı. Onun qəzəllərində işlənən ərəb və fars kəlmələri də sanki azərbaycanlaşdı. Xalqın eşq, məhəbbət, həyat, ölüm, varlıq, yoxluq, gözəllik və cəngavərlik haqqında inam və inancları çox sadə, anlaşıqlı şəkildə qəzəllərə hopdu.

***Hər aşiqə öz istədiyi yarı gözəldir,***
***Hər bülbülə öz sevdiyi gülzarı gözəldir.***

***İlqarı gözəl olmayanı istəməz aşiq,***
***Can ver elə canana ki, ilqarı gözəldir.***

***Mən bir uca boylu gözəlin zülfünə bəndəm,***
***Ruxsarı gözəl, şivəsi, rəftarı gözəldir.***

***Yüzlərcə gözəl başqa vilayətdə də çoxdur,***
***Amma bizim ölkə bütün elcarı gözəldir.***

***Yar olsa mənimlə, mənə biganə nə eylər,***
***Uçmaz elə bir xanə ki, memarı gözəldir.***

***Mən istədiyimçün o gülü qeyri də sevdi,***
***Qiymətli o şeydir ki, xiridarı gözəldir.***

***Vahid, mənə insaf elə, sima ilə baxma,***
***Əhsən elə bir şairə-əşarı gözəldir.***

Keçən əsrin otuzuncu illərində qələmə alınıb bu qəzəl. Amma sanki indi, XXI əsrdə yazılmış kimi diqqət çəkir. Nə qədər sadə, təbii, xəlqidir, amma bu sadəlikdə və təbiilikdə dərinlik, ucalıq, genişlik göz qabağındadır. Vahid qəzəlinin bu xüsusiyyətini vaxtilə ədəbiyyatşünas Məsud Əlioğlu belə

qiymətləndirmişdi: "Vahidin qəzəllərində həyatın, varlığın və dövranın ecazkar sirlərinə vaqif müdrik bir təfəkkür, xalq zəkası dil açıb danışır. Qəzəl yazmaq bacarığı xalq təfəkkürünün itiliyinə, vüsətli fikirləri söz, misra və beytlə ifadəyə gətirmək qabiliyyətinə dəlalət edir. Digər tərəfdən həmin müdrik təfəkkür yanar bir qəlbin hərarəti ilə-səmimiyyət və saflıq dolu xalq mənəviyyatının sönməz odu ilə qızınır".

2. Vahid bir şeirində özü haqqında deyir: "Vahidəm, xalqımın qəzəl şairi, Məhəbbət şairi, gözəl şairi". Bəli, Vahid bütün ömrü boyu məhəbbətdən yazıb, eşqin qüdrətini tərənnüm edib. O, eşq, məhəbbət mövzusunu daha çox canlı münasibətlər, real hisslər, duyğular üzərində qurub.

***Gül incədirsə, sən, gözəlim, güldən incəsən,***
***İncə nəzakətin qədər incə düşüncəsən.***

***Hər oynadanda xəm qaşını, qan olur könül,***
***Sanki bu fikirlə əl atırsan qılınca sən.***

***Zalım, həmişə könlümü incitdi firqətin,***
***Ömründə qoymadın məni bir ləhzə dincə sən.***

***Ayinələr xəcalət olur görcək əksini,***
***Naz ilə şanə zülfünə hərdən çəkincə sən.***

Füzulinin eşq konsepsiyasında sevgilinin özü ilə yox, onun ideyası ilə yaşamaq, son nəticədə canını da qurban verib əbədi həyata qovuşmaqdı əsas, Vahiddə isə canını qurban vermək, ölmək-dirilmək heç də platonik səciyyə daşımır. Baxın:

***İcazə ver, baxım, ey gül, o qarə gözlərinə,***
***Vurulmuşam, nə edim, aşikarə gözlərinə.***

***Qəm etmərəm, məni yüz dəfə gündə öldürəsən,***
***Baxanda bir də dirilləm, dübarə, gözlərinə.***

***Olaydı qismət öpəydim o nazik əllərini,***
***Ürəkdən eyləmişəm istixarə gözlərinə.***

Vahidin eşq-məhəbbət düşüncəsində klassik, artıq ənənəvi mahiyyət daşıyan modellər də dəyişir, aşiq və məşuqun bir-birinə münasibətləri konkretləşir, onların sevgisi öz məqsəd aydınlığı ilə real mahiyyət kəsb edir, deyir ki: "Sevirəm mən o nəzakətli gözəl dilbəri ki, Musiqi elmini, rəssamı, qəzəlxanı sevir. Piri könlüm gəlir ilhamə, görürkən hərdən, Bir nəcabətli gözəl qız, gözəl oğlanı sevir".Vahid qəzəllərində hətta bir əhvalat, bir vaqiə də adilik örtüyündən çıxır, yeni məna kəsb edir: "Dəyişmişəm, gözəlim, indi sən deyən deyiləm, Get, hər kiminlə gəzirsən gəz, inciyən deyiləm", yaxud: "Dedi ol yar mənə, dəftərimiz evdə qalıb, Eşqə dair yazılan sözlərimiz evdə qalıb".

3. Vahidə qədər AZƏRBAYCAN obrazı qəzəliyyat dünyasına daxil deyildi. Qəzəllərdə Vətən adı çəkilsə də, bu vətənin mənası daha çox mücərrəd yer, məkan səciyyəsi daşıyırdı. Vahid ilk qəzəl ustadıdır ki, Azərbaycan obrazını və bununla da sırf vətənpərvərlik ideyasını şeirə gətirdi. "Könlüm yenə bülbül kimi şeydayi-vətəndir, Məcnun edən aşiqləri leylayi-vətəndir"-deyən Vahid əksər qəzəllərində azərbaycançılıq duyğusunu -Vətən sevgisini etiraf etmişdir: "Vahid, cəhənnəm, istəməsin qoy rəqiblər, Sən fəxr qıl ki, Azərbaycan sevir səni" və ya: "Bu şərafət mənə nəslən qalacaqdır, Vahid, Nə qədər xidmət edəm Azərbaycanım üçün". Vahidin bir çox qəzəlləri var ki, Azərbaycanın ayrı-ayrı şəhərlərinə, bölgələrinə həsr edilib. Bunu təsadüf saymaq olmaz. Vahid üçün Vətən məfhumu doğulduğu Masazır kəndindən başlayıb o taylı-bu taylı Azərbaycan demək idi.

4. Vahidin musiqi ilə, muğam sənəti ilə bağlılığı da mühüm mövzulardan biridir. Əgər belə demək mümkünsə, o, qəzəldə hansı yeniliklərə nail olubsa, musiqidə də eynən o missiyanı həyata keçirib. Əvvəla, Füzulidən və Seyid Əzimdən sonra musiqinin insan mənəviyyatındakı rolunu ifadə edən məxsusi qəzəllər qələmə alıb: "Musiqi nəşəsi min sevgili canana dəyər. Əsəri-naleyi-ney arif üçün canə dəyər" mətləli qəzəli (məqtə beyt isə belə bitir: "Musiqilə məni dəfn eyləsələr, Vahid, əgər, Qəbrimin torpağı min rövzeyi-rizvanə dəyər") və əksər qəzəllərinə misra-misra, beyt-beyt səpələnən təbliği fikirlər. İkincisi, Azərbaycanın və məxsusən Qarabağın musiqi diyarı, muğam ölkəsi kimi tanıdılması: "Qarabağdır bizim öz ölkəmizin Şirazı, Qoy bu tarixi həqiqətləri hər yan oxusun". Üçüncüsü, tanınmış muğam ustalarının vəsfi: "Tarında, Vahid, əgər Qurbanın məlahəti var, Dayan bir indi görək, Zülfünün segahı nədi". Dördüncüsü, muğam sənətinin Vahid qəzəlləri ilə yeni bir məna kəsb etməsi, Vahidin poetik ləfzi ilə muğam ləfzi arasında harmoniyanın yaranması. Xüsusilə, təsnif yaradıcılığına Vahid qəzəllərinin təsiri danılmazdır.

5. Vahid əruzun Azərbaycan poeziyasında süqutuna yol vermədi, öz qəzəlləri ilə sübut etdi ki, XIII əsrdən Azərbaycan dilində yazılan əsərlərdə işlənən əruz əsrlər boyu doğma heca vəznilə yanaşı yaşayıb. Qüdrətli şairlərimiz əruzu bizim şeir dilimizdə özününküləşdirib, milli poeziya faktına çeviriblər. Əlağa Vahid də artıq Azərbaycan əruzunun ən gözəl nümunələrini yaratdı, şeirimizdə əruzla ifadə olunan musiqi, ritm tonunu artırdı. Sovet dönəmində klassik poeziyaya, əruza və qəzələ münasibət bir qədər dəyişsə də, bu biganəlik buzunu Vahid və Süleyman Rüstəm kimi şairlərimiz əritməyə başladılar. Əruz Vahidi, Vahid də əruzu yaşatdı və onların hər ikisi qəzəli yaşatdı.

6. “Vahidin ədəbi məktəbi var”, - fikri qətiyyən mübahisə doğurmamalıdır. Vahidlə yanaşı və Vahiddən sonra neçə şair Vahid yolunu öz yaradıcılıqlarının başlıca axarına çevirdilər. Ələkbər Şahid, Seyidağa, Əliağa Bakir, Hacı Mail, Hacı Ələmdar, Şahin Fazil, Ənvər Nəzərli, indinin cavan qəzəlçilərindən Arif Buzovnalı, İlqar Fəhmi Vahid ədəbi məktəbinin üzvləridir desək, yanılmarıq.

Nəhayət, Vahidlə bağlı bir məqama da toxunmaq istərdik. Əlağa Vahid 37-ci ilin repressiya tufanında qərq olmadı. Sual olunur: klassik ədəbiyyatın bir çox tədqiqatçıları gedər-gəlməzə yola salındılar, bəs onda əruzu və qəzəli yaşadan Vahid necə bu bəladan xilas oldu? Əvvəla, Vahid o zaman ümumxalq məhəbbəti qazanmışdı, xanəndələr gecə-gündüz onun qəzəllərini oxuyurdular. Xalqın sevgisi hər addımda onunla idi. İkincisi, Vahid siyasətdən uzaq bir adam idi. Ailəsi ilə birgə yarıqaranlıq, darısqal bir otaqda yaşayırdı və hər gün işə gedib-gəlirdi, ailəsinə ruzi qazanırdı. Rəsmi dairələrdə kim idi Vahidi yada salan? Bəzən qəzəl yazdığına görə onu tənqid də edirdilər, amma Vahid bütün bunlara biganə idi. Laübalı bir həyat tərzi keçirirdi, içirdi, içmirdi, indi bunun məsələyə heç bir aidiyyəti yoxdur, əsas odur ki, sadə bir həyat tərzi keçirirdi. Ona ictimaiyyətçi demək olmazdı, amma öhdəsinə nə iş düşürdüsə, onu ləyaqətlə yerinə yetirirdi və buna görə də repressiya Vahiddən yan keçdi. Sonrakı illərdə də onun sadə həyat tərzi dəyişilmədi. Rəsmi dairələrdən qaçırdı, amma hamı; əlbəttə, ilk növbədə, xalq, elə vəzifə sahibləri də) Vahidi sevirdi və bu sevgi də onu ruhən qocalmağa qoymadı.



***Gözəl həyatını, Vahid, fənayə sərf etmə,***
***Səni zəmanə yetirməz dübarə, bir dənəsən!***

***Vaqif YUSİFLİ***

# ƏLAĞA VAHİDİN MƏNZUM MƏKTUBLARI



Azərbaycan ədəbiyyatı tarixində məşhur qəzəlxan, özünün yazdığı kimi, "Füzuli yadigarı" Əlağa Vahidin Əlyazmalar İnstitutunda saxlanılan mənzum məktubları bizə çox maraqlı göründü. Bu məktubların bəziləri mədhiyyə, bəziləri həcv xarakteri daşıyır. Əliabbas Müznibin illərlə toplayıb tərtib etdiyi əlyazma kitabının ən maraqlı nümunələri də elə bu məktublardır. İllərlə bizim Əlyazmalar İnstitutunun əlyazma xəzinəsində oxucu diqqətindən kənarda qalan bu mənzumələr Vahidin şair dostlarına, vəzifə adamlarına, habelə adi tanışlara olan münasibətinin açıqlanmasında, eləcə də şairin xarakterinin öyrənilməsində bizə yardımçı ola bilər.

Əlağa Vahidin şair dostlarına ünvanladığı şeirlər müxtəlif məzmundadır. Onun Azər Buzovnalıya yazdığı şeir qəzəl janrında olduğu üçün Vahidin ikicildliyinə, sadəcə, qəzəllər sırasında daxil edilib. Əliabbas Müznibin əlyazma kitabında isə qəzəlin əvvəlində "Azərə" qeydi var.

Azər Buzovnalı (1870-1951) XIX-XX əsr Bakı-Abşeron ədəbi mühitində tanınan, sevilən şairlərdən olub. Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivində xeyli şeir, poema və məktubları var. Azər Buzovnalı 1860-cı ildə Bakıda təsis olunan "Məcməüş-şüəra" ədəbi məclisinin sonuncu sədri olmuşdur. Dövrünün şairləri ona şeirlər həsr etmişlər. Onların həm nəzmlə, həm də nəsrlə bir-birinə yazdıqları məktublardan o dövrün ədəbi mühiti haqqında çox şey öyrənmək mümkündür. Vahidin bir neçə əsərində Azərin adı çəkilir. Ona yazdığı bu qəzəldə də dərdlərini şair dostuna danışan Vahid

***Azəra, olmadı bir kimsə sora hali-dilim,***
***Çün fələk qərqeyi-girdab misal etdi məni.***

-deyə şikayət edir. Amma sonda ona yardım edən Salman Mümtazı alqışlayaraq yazır ki:

***Evi abad ola aləmdə yenə Mümtazın,***
***Sordu əhvalımı, fərzəndeyi-hal etdi məni.***

Vahidin şair dostlarına yazdığı məktubları araşdırarkən, burada ən çox nəsihətamiz fikirlərlə rastlaşırıq. Əlyazmadakı "Olsun" rədifli qəzəli də nəsihətnamə şəklində yazılıb. Qəzəlin əvvəlində "Maştağalı Mircəlala yazılmışdır" qeydi var. Ola bilsin ki, bu qeyd Əliabbas Müznibindir. Kərbəlayi Mircəlal Mirhadi oğlu (1870-1937) mollaxana təhsili görsə də klassikləri çox mütaliə etdiyindən, Qurani-Kərimi, hədisləri öyrəndiyindən öz dövründə savadlı, mömin şəxs kimi tanınıb. Onun mərsiyələri indinin özündə də məclislərdə oxunur.

Xalq artisti Hacıağa Abbasovun Əlyazmalar İnstitutunda 2789/766 şifrəli qovluqda saxlanılan Sabir haqqındakı xatirələrində yazır ki, Mirzə Əliəkbər Sabir külfəti ilə birlikdə Maştağada Məmməd Məmmədyarovun bağında qalarkən Mircəlal da digər şairlərlə onun yanına gedib kəndli və fəhlələrin həyatından əsər yazmaq öyrənirdilər. Deyilənə görə, Mircəlalın satiraları və meyxanaları da olub.

Vahid Mircəlala ünvanladığı şeirdə Mircəlalı yeni mövzulara da üz tutmağa səsləyərək yazır ki, şair gərək azad olsun, dünya əhlinə fikir verməsin. Firondan, Musadan yazdığın bəsdir, yeni aləm yarat, yəni yeni mövzularda şeirlər yaz. Peyğəmbərlər tarixindən məlumdur ki, İbrahim peyğəmbər Allahın sevgili dostu olduğuna görə Xəlilullah adlandırılmışdır və Nəmrud onu odda yandırmaq istədikdə, Allahın hökmü ilə od gülüstana çevrilmişdir. Bu əhvalat bütün klassik şairlərin yaradıcılığında bu və ya digər şəkildə öz əksini tapıb. Vahid də bu qəzəlində yazır ki, artıq bu odun tərifinə ehtiyac yoxdur, odlu silahların qığılcımlarından dünya məhv olmaq üzrədir. Sən Kərbəla şəhidi Hüseyn kimi azadəlik istəmə, qoy Yezidlərə alçaq Şümrlər əlaltı olsun.

***Gərək şair olan azadə vü laqeyd, məst olsun,***
***Nə karı, əhli-aləm həqpərəst, ya bütpərəst olsun.***

***Yeni aləm yarat, Firönü Musadən nolur hasil?***
***Hünər göstər, qoy onlar səltənət qeydində bəst olsun.***

***Xəlilullahilə Nəmrud odun tərifə hacət yox,***
***Şarapnellər şərarından cahan istər şikəst olsun.***

***Hüseyni-Kərbəla tək bilmə azadəlik qədrin,***
***Yezidi-dunə qoy Şümri-dənilər zirdəst olsun.***

***De, Vahid, Saqibü Səyyarə onlar həqqi yazsınlar,***
***Cəhənnəm, xəlqi-aləm qoy gedib azərpərəst olsun.***

Göründüyü kimi, sonda Vahid özünə müraciət edərək Haşımbəy Saqib və Həsən Səyyar kimi şairləri həqqi yazmağa çağırır. Beləliklə, öz dövrünün şairlərini köhnə fikirləri şeirə gətirməkdən uzaqlaşdırmaq istəyir və onlara yeni dünya ilə bağlı əsərlər yazmağı məsləhət görür.

Əlağa Vahidin “Bədriyə” başlıqlı dörd beytdən ibarət qəzəl janrında yazılmış bir müraciəti var; dövrünün tanınmış şairlərindən olan Bədri Seyidzadəyə ünvanlanmışdır. Şair burada göstərir ki, bu dünyada qəm çəkməyən insan yoxdur, amma dünya qəmini çəkməyin də faydası yoxdur. Dünyada hərə bir rəng ilə boyanıb, sən isə öz istədiyin rəngdə möhkəm dayan, əhl adamıyla zəhər iç, Zəmzəm də olsa, naəhl ilə içmə. Vahid Bədriyə məsləhət verərək yazır:

***Çəkmə qəm, gərçi çəkərsən qəmi-aləm Bədri,***
***Varmı qəm çəkməyən aləmdə bir adəm, Bədri?***

***Qoy boyansın hərə bir rəng ilə, ədnayi-zaman,***
***Sən dur öz istədiyin rəngdə möhkəm, Bədri.***

***Zövrəqi-cismini qərq etsə də girdabi-bəla,***
***Çəkmə bir ölmək üçün ahi-dəmadəm, Bədri.***

***Xoşdu hal əhli ilə içsən əgər zəhri-bəla,***
***İçmə naəhlilə sən, gər ola Zəmzəm, Bədri.***

Bədrəddin Mirkazım oğlu Seyidzadə (1882-1945) Keşlə kəndindəndir. XX əsrin əvvəllərindəki qəzet və jurnallarda xeyli lirik və satirik şeirləri çap olunub. Sovet dövründə də şeirlər kitabı dərc edilib.

Vahidin "Qardaşıma nəsihət" adlı nəsihətnaməsi də maraqlıdır. Bu əsər də şairin çap kitablarına salınıb. Əbdüssalamın kim olduğu məlum deyildir. Amma Vahidin onu ziyalı hesab etməsi, ona qardaş deməsi, dua edib Allahdan onu qorumasını istəməsi və s. kimi detallar onun yaxşı bir insan olduğunu göstərir.

***Ey ziyalı, mənə bir munisi-can, Əbdüssəlam.***
***Ey ləbi şəkkərü vey tutizəban, Əbdüssəlam.***

***Möhnətü dərdü bəladan nə ki var aləmdə,***
***Hifz qılsun səni Xəllaqi-cəhan, Əbdüssəlam.***

***Qardaşım, tutduğun ol kardə sabitqədəm ol,***
***Çəkməzsən bir gilə vəllahi ziyan, Əbdüssəlam.***

***Xəlqi incitməgilən, xəlq ilə xoşrəftar ol,***
***Ey vəfa bağına bir sərvərvan, Əbdüssəlam.***

***Dilin acısa əgər, eylə şəkər tək şirin,***
***Çün sevə xəlq səni ruzü şəban, Əbdüssəlam.***

***Hər gədaxislətilə dəhrdə həmraz olma,***
***Eyləyər sirrini xəlq içrə bəyan, Əbdüssəlam.*** və s.

Əlağa Vahidin Maştağa şairləri ilə yaxın əlaqəsi olub. Hətta bəzən yanlış olaraq onu maştağalı da hesab edirlər. Əlyazmalarında şairin maştağalı bir şairə ünvanlandığı qəzəlin başlığında "Arkadaşım Mirmahmud Nuri Əfəndiyə bu qəzəli yadigar olaraq ithaf edirəm" yazılıb.

***Keçən şəb, Nuriya, könlüm pərişan oldu, bildinmi?***
***Mənə vəsli-nigarım döndü hicran oldu, bildinmi?***

-misraları ilə sözə başlayan Vahid həm dərdini dostuna danışır, həm də bir az ondan giley-güzar edir: "Siz öz məşuqənizlə şadü xürrəm eyş-işrətdə, Mənim qəm içrə könlüm mülki viran oldu, bildinmi"? Sonra sevgilisinin vəfasızlığından, hicrana düşdüyündən şikayətlənir, yazır ki, vəfasız, insafsız bütlərin əsiri olduq, axırda da dünya bizim kimi eşq əhlinə zindan oldu. "Cəfapərvər gözəllərdən əziyyətlər çəkən Vahid, Sənə qurban olum, xak ilə yeksan oldu, bildinmi"?

Mirmahmud Ağamirzə oğlu Əliəsgərli (1895-1958) XX əsrin əvvəllərində yaşayıb-yaradan, klassik şeir ənənələrini yaradıcılığında yaşadan şairlərdəndir. Əlyazmalar İnstitutunda Əliabbas Müznibin və Məmməd Səid Ordubadinin arxivində və fraqmentlər bölməsində Mirmahmud Nurinin tərcümeyi-halı və şeirləri saxlanılır. 5 il üsuli-ətiq üzrə təhsil alıb, sonra iranlıların "İttihad" məktəbinə daxil olub. sonra türklərin "Kiçik zabitan" kursunu bitirib və türk ordusunun Bakı bölməsində xidmət edib. Satiraları "Soyulmuş Əyyar", lirik şeirləri "Nuri" təxəllüsü ilə çap olub.

Vahidin mənzumələri içərisində "Hacıbaba Şərqiyə birinci məktub" başlıqlı şeir başqalarından seçilir. Mənzumənin əvvəlinci yeddi beytini oxuyanda adama

elə gəlir ki, Vahid gözəl bir insanı, istedadlı bir şairi tərifləyir. Firdovsi, Sədi kimi şairlərə bənzədir, onu şairlər məclisinin günəşi, ulduzu hesab edir. Yazır ki, şairlər sənə tay ola bilməz, sən ariflər məclisinin sərvərisən, fəzilətin, hünərin həddən aşıb, mərifət sədəfinin gövhərisən. Burada bir “guya” sözü işlədilsə də, şair tərifə davam edirək deyir ki, Cəbrail (ə) sənin şeirinin möcüzəsinə möhtacdır, sən ayələrimizin peyğəmbərisən, sən söz sərrafısan, biz səni bəyənirik, bütün ağıllı adamların dilinin əzbərisən. Bəzi cahillər sənin qədrini bilmirlər, deyirlər ki, guya ariflər zümrəsinin nökərisən. Buradan başlayaraq şair ironiyadan aşkar həcvə keçir və məlum olur ki, tənqid hədəfi həqiqətən mənfi obrazdır. Təsəvvür yaransın deyə bir neçə misranı nəzərinizə çatdırırıq:

***Ey Şərqi, bizim əsrimizin rəhbəri sənsən,***
***Firdovsi, həm Sədi və həm Ənvəri sənsən.***

***Şairlik ilə şöhrətin afaqi ötübdür,***
***Bəzmi-şüəranın günəşi, əxtəri sənsən.***

- deyən şair sonar keçir həcvə:

***Var bir neçə nafəhmlər, həqqində deyərlər:***
***Şairlərin ən alçağı, ən kəmtəri sənsən…***

***Ayinədə öz heykəli-idbarını görsən,***
***Onda düşünərsən haranın əntəri sənsən.***

***Əyyam şəbabından elə indi də guya,***
***Derlər sənə kim, bir nəfərin dilbəri sənsən.***

Əlağa Vahidin çap kitablarına düşməyən ictimai məzmunlu mənzumələri də maraqlıdır. Bəziləri məsnəvi formasında, bəziləri müxəmməs janrında yazılıb. Şərhə ehtiyacı olmayan, olduqca sadə dildə yazılmış, adi həyat həqiqətlərini, məişət söhbətlərini əks etdirən bu əsərlərin də oxucular üçün maraqlı ola biləcəyini düşünüb bir neçəsini nümunə kimi təqdim edirik.

***Sona XƏYAL***

## QULAMA

Ey Qulam, himmət eylə, gəl köməyə,
Otağım yoxdu, nə hacət deməyə.
Girmişəm tülki kimi bir dəhməyə,
Mənə imdad elə, qurbanın olum.
Günümü şad elə, qurbanın olum.

Aşna-dostu bu yaman gündə tanı,
Duz-çörək qədri bilən indi hanı.
Başa sal sən Babayev Əlağanı,
Çıxarıb dad ilə, qurbanın olum.
Günümü şad elə, qurbanın olum.

Bu işi salma gəl axşam-səhərə,
Şair olmaqlığımı al nəzərə.
İltifatın necə var özgələrə,
Aslanov axtarır üç gündü səni.

Səndən ötrü gətirib təngə məni.
Düzəlib, kefini kök saxla, işin,
İltifatı sənə çoxdur qədeşin.

## QULAMA İTHAF

Ey Qulam, düşmüşəm axır lova,
Bir də tapşır məni bu Aslanova.
Sən onun yaxşı bələdsən işinə,
Baxıram mən işin əzvayişinə.
Salacaqdır məni axşam-səhərə,
Vəqtimiz sərf olacaqdır hədərə.
Yazdığım ərzə bir aydan çoxdur,
Hələ də bir əsər ondan yoxdur.
Var xəyalında deyərkən Həsənə,
O da bu barədə tapşırdı sənə.
Bu bizim şairimiz Vahiddir,
Qalsın evsiz, bu bizə tənqiddir...

və s.

* * *

Məni də yad elə, qurbanın olum.
Könlümü şad elə, qurbanın olum.

Gərçi dünyadə yoxumdur vətənim,
Doğma yurdum Bakı olmuşdu mənim.
Quruyub nəm bir otaqda bədənim,
Ondan azad elə, qurbanın olum.
Könlümü şad elə, qurbanın olum.

Evimiz gərçi yovuqdur bazara,
Bənzəyir köhnə ovulmuş məzara.
Düşür arvad-uşaq hər gün azara,
Çarə qıl, ad elə, qurbanın olum.
Könlümü şad elə, qurbanın olum.

Olsa təqsim hamıya bəhri-Xəzər,
Mən də bir varisəm ölkəmdə əgər,
Mənə də lap azı bir vedrə düşər.
Nəslimi yad elə, qurbanın olum,
Könlümü şad elə, qurbanın olum.

Həm otaq nəm, həm özüm kiryənişin,
Gəl gör ev sahibinin sərzənişin.
Yağdırır üstümə hər gün söyüşün,
Buna bir zad elə, qurbanın olum.
Könlümü şad elə, qurbanın olum.

Bir vətəndaş, necə bir firqəçisən,
İnqilabın iyi xidmətçisisən.
Boş yola salmamısan bir kəsi sən,
Lütfi müzdad elə, qurbanın olum.
Könlümü şad elə, qurbanın olum.

*Alpay AZƏR*

# NATO və Rembrandt



*"Siyasi-psixoloji tipajlar" silsiləsindən*
*Dostum Ataqama*

Serb əsgərlərini Kosovodan vurub çıxarmaq üçün NATO-nun Baş katibi, generalları, üzv-ölkələrin səfirləri bir ildən çox çəkən müzakirələrdən sonra belə bir qərara gəldilər: prezident Miloşeviçi qoşunlarını Kosovodan çıxarmağa məcbur etmək üçün tək Kosovo yox, Serbiya ərazisindəki hərbi obyektlərə də havadan zərbələr endirmək lazımdır.

NATO-da qayda belə idi, - Hərbi Komitənin sədri general Klaus Nauman Müttəfiq Qoşunların ali komandanı general Uesli Klarkdan aldığı siyahıyla bağlı on doqquz üzv-ölkənin hamısının "lehinə" səsini almalıydı: yəni, o ölkələrin NATO-dakı səfirlərindən biri qabağındakı mikrofonun düyməsini basıb "əleyhinə" səs verdiyini (veto məsələsi) desəydi, siyahıdakı hansısa obyektə bomba zərbəsi endirilməyəcəkdi. Serblərin raket-artilleriya, təyyarə, helikopter bazalarının, hava hücumundan müdafiə sistemlərinin olduğu siyahını təqdim edən soyuqqanlı alman generalı Klaus Nauman gözlüyünün üstündən səfirlərə baxıb dedi:

- Ümid edirəm, siyahıyla tanış olmağa kifayət qədər vaxtınız olub, hər biriniz öz xarici işlər nazirlərinizlə lazım olan məsləhətləşmələri aparmısınız. Etiraz edən yoxdursa, qəbul edək siyahını.

Səfirlər lap əvvəldən öz ölkələrindən təlimat almışdılar: "Serblərin strateji əhəmiyyəti olan hərbi obyektlərinin vurulmasının lehinə etirazsız səs verin". Beş saat davam edən iclasda 59 hədəfin havadan vurulmasıyla bağlı qərar vetosuz qəbul edildi.

İlk mübahisə Roma papası II İohan Pavel NATO-dan pravoslavların pasxa bayramının başlamasıyla əlaqədar döyüş bölgəsində on günlük atəşkəs təklifi irəli sürəndə yarandı. İspaniya və Portuqaliya təklifə dəstək versələr də, ABŞ və Böyük Britaniya bunun əleyhinə oldu. Hətta Hollandiya səfiri çıxışında dedi ki, bu, dünya ictimaiyyətinin gözündə müsəlman albanları öldürən serblərə edilən xristian təəssübkeşliyi kimi görünə bilər. General Nauman da təklifin əleyhinə oldu, dedi ki, onsuz da, əməliyyatların ilk həftəsi hava dumanlı olduğundan, nəzərdə tutulan obyektlərin çox az qismi vurulub, ikincisi, on günlük atəşkəs elan edilsə, serblər öz müdafiə sistemlərini daha da gücləndirəcək və NATO əməliyyatlarda ciddi çətinliklərlə üzləşəcək. Sonda Roma papasının təşəbbüsü qəbul edilmədi.

Hərbi əməliyyatların üçüncü həftəsi məlum oldu ki, Miloşeviç ordusunu Kosovodan nəinki çıxarmır, üstəlik, kosovoluların yaşadığı kəndlərə daha tez-tez hücum edir. Təşvişə düşən NATO generalları başa düşdü ki, vurulacaq hədəflərin sayını artırmaq lazımdır və səfirləri növbəti iclasa toplayan Klaus Nauman onları salamlayandan sonra əsas məsələyə keçdi:

- Cənab səfirlər, bildiyiniz kimi, müəyyən uğurlarımız var, amma təəssüf ki, strateji məqsədimizə hələ də çatmamışıq. Güman edirəm, hamınız dünən sizə təqdim edilmiş siyahıyla tanış ola bilmisiniz. Siyahıda 208 hədəf var, mən onları bu gün və sabah bir-bir səsverməyə qoyacam.

General masanın üstündəki siyahıya baxdı:

- Novı-Sad şəhərində zirehli texnika üçün ehtiyat hissələri saxlanılan anbar, lütfən, səs verin, lehinə... Hamı lehinədir, əleyhinə olan yoxdur... Yaxşı, - qələmlə həmin hədəfin qarşısında müsbət işarəsi qoydu... Belqrad ətrafında hərbi təyyarələrin turbinlərini istehsal edən zavod... Lehinə...

Növbəti iki həftə general Nauman vurulmalı olan 976 hədəfi, bu dəfə tək hərbi yox, mülki hədəfləri də müzakirəyə çıxardı. Arada yenə mübahisələr olurdu, səfirlər ən çox “dinc əhali” məsələsinə xüsusi diqqət göstərirdi. Fransa Belqraddakı körpülərə, neft emalı zavoduna, teleqülləyə hava zərbələri endirilməsinə veto qoydu. İtaliya isə, qarşıdakı parlament seçkilərinin hayındaydı, - hakimiyyətdəki partiya yaxınlaşmaqda olan seçkilərdə uduzmaq istəmirdi. İş o yerə çatmışdı ki, növbəti döyüş uçuşlarından birinə hazırlaşan qırıcı təyyarənin italyan pilotu Romadan, gələn telefon zənginə uyğun, az əvvəl işə saldığı mühərriki söndürüb, əməliyyatda iştirakdan imtina etmişdi[1]. Bu işlərdə ABŞ-ın dövlət katibi Madlen Olbraytın nə gündüzü vardı, nə də gecəsi. Vurulacaq həssas hədəflərin razılaşdırılması üçün həftə sonları kollektor iclaslarına (eyni zamanda bir neçə şəxsin telefonda bir-biriylə danışması vasitəsilə həyata keçirilir) yığanda, Olbrayt bir-iki dəfə əcaib şeylərlə üzləşmişdi. Məsələn, bir dəfə məlum olmuşdu ki, Böyük Britaniyanın xarici işlər naziri ippodromda at çapır, başqa birində Fransanın xarici işlər naziri hamamda olduğundan telefonla danışa bilməmişdi.

Əməliyyatların beşinci həftəsi general Nauman siyahıda Belqrad yaxınlığında Dedinja deyilən yerdə Miloşeviçin iqamətgahını bombalamağı səsə qoyanda, Hollandiyanın səfiri Nikolas Biqmanın qabağındakı mikrofonun qırmızı işığı yandı:

- Cənab Nauman, təmsil etdiyim ölkə prezident iqamətgahının bombalanmasının əleyhinə çıxır. Bu səbəbdən hökumətimiz adından veto hüququndan istifadə edirəm, - deyib səfir əlini qaldırdı.

O biri səfirlər bir anda maraqla Biqmana baxdılar.

- Okey, cənab Biqman, bu sizin hüququnuzdur, - Nauman dilləndi. - Amma səbəbini bilmək olarmı?

- Əlbəttə, olar. Məsələ burasındadır ki, iqamətgahın birinci mərtəbəsində böyük holland rəssamı Rembrandtın orijinal rəsm əsəri saxlanılır. Təmsil etdiyim krallıq tanınmış incəsənət xadimlərimizin xarici ölkələrdə, muzeylərdə saxlanılan əsərlərinin qorunması məsələsinə xüsusi həssaslıqla yanaşır.

- Sizin ölkənin həssaslığını bölüşürük, - general gözlüyünün üstündən Biqmana ciddi-ciddi baxıb, - amma məsələ burasındadır ki, Rembrandtın əsəri Belqrad muzeyində yox, Miloşeviçin Dedinjadakı iqamətgahında saxlanılır.

Səfirlər arasında gülüşmə qopdu.

- Fərqi yoxdu, hər halda, söhbət holland rəssamı Rembrandtın əsərindən gedir.

---

[1] *-İtalyan pilotu ilə olan bu hadisə real həyatda baş vermişdir.*

- Ah, bir dəqiqə, - general alınını ovuşdurmağa başladı, - xatırladım, bu ilin yanvarında mən və general Klark həmin iqamətgahda Miloşeviçlə elə Kosovo məsələsinə görə danışıqlar aparırdıq. Yadımdadır, o şəkilə yaxınlaşanda Yuqoslaviya ordusunun baş qərargah rəisi mənim və Klarkın qoluna girib bizi otağın o başına apardı, imkan vermədi doyunca şəklə baxaq. Cənab Biqman, o əsərin adı necədir?

–Ecce Homo, latıncadan “Bu da sizin tələb etdiyiniz adam” kimi tərcümə olunur. İcazənizlə hamınıza bu əsərin tarixi qısaca, izahını vermək istərdim, - Naumana baxdı.

–Əlbəttə, buyurun, - general icazə verdi.

–Qəzəbli kütlə Ponti Pilatdan İsanı edam etdirməyi tələb edəndə, Ponti Pilat onu məhkəmədən çıxardıb həmin insanlara məhz bu cür sözlərlə təqdim etmişdi. Bildiyiniz kimi, orta əsrlərdə Avropanın başqa məşhur rəssamları da bu səhnəni öz əsərlərində dəfələrlə canlandırmışlar. Bir şeyi də əlavə edim, Martin Lüterin fikrincə, Ponti Pilat Ecce Homo, yəni *bu da sizin tələb etdiyiniz adam* sözlərini ürək ağrısıyla demişdi ki, kütlədə İsaya qarşı mərhəmət hissi oyansın.

Holland səfirin üzünə yönələn baxışlarda maraqdan başqa təəccüb və təbəssüm də var idi. Nəhayət, general Nauman dilləndi:

–Rəsm əsəriylə bağlı verdiyiniz tarixi və teoloji məlumatlara görə təşəkkür edirəm, cənab Biqman. Doğrusu, mən bunları bilmirdim. Əslində, biz də elə kosovolulara olan mərhəmət hissinə görə bu əməliyyatı həyata keçiririk. Əgər Ponti Pilatın İsaya yazığı gəlirdisə, bizim də kütləvi qırğına məruz qalan Kosovo albanlarına yazığımız gəlir. Bir sözlə, Rembrandt heç düz eləmədi. O, gərək bu əməliyyatlara mane olmayaydı. Okey, təklifə veto qoymaq sizin hüququnuzdur. Keçək növbəti hədəfə...

Həmin iclasdan sonra general Nauman məsələni NATO-nun baş katibi Havyer Solanaya çatdırdı. Solana Hollandiyanın xarici işlər naziri Yozias Van Aarstenə zəng edib Kosovoda durumun qəliz olduğunu izah etdi, günü-gündən ölən, yaralanan, qaçqın düşən kosovolu albanların sayının kəskin şəkildə artmasını nazirə dedi və növbəti səsvermədə bu ölkənin vetodan imtina etməsini xahiş etdi. Nazirsə dedi ki, bu mümkün deyil, ölkəmizin milli maraqlarına cavab vermir və istənilən halda, Dedinjadakı prezident iqamətgahını bombalamağın mənası yoxdu, çünki Miloşeviç artıq çoxdandır orda oturmur, bunkerlərdən birində gizlənir.

Havyer Solana axşam Klaus Nauman və NATO-nun Birləşmiş Müttəfiq Qüvvələrin komandanı amerikalı general Uesli Klarkla görüşüb, holland nazirlə telefon söhbətinin nəticəsini onlara dedi. Amerikalı general Klark söz verdi ki, öz ölkəsinin dövlət katibi Madlen Olbrayta zəng edib, onun məsələyə qarışmasını xahiş edəcək, nəticəni qısa zamanda Solanaya və Naumana çatdıracaq. Qısası, Madlen Olbrayt Hollandiyanın xarici işlər naziri Yozias Van Aarstenə zəng etdi, ümumi giriş söhbətindən sonra əsas mətləbə keçdi:

–Siz bilirsiz ki, mən də daxil olmaqla, ABŞ hökuməti böyük holland rəssamı Rembrandtı çox sevirik.

–Ha-ha-ha, əlbəttə, bilirik, Madlen xanım.

Nazir həmkarının nə deyəcəyini bildiyindən gülüşlə reaksiya verdi. O da Kosovo böhranı başlanandan tez-tez müttəfiq ölkələrin xarici işlər nazirləriylə telefon danışıqları aparırdı.

–Cənab Yozias, siz, yəqin, onu da bilirsiz ki, ABŞ-ın bir neçə məşhur muzeyində Rembrandtın əsərləri saxlanılır və əlavə edim ki, sosioloji sorğulara görə, amerikalıların, xarici turistlərin çoxu həm də bu böyük holland rəssamının rəsm əsərlərinə baxmaq üçün məhz o muzeylərə gedirlər.

–Bunu eşitmək çox xoşdur, Madlen xanım.

–Əziz Yozias, indi isə əsas məsələyə keçək. Sizin ölkənin NATO-nun iclasında veto qoyduğu rəsm əsəriylə bağlı mühüm bir xəbərim var sizə.

–Oo, buyurun, eşidirəm sizi.

–Məsələ burasındadır ki, Rembrandtın o əsəri artıq Miloşeviçin iqamətgahında yoxdur.

–Necə yoxdur? Nə baş verib ki? Oğurlayıblar?- holland nazir təşvişlə soruşdu.

–Yox, narahat olmayın, əsəri oğurlamayıblar. Sadəcə, serblər Miloşeviçin iqamətgahından, Rembrandtın həmin əsəri daxil olmaqla, bir neçə klassik rəssamın da əsərlərini, hələ ki, bizim kəşfiyyata məlum olmayan yerə aparıblar.

–Məlumat dəqiqdi, Madlen xanım?

–Dəqiqdi. Biz indi Belqraddakı kanallarımız vasitəsilə çalışırıq, şəklin olduğu yeri müəyyənləşdirək. Məlumat əldə edən kimi sizə xəbər edəcəm. İstənilən halda imkanımız dqaxilində çalışacayıq əsər ziyan çəkməsin.

–Təşəkkürlər, Madlen xanım, zənginizi səbirsizliklə gözləyəcəm. Yaxşı xəbər eşitsək, çox məmnun olardıq.

Bu arada general Nauman Brüsselin bir kitab mağazasından Rembrandtın şəkilləri olan albom almışdı. İşdən sonra Ecce Homoya baxa-baxa fikirləşirdi ki, əsrlərdir İsa peyğəmbər kimi düşünənlər, ona davamçıları ədalət uğrunda mübarizə aparsalar da, əzab çəksələr də, hələ də bəşəriyyəti xilas edə bilməyiblər. O biri tərəfdən də, general NATO-nun Avropa tarixində ilk dəfə humanist ideya, prinsip uğrunda mübarizə aparmasından qürur duyurdu, - yeri gəlmişkən, qəzetlərə verdiyi müsahibələrində bunu həmişə vurğulayırdı. “Ecce NATO” (“Bu da sizin tələb etdiyiniz NATO”), - Nauman albomda İsa peyğəmbərin edamını tələb edən kütləyə baxıb dilləndi, *elə həmin saniyə F16 qırıcısı onlara bomba zərbəsi endirdi.*

Telefon söhbətinin üstündən üç gün keçməmiş Hollandiyanın xarici işlər naziri özü Madlen Olbrayta zəng edib sevincək dedi ki, ölkəsi veto hüququndan imtina edir, onlar da öz kanalları vasitəsilə müəyyən ediblər ki, doğrudan, serblər şəkli naməlum yerə aparıblar. Madlen Olbrayt yubanmadan məlumatı general Uesli Klarka, o isə Klaus Naumana çatdırdı. Nauman iclasa başlayan kimi, məsələni səsə qoydu və səfirlərin hamısı Miloşeviçin iqamətgahının bombalanmasının lehinə səs dedi. Səsvermədən sonra Yunanıstanın səfiri holland həmkarının qulağına pıçıldadı:

–Bəs Rembrandt?

–Rembrandt veto qoyduğum iclasdan sonra Miloşeviçin iqamətgahını tərk edib.

–Oo, afərin ona. Lütfən, salamımı çatdırın ona, - yunan səfirin yumorla arası saz idi.

...Məsələ isə belə olmuşdu. Madlen Olbrayt Van Aarstenə zəng etməzdən əvvəl Mərkəzi Kəşfiyyat İdarəsinin sədri, müdafiə naziri və öz müşavirləriylə məsləhətləşib gizli bir qərara gəlmişdilər. Həmin iclasda Olbraytın köməkçilərindən biri demişdi ki, serblər, böyük ehtimalla, hərbi əməliyyatların ilk günlərində əsəri başqa təhlükəsiz yerə aparmış olarlar. Plana görə, veto məsələsi həll ediləndən sonra bombardman nəticəsində şəkil zədə alsaydı, ya yansaydı, ABŞ Dövlət Departamenti adından verilən notada Hollandiyadan üzr istəyəcəkdi. Dalınca Olbrayt holland nazirə zəng edib bir daha üzr istəyib deyəcəkdi ki, aldıqları kəşfiyyat məlumatı səhviymiş, əvəzində rəsm əsərinin müvafiq qiymətini kompensasiya etməyə

hazırıq. Amerikalı rəsm kolleksionerlərindən Rembrandtın Ecce Homosuna bərabər olan bir əsərin pulla alınıb Hollandiyaya vermək təkliflərdən biri idi, - hətta ekspertlər bunun təxmini qiymətini də müəyyənləşdirmişdilər. Könüllərini almaq üçün Hollandiyaya sərfəli biznes təklifləri də həmin gizli qərara daxil idi. Sonda reallıq da sanki amerikalıların planına uyğun baş vermişdi: belə ki, NATO təyyarələri başladığı əməliyyatın ilk günlərindən birində ölkənin təhlükəsizlik orqanları Ecce Homonu başqa rəsm əsərləri və strateji sənədlərlə bir yerdə Dedinjadan götürüb naməlum bir yerə aparmışdı. Qısası, amerikalıların fəhmi, hardasa ağla əsaslanan planları onları aldatmamışdı.

Artıq 2014-cü il idi, Kosovodakı hərbi əməliyyatların üstündən on ildən çox vaxt keçmişdi. Ordudan çoxdan tərxis olunmuş Klaus Nauman istefada olan general kimi yaxşı təqaüd, hərdənbir də NATO-nun hərbi məktəblərində təşkilatın 90-cı illərdə keçirdiyi əməliyyatlar haqqında mühazirələrdən əla qonorar alırdı. Yayda dünyanın müxtəlif ölkələrini gəzib dincəlirdi.

...İyun ayı idi, general Parisin mərkəzindən uzaq Marmottan-Mone muzeyində - çox vaxt jurnalistlərin təkrar-təkrar verdiyi suallardan uzaq olmaqçün adam az olan belə muzeylərə gedirdi, - sevdiyi rəssam Klod Monenin “Günəşin doğmasından təəssürat” rəsminin qarşısında dayanmışdı. Şəklə bir xeyli baxandan sonra çönüb getmək istəyirdi ki, beş-altı metr aralıda impressionist rəssamlardan birinin əsərinin qabağında Hollandiyanın keçmiş səfirini gördü. “Bu hardan çıxdı?”

Səfir Biqman da yaşına görə təqaüdə çıxmışdı. Dəvət alanda, gedib Avropanın müxtəlif universitetlərində tələbələrə öz NATO təcrübəsindən bir-iki mühazirə oxuyub, yaxşı qonorarla yaşadığı Layden şəhərinə qayıdırdı...

Nauman onu görməməzliyə vurub tez o biri zala keçdi, çönüb gördü ki, səfir gözə dəymir, rahat oldu. Fransız rəssamı Qüstav Kaybotun “Paris küçəsi yağışlı havada” əsərinin qarşısında dayanıb baxmağa başladı. Bu vaxt dörd-beş yapon turist onlara bələdçilik edən cavan fransız xanımla bir yerdə, az sonra iki-üç avropalı həmin zala girdi. Nauman fikirləşdi ki, indilərdə səfir də burda peyda ola bilər, onda yapon turistlərin arasında itib, tez də aradan çıxmaq üçün fürsət tapar. Elə bu vaxt keçmiş səfir həmin zala daxil oldu. Hələ də Kaybotun rəsm əsərinin qabağında dayanmış Nauman səfiri görən kimi sol əlini yanağının üstünə qoydu ki, profildən tanınmasın. “Üstəlik, mülki geyimdəyəm, çətin tanıya”. Bu zaman yapon turistləri Kaybotun rəsm əsərinə yaxınlaşıb maraqla baxmağa başladılar, general onların arasında görünməz oldu. “Əla oldu ki,” - general sevindi. Birdən fransız bələdçi qadın mədəni şəkildə generala dedi ki, o, ancaq xarici turistlərə bələdçilik edir: bu, bir növ “Sən artıqsan, zəhmət olmasa, qırağa çəkil” demək idi. Nauman fransız dilini pis bilirdi deyə, ingiliscə “Sorry”, yəni “bağışlayın, nə dediniz?” - soruşdu. Qadın bu dəfə gizlətməyə çalışdığı əsəbi tonda eyni şeyi ingilis dilində təkrar edəndə, Nauman çiyinlərini çəkdi, “Okey” deyib çöndü və düz keçmiş səfirlə üz-üzə gəldi.

–Oo, general Nauman, sizi Marmottan-Mone muzeyində görməyimə çox şadam, - səfir gülərüzlə əlini uzatdı.

“Mən heç şad deyiləm,” - fikirləşən və keçmiş səfiri indicə görürmüş kimi məcburən gülümsəyən general ona uzanan əli yüngülcə sıxdı:

–Cənab Biqman, mən də şadam. Siz bu muzeydə əvvəllər olmusuz?

–Bəli, cənab general. Düzü, mən bayaq sizi o biri zalda Monenin əsərinin qabağında gördüm. Mone mənim də sevdiyim rəssamdır. Amma Kaybot, deyəsən, o qədər də xoşunuza gəlmir.

–Yox, elə deməzdim. Kaybotun da əsərləri xoşuma gəlir. Xüsusən də elə qarşısında dayandığımız bu rəsm əsəri, - Nauman əliylə rəsm əsərini göstərdi.

–Bayaq fikir verdim, əlinizi üzünüzə qoyub dərin fikrə getmişdiniz. Lap Oqüst Rodenin “Düşünən insanı” xatırladınız mənə, - səfir bic-bic gülümsədi.

–Kompliment üçün təşəkkür edirəm, cənab Biqman, amma Rodenin “Düşünən insan”ı oturaq vəziyyətdədi, mənsə az əvvəl gördüyünüz kimi ayaq üstə dayanmışdım. - Naumanın soyuq təbəssümü bunları deyirdi: “Sən deyəsən, rəssamlıq biliklərini mənə göstərirsən, ya da məni dolayırsan”.

–Oo, düzdü, cənab Nauman, o məqama diqqət yetirməmişdim. Hər halda razılaşarsız mənimlə, rəssamlar sübut etdilər ki, onlar bu həyatda olmaya-olmaya, öz əsərlərinin gücüylə iradələrini lazım olan vaxtda siyaçətçilərə yeridə bilirlər.

–Ha-ha-ha, cənab Biqman, bildim nəyə işarə vurursuz. Okey, sözümü geri götürürəm, Rembrandt o zaman düz eləmişdi, öz əsəriylə ölkəsinin veto qoymasına səbəb olmuşdu.

–Cənab general, təsəvvür edin, dünya siyasətini müəyyən edən adamlar muzeylərə gedib məşhur rəssamların, heykəltaraşların əsərlərinə baxırlar. Amma NATO-nun qərargahında olmağı şair, ya rəssamların mütləq əksəriyyəti nəinki arzu edir, heç bunu ağlına belə gətirmir. Düz demirəm, cənab Nauman?

–Ha-ha-ha, - general qəhqəhəylə güldü. - Mütləq əksəriyyət, yaxşı dediniz. Mən sizin kimi maksimalist deyiləm, cənab Biqman, amma şübhəsiz, dediklərinizdə müəyyən həqiqət var...

Generalın kefi necə açıldısa, keçmiş səfirə qarşı soyuqluğu yox oldu və səfir ona deyəndə ki, vaxtınız varsa, gedək yaxınlıqdakı kafelərin birində fransız konyakı içə-içə söhbət edək, general buna həvəslə razı oldu.

İki gün sonra “Wall Street Journal” qəzetində “NATO generalı və onun təklifinə veto qoymuş Hollandiyanın eks-səfiri muzeydə görüşdülər, sonra konyak içməyə getdilər” uzun başlıqlı, şəkilli məqalə çıxmışdı. Hələ o zaman həmin qəzetdə veto məsələsinin qeyd edildiyi məqaləni yazmış jurnalistlərdən biri general Naumanı üzdən tanımışdı deyə, onun səfirlə muzeydəki söhbətinə gizlincə qulaq asmışdı və axırda qəzet üçün belə bir məqalə yazmışdı. Yazının əsas ideyası iki cümləylə verilmişdi: *NATO-nun tarixin arxivinə yollanan siyasi maraqlarının fonunda böyük sənət əsəri daha möhtəşəm görünür və siyasətdən bezən səfirlər, nazirlər, generallar yaşa dolanda, rəsm, musiqi əsərlərindən daha çox həzz alırlar, nəinki verdikləri təkliflər sayəsində ayrı-ayrı dövlətlərin, təşkilatların əldə etdiyi (geo)siyasi uğurlardan. Geosiyasi maraqlar dəyişkəndir, böyük incəsənət əsərlərinin dəyəri, doğurduğu maraq isə əbədidir.* Məqaləni “müşayiət edən” fotoda general və səfir Kaybotun “Paris küçəsi yağışlı havada” əsərinin fonunda - jurnalist onları gizlicə telefonuyla çəkmişdi, - sanki şəkildəkilər kimi əllərinə çətir alıb əsərin qəhrəmanları olmalıydılar.

***P. S. Qismən real hadisələr əsasında yazılmış hekayədə Madlen Olbraytın “Xanım Dövlət Katibi. Xatirələr” kitabındakı bir fraqmentdən istifadə edilmişdir.***

***22 sentyabr 2014 - 13 oktyabr 2015,***
***Bakı***

# QƏRİBƏ XAHİŞ

İldə yeddi-səkkiz dəfə universitetin müəllimləri, tələbələri, süpürgəçiləri, bənnaları.. səhər birinci mərtəbədə, divardakı çərçivəyə salınmış, üstündən qara lent keçən şəkil görəndə, qəfildən *əyləci basıb* mexaniki özlərinə sual verirlər: "Hmm, görən, kimdi?" Sonra yaxınlaşıb şəklə baxır, altındakı elanı oxuyurlar: "Filan kafedranın professoru, (ya dosenti) Əliyev Vəli dünyasını dəyişmişdir. Universitet rəhbərliyi mərhumun ailəsinə başsağlığı verir. Allah rəhmət eləsin". Şəklin altında da dörd qırmızı qərənfil.

Adətən, həmin lövhədə iclaslar, konfranslar, xaricdə pullu təhsillə bağlı elanlar, bir də, bayram təbrikləri asılır və nadir hallarda kiminsə yaxınlaşıb orda yazılanları oxuduğunu görmək olur. Elə ki, ölüm xəbəri, şəkil cüt qərənfillərlə bir yerdə divarda peyda olur, müəllimli-tələbəli hamı ürkək-ürkək yaxınlaşır ora.

Hələ uzaqdan baxıb şəkildəkini tanımayanda, Nahid müəllimin, bəlkə də, çoxunun ürəyindən keçən ilk arzu bu olur: "Ölən bircə dost-tanış olmasın". Görəndə ki, tanımadığı, az qala heç vaxt üzünü görmədiyi birisidi, rahat olurlar, ürəklərində "Allaha şükür edir universitetin *diri* müəllimləri. Rəhmətlik onun şəklinə baxanın yaşıdı olanda, ölüm *diriyə* sanki ilğım şəklində *yaxınlaşıb* bir dəfə *sığal çəkib* gedir.

Dünən divardan asılmış şəkil görəndə, Nahid məllimin ayaqları onu elanlar divarına tərəf apardı, tanıdı, şəkildəki gözlüksüz olsa da. Hardasa altmış-yetmiş yaş arasında olardı politologiya kafedrasının baş müəlliməsi olan mərhumə. "Hmm, deməli, illəriymiş müdafiə eləmiyibmiş, yoxsa ən azından, dosent kimi gedərdi" bu dünyadan. Dünənə qədər nahar vaxtı universitetin yeməkxanasında görürdü o qadını. Rəhmətlik, adətən, sifariş elədiyi yeməyə qalınşüşəli gözlüyündən bir xeyli baxandan sonra qaşığı əlinə götürüb iştahla, tez-tez yeyirdi. Ona baxa-baxa hərdən Nahid fikirləşirdi ki, görən, bunun axırına nə qədər qalıb? "Bu da sualın cavabı, indi şəklinin qabağında dayanmışam".

Bir-biriylə tanış olmayan üç müəllim növbəti vaxtsız vəfat etmiş dosentin şəklinin qabağında dayanıb.

–Görən, nədən rəhmətə gedib? - dəblə geyinmiş, makiyajlı, üzündə həyat eşqi parlayan ortayaşlı müəllimə həyəcanla soruşur, hiss olunur ki, öləni tanımır.

–İnfarktdan. İnanırsız, xanım, sapsağlam kişiydi, yəni son vaxtlara qədər ürəyindən elə bir şikayəti yoxuydu, - suala cavab verən isə onun yanında dayanan incəsəsli kişi müəllimdir.

–Bəlkə, qapalı adam olub, gizlədirmiş xəstəliyini? - makiyajlı xanım təşvişlə soruşur.

–Yox, xanım, - sualı gözləyirmiş kimi həvəslə cavab verir, - elə məsələ orasındadı ki, qapalı adam deyildi, mən rəhmətliyi yaxşı tanıyırdım. Yəni elə bir şey olsaydı, bu universitetdə birinci elə mən....

–Neçə yaşı var idi? - makiyajlı müəllimə səbirsizliklə soruşur.

–Qırx iki yaşı təzəcə tamam olmuşdu, - incəsəsli müəllim cavab verir.

–Zəhrimar infarkt, - xanım “zəhrimarı” xüsusi vurğuyla deyir. - Qırx iki yaş nə yaşdı ki.

–Xanım, zəhrimar xərçəngdi, infarkt yox, - bayaqdan onları dinləyən Nahid çönüb qadına reaksiya verir.

Amma dalınca izahat vermir: yəni, xanım, bir var, adam ayların, illərin əzab-əziyyətli metastazından ölə, bir də var məsələ oturduğu yerdə beş-on dəqiqənin içində *həll oluna*. “Zəhrimar xərçəngdi” sözlərini eşidən xanım çaşır, sifətində həm “Məllim, tanımadığınız adamla danışmaq olmaz”, həm də “Danışmaq olar” yazılıb. Xanım ümumiyyətlə, başa düşmür Nahid ciddidir, yoxsa ciddi-ciddi məzələnir onunla və heç nə demədən ordan aralanır.

Bir dəfə elanlar lövhəsində iki şəklin yan-yana asıldığını görəndə, Nahid az qaldı dəli olsun: mərhumlardan biri cavan kişi müəllimi, o birisi isə cavan laborant xanımıydı. Kişini tanımadı, xanımla hansı tədbirdə tanış olduğunu heç cür yadına salammadı, amma dünənə qədər üz-üzə gələndə salamlaşırdılar. İnstinktiv fikirləşdi: “Bu, lap ağ oldu, vallah. Axı nə məcburdu bir gündə iki cavan adamın şəklini asasız”. Elə həmin gün başa düşdü ki, universitetdə işləyə-işləyə o, özü də bu həyatla vidalaşa bilər. Ölümə praqmatikcəsinə (“bir gün gələn, bir gün də gedər”) yanaşırdı. Amma...

...Növbə tutmuş müəllimlərə “Sonuncu kimdi?” sualını verməzdən əvvəl Nahid *məllim* katibəyə yaxınlaşdı, rektorun otağının qapısına başıyla işarə edərək, o birilər eşitməsin deyə, sakitcə soruşdu:

–Kefi necədi Eldar məllimin?

–Yaxşıdı. Görüşmək istəyirsən?

–Hmm.

–Nə məsələdi ki?

–Heç, şəxsi söhbətdi.

–Oldu, indi özünə deyərəm, qəbul eliyər səni.

Qaldı ki, “şəxsi söhbətlə” bağlı Nahid *məllimin* kafedra müdirinin, ya dekanın yox, rektorun qəbuluna düşmək istəməyinə, məsələ burasındaydı ki, rektorla arası şit olmayan zarafatlar eləmək dərəcəsində açığıydı. Üstəlik, Nahidin atası rektorun tələbə yoldaşı və dostuydu. Katibə Nahidi qəbula tez saldı. İki-üç dəqiqəlik giriş söhbətindən sonra rektor Nahidin üzünə baxıb susdu, - yəni, bildim, yaxşısan, dədən də yaxşıdı, dərslərin qaydasında gedir, indi de görək niyə gəlmisən. Nahid boğazını arıtlayıb dilləndi:

–Eldar məllim, heç bilmirəm, necə deyim ki, düzgün başa düşəsiz məni.

–De, de, utanma.

–Dediklərim sizə qəribə gələcək, amma deyim də.

–De, Nahid, qoy qəribə gəlsin, həyat onsuz da qəribəliklərlə doludur.

–Eldar məllim, bizdə deyək ki, kimsə rəhmətə gedir, düzdü?

–Başa düşmədim, bizdə, yəni kimdə, harda? - rektor təəccüblə soruşdu.

–Burda, universitetdə.

–Hə, kimsə rəhmətə gedir, düzdü. Nədi ki? - qəribə nəzərlərlə Nahidə baxdı.

–Kimsə rəhmətə gedəndə, aşağıda, birinci mərtəbədə elanlar vurulan divarda başsağlığı elanı verirlər, şəkilnən, gülnən bir yerdə.

–Uff, səbrim daraldı, sözünün canını de görək, vaxtımı alırsan, axı.

–Demək istədiyim odur ki, dünyanın işini bilmək olmaz, işdi-şayət, mən də birdən bu dünyadan getsəm, mənimlə bağlı elan, güllərlə bir yerdə şəkil vurmaq lazım deyil.

Bu cümlələri Nahid az qala birnəfəsə dedi və araya ölü sükut çökdü. Nahid gözlərini qarşısındakı bir nöqtəyə, rektor isə düz onun gözlərinə zilləmişdi.

–Həə, - rektor dilləndi, - yatsam da, yuxuma girməzdi ki, hansısa məllim, üstəlik, sənin kimi cavan məllim bu cür xahişnən yanıma gələr.

–Həyat qəribəliklərlə doludu, Eldar məllim, - Nahid qımışdı.

–Onu bildik, dediyimi təkrar eləməyə ehtiyac yoxdu. Mənə de görüm, neçə yaşın var sənin?

–Otuz beşin içindəyəm.

–Mənim otuz beş yaşım olanda... Nəysə, doktorluğu başlamısan yazmağa?

–Yox, hələ mövzu seçməmişəm. “Gör hardan vurdu e”.

–Niyə?

–Gərək araşdırma aparam, görəm hansı mövzular seçilib, yəni təkrarçılıq olmasın mövzu seçimində, yoxsa koordinasiya şurasında qəbul...

–Onu bildim, araşdırma apar da, mövzu seç də. Sənə nə mane olur ki?

Nahid dinmədi, yenə sükut yarandı və ona elə gəldi ki, rektor söhbətin mövzusunu azdırmaq üçün doktorluq məsələsini ortaya atdı. “Bəlkə də elə bilir, ölümdən qorxduğumçün başsağlığı elanı məsələsini bundan xahiş eliyirəm. Buna, axı, necə deyim ki, mən şəxsən öz ölümümə praqmatikcəsinə yanaşıram. Sadəcə, şəkil, cüt gül əsəblərimə toxunur”. O, *ölümə praqmatikcəsinə yanaşma* məsələsini orijinal tapıntı-söz hesab edirdi, elə bilirdi, bunu desə, rektor onun xahişini nəzərə alacaq. Deməyə imkan tapmadı, rektor sükutu pozdu:

–Bura bax, bəlkə, bu il səndə dərs yükündə problem olub?

–Yox, yox, Eldar məllim, o barədə heç narahat olmayın.

–Bir dəyqə, - cavab, deyəsən, rektora səmimi gəlmədi, nəydisə, telefonu götürüb Nahidin işlədiyi kafedra müdirinin daxili nömrəsini yığdı. - Salam, Fikrət məllim... Necəsən?... Yaxşıyam, sağ ol. Sizin, elə bizim, - Nahidə göz vurub, - Nahidin bu ilki dərs yükü necədi?... Tam ştat.... Yəni əvvəlcədən özü elə istiyib, düz?.... Oldu, sağ ol.... Yox, narahat olma, elə-belə soruşdum.... Hələlik, - dəstəyi yerə qoyub Nahidə: - Dedim, bəlkə, tam yox, ştat yarım dərs yükü istiyirmişsən, ona görə sənin müdirinə zəng elədim.

–Yox, bir yarımı çatdırmaram, - söhbətin bu cür gediş almasına görə Nahidi gülmək tutdu.

–Hmm, yaxşı, onda mənə de görüm, sənin problemin nədi? - rektor soruşdu.

–Yox, inanın mənə, Eldar məllim, elə bir ciddi problemim yoxdu. Amma dediyim o xahişi, zəhmət olmasa...

–O xahişi unut. Bəlkə, pula-zada ehtiyacın var? Amma utanma, düzünü de.

–Yox, narahat olmayın, pulum var.

–Maaşın nə qədərdi?

–Üç yüz yetmiş səkkiz manat.

–Dosentlik, elmi dərəcə, maddi yardımla bir yerdə?

–Bəli.

Rektor yenə telefonu götürüb həmkarlar işinə baxan prorektoru yığdı:

–Cahangir, salam...

Bu vaxt Nahidin mobil telefonuna sms gəldi. ”Eldar müəllimin yanından çıxandan sonra mütləq yanıma gəl”. Kafedra müdirindəniydi. “Oldu” - Nahid cavab sms yazdı. Rektor isə prorektora bunları deyirdi:

–...Deməli, Nahid müəllimə, sosiologiya kafedrasının dosenti, gələn ay üçün yüz əlli manat mükafat yaz, özü bir azdan düşəcək yanına. Mühasibata təqdimat yazarsan... Oldu, sağ ol, - dəstəyi yerinə qoyub Nahidə baxdı: - Belə, yüz əlli manat qabağa düşdün, pis variant deyil, hə?

–Hə, yaxşı variantdı, - Nahid gülməyə başladı.

–Belə gülərsən ha, - rektor dedi. - Oldu, Nahid, burdan çıxanda elə birbaşa düşərsən Cahangir məllimin yanına, pulu götürüb qoyarsan cibinə. Axşam gedib oturarsan “Hiltonun” lap yuxarıdakı mərtəbəsindəki fırlanan kafedə, çaydan, kofedən içə-içə baxarsan Bakının gecə peyzajına. Nə bilim, kafedə qəşəng qızlar olsa, onlara da baxarsan, oldu?

“Oldu”nu “Gedə bilərsən” tonunda dediyindən, Nahid avtomatik dik yerindən qalxdı:

–Oldu, çox sağ olun, Eldar məllim. Xəcalət verdiz, vallah.

–Xəcalət-zad deyil. Özünü yaxşı aparsan, tez-tez mükafat almaq şansların var.

–Çox sağ olun. Onda, son olaraq bir xahiş, - rektor onun şəkil, elan xahişini yaxına buraxmayandan sonra qəfildən ağlına gələn, amma deməyə tərəddüd edən xahişinə keçdi. - Mümkünsə, heç olmasa, şəkilsiz, bir də *qərənfillərsiz* elanım vurulsun.

Fikirləşirdi ki, şəkilsiz, cüt güllərsiz, iki-üç adam xaric, çətin ki, kimsə birinci mərtəbədəki elanlar divarına yaxınlaşsın. Adamların çoxunun divardakını iclas elanı bilib maraqlanmayacağı ağlına gəlmişdi.

–Çıx burdan, bu dəyqə dədənə zəng eliyəcəm, - əsəbiləşən rektor masanın üstündəki mobil telefonunu götürdü.

–Yox, zəng eləmək lazım deyil, çıxıram. Sağ olun, - Nahid gülə-gülə otaqdan çıxdı.

“Nəysə, alınmadı. Belə də ki, başqa cür alındı, yüz əlli manat qabağa düşdüm. Heç bir “Hilton”, ancaq teleqüllə, çay içərəm, uzağı, otuz-qırx manat xərcim çıxar, əvəzində çoxdankı arzuma çataram. Ölsəm, bu xahişimdən sonra, çox güman, göstəriş verər ki, şəklimi asmasınlar. Hər halda, səmimiyyətimə inandı...”

Kabinetdən çıxıb prorektorun yanına düşdü. Cahangir müəllim:

–Hə, gəl görək, - salamlaşdılar.

Oturduğu masanın siyirməsini açdı, ordan yüzlük və əllilik çıxarıb Nahidə uzatdı.

–Çox sağ olun, - Nahid təşəkkür etdi.

–Sağ ol, əslində, hörmətli rektorumuza düşür. Amma mən də ürəklə verirəm. Burdan qol çək, - masanın üstündəki kağızda imza yerini göstərdi, - Hmm, maraqlıdı, hansı yaxşı hərəkət eləmisən ki, Eldar məllim sənə birdən-birə bu qədər mükafat yazıb? - prorektor qımışdı.

Sənədə qol çəkib, pulu şalvarının cibinə qoyan Nahid də qımışdı.

–Nə demisən ki? - prorektor yenə soruşdu. - Çünki biz nadir hallarda məllimlərə yüz əlli manat mükafat veririk.

–Bəs nə qədər olur mükafat?

–Yüz manat. Sən sualdan qaçma, nə məsələdi?

–Heç, rektorun xoşuna gəlib seçdiyim doktorluq mövzusu, - ilk ağlına gələni dedi.

–Nə mövzudu ki?

–Azərbaycan cəmiyyətində mortafobiya problemləri.

–Nə? O nə olan şeydi? - prorektor riyaziyyatçıydı deyə, termindən baş açmadı.

–Mortafobiya, yəni ölüm fobiyası.

Prorektor boğazını arıtladı, hiss olundu ki, mövzu xoşuna gəlməyib, amma rektorun xoşuna gəlmişdi deyə, bir şey deyə bilmədi.

–Nahid məllim, doktorluğu yazmaqda sənə uğurlar arzu edirəm. Necə deyərlər, qələmin iti olsun, - bunları isə, hiss olundu ki, məcburən dedi.

–Oldu, Cahangir məllim, siz də sağ olun.

Universitetin binasından çıxıb beş addım atmışdı ki, öz adını eşidib başını yuxarı qaldırdı. Kafedra müdiriydi:

–Ay kişi, mən sənə nə dedim? Hara gedirsən?!

–Fikrət məllim, narahat olmuyun, sizlik bir şey yoxdu, hər şey aydınlaşdı.

–Çıx yuxarı deyirəm sənə!

–Doktorluq işiylə bağlı söhbət eliyirdik, yəni dərs yükü mane olmasın deyə...

–A kişi, çıx demirəm sənə!!! - kafedra müdiri səs tonunu bir az da qaldırdı.

"Bu da, səhərdən dayanıb pəncərənin ağzında məni güdür," - fikirləşdi.

–Yaxşı, gəlirəm, - Nahid geri qayıtdı.

Kafedraya girən kimi müdir gizlətməyə çalışdığı həyəcanla soruşdu:

–Nə məsələdi, Nahid? Nə baş verib?

–Heç nə baş vermiyib, Fikrət məllim. Hər şey qaydasındadı.

–Bəs onda rektor səni niyə yanına çağırmışdı?

–Doktorluq məsələsinə görə. Soruşurdu ki, hansı mövzunu götürmüsən işləməyə.

–Yaxşı, dərs yükü məsələsi nə idi? Mənə olan zəngə görə deyirəm.

–Rektor bilmək istəyirdi ki, bu semestr məndə olan dərs yükü doktorluğu yazmağa mane olmaz ki.

–Nahid, sən yüz faiz məndən nəyisə gizlədirsən.

–Fikrət məllim, sizdən, axı, nəyi gizlədəcəm?

–Yaxşı, sənə bir sual verəcəm, ancaq mənə and içəcəksən ki, düzünü deyəcəksən.

–Vallah, and içmək deyəndə, mən uşaq-zad deyiləm ki.

–Yaxşı, and içmə, amma mənə düzünü de görüm, pula-zada ehtiyacın yoxdu?

–Yox, o barədə narahat olmayın.

Cavab Fikrət müəllimə qeyri-səmimi gəldi, nəydisə, bir göz qırpımında şalvarının sağ cibindən çıxardığı sarı əlliliyi Nahidin cibinə basdı və geri çəkildi. Geri çəkilən kimi sifətində xoşbəxtlik ifadəsi

yarandı, sanki rektorun tapşırığını həyata keçirmişdi kafedra müdiri və üstündən ağır yük götürmüşdülər.

–Ay məllim, siz neynədiz? - Düzü, Nahid bunu heç gözləmirdi.

–Narahat olma, Nahid. Mən də sənin böyük qardaşın. Yeri gəlmişkən, mənə də bu yaxınlarda kömək eliyiblər. Hələ üzümüzə gələn semestr, dərs yükündə sənə əlavə saat hesabı dərslər də yazacam ki, bir az artıq pul olsun.

–Fikrət müəllim, vallah, bu gün elə bil...

–Sən buna layiqsən, əzizim, - sözünü kəsdi, - narahat olma.

–Təşəkkür edirəm diqqətinizə görə.

–Dəyməz...

“Yəqin, buna da biznesmen qardaşı *premiya* verib. Hmm, bu da belə. Yüz əlli üstəgəl əlli, eliyir iki yüz. Yaşasın yuvarlaq rəqəmli manatlar. Üstəlik, gələn semestrdə də saathesabı dərs, o da hardasa əlli-atlmış manat eliyər. Bu gün heç kim mənə inanmır ki, əlimyandı pula ehtiyacım yoxdu. Lap yaxşı”. Universitetdən çıxanda əlini cibinə salıb pulları bir-birinə sürtdü. Pul xışıltısı ona ləzzət elədi.

...“Uxx, varam bu yüksəkliyə,” - qabağında bir fincan yarısına qədər içilmiş ılıq çay və çiyələk mürəbbəsi teleqülllədəki restoranın pəncərəsindən yerə baxırdı. Paraşüt versəydilər, bir-iki gün hündürlükdən tullanmağın qaydasını öyrətsəydilər, bir az da ürək-dirək məsələsi, məmnuniyyətlə təyyarədən tullanardı. “Yox, yox, ən yaxşısı qanadlı paraşütdü, istədiyin qədər uç Bakının, Xəzərin üstüylə. Sonra süzə-süzə enəsən ılıq qumu olan adamsız sahilə. Orda da közdə qızardılmış iki dənə qarğıdalı ola. Yeyə-yeyə dənizə baxasan, axırda da quma uzan, lap öl. Şəkillə bağlı, yəqin ki, rektor xahişimi nəzərə alar. Həssas adamdı, üstəlik, atamla dost olub. Məncə, nəzərə alar”.

***2 noyabr 2014 - 14 oktyabr 2015,***
***Bakı***

**OXUCULARIN NƏZƏRİNƏ!**
**2016-cı İL ÜÇÜN**
**“AZƏRBAYCAN”**
**jurnalına abunə yazılışı davam edir.**
**“AZƏRBAYCAN”**
**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,**
**illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**

*Vüsal NURU*

# LUVRDA HADİSƏ



♦ *Hekayə*

Luvr muzeyində dəhşətli hadisə baş verib. Çox adam inanmasa da, mən şahid olduğum üçün hələ də heyrət içindəyəm.

Turistlər gəzə-gəzə gəlib Mona Lizanın o təbəssümlü portretinin qarşısında durmuşdular. Kimisi maraqla, heyrətlə baxır, kimisi soyuq və anlamsız baxışlarını portretə dikir, kimisi də Mona Lizanın yeddi arxa dönəninə bələd olan ən yaxın qonşusu kimi ağzını əyə-əyə göz süzdürürdü; sanki bomba kimi xəbərləri ürəklərində saxlamışdılar. Hadisə də elə bu kamikadze adamların söhbətə qarışmasıyla başladı və Luvr muzeyində partlayış oldu.

Bələdçi qadın Da Vinçidən ağızdolusu danışandan sonra, sözü hərləyib-fırlayıb Liza xanıma gətirdi. Üzünü portretə çevirib, ürəyində: "Əlimi üstünə xeyirə uzadım" - deyib, tamaşaçılara bu əbədi yaşayan, sirli, müəmmalı qadından danışdı. Danışdı deyəndə ki, bildiyi bir neçə sətirlik sözü lent yazısı kimi dilində səsləndirdi. Nə vaxt gəlsəydin, bu bələdçidən Liza xanım haqqında bundan artıq-əskik bir kəlmə də eşitməzdin. Çox vaxt suallara da doğru-düzgün cavab vermirdi. Bombanın fitilini yandıran bir italyan qocanın sualı oldu. Başı əsə-əsə, cır səsiylə soruşdu ki, bu Mona Liza xanımın Da Vinçiylə eşq macərası olubmu? Yəni onun yatağına girib, girməyib? Bələdçi qeyri-ixtiyari çevrilib Lizanın üzünə baxdı və gördü ki, qadının üzünün cizgiləri dəyişib, yanaqları allanıb, amma hələ qımıldanmır, kirpiyini də qırpmır, bir az təbəssümü acılaşıb, amma yenə də qarşısındakı turistlərə baxır. Ağzını doldurub kişiyə cavab vermək istəyirdi ki, sözü ağzında qaldı. Təxminən o kişiylə yaşıd olan şlyapalı, əlcəkli fransız qadın əminliklə dedi:

- Bu qadın Da Vinçini yoldan çıxarıb. Heç bilirsiniz kim olub? Da Vinçinin dostu Vilyamın arvadı. Bəli, bəli, arvadı. Bu portreti çəkdirmək bəhanəsiyə hər gün Da Vinçinin emalatxanasına gedirmiş. Orda nə hoqqadan çıxırmışlar desəm, bu yaşımda abrım tökülər. Vilyam da elə bilirmiş dostu onun arvadının portretini çəkir.

- Nəticədə ortada portret var. - Kimsə boğazını uzadıb dedi.

- Bəli, var. - Fransız nənə onun sözünü təsdiq etdi, - əxlaqsızlığın portreti var!

Bələdçi nəsə demək istəsə də, qulaq asan yox idi, onun burda olduğunu da unutmuşdular. Hərdən çevrilib altdan-yuxarı Mona Lizanın haldan - hala düşən üzünə baxır, dodağını çeynəyirdi.

-Yalandı! - Bir alman qadının hökmlü etirazı başları ona tərəf çevirdi. - Bu qadın, - o, əlini portretə Hitlerin hərbi salamı kimi uzatdı, - alman qadınıdı. Da Vinçi onun simasında faşistlərə dünya əhəmiyyətli mesajlar göndərib. Ona görə bu günə qədər şəkil üzərində tədqiqatlar davam edir. Hələ də nəsə axtarırlar. Amma gecdi. Göndərilmiş mesajı alman xalqı çoxdan alıb.

-Belə çıxır ki, Da Vinçi yəhudilərin düşmənidi. Mona Liza da faşist kəşfiyyatçısı olub. - Qara panamalı yəhudi dərhal dilləndi və əsil düşmənini aşkarlamış kimi, özünü hamıya göstərməyə çalışdı.

-Sizin sözləriniz uydurma və cəfəngiyyatdan başqa bir şey deyil. İlri gün eynəkli, bər-bəzəkli, orta yaşlı turist qadın dillənməyə fürsət tapdı. - Cənablar, Mona Liza böyük bir ittifaqın sədri olub. Deyək ki, lap elə bir şirkətin sahibəsi imiş. Da Vinçi orda olmaq üçün bu hegemon qadının qılıncının altından keçib. Yəni, onun şəklini çəkib, rüşvət olaraq qadına verib. Yerini isti salıb. Başa düşürsünüz də? Deyib, səni ömür boyu məşhur edəcəm.

-Bəs sonra? - Kimsə maraqla soruşdu.

-Sonrası məlum məsələdir. Belə şəkildən sonra hansı qadın özünü ehtiraslı Leonardoya təslim etməz?

-Mənim aldığım dəqiq məlumata görə, rəssam bu qadından puluna və şöhrətinə görə istifadə edirmiş. Cənablar, məlum məsələdir ki, aylarla emalatxanasından çıxmayan rəssam da yaşamalıdır; bunun yeməyi var, işləməyə ləvazimatı var... Bunların hamısını şəhvət düşkünü olan qadının sayəsində görüb. Çünki bu qadın, hər şeyi əldə edəndən sonra dahi rəssamı da öz əşyasına çevirmişdi. Bu şəkli də sübut üçün çəkdirib. Rəssam özünü fahişə kimi satıb.

Hər tərəfdən heyrət nidaları eşidilirdi.

-Yox! Da Vinçi bu qadını zorlayıb, sonra da öldürüb. Cəsədi də geyindirib, oturdub, bax, beləcə, portretini çəkib. Bu əsərin ilk adının "Ölü təbəssüm" olduğu təsadüfi deyil ki!.. Hamıya məlumdur ki, Da Vinçi qəribə eksperimentləri sevirdi...

-Boş sözlərdi, cənablar. Mister Leonardo Da Vinçi, əslində, gey olub. Odur ki, sizin bilgiləriniz kökündən yanlışdı. O, incə ruhlu, kübar bir adam olub. Məsələn, mənim kimi...

-Bu cənab doğru deyir. Əslində, Mona Liza Leonardo Da Vinçinin qadın formasıdır. O, özünü belə hiss edirdi, daxilindəki qadını belə görürdü. Hətta gecələr də evdən bu şəkildə çıxırmış... İkili həyat yaşamaq maraqlıdır.

-Mən eşitmişəm ki, tədqiqatçılar böyüdücüylə onun gözlərinin dərinliyinə baxıblar. Orda bizim dildə "Allahu əkbər" yazılıb... Bu Allah-təalanın bizə göndərdiyi mesajdı. Kafirlərə ölüm! - Kişi yumruğunu havaya qaldırıb bağırdı.

Qırmızı lentin qarşısına toplaşmış adamların səs-küyü getdikcə yüksəlirdi. Uçan, vızıldayan milçəyi havada tutub, muzeyin sükutunu pozduğuna görə, qolunu-qanadını, başını qopararaq ağır işgəncələrlə öldürən güvənlik ortalıqda görünmürdü. Bələdçi turistləri sakitləşməyə çağırsa da, səsi hay-küydə boğulurdu. Alov dilləri kimi qalxan ittihamlar ortalığı qızışdırmışdı. Əlini əlinin üstünə qoyub, öz çərçivəsində dinməz-söyləməz oturmuş Mona Lizanın döşünə şərəfsizlik orden kimi taxılmış, cəmiyyətin bütün əxlaqsızlığı taleyi kimi alnına yazılmışdı. Da Vinçi illərlə fəth etdiyi zirvədən bir necə dəqiqədə kəllə-mayallaq yerə gəlib bu bir topa turistin ayağı altına sərilmişdi.

Başqalarını ittiham etməyin bu qədər asan və geniş yayılmış peşə olduğu bir zamanı Mona Liza gəldiyi tarixə qədər görməmişdi. Zavallı qadının



üzünü qaşımışdılar, quru damardan qan çıxartmışdılar. Odur ki, qadının hövsələsi tükəndi, səbri daşdı, hirslə-hikkəylə ayağa durdu. pəncərədən boylanırmış kimi, qurşağa qədər çərçivədən çıxdı. Elə bil, həyətdə onun qeybətini qıran çənədən saz qonşuların üstünə arından-abrından keçib dilləndi. Sağ əlini çərçivədən tutub, sol əlini qabağa uzadaraq tribunadan çıxış edən inqilabçı kimi bağırdı:

-Susun! Gedin öz şəklinizi qarşınıza qoyun, yaxşı - yaxşı baxın. Siz kimsiniz? Varlığıyla insanlığı öldürmüş qatillər! Peşəniz qarşınızdakı adamları alçaltmaqdı. Çünki sizdən artıq olanlar sizin əskikliyinizi göstərir. Bütün müqəddəsləri öz günahlarınızla “bəzəyirsiniz”. Budur sizin əxlaqınız! Əliniz qanlı, gözünüz xaindi. Qarşınızdakı adamları öldürməklə cəsədlərin arxasında gizlənə bilməzsiniz! Bütün pisliklər sizi xatırladacaq. Gedin, kim olduğunuzu özünüzdən soruşun! Rədd olun!

Turistlər qorxub bir-birini itələyə-itələyə çıxışa doğru qaçanda, Mona Liza onların dalınca bir müddət nifrətlə baxdı, təəssüflə başını buladı və qayıdıb yerində oturdu. Həyəcandan, əsəbdən əlləri əsirdi.

Bələdçi portretin üstündə yanan işığı söndürüb iti addımlarla otaqdan çıxdı ki, şərlənmiş qadın sakitləşsin.



*Nisə BƏYİM*

## *BÜTÜN GERÇƏKLƏRİ VAXT SÖYLƏYİRMİŞ...*

***

Günlərin bir günü
            bir gün istədim,
Sırası pozuldu qaçan günlərin...
Havası, ədası, tamı dəyişdi
Xəyal qanadında uçan günlərin...

Gözlərim yetmədi ayrılıqlara,
Könlüm yağışlarla dolub - boşaldı...
Yollar uzun - uzun üzüldükcə hey,
Üstündən yükünü atıb- qocaldı...

Küləklər kimsəsi yox imiş kimi,
Baş alıb getdilər sonsuzluqlara...
Rəqs edən boşluğun qara kölgəsi,
Ağrıtək həkk oldu daşa - divara...

Tənhalıq diksinib oyandı qəmdən,
Yuxulu - yuxulu kədərə baxdı...
Başını yenidən heçliyə qoyub,
Olmayan günlərçün susub darıxdı...

Mən ömür bildiyim qoca zamandan
Ovcumda bir nişan qalmadı ki heç...
Günlərin bir günü
            bir gün istədim,
Günlərin bir günü olmadı ki heç...

* * *

Vaxtın köləsiymiş, demə, ümidlər,
Demə, şübhələrin yuvası yoxmuş...
Sevgiylə nifrətin kökü bir imiş,
Dünyanın "haqq" deyə - davası yoxmuş...

Sıyrıla bilirmiş yalan doğrudan,
Bütün gerçəkləri vaxt söyləyirmiş...
Çıxmağa bir ürək, qəlb tapmayanda,
Hisslər öz-özünü məhv eləyirmiş...

Təkrarı yox imiş ayrılıqların,
Yoxdan başlayırmış hər yolun başı...
Ağırmış göylərin buludlarından,
Bir qəlbin içində qalan göz yaşı...

Hər gecə - gündüzdə, hər qəm - kədərdə
Əbədi bir təslim xisləti varmış,
Dünya bir bağlama, içi dolu sirr,
Hər sözün bir gizli hikməti varmış...

Təzadlar içində dönürmüş həyat,
Böyüklük-kiçiklik göz yanlışıymış...
Ağlın işığında görüb-görməmək,
Anlamaq - insanın öz yanlışıymış...

* * *

İlahi, haqdan asılan
Tük imiş, tük, tənhalığım...
Göylə yeri calaşdıran
Kök imiş, kök, tənhalığım...

Bitdiyi rişəni kəsən,
Incidib özündən küsən,
Ömrünün başından keçən
Ərk imiş, ərk, tənhalığım...

Vaxtın gedib gəlmədiyi,
Baxtın üzə gülmədiyi,
Dərdin çəkə bilmədiyi,
Yük imiş, yük, tənhalığım...

Gün sovurub, yol bağlayan,
Yağışa, qara ağlayan,
Üstündə dəniz saxlayan
Çök imiş, çök, təhhalığım...

Başlanan köçün içində,
Günahın, suçun içində,
Bu qədər heçin içində
Tək imiş, tək, tənhalığım...

* * *

Əlimin altında -
götürə bilmədiklərim...
Ayağımda yollar buxovtək...
Yaddaşımın zəncirində
hələ də çırpınır yerindən qopmuş ürək...

Hava həyəcanla titrəyir
ucadan oxunan hökmün səsindən...
Farağat əmrinə hazır düzülür,
qaydalar sürüşmür öz növbəsindən...

Bilirsənmi, nəyi öyrəndim,
Ölçülər böyüdükcə yasaqlar da böyüyür,
Əlsiz- ayaqsız kəslər
dərd əlində böyüyür...

Məhbəsdə doğulan azadlığın
Azad olmaq şansı olmur...
Həyat da ölüm kimidir -
ikinci şansı olmur...

* * *

Həmişə darıxan adam,
İndi necə darıxırsan?
Gizli- gizli, xısın-xısın,
dolub heçə darıxırsan?
Dünyanın hansı küncündən,
ya altından, ya üstündən,
vaxtın görünən üzündən,
ya iç gözündən baxırsan?
Görə-görə göz dağını,
örtüb dərdin qapağını,
ömür-gündən yığdığını,
dağıdıb nəyi yığırsan?
Tel-tel olan telindimi,
dil-dil olan dilindmi,
o kəsdiyin əlindimi,
baxt evinimi yıxırsan?
Əriyirsən gilə-gilə,
ağlayırsan gülə-gülə,
yağışları tutub dilə,
darıxıb göydən yağırsan?

* * *

Deyir, könül,
çarxı dönüb,
fırlanmır oxu fələyin...
öz qarğışı öz başına,
hərlənir ahı fələyin...

Dağı-daşı ünləsəydi,
Örtdüyünü günləsəydi,
Tökdüyünü dənləsəydi,
İtməzdi mıxı fələyin...

Zülmü dil-dil dinməsəydi,
Son ümidi sönməsəydi...
Dünya haqdan dönməsəydi,
Dönməzdi çarxı fələyin...

* * *

Çıxma kimsənin yoluna,
Hər yol - tale, qədər, yolçu...
Hər kəsin yolu mənzilə
Ayrı-ayrı gedir , yolçu...

Içində bir gor qazdırıb,
Üstünə bir ad yazdırıb.
Könlünü yolda azdırıb,
Sürünmə dərbədər, yolçu...

Əvvəli-sonu səndədi,
Bütün dünya içindədi,
Öz-özündən özünədi,
Ən uğurlu səfər, yolçu...

* * *

Yatmayan yuxuların
Səsi gecəni dəlir,
Qeyb olan duyğuların
Vaxtdan xəbəri gəlir...

Gözlərim dil ağlayıb,
özünə ağı deyir,
əlimin sığalında
ağrılar mürgüləyir...

Vaxtın başı əyilir
İtkilərin önündə...
Bir ümid də qalmayıb
Ömrün buz örtüyündə...

Qaranlıqlar gizlənən
qorxuları qınamır,
Başın qarışığında
dərd də dərdi tanımır...

Hər şeyin başlanğıcı
Sonunacan qəm dadır...

Sağ qalan göz yaşları
Öz- özünü aldadır...

* * *

Demədim...
söyləsəydim,
sözümə
bağlanacaqdım...
heç kim görməsə belə,
gözümdə saxlanacaqdım...

Yapışıb əllərimdən
getməyə qoymayacaqdı...
zamanı öz içində
ölməyə qıymayacaqdı...

Yaxın- uzaq deməyib,
cavab sorulacaqdı,
keçdiyim ayrılıqda
yollar yorulacaqdı...

Küləklər gedib-gəlib
Yaxamı döyəcəkdi,
Göz yaşım yağışların
xətrinə dəyəcəkdi...

Desəydim,
ayağımın
izində azacaqdım,
Bütün azadlıqları
özümdən asacaqdım...

* * *

Başın dönürsə,
demək,
ətrafında dünya dönür...
ömrün şöləsi artdıqca,
içində həyat sönür...

Ölüm-itim -
bir qapı,
Keçilən daşlığı var...
Hər qapanan tamlığın
Açılan boşluğu var...

Seçdiyin yolun sonu
İçində bitir,
fəqət,

Həqiqətdə xoşbəxtlik yox,
Xoşbəxtlikdə həqiqət...

* * *

Qəlbim o qədər yuxa ki,
Dəyməmiş sınıb tökülür...
Ha bağlasan bağlarını,
Çözülüb içdən sökülür...

Tale durub atlananda,
Baxta kəmənd atan anda,
Haqqın dizi qatlananda,
Qəddi- qaməti bükülür...

Gözü közünü andırır,
Tərsi üzünü yandırır...
Sovuranda bulandırır,
Yağanda qəmi çökülür...

* * *

Doğulduğum ayrılıqlar
çoxdan ölüb...
Məzarlığı ürəyimdə.
Nə gələn var, nə gedən var,
Nə yad edən...
Nə yolunu xatırlayan,
Nə səmtini yada salan...
Nə də vaxtın kəsişdiyi ,
yerlə göyün qovuşduğu ömrü anan...
Başlanğıcı lay-lay üstə,
Son mənzili ağı üstə ,
Müsafiri bir özüməm,
bir də quşlar...
səssizlikdə yuva quran sərçəciklər
uçuşurlar dəstə-dəstə...
qımıldanmır daş duyğular,
bir dağ kimi çöküb qalmış üzü üstə...
Yağış yağır boş yollara,
Ayrılıqlar buludlardan uzaqlarda...
Dualar da gedib çatmır,
Ayrılıqlar ölümlərdən uzaqlarda...
Dayanmışam öz içimdə,
hisslərimin üzərində
donub qalmış baş daşıyam...
Tərpətməyin dağı-daşı,
diriliyi məhv edilmiş
daş dünyanın göz yaşıyam...

* * *

Bir də gördün ürəyimiz
"pırr" eləyib uçdu göyə...
Qarışdı ağ buludlara
"Allah, Allah !" - deyə-deyə...

Arxasınca baxıb ağlar,
Hələ açıq gözlərimiz,
Qışqırsaq da eşidilməz
Cansız qalan sözlərimiz...

Sinəmizdə yeri göynər,
Boşluğa düşüb itərik...
Xəyal kimi yolumuzla
Ürəksiz,qəlbsiz gedərik...

Başqa bir zamanda bizə,
Dirilər "ölü" deyərlər...
Qarışmasaq ölülərə,
Gülüşüb "dəli" deyərlər...

Baxarq ki,boyumuzca,
Bizə bir oyuq oyublar,
Ürəkləri soyumayıb,
Üstünə də daş qoyublar...

* * *

Əlimi-qolumu zaman bağlayıb,
Ha yana dönürəm, məhbəs görürəm...
Gözümü qəm tutub, könlümü qubar,
Özümü içimdə məhbus görürəm...

Ruhum çabalayır dərd sıxlığında,
Qurtulub getməyin bir yolumu var?...
Gündüz işıq tutur, gecə qaranlıq,
Fələyin qırx gözü, qırx əlimi var?

Ömrün qapısında yekə bir qıfıl,
Açarı sirr olan vaxt əlindədir...
Hökmü, sərəncamı çoxdan verilib,
Fərmanı taleyin daş dilindədir...

Nə qədər çarəsiz olsan da, dayan,
Çək hələ, görəcək günlərin qalıb...
Başına gələcək olacaqların,
Kim bilir, gözünə nə yaşlar dolub...

Bax yalan dünyanın ac gözlərinə,
Sənintək nə qədər can udub, heyhat!!!
Zamanla borc alır səndən, nə varsa,
Heç zaman borcunu qaytarmır həyat!



*Fazil AYDIN*

## ŞƏHİD ATASI

Papiros kimi çəkirsən
Ömrünə düşən gecələri.
Qəlbin dəli şimşəkdi,
Silkələyirsən küçələri.
Oyatmaq istəyirsən
Yatan vicdanları.
Fəqət oyanmır diri ölülər
Hər axşam -səhər
Qar kimi əriyir dilinin ucunda
Sözlərinin nidası
Şəhid atası!

Ürəyinin tellərindən tərəzi asmısan
Sol gözündə cürük vədlər, quru yalan
Sağ gözündə haqqın səsi
Vicdanın təntənəsi.
Səsin hara çatası
Şəhid atası!

Vətəni güllələrdən qorumaqçın
` Daş səngərdə oğul əkdin
Nişan oldu sinəsi atılan güllələrə
Amansız mərmilərə
Qəlbinə dəsmal tutub
Yandıra-yandıra soraqlayırsan
Qələbə adlı oğlunu!
Qulağına gəlib çatmır sədası!
Şəhid atası!
Şəhid atası!

## MƏN KİMƏM?

Yoluma qəm çilənir,
Günlər ilə bələnir,
Üstümə qış ələnir,
Odum yoxsa, mən kiməm?

Həyat sərt baxıb mənə,
Çox yerdə saldım binə,
Bir güzgü tut qəlbinə-
Adım yoxsa, mən kiməm?

Dərdi var gündüzündə,
Dön mənə bax özündə.
Sakit axan sözündə
Dadım yoxsa, mən kiməm?

Sənət eşqi diləyim,
Ondan başqa var nəyim?
Yuva istər ürəyim!
Otum yoxsa, mən kiməm?

Yaşamağa gün qazaq,
Dövran acgöz yalquzaq.
Ömür qısa, yol uzaq
Atım yoxsa, mən kiməm?

## NARAHAT DUYĞULAR

Sevgidən neçə danışasan
            Kasıb insan
Evinin divarıtək baxışların soyuqdur.
Borc sahibi sıxır vicdanını
İsti əli qar sıxan kimi.
Papağın yerə düşür
            Bir çətən külfətin sənə baxan kimi.
Sevgidən neçə danışasan
            Nə danışasan.
. . .
Açma gözlərini Qızıl gül!
Gün bəzər səni.
Qoxlayıb atacaq
Bədnəzər səni.

## ŞİRİN SÖZÜN ARASINDA

Həm sevib, həm də sevildik
Qaşla-gözün arasında.

O anları qəlbə bükdük
İki közün arasında.

Yol hara gedir, bilirsən,
Mən tənbəl ovçu...Gülürsən,
Elə naz ilə gəlirsən,
Şirin sözün arasında.

Bu eşq məni, məndən aldı,
Üzü dağa yola saldı.
Günüm, ayım, canım, qaldı
Kölgənizin arasında.

Üstümüzə yavaş-yavaş
Gəldi bulud, gözündə yaş...
Olmayaydı ayrılıq kaş,
İkimizin arasında.

## BU VƏTƏN ÖLDÜRÜR MƏNİ

Bu dünyadan cavan, cavan
Tez gedən öldürür məni!
İmanı pul, baxışı pul,
Can didən öldürür məni!

Başımıza nədir dəyən,
İç dünyanı burub əyən,
Vicdanını gəzdirməyən
Boş bədən öldürür məni !

Ağ ulduza qara yaxan
Nifrəti lal, sakit axan,
Düz yollara, əyri baxan
Şər güdən öldürür məni!

Qəlbim, axı,gülmür neyçin?
Ağlayıram için, için...
Səni, onu sevdiyimçin
Hər yetən öldürür məni!

Hirsindən bir an yatmayan
Yatanları oyatmayan,
Dərdinə gücüm çatmayan
Bu Vətən öldürür məni !

*Qan TURALI*

# YAD ET MƏNİ, QƏMLİ-QƏMLİ YAD ET!



***“Molla Nəsrəddin” jurnalı nadir hallarda təşəkkür, tez-tez təkfir və hədə-qorxu məktubları alırdı. Bir gün bir uşaq qaça-qaça “Molla Nəsrəddin” redaksiyasına gəlib Ömər Faiqə bir zərf verdi, bir saniyə də dayanmayıb çıxıb qaça-qaça getdi. Ömər Faiq təhqir məktubu kimi açdı zərfi. O vaxt zəhərli kimyəvi maddə hopdurulmuş məktublar, ya da içinə bomba yerləşdirilən bağlamalar yox idi, olsaydı, yollayardılar jurnala. Məktubdan şeir çıxdı:***

***Ol gün ki, sənə xaliq edər lütf bir övlad***
***Olsun ürəyin şad.***

Cəlil Məmmədquluzadə mahir yazıçı, Ömər Faiq təcrübəli jurnalist idi.

Jurnalın felyeton, məqalə sarıdan elə bir problemi olmurdu, üstəlik, kənardan da bu cür yazılar çox gəlirdi. Amma şair tapılmırdı. Doğrudur, o dövrdə Dərbənddə Mirzə Səməndər adlı bir şair vardı. Bakı milyonçularına, ilk növbədə də, Hacı Zeynalabdin Tağıyevə yarınmaq məqsədi ilə Mirzə Cəlilə təhqiramiz həcv yazmışdı. Milyonçunun sözünü deyən şair çox idi, xalqın sözü ürəyində qalırdı. Xalqımız isə, o dövr də şair xalq idi, şeirlə deyilən söz daha yaxşı aydın olur, daha yaxşı yadda qalırdı.

... Jurnalın əməkdaşları sevincək olub şeiri çap etdilər. Amma məktubda imza yox idi, qaça-qaça gələn uşağa görə şeirə Hophop imzası qoydular. “Hophop” tullana-tullana gəzən bir quşun adı idi.

Həmin şeir jurnalın yeddinci nömrəsində çap edildi. Çox keçməmiş həmin uşaq yenə də qaça-qaça gəldi və təzə bir zərf verdi. Yenə də ləngiməyib qaçdı, ondan bir şey xəbər almaq mümkün olmadı. Zərfdən isə “Bilməm nə görübdür bizim oğlan oxumaqda” şeiri çıxdı. Üçüncü dəfə zərf gələndə 34 yaşlı Ömər Faiq uşağın arxasınca düşüb erməni bazarında şamaxılıların dükanına gəldi. Ömər Faiq 1901-1902-ci ildə Şamaxıda müəllim işləmişdi, taciri yaxşı tanıyırdı.

“Bu şeirləri yazan adam Mirzə Ələkbər Sabirdir. Qorxduğundan məktubları jurnalın idarəsinə yaza bilmir, qorxur ki, poçtaxanada Hacı Məcid Əfəndinin müridlərindən olar, məktubları oxuyub Hacıya xəbər verərlər. Ona görə şeirləri bizə göndərir, bizə gələn məktublar diqqət cəlb etmir”.

Qəribə təsadüf: Ömər Faiq o illərdə də Şamaxıda yaşayan Sabirlə şəxsən tanış olmamışdı. Tanışlıqları belə oldu.

"Molla Nəsrəddin" bir şair qazanmışdı. Təkcə "Molla Nəsrəddin"mi? Füzulinin taxtı sarsılacaqdı!

Sabir "Molla Nəsrəddin"lə ölən gününə qədər əməkdaşlıq edəcək, həm jurnalı şöhrətləndirəcək, həm də özü şöhrətin zirvəsinə qalxacaqdı. Bəs, illərin yazıçısını, jurnalistini ikicə misrası ilə heyrətləndirmiş o şair kim idi?

## *Atalar... Oğullar... Ata olan oğullar*

Şeir yazmağını gizləyən Ələkbərin atası həlim bir adam deyildi. Gəncliyində Şamaxıda inqilabi bir iş bacarmışdı. Sabirin etdiklərindən az cəsarət göstərməmişdi. Yazıq Sabir şeir yazdığını gizlədirdi, amma o, hamının gözü qarşısında məzhəbini dəyişmişdi.

Gəlin, o hadisəyə Seyid Hüseynin dilindən qulaq asaq:

XIX əsrin birinci yarısında Şamaxı böyük şəhər sayılırdı, quberniyanın mərkəzi idi. Şəhərdə həm sünnilər, həm də şiələr yaşayırdı. Onlar arasında daim nifaq və düşmənçilik olurdu. Sabirin babası Hacı Tahir sünniydi. Peşəsi qaratikan kötüyündən çubuq və qəlyanbaşı düzəltmək idi, çöpçülük də edirdi. Sünnilər arasında hörmətli adam sayılırdı. Iki oğlu vardı, Zeynalabdin kiçiyi idi.

Böyük oğlu, atanın meyarlarına görə, üzüyola idi, amma kiçiyi ilə yola getmirdi. Bir işin ucundan yapışmırdı, şiələrin məşhur musiqiçisi Mahmud ağanın məclislərində iştirak edirdi. Bunun üstündə üzü danlanırdı, amma Zeynalabdin atasını daha çox əsəbiləşdirəcək şeylər tapıb onları edirdi.

Bütün bu avaraçılığa dözmək olardı, oğullar o zaman da beləydilər; sözə qulaq asmazdılar. Amma Zeynalabdini ətrafında olan gənclərdən fərqləndirən bir şey eşitdi ata. Zeynalabdin şiələrin məhərrəmlik təziyələrində iştirak etmişdi. Oğulun evə gecəyarı qayıtdığı gecələrdən biriydi. Ata yatmamışdı, oğlunu gözləyirdi. Elə o gecə oğlunu evdən qovdu. Zeynalabdin atasından da tərs idi, evə qayıtmaq üçün heç bir cəhd göstərmirdi. Şəxsi təşəbbüsləri ilə atadan xahiş edənlərə ata eyni cavabı verirdi: "Mən onu ölmüş bilirəm".

Allah bir qapını bağlayıb, digərini açırdı. Şiələrin ən hörmətli axundu Ağa Seyidəli Ağa məclislərin birində Zeynalabdini yanına çağırdı, ona böyük iltifat göstərdi. Zeynalabdinin atasına vurduğu zərbə isə amansız oldu; şiəliyi qəbul etdi və bu barədə atasına xəbər göndərdi. Atası bu qədərini gözləmirdi. Amma özünə gəldi, sünnilərin hörmətli adamlarını evinə yığdı və hamının hüzurunda Zeynalabdini oğulluqdan çıxartdığını elan etdi.

Sünnilər qəmli, şiələr şad idilər. Zeynalabdinin ağır günləri bundan sonra başladı. Qohumları da onu görəndə üzlərini yana çevirdilər. Təmtək qalmışdı quberniya paytaxtında. Bu zaman bir sünni dükanı soyuldu, Zeynalabdinin hadisədən xəbəri də yox idi. İntiqam alovuyla alışıb-yanan sünnilər soyğunun şiələr tərəfindən edildiyinə adları kimi əmin idilər, amma oğru tapılmırdı. Əllərinə düşən bu imkandan Zeynalabdini cəzalandırmaq üçün istifadə etdilər, onun əleyhinə ifadə verib həbs etdirdilər. Şəhər qalabəyisi Zeynalabdinin boynuna "günah"ını qoymaq üçün ona həbsxanada ağır işgəncələr verdirdi. Sünnilərin "vurun, əllərinizə qurban olum" nidalarıyla şəhərin meydanında yaş çubuqlarla döydürdü.

Amma Zeynalabdin cəzaya mətanətlə dözdü, "etiraf" etmədi. Onu həbsdən azad etdilər. Ancaq yaş çubuqlar sünnilərin qisas alovunu söndürə bilməmişdi, imza topladılar və Zeynalabdini Bakıya sürgün elətdirdilər.

Şiələrin heysiyyatı zədələnmişdi, Zeynalabdinin başına gələnləri özlərinə qarşı təhqir bilirdilər. Ağa Seyidəli Ağanın yanında Zeynalabdin haqda söhbət açılmış və Ağa "O bizdəndir!" demişdi. Əllərində olan bütün imkanlardan istifadə

etdilər, imza topladılar, Tiflisə teleqram vurdular, nəhayət, üç aylıq sürgündən sonra Zeynalabdinin sürgününə son qoydular.

Şamaxı şiələri Zeynalabdini təmtəraqla qarşıladılar. Məsciddə böyük məclis quruldu, Ağa Zeynalabdini əvvəlki günahlarından tövbə etdirib ziyarət üçün Xorasana göndərdi. Onun Xorasandan qayıdışını da bayram etdilər. Zeynalabdin üçün pul topladılar, ona baqqal dükanı açdılar və evləndirdilər. Bir müddət sonra Zeynalabdinin böyük qardaşı da şiəliyi qəbul etdi.

Sabir Zeynalabdinin sonbeşiyi idi.

Qeyd: Sabir sünni babasının adını özünə soyad götürmüşdü: Tahirzadə.

## *Sabir Ələkbər olanda*

Məzhəbini dəyişən Zeynalabdin öz atasından fərqli bir ata ola bilmədi.

Oğlu Ələkbəri dərviş kimi görmək istəyirdi. Ona uzun ətəkli dərviş paltarı tikdirmişdi. Ələkbər dükanın qabağında Həzrəti Əli sevdasını tərənnüm edən şeirlər oxuyurdu. Məktəb yaşına çatanda Zeynalabdin Ələkbəri mollaxanaya apardı. Mollaya o dövrün məşhur cümləsini dedi: “Əti sənin, sümüyü mənim”. Ruhu da istəyəcəkdi molla. Ələkbəri isə məktəbdə “qamış qələmin kağızın üstündə cırıltı salıb xətt salması maraqlandırırdı”.

Quranı xətm etməyən şagirdlərə yazmaq qadağan idi. Yazmaq cinayət sayılırdı. Gələcəyin Sabiri bir şeylər qaralamışdı. Mollaya xəbər çatdı, heybəsini axtardılar, karandaş tapdılar. Cəza üçün maddi dəlil də vardı, əllərini falaqqaya saldılar. Üç çubuq yedi Ələkbər. Bu, yazı üçün yediyi ilk kötək idi. “Mollam da döyür yazı yazanda” misrası da bu hadisənin təsviriydi.

## *Böyük şairin hüzurunda*

Seyid Əzim o dövrdə Şamaxının ən savadlı adamı sayılırdı. Bağdadda, Şamda oxumuşdu. Mədinədən tutmuş İstanbula qədər gəzib - dolanmışdı. Sünni-şiə ixtilafının əleyhinə çıxırdı. Rusca təhsilin şəriət tərəfindən qadağan edilmədiyini deyirdi. Şamaxı mollaları onu da sevmirdilər, maarifçi fikirlərindən qorxurdular. Lakin Seyid çox savadlı idi, dini elmlərdə mollaları cibindən çıxardardı.

Üstəlik, klassik poeziyanın son mogikanıydı, iynəli qələmi vardı, istədiyi adamı yazdığı iki beytlik həcvlə dillərə salar, biabır edərdi. Şamaxıda cəmi bir sinif otağı olan məktəb açmışdı. Modern məktəb idi, falaqqası yox idi, uşaqlar skamyalarda otururdular. Ələkbərin uşaqlığının ən gözəl günləri bu məktəbdə keçdi. Amma bütün gözəl şeylər kimi məktəbdəki bu günlər də bitdi.

O bir otağın işığı əsrlərə çatacaqdı.

## *Dükandakı şair*

Atası istəyirdi ki, Ələkbər də böyük qardaşı kimi dükanda ona kömək eləsin. Ələkbər məktəbə davam edirdi, amma bir gün Zeynalabdin gəlib məktəbdən uşağı götürdü. Gələcəyin böyük şairi məktəbdən çıxarılıb dükana aparılırdı. Yer - göy susurdu...

Ata və oğul arasında gizli müharibə başlandı. Məktəbdən çıxarılsa da, Ələkbər oxumağından qalmırdı. Dükanda da əlində fars və türk divanları vardı. Şeirlərini yazdığı və Seyidin öz əli ilə redaktə etdiyi dəftərçəni də yerə qoymurdu.

Oğlunun həvəsi atanı qəzəbləndirirdi. Üstəlik. dükanda da işlər yaxşı getmirdi. Ələkbərin nəsibi söyüş və qapaz idi. Bir gün qəzəbli vaxtında atanın gözünə dəftərinə şeir yazan Ələkbər sataşdı. Ata şairin üstünə cumdu, dəftəri əlindən aldı, Ələkbər qaçıb döyülməkdən xilas oldu. Şeir dəftərini cırıq-cırıq etdi atası. Üstəlik, axşam şam zamanı yenə Ələkbəri acıladı. Ələkbər yatağında

xilas haqda düşünürdü. Yəqin ağlına gəlmirdi, amma o, təkcə özünü yox, Azərbaycanı xilas etməli idi. Missiya böyükdü.

İrana qaçıb ordakı dərvişlərə qoşulmaq istəyirdi. Azadlığını bu cür təsəvvür edirdi. Bakı yoluyla hərəkət edən bir karvana qoşulub Şamaxıdan getdi. Atası bu xəbəri eşidəndə belə dedi: "Can onun, cəhənnəm tanrının".

Amma gecə bir at kirayələdi, Şamaxıdan bir mənzil uzaqda olan oğlunu tapıb geri qaytardı. Bu hadisədən sonra atası bir az yumşaldı. Oğlunun şeir yazmasına, şairlərlə oturub - durmasına bir söz demədi. Ələkbər ustadı ilə tez-tez görüşməyə başladı. Bir gün Seyid "Ey məh, bilirəm fitnəyi dövran olacaqsan; Ey qaşi hilalım, məhi təban olacaqsan" beytini yazıb Sabirə verdi və xahiş etdi ki, bu beytə cavab yazsın. Sabir də qəzəlini yazıb ustadına verdi. Qəzəl "Amma bilirəm səbr evi viran olacaqsan" misrası ilə bitirdi.

Seyid bu qəzələ kövrəldi, evə çatan kimi Ələkbərə məktubla bir yerdə hədiyyə göndərdi.

Məktubda yazırdı:

"Nuri didəm, Sabir!

Qəzəlimə yazdığın məlih və şirin cavab çox xoşuma gəldi. Hazırda başqa bir şeyə gümanım olmadığından, haman kitabı sənə silə göndərirəm. Yadigari-ustad olmaq təriqiylə qəbul edəsiniz. Şairlikdə tərəqqi etməyinizi arzu edirəm".

Kitab Nizaminin "Xəmsə"si idi. Seyid Sabirin böyük şair olduğunu görmədən, 1888-ci ildə öldü. Söz yox ki, o, bir müəllim və ustad kimi tələbəsinin böyük zirvələri fəth edəcəyini duyurdu.

Ustadın vəfatından çox illər sonra Sabir Bakıda Seyid Hüseynə ustadı ilə bağlı bir əhvalat danışacaqdı:

"-Mən, bir dəfə,-Hacı Seyid Əzimin görüşünə getdikdə gördüm ki, bütün yazdığı kitablarını, şeirlərini qarşısına töküb onlarla məşğuldur. Hər zaman zarafat edib, əylənən Ağa o gün çox bikef və kədərli idi. Səbəbini soruşdum. "Bir şair üçün - dedi,- bundan böyük bədbəxtlik olmaz ki, gözünü həyata yumarkən bütün ömrünün məhsulu olan əsərlərinin müqəddaratını bilməsin. Məni kim xatircam edər ki, öldükdən sonra bu əsərlərim təb və nəşr edilib adımı tarixdə yaşadacaqdır. Mən bunların künc və bucaqlarda itib tələf olmayacağından arxayın deyiləm".

Sabir özü də eyni qorxunu yaşayacaqdı. Amma Seyidin də, Sabirin də qorxusu boşa çıxacaqdı; tarix onların adını qızıl dəftərinə həkk edəcəkdi.

## *Xorasan yolunda*

Ələkbər Şamaxıda çox darıxırdı. Şairliyini təkmilləşdirmək, dünyagörüşünü artırmaq istəyirdi. Atası onu Xorasana göndərəcəyinə söz vermişdi. Bu sözü xatırladanda ata razı olmadı. Ələkbər israr etdi. Atası iki səbəbə görə onun səfərə getməyinə razı oldu. Şiələr üçün Xorasan müqəddəs yer idi, İmam Rza orda dəfn edilmişdi, ata imamın qəzəbindən qorxurdu.

600 il bundan qabaq başqa bir Şamaxı şairi də Xorasana can atırmış - Xaqani:

***"Nə səbəb var ki, məni Xorasana qoymurlar,***
***Bülbüləm, baği - gülüstana məni qoymurlar".***

Ata öz gəncliyini xatırlayırdı, Xorasan ziyarətindən sonra ağlı başına gəlmişdi. Ələkbərə icazə və yol xərci verdi. İranı, Türkmənistanı bir neçə il gəzən şair iki dəfə qısa müddətə Şamaxıya qayıtdı. Aşqabadda da sabun bişirib satdığını o zaman orda onunla tanış olmuş Salman Mümtaz yazmışdı.

Aşqabadda olanda evdən məktub alır. Atası ölmüşdü, qardaşı onu Şamaxıya çağırırdı. Anasının qardaşına diqtə etdiyi məktubdakı yanıqlı sözlərə Sabir dözmədi, Şamaxıya qayıtdı.

Hərçənd gözəl bilirdi ki, bir daha Şamaxıdan ayrıla bilməyəcək.

Məhərrəmlik günlərində Sabir şamaxılıların məscidində öz mərsiyələrini oxuyurmuş.

## Ələkbərin qıza dəyən əli

Sabir necə evlənməsini Seyid Hüseynə danışıb, o da bunu yazıb. Biz də ondan oxuyuruq: Anası uzaq qohumlarından olan Badamxanımı evlərinə gətirmişdi, fikri onu Ələkbərə almaq idi. Ələkbər qızı uşaq vaxtlarından tanıyırdı, ona qarşı başqa bir hissi yox idi. Lakin Badam Ələkbəri görəndə qaçırdı, onu görəndə yaşmanırdı. Bir gün evə qayıdan Ələkbər qapını açdı, qabağında Badamı gördü. Daha doğrusu, Badamın gözlərini...

"Gözlərində sanki mənə qarşı bir məzəmmət vardı" - demişdi. Qapıdan içəri girib qapını bağlamaq istədi şair. Badam da qapını bağlamaq istəyirdi, dəmirin üstündə əlləri qovuşdu. O gündən qızın bəzəkli paltarlarla Ələkbərin qarşısında dolanması şairin ona meylini artırırdı.

İstəyini anasına açdı. Anasının oyunu baş tutmuşdu; Evləndilər, on bir uşaqları oldu.

Sabirin Həmidə xanıma dediyi kimi, hər Ramazanda bir qızı olurdu, Sabirin anası tez-tez Kərbəlaya gedib oğlan arzulayırdı; nəhayət, oğulları doğuldu, adını Məmmədsəlim qoydular. "Uşaqların olması Ələkbərin vaxtını alır, güzəranını ağırlaşdırır, onu daha artıq dərəcədə məyus edirdi". Badam savadsız idi, Ələkbərin şeir yazması ona çatmırdı.

***Evimizdə var idi hər nə desən,***
***Qatıq, ayran ilə qaymaq, nə yesən,***
***Nə bilirdik nə zəhrimardı kitab,***
***Biz olan evdə haçan vardı kitab?!***

Bu şeir elə Badam haqdaydı. Seyid Hüseyn yazırdı: "Badamı aşiqanə bir qəzəldən, yanıqlı bi mərsiyə və sənətkəranə bir qəsidədən Sabirin evə gətirdiyi bir girvənkə yağ, bir batman un daha artıq maraqlandırır, ona daha artıq "bədii" zövq verirdi". Ələkbər qəzəldə "Seyid Əzimdən, mərsiyədə isə, məruz mərsiyə şairlərindən aşağı olduğunu əzab içində hiss edir, nə qədər ağrılı olsa da, poeziyanın inkişaf etdiyi Şamaxıda şöhrəti maraqlı söhbətlər və şirin zarafatlardan ibarət idi".

Zəmanə yeni bir şairi udmağa hazırlaşırdı. Udacaqdı da. Səhhət olmasaydı...

## Səhhətli günlər

Ələkbərin ən yaxın dostu Abbas Səhhət olacaqdı. "Sümüklərimi də xalqın yolunda qurban verməyə hazıram" vəsiyyətini ona edəcəkdi. Ələkbərin ölümündən sonra Səhhət yazacaqdı: "Ağlarız xatirə gəldikcə gülüşdüklərimiz".

Ələkbəri Sabirə məhz o çevirmişdi.

Sabir ömrü boyu verdiyi ilk və son müsahibəsində (müsahibəni Salman Mümtaz almışdı) özünməxsus təvazökarlıqla "Siz böyüksünüz, yoxsa Abbas Səhhət?" sualına belə cavab vermişdi: "Yaşda mən, başda o".

Səhhət Tehranda, "Mədrəsəyi Nizamiyyəyi Nəsiriyyə"də həkimlik oxumuşdu. Fransız dilini də orda öyrənmişdi. Amma İran diplomuyla Azərbaycanda işləyə bilməzdi, imtahan verməli idi. Sürətlə rus dilini öyrəndi. Fransız dili vasitəsi ilə Qərb ədəbiyyatını dərindən öyrənmişdi, Şamaxıda isə rus ədəbiyyatını mütaliə edirdi. Realnı məktəbdə müəllim kimi işləməyə başladı.

Sabirə dünya ədəbiyyatı haqda məlumat verən də o idi. Rus və fransız dillərindən şeirlər tərcümə edib Sabirə oxuyurdu. Sabir artıq qəzəl və mərsiyədən soyumuşdu.

Sabirin ürəyində və beynində böyük tufanlar qopurdu. XX əsrin ilk illəri idi, milli mətbuat sürətlə inkişaf edirdi, çar hökuməti mətbuat üzərində sərt siyasətindən imtina edirdi. Bakıda qəzetlər çıxmağa başlayırdı. Sabir də artıq yeni şeirlər yazırdı. "Şərqi Rus" qəzeti nəşrə başlayanda (1903) Sabir bir şeir yazıb Tiflisə göndərdi. Bu şeir Sabirin yeni ruhda yazdığı ilk şeir idi. Sabirin ictimai proseslərlə maraqlanmağı da bu dövrdə başladı.

Lakin mətbuatın yolları hamar deyildi, böyük arenaya çıxan Sabir ümidsizliyə qapanırdı. Məhəmməd Hadinin ərəb-fars tərkibləriylə dolu şeirləri onu narahat edirdi. Içində olan yeni şeir hissini heç harda tapa bilmirdi, ürəyindən keçən şeirləri heç kim yazmırdı, Hadinin şeirləri də onu açmırdı. Sabir satirik şeirlər yazmaq istəyirdi.

"Zamanın Molla Nəsrəddini" "Molla Nəsrəddin"in Sabiri yaradacağı günlərə lap az qalmışdı. "Molla Nəsrəddin" jurnalının çıxması ilə Şamaxıdakı qaragüruh da şaxə qalxdı. Seyid Hüseyn "İrşad" qəzetinin redaktorunun Şamaxıya gəlişinə şamaxılıların absurd münasibətini yazır: Şamaxılıları qəzet redaktorunun sünni ya da şiə olması çox maraqlandırırdı, onların nəzərincə redaktor şiələrə qonaq düşürsə şiə, sünnilərdə qalacaqdısa sünnidirs. Amma redaktor şəhər bələdiyyə rəisinin evinə düşəndə şiələrin də sünnilərin də kefi pozuldu. Çünki rəis babi idi, babiləri nə şiələr, nə də sünnilər sevirdi.

Mahiyyətcə babilik islam protestantizmi idi, Mirzə Fətəli də bu barədə məqalələr yazmışdı. Babilik tacir və burjuazuya sinfinin islama münasibətini ifadə edirdi.

Seyid Hüseyn həmin redaktorun kimliyini demir, lakin Mahmud Nədim Qaragözovun xatirələrindən həmin şəxsin onun özü olduğunu bilirik. Redaktorun rəisin evinə düşməsi şamaxılılarda qəzetçilərin "babi" olması barədə qətiyyətli bir rəy yaratdı. Redaktorla görüşən Sabir də "babiliyin" yaratdığı ab-havadan nəsibini aldı, zira şamaxılıların gücü rəisə yox, şairə çatırdı. Redaktor şairlə görüşündə Sabirin bu sözlərini xatirəsində qeyd edir:

"Qeyr bir yerdə birisi aşkara dinindən dönmüş olsa, mənim burda gördüyüm tənə və təhqirin yüzdə birini görməz. Halbuki mən və nə də dönmək fikrindəyəm".

Sabir, özünün də dediyi kimi,çox ağır təzyiqlər altında yaşamağa başladı, hələ sabun bişirməklə dolanırdı, şeirlərini gizli imza ilə yazsa da, birbaşa "Molla Nəsrəddin" redaksiyasına yox , Şeyxovların dükanına göndərsə də, bu şübhələr dağılmır, əksinə, şiddətlənirdi.

Bir gün olmalı olan oldu. Axund minbərdən Sabiri kafir elan etdi və dedi: "Ona salam vermək də haramdır". Əsrlərdən yüksəlib Nizamini, həmşəhrisi Xaqanini, Sədini, Hafizi salamlayan yerliləri bircə salamı da çox görürdülər. Amma boykot bununla bitmədi. Axundun müridi Məhəmmədhəsən köhnə müştərisi Sabirə sabun bişirmək üçün lazımi xammal olan quyruq və piy satmaqdan imtina etdi.Başqaları da elə - Sabirə xammal satmadılar. Sabir Şamaxıda aclığa məhkum edilmişdi. Bir gün hamamçı da onu hamama buraxmadı. Qaragüruhun intiqamı ağır oldu.

"Molla Nəsrəddin" jurnalında Şamaxı qazısı Hacı Məcid Əfəndinin köhnə və yeni hərəmi ilə necə rəftar etməsi haqda karikatura çıxmışdı. Xalq bu karikaturada Sabiri günahkar bildi. Hər nə qədər Sabir karikaturanı özü çəkmədiyini desə də, qulaq asan olmadı. Sonda Hacı Məcid Əfəndinin özü işə qarışdı, Sabiri günahsız elan etdi. Bundan sonra Şamaxı ilə bağlı başqa bir karikatura çıxdı. Bu, Sabirin atası Zeynalabdini şiəliyə qəbul etmiş Ağa Seyidəli ağanın karikaturası idi.

Bu karikaturanı da Sabirdən bildilər, qaragüruh ayağa qalxdı. Qızının əri də onlara qoşuldu. Sabirin üstünə silah çəkdi. Sabir qorxudan bihuş olub yerə yıxıldı, bir neçə gün xəstə yatdı. Şamaxıda yaşamaq üçün bütün imkanlar tükənmişdi.

Arvadı Badamxanımı da Sabiri bu günlərdə tək qoyur. Seyid Hüseyn yazırdı: Badamxanım deyirdi ki, ərim "xərifləyib".

Sabirin doğmaca anasının belə Badama - "Niyə oturmusan, get ondan boşan, sən şərən azadsan, o, babıdır, mən də südümü ona halal etməyəcəm" dediyini qızı Səriyyə xatirələrində yazırdı. 6 əsr bundan əvvəl böyük Azərbaycan şairi Xaqani də Şamaxını tərk edib getmişdi. Sabir də bu yolu tutacaqdı, qərar vermişdi artıq. Sabir sabun bişirməyin daşını atdı və oturub bir məktub yazdı.

## *Bakı günləri*

Məktub Sabirin sinif yoldaşı, məşhur inqilabçı Sultan Məcid Qənizadəyə idi:

"Daha taqətim, təb və səbrim başa gəlibdir. Qardaşlarının əlindəki Yusif kimi əsir qalmışam. Birisi şillə ilə üzümə vurur, o birisinin məhəbbət ağuşuna atılmaq istəyəndə, o da yumruqla başımdan vurur, bu biri tərəfə gedəndə o da yumruğu başıma zollayır. Ondan azad olub başqasıyla dost olduqda döşümdən itələyir, ağzımdan vurur, ona dal çevirəndə digəri dalımdan vurur, ağzı üstə yıxılıram. Bir daha Şamaxıda qalmağa tabım qalmayıb. Bir nəfər də havadarım və qəmxarım yoxdur, yenə Sizə ümidvar olub sizə dərd-sər verməyə cəsarət edirəm.

Acizanə xahiş edirəm, mənim burda katorqa cəzasına məhkum olub qalmağıma razı olmayasınız. Lütf və mərhəmət əlinizi mən tərəfə uzadıb, məni bu cəhənnəmdən xilas edəsiniz".

Sultan Məcid məktubu oxuyub ağladı. Firudin bəy Köçərlini çağırıb, məktubu ona da oxudu, bir yerdə çarə axtarmağa başladılar. Sultan Məcid Qori seminariyasının Azərbaycan şöbəsində inspektor idi. Firudin bəy Köçərli isə seminariyanın Azərbaycan dili müəllimi idi. Amma Sultan Məcid Bakı və Dağıstan məktəbləri inspektorluğuna keçməliydi.

Dostlar bir neçə dəqiqəyə Sabirin qurtuluş planını hazırladılar. Firudin bəy Qoridə inspektor olacaq, onun yerinə azərbaycan dili müəllimi Sabir təyin edilməliydi. Lakin plan suya düşdü, Firudin bəyi ali təhsili olmadığı üçün inspektor vəzifəsinə təyin etmədilər. Amma Sabir Bakıda imtahan verib Zaqafqaziya şeyxülislamından müəllimlik şəhadətnaməsi aldı.Əfsus,Qoridə işi alınmadı, Sabir də naəlac qalıb Şamaxıya qayıtdı və orda "Ümid" adlı məktəb açıb müəllimliyə başladı. Sonralar yazıçı olmuş, repressiya zamanı güllələnmiş Hacıbaba Nəzərli Şamaxıda, "Ümid" məktəbində Sabirin tələbəsi olmuşdu. Sonralar xatirələrində yazırdı:

"Bir gün Sabir çox qəmgin və müztərib idi. Onun haləti-ruhiyyəsi hamımıza təsir etməmiş deyildi. Biz fars dili dərsi keçəcəkdik. Sədinin "Gülüstan"ını açdıq. Sinif başçısı uşaqların siyahısını oxudu. Tağı Abuzəroğlu adı gələndə heç kim cavab vermədi. Sabir başçıya dedi:"Onu dəftərdən pozun, gəlməyəcək".

Sabirin səsində dərin bir yas və ələm vardı. Əlavə etdi: "O gəlməyəcək. Onu qardaşları məktəbdən çıxarıb işə göndərmişlər. O başmaqçı şagirdliyinə gedir.

Tağı on beş yaşlı çalışqan bir şagird idi. On gün əvvəl atası ölmüşdü"

Qardaşı ziyalı şəxs olan, Sabirlə, Abbas Səhhətlə dostluq edən Hacıbaba Nəzərli hələ Sabirin tələbəsi ikən mətbuata böyük maraq göstərir, "Molla Nəsrəddin"də Hop - hop imzalı şeirləri böyük həvəslə oxuyur, özü də şeir yazmağa meyl edirdi.

Bir müddət sonra "Molla Nəsrəddin" jurnalından Hop-hop imzası yox oldu, onun yerinə Əbünəsr Şeybaninin eyni səpkili şeirləri görünməyə başladı. Gənc şagird və şair Şeybaninin kimliyini tapmağı özünə dərd etmişdi. Bir gün Abbas

Səhhət və Sabir onlara qonaq gəldilər, Sabir bir şeir oxudu, bir həftə sonra həmin şeir jurnalda çıxanda Hacıbaba Əbunəsr Şeybaninin müəllimi Sabir olduğunu bildi.

Sabahısı gün dörd misra şeir yazıb Sabirin müəllim stoluna qoydu. Sabir stolda oturanda şeiri gördü və yavaşca oxudu:

***Qorxdu, dönübən oldu***
***Şeybani bizim Hop -hop.***
***Axır ki, dağıdacaq***
***Şirvanı bizim Hop -hop.***

Həmin gündən sonra Sabir bir şair kimi Hacıbabanın üzərində işləməyə başladı. Bəli, Sabir yazdığı şeirləri şagirdlərindən belə gizlədirdi; zəmanə belə zəmanə idi... Bir müddət sonra Bakı və Dağıstan məktəblərinin inspektoru Sultan Məcid onu Balaxanı məktəbinə müəllim təyin etdi.

Bakı kəndində müəllim işləyən Sabir mətbuatla da fəal əməkdaşlığa başladı; “Səda” qəzetini korrektoru idi, eyni zamanda “Həqiqət”, “Günəş”, “Zənbur”la əməkdaşlıq edir, “Molla Nəsrəddin”ə də yazırdı. Axşamlar məktəbdə yaşlılara pulsuz əlifba öyrədirdi. İki yerdə də xüsusi dərs verirdi. Artıq xəstəydi Sabir, Şamaxıya qayıtmalıydı. Balaxanının mazutlu havası onun sağlamlığına düşmən kəsilmişdi. Mirzə Cəlil və Həmidə xanım onu Tiflisə çağırırdı.

## *Tiflis günləri*

Bakıda 3 ay müalicə (1910 - cu il, sentyabr-noyabr) olunsa da xeyri olmadı. Həmidə xanımın göndərdiyi pulla Tiflisə yola düşdü. 1910- cu il fevralın 1 - də mehmanxanaya düşsə də, Ömər Faiq dərhal onu “Molla Nəsrəddin”in redaksiyasına gətirir. Sabir həmin vaxt Qarabağda olan Cəlil Məmmədquluzadənin kabinetində yatır.

O dövrdə jurnalın müvəqqəti redaktoru olan Məmmədəli Sidqiyə məktub yazan Cəlil Məmmədquluzadə Sabiri ən yaxşı həkimlərə göstərməyi və pul əsirgəməməyi ondan xahiş edir.

O dövrdə “Molla Nəsrəddin” jurnalında bir neçə uşaq vardı. Kim idi o uşaqlar?

Münəvvər; Cəlil Məmmədquluzadənin birinci arvadından olan qızı Həlimə; Əhməd Pepinov; Ömər Faiqin bacısı oğlu (1937-ci ildə güllələndi);

Əziz Şərif - Mirzə Cəlilin, eləcə də Sabirin yaxın dostu Qurbanəli Şərifzadənin oğlu;

Əbil - Mirzə Cəlilin vəfat etmiş bacısının oğlu;

Manya Dobrodeyeva - Həmidə xanımın xidmətçisinin qızı.

Hamısı “Molla Nəsrəddin”in ikimərtəbəli redaksiyasında yaşayırdı. Cəlil Məmmədquluzadənin himayəsi ilə təhsil alan bu uşaqlar bazar günü “Molla Nəsrəddin” jurnalının bütöv şəkildə çap edilmiş səhifələrini qatlayır və üzərinə abunəçilərin ünvanlarını yazırdılar. Şeirlərini sevə-sevə oxuduqları Sabirin Tiflisə gəlməsi onlar üçün bayram idi.

Şairin ölümünə az qaldığını böyüklərdən eşidən bu uşaqlar arabir xəlvətə çəkilib ağlayırdılar. Sabirə qulluq etməkdən ötrü əldən-ayaqdan gedirdilər. Biri paltosunu tutur, o biri ayaqqabılarını gətirirdi. Sabir su istəyəndə beşi də mətbəxə qaçırdı. Sabir ona qarşı göstərilən bu hörmətdən sıxılırdı. Yazıq Sabir ömrünün ən gözəl günlərini yaşayırdı. Xəstə olduğu üçün gecələr uşaqlardan yaşca hamısından böyük olan Əhməd onun yanında qalırdı.

Əziz Şərif yazır ki, Sabir gecələr “Səriyyə, Səriyyə” deyib sayıqlayırmış. Səriyyə Sabirin qızı idi.

Əziz Şərif bir yeniyetmə müşahidəsi ilə yazır: “Sabirin simasında daim hüznlü bir gülüş, qəmgin bir təbəssüm oynayardı”.

Əziz Şərifin atası Qurbanəli Şərifzadə Sabirə yazdığı məktubunda Əziz Şərifin yazılarının oxuyub ona məsləhət verməsini xahiş edirdi. Əziz Şərif sonralar Moskva Dövlət Universitetinin professoru olacaqdı.

Sabir Tiflisin bütün məşhur həkimlərinə göstərildi. Reseptlər yazıldı, müalicələr edildi, amma effekt vermədi. Onun üçün konsilium təyin edildi, vəziyyəti ümidsiz idi. Bəzi həkimlər son çarə kimi əməliyyat olunmasını təklif edirdilər. Bir çoxu isə əməliyyatın da səmərə verməyəcəyini deyirdi. Sabir də əməliyyata qarşı idi: “Mənim qarnım sandıq deyil ki, açıb bağlayasınız”. Bir müddət xəstəxanada da yatdı, əlac olmadı. Sirroz son mərhələdə idi, ölümün nəfəsini duyurdu Sabir. Tezliklə Cəlil Məmmədquluzadə də Tiflisə qayıtdı. Onların görüşləri, söhbətləri haqda heç nə yazılmayıb. Bircə müalicəsi nəticəsiz qalan şairi 1911-ci ilin martında vağzaldan Şamaxıya yola salındığı yazılıb.

Cəlil Məmmədquluzadə dostunun öləcəyini bilirdi. Sabir də Əzrayılın gəlişindən xəbərdar idi. 4 ay sonra Abbas Səhhət Molla Nəsrəddin redaksiyasına belə bir teleqram göndərdi: “İyulun 12 - də Sabir vəfat etdi”.

Cənazə namazını Mir Mehdi Ağa qılmalıydı, amma tərəddüd edirdi. Gənclər səslərini qaldırdılar, ara qarışdı. Mir Mehdi Ağa namaza başladı.

Mirzə Cəlil üçün ölüm xəbəri gözlənilən olsa belə, bir neçə gün özünə gələ bilmədi. Hətta bir müddət jurnalı bağladı. Təkcə onun yox, redaksiya kollektivinin də əli işə yatmırdı.

On il sonra Sabirə heykəl ucaldıldı.

Mirzə Cəlili bu mərasimə dəvət etməyəcəklər, dostuna heykəl qoyulduğunu qəzetlərdən oxuyacaq.

## *Böyük Azərbaycan tıxacı*

Bəşər zəkasının tıxandığı dövrlər vardır. Hər bir düha sahibi dövrünün bütün problemlərini öz baxış bucağından şərh etməyə çalışır. Bu zirvəyə çatmaq imkansız olduğu kimi bu düşüncələri dəyişdirmək də imkansızdır. Bunun üçün də dühalar gərəkdir.

Sabirin poeziyadakı yeri barədə danışmaq üçün əvvəlcə Sabirin əsrdaşı Marksı xatırlayacağıq. Marksın gəncliyində elm və fəlsəfə dünyası Hegelin sehrində idi. Hegel özünə qədər olan elm və fəlsəfəni ümumiləşdirib, mükəmməl fəlsəfi sistem yaratmışdı. Marksın da daxil olduğu həyəcanlı gənclər bu sistemlə razı deyildilər, çünki Hegel, ümumiyyətlə, sistemə qarşı mülayim idi. Prussiya monarxiyasını (Hegel bu ölkənin vətəndaşı idi) ictimai inkişafın ən yüksək mərhələsi sayırdı. Üstəlik, təlimi də idealist təlim idi. Hegel kainatı maddiləşmiş ideya sayırdı.

Gənclər isə materialist idilər. Bütün düşüncələri Hegelə zidd idi. Marks üçün fəlsəfə əzilənlərin qurtuluşunu təmin edəcək ideologiyaya çevrilməliydi. Lakin o bu qurtuluşun icazəsiz beş-altı aksiya ilə gerçəkləşdiriləcəyinə inanmırdı. Xilasın fəlsəfəsi yaranmalıydı. Bu fəlsəfənin də açarı Hegelin cibindəydi. Hegelin dialektikası onlara lazım idi. Buna görə də Marks sonralar məşhur olan fikrini dedi: “Hegelin dialektikası başı üstündəydi, biz onu ayaqları üstə qoyduq”.

Hegelin sistemi mahiyyəti üzrə dəyişildi. Yeni “Hegel” artıq materialist idi, Prussiya monarxiyasını da, digər bütün dövlətləri də hakim siniflərin məzlumlar üzərində istismar aləti kimi görürdü, şüur varlığın mənəviləşmiş formasına çevrilmişdi.

Bəşəriyyətin tıxacı bu cür açılmışdı.

Füzulidən sonra Azərbaycan ədəbiyyatında da bir tıxac vardı və bu tıxac mütləq açılmalıydı. Gəlin, bir anlıq Füzulidən əvvəlki şairlərimizi xatırlayaq: Xətai, Nəsimi, Nizami, Xaqani... İndi də gəlin Füzulidən sonrakıları anaq... Aşıq

şeirində şəxsiyyətlər yetişmişdi, lakin yazılı ədəbiyyatda bir durğunluq vardı. 400 illik durğunluqdur bu. Və bu durğunluğu, bəlkə də, ilk dərk edən Sabir oldu.

Ömrü boyu cəmi bircə müsahibə vermişdi. Salman Mümtazın götürdüyü o müsahibədən bir parçanı oxuyaq:

“Əruz bizim deyildir. Bunu hamı bilir. Lakin 13 əsrdir ədəbiyyatımızı mühasirəyə almışdır. Bu mühasirə də böyük-böyük ustadların planı, nəqşəsi və əlləri ilə olmuşdur. Bu mühasirəni yarıb ədəbiyyatımızı xilas etmək, yenə yuxarıdakı ustadlar kimi böyük ustadların əlləri ilə mümkün olacaqdır”. Nə gözəl!

Sabir sonra konkret hədəf də göstərmişdi: “Dörd yüz ildən bəridir Füzulinin şeirlərinin şöhrəti bütün Şərqi qaplamışdır. Hamı o şeirləri əzbərdən bilir və istədiyi zaman sevə-sevə oxuyur. Halbuki, bu şeirlər başdan - başa əruz bəhrlərində yazılmışdır. Sədinin, Hafizin qəzəllərinin qabağına ancaq qəzəl ilə çıxmaq olardı ki, Füzuli bunu duymuş və onların nüfuzlarını qırmışdır”...”Mən Füzulinin “Divan”ına, Füzuli qəzəllərinə başdan - başa nəzirə yazmaq fikrindəyəm. Yəni o formada və o bəhrlərdə olmaq şərti ilə, yeni-yeni mövzularda qəzəllər yazacağam”.

Sabir problemi də, həll yolunu da düzgün seçmişdi. Mirzə Cəlilin də yazdığına baxaq: “Füzuli “Molla Nəsrəddin”in birinci nömrəsindən başlayıb bu günə qədər məcmuəmizdə iştirak etmiş və şeirlər yazmışdır. İnanmırsınız, götürün “Molla Nəsrəddin” məcmuəsinin iyirmi illiyini, tökün qarşınıza, hansı şeirə baxsanız, görəcəksiniz ki, orda Füzulidən bir duz var.

Bizim şairlər şeir yazanda Füzuli gəlib durur gözlərinin qabağında, deyir ki, ölsən də mənim təsirimdən çıxa bilməyəcəksən. Molladan yazmaq istəsən, yazmışam, varlıdan yazmaq istəsən, yazmışam, rüşvətxordan yazmışam, bu gün get, sabah gəldən, yəni “zavtra-zavtradan” yazmışam. Müxtəsər, hər şeyi əhatə etmişəm. Füzuli azərbaycanlıdır. Onun ədəbi məktəbi bütün şairlərin başına girib, bütün əsərlərində bir füzuli ruhu görünməkdədir. Füzuli diridir”.s

Mirzə Cəlil Füzulinin hər şeyi yazdığını deyəndə, şübhəsiz ki, ifrata varırdı. Söz yox ki, Füzuli Mirzə Cəlil deyən mətləbləri yazmışdı, lakin Füzulinin bu məsələlərə baxış bucağı sufi dünyagörüşündən qaynaqlanırdı və Mirzə Cəlilin təmsil etdiyi maarifçilik ideyalarına yabançıydı. Füzulinin zamanında dünyada maarifçilik hərəkatı doğulmamışdı. Mirzə Cəlilin ustad kimi qəbul etdiyi Mirzə Fətəli də Füzulini inkar etməklə Azərbaycan ədəbiyyatı tarixində ən böyük inkara imza atmışdı. Amma, doğrudan da, hər şairdə “Füzulidən bir duz” vardı. Sabirin “sabun”u da duza batmışdı.

Füzulinin Sabir yaradıcılığına təsiri çox böyük idi. Sabirin yaradıcılığının birinci hissəsində Füzuli mühüm yer tuturdu. Lakin onun Füzuliyə münasibəti epiqonçuluqdan, təkrarçılıqdan irəli getmirdi. Seyid Hüseynin də yazdığı kimi, Sabir o dövrdə qəzəl yazmaqda Seyid Əzimdən, mərsiyələrində isə digər şairlərdən geri qalırdı. Lakin 1905-ci ildən sonra onun yaradıcılığında kəskin dönüş baş verdi. Bu dönüşdə də Füzuli Sabirlə bir yerdəydi.

Füzulinin aşiqanə qəzəlləri Sabirin şeirlərində satirik bir dona bürünürdü. Sabir Füzulinin forma və ifadələrindən bacarıqla istifadə edirdi. Hegeldən Marks doğulduğu kimi, Füzulidən də Sabir doğulurdu. Marks Hegelin “başı üstə olan dialektikasını” ayaqları üstə çevirdiyi kimi, Sabir də Füzulinin aşiqanə qəzəllərindən maarifçilik manifestləri yaradırdı.

Misal üçün, Füzilinin məşhur “Can vermə qəmu eşqə ki, eşq afəti candır” misrasını Sabir belə yazırdı: “Təhsili-ülum etmə ki, elm afəti candır”. Məcnunun atasının Məcnuna səhrada verdiyi məsləhətlər Sabirdə oğlunun elm oxuyan cahil atanın narahatlıqlarına çevrilirdi. Füzulinin “atası” eşqdən, Sabirin “atası” isə elmdən narahat idi.

Bu cür misalların sayını artırmaq olar. Sabirin ən yaxın dostu Abbas Səhhət bu dönüş haqqında yazırdı: “Sabir köhnə şeirləri ilə yeni şeirləri arasında bir

əsrlik qədər uçurum açdı ki, bir daha geri dönüb o uçurumdan atılmağa kimsədə cürət qalmadı".

Sabirin ilk mətbu şeiri 1903-cü ildə "Şərqi Rus" qəzetində çıxdı. Şeir "Şərqi-Rus" qəzetinin nəşrə başlaması münasibətilə idi və heç kimin diqqətini cəlb etmədi. İki il sonra , 1905-ci ildə şairin "Beynəlminəl" şeiri "Həyat" qəzetində çap edildi və bu şeir dərhal rezonans doğurdu. Şeir erməni-müsəlman davası haqdaydı, Sabir bu ədavəti "məlun İblisin fitnəsi" adlandırırdı. Və sonra "Molla Nəsrəddin" jurnalında fəaliyyəti başladı. Bu zaman Sabirin 43 yaşı vardı. Sabirin əsas kitabı "Hophopnamə"də toplanmış şeirləri cəmi 6 ildə yazdığı şeirlərdir. Cəmi 6 ilə şair Azərbaycan ədəbiyyatını böyük bir tıxacdan xilas etmiş və ona yeni istiqamət vermişdi.

## *Seyid Əzim aqibətindən xilas*

Belə bir şayiə gəzir: "Sabirin "Hop-hopnamə"sini ermənilər çap edib, Sabirin "Harda müsəlman görürəm, qorxuram" şeirinə görə".

Sağlığında kitabını görmək Sabirə qismət olmadı. Bu barədə Seyid Hüseynin xatirələrində oxuyuruq.

Seyid Hüseyn bir gün Sabirin, qolunda qovluq, onun yanına gəldiyini deyir. Şair Seyid Hüseyndən xahiş edir ki, qovluqdakı şeirlərə baxsın, bu şeirlərdən ibarət olan kitabın qiymətini şairə desin. Seyid Hüseyn kitabın qiymətini 400 manatdan artıq bir məbləğ hesablayır. Amma Sabirə 300 manat deyir. Sabirin isə bu qədər pulu olmur.

Bu pulu toplamaq üçün onun əqidə dostları çox əziyyət çəkəcəkdilər...

Sabirin kitabının çapı üçün toplanılan ianələrin tarixini yazaq. Bələdçimiz Abbas Zamanovun "Sabir və müasirləri" kitabıdır.

Dostlarının bütün cəhdlərinə baxmayaraq, 1911-ci ilin 12 iyulunda şair vəfat etdi. Onun ölümü münasibəti ilə mətbuatda xeyli məqalə çap edildi. Müəlliflər bir ağızdan Sabirin kitabının çıxması zərurətindən danışırdılar. Pul isə yox idi. Onu toplamaq üçün ianəyə başlandı. Xalqa çağırışlarda "Kaspi", "Yeni İrşad" qəzeti fəallıq edirdi. Hətta rusdilli "Bakı" qəzeti də aksiyaya qoşulmuşdu.

Bu çağırışlara ilk səs verən bir qadın oldu: Sara xanım Vəzirzadə. II Qız məktəbinin direktoru olan bu xanım məşhur dramaturq Nəcəf bəy Vəzirovun qızı idi. O, öz maaşından beş manat Sabir üçün verdi.

Azərbaycanda qız məktəbinin açılmasını həmişə fəxrlə Hacı Zeynalabdinin adına yazırlar. Bu doğrudur, ancaq Hacı bu dəfə əlini cibinə salmadı. Uzun müddət kassada cəmi beş manat oldu: Sara xanımın beş manatı.

Qəzetlər dalbadal çağırışlar edirdi. Bakı milyonçularından səs çıxmırdı. Çağırış məqalələrinin tonu da müxtəlif idi: Kimi sərt yazırdı, kimi isə xahiş edirdi, kimi də izah. Getdikcə ton sərtləşirdi, amma pul gəlmirdi. Uzun müddət bu çağırışlar cavabsız qaldı. Tezliklə məktəblər üçün 3 dərslik çap edildi. Dərslik müəllifləri öz qonorarlarından 15 manat Sabirin kitabı üçün ayırdılar.

Yeddi müəllif arasında üç yazıçı vardı: Süleyman Sani Axundov, Abbas Səhhət və Abdulla Şaiq. 1911-ci il başa çatanda cəmi 20 manat pul vardı. Sabirin ildönümünə qədər kitabı çap etdirmək arzusunda idilər. 1912-ci ilin əvvəlində Abdulla Şaiq "Nicat" qəzetində bir məqalə yazdı. Həmin məqalədə yenə çağırış notları vardı. Məqalənin bir məqamı dövrün məşhur mollanəsrəddinçi şairi Əliqulu Qəmküsarın eyni problem ətrafında yazdığı məqalənin ana fikri ilə səsləşirdi. Belə ki, Şaiq "sərvət sahiblərinə" ümid olmamağı, bu cür böyük bir işin xalqın dəstəyi ilə görülməsinin vacibliyini yazırdı. Haqlı idilər.

İndi keçirik erməni puluna. Dilican (Qərbi Azərbaycanda yerləşir) o zamanlar sevimli istirahət yerlərindən biri idi. Müəllimlər, adətən, burda istirahət edirdilər. O zamanın böyük yaradıcılıq enerjisi, tükənməz entuziazmı

ilə seçilən müəllimləri tətil vaxtı müxtəlif əsərləri tamaşaya qoyaraq özləri də oynayar, yığılan pulu xeyriyyə məqsədləri üçün istifadə edərdilər. Bu bir ənənə idi.

1920-ci il iyulun 20 - də azərbaycanlı və erməni müəllimlər Sabirin kitabı üçün iki əsəri tamaşaya qoyub oynadılar. Tamaşaya qoyulan əsərlərin ilki erməni dramaturqu Qabriyel Sundukyanın "Axşamın səbri xeyir olar" adlı dramı idi. Dramı məşhur inqilabçı və müəllim Sultan Məcid Qənizadə təbdil etmişdi. Bayaq da yazdıq, Sultan Məcid Sabirin sinif yoldaşı idi. Tamaşaya qoyulan ikinci dram əsəri isə, Vasaq Mədətov Nəzminin "Qırt-qırt" dramı idi. Tamaşada rolları Azərbaycanlı müəllimlər və Tiflisdəki erməni truppasının üzvləri olan bir aktyor və bir aktrisa oynamışdı. Truppa üzvləri çıxışlarına görə qonorar da almışdılar. Tamaşalardan sonra isə şagirdlərin ifasında Sabirin şeirləri dinlənilmişdi. Bu barədə Bakı, Tiflis və İrəvan mətbuatında çoxlu məqalələr dərc edilmişdi. Lakin heç bir qəzetdə ermənilərin xalqımızı tənqid etdiyinə görə pul verməsi haqqında bir məlumat yoxdur. Elə olsaydı, Sabirə son dərəcə sədaqətli olan dostları bu yardımı qəbul etməzdi.

Tamaşada ianə də toplandı. İanə verənlərin əksəri azərbaycanlı müəllimlər idi: Qiyasbəyov, Kərbəlayev, Yeqanov, Tumanyans. Kalantarov-5 manat; Arutyunov, vəkil Xocayev, həkim Məliknubarov, Paralov, Axundov, Muradov, Dilbazov, Qiyasbəyov-3 manat və Oqanov 2 manat 50 qəpik. İanə və tamaşalardan bir yerdə 179 manat 75 qəpik toplandı. Teatr salonuna, musiqiçilərə, aktyorlara və başqa xərclər çıxılandan sonra, 98 manat 19 qəpik "Kaspi" qəzetinə göndərildi.

Beləliklə, yığılan məbləğ 120 manata çatdı. Hələ çox pul lazım idi. Sabirin ildönümünə qədər kitabı çap etmək arzusu baş tutmadı. Çağırışlar isə davam edirdi. Sentyabr ayında "Kaspi "qəzetində bir Şamaxı dövlətlisinin yardım vədi haqqında yazıldı. Sonrakı xəbərdə isə naşirlərin sərəncamında 200 manat olması barədə məlumat vardı. Kitab üçün isə 500 manata yaxın pul lazım idi. Buna görə naşirlər Sabirin əsərlərinin bir hissəsini çap etmək qərarına gəldilər. Külliyatı çap etmək üçün pul heç cür yığılmayacaqdı. 1912-ci ildə kitab çap edildi. Kitabda Sabirin 110 satirası yerləşdirilmişdi.

Kitabın əvvəlində Mahmudbəyovun kiçik müqəddiməsi, Sabirin Abbas Səhhət tərəfindən yazılmış kiçik tərcümeyi-halı verilmişdi. Bəli, "Hop-hopnamə" ilk dəfə məhz bu vəziyyətdə çapdan çıxıb.

Pulun kiçik bir hissəsini ermənilərin verməyi doğrudur. Lakin kitabı ermənilərin çıxartdığı yalandır...

...Urapatriotlar Sabir kimi gerçəyi xalqın üzünə deyən həqiqətpərəstləri sevməzlər. Hətta həqiqətpərəstlərin ölümündən yüz il keçsə də, yalancı millət qəhrəmanları ona ləkə atmaq üçün fürsət axtararlar.

Necə demişdi böyük Nazim:

***"Vatan çiftliklerinizse,***
***Kasalarınızın ve çek defterinizdiklerin İçindediklerse vatan***
***Evet, ben bir vatan hainiyim".***
***Urapatriotlar üçün Sabir vətən xainidir!!!***

* * *

Ölüm yatağında Sabir Hacı İbrahim Qasımova demişdi: "Mən nə bədənimin əriməsinə, nə də ürəyimin şişməsinə acımıram. Lakin nigaranlığıma acıyıram. Millətdən nigaran gedirəm. Hər nə isə, olacağa çarə yox. Əlimizdən nə gəlir..."

Əlindən gələni də etmişdi, gəlməyini də...

*Aleksandr KERDAN*



# MUNDİR

◆ *Hekayə*

Əmrləri ucadan oxuyub tabeliyindəki hərbi qulluqçulara çatdırmaq üçün dairə rabitə alayının ştab rəisi mayor Anatoli Borisoviç Tixonov günün axırında zabitləri bir yerə topladı. Və elə birinci əmr - «Şpitsruten» ayaması ilə tanınan qarnizon rəisi - general-leytenant Çelubeyevin əmri yalnız zala toplaşan zabit heyətini yox, iclasdan əvvəl əmrlərlə tanış olmağa macal tapmamış Anatoli Borisoviçin özünü də çaşdırdı.

General - leytenant Çelubeyev - bu «Şpitsruten» əmrlə tövsiyə edirdi ki, (bəli-əmrlə tövsiyyə!-Necədir sizinçün) zabitlər xidmət yerinə mülki libasda gəlməli və yaşadıqları yerə də mülki paltarda qayıtmalıdılar.

Anatoli Borisoviç zabit kimi xidmət etdiyi illər ərzində libasla bağlı cürbəcür əmrlər görmüşdü. Hətta, məzuniyyətdə olanda belə mövcud qaydalara uyğun olaraq zabitlər parad mundirində gəzəndə o, cavan bir leytenant idi. Sonra bunun tam əksinə zabitlərin hərbi libasda, cürbəcür şənliklərə, restoranlara, konsertə, teatra getməsini yasaq eləyən əmr çıxdı.

Bu yaxınlarda isə ordu generalı SSRİ-nin yeni müdafiə naziri vəzifəsinə başlayan gün belə bir əmr verdi: «Ordunun və hərbi donanmanın bütün zabitləri istisnasız olaraq nizami libasa keçsin»,- yəni evdən çıxanda kitel, qalife şalvar, sapoq geyinsin, aşırmalı qayış taxsın… Generalın nazir postuna təyinatının ilk günündə bütün ölkə ərazisində, anomal istilər başlandığını yada salsaq, onun tabeliyində olanların-xüsusən də heç vaxt ayağında sapoq sürüməyən zabitlərin-aviatorların, dənizçilərin, hərbi məktəblərin təlimçilərin, hərbi institut əməkdaşlarının bu yeni nazir haqqında nə qənaətə gəldiklərini təsəvvür etmək olar… Elə həmin gün nazirə «Sapoq» ayaması yapışdırdılar və ertəsi gün generalın müharibədə yaralandığını və ümumiyyətlə, pis adam olmadığını, hətta, nə qədər təəccüblü olsa da, çoxlu şeir bildiyini eşitsələr də, bu heç nəyi - o cümlədən nazirin ayamasını dəyişmədi.

Lakin «Sapoq» başqa bir şeydi, «Şpitsruten» tamam ayrı bir şey. «Şpitsruten» - çar ordusunda soldatları döymək üçün istifadə olunan çubuqdu. Çelubeyevin söz üçün cibə girməyi var, pardon, cibə yox, aşırmalı qayışının altına, bir sözlə, ağızdan pərtovdu, söz üçün sürünməz, əksinə, sözünü ağzında kəsər. Nə isə.. zəng vurur telefon şəbəkəsinə:

-Danışan general Çelubeyevdir. Ay qız, mənə alay komandirini verin!

Şəbəkədəki növbətçi başda oturanla aşağıda oturanı birləşdirməyə tərslik etməsə də, qərara alır ki, o da öz kimliyini qoysun ortaya.

-Mən, yoldaş general, - alay komandirini sizə vermirəm, sizinlə birləşdirirəm!

Çelubeyev telefonçu qızın bu atmacasını saya salmadan başlayır alay komandiri ilə danışmağa.

O tərəfdən, daha doğrusu, telefonçu qız soruşur:

-Yoldaş general, qurtardınızmı?

Çelubeyev dərhal cavab verir:

- Qurtardım. Artıq düymələrimi bağlayıram.

Daha bir hadisə: Çelubeyev dairə layihə institutunun tikinti idarəsinə gəlir və dərhal da səsini atır başına:

-Bura Tulanın meşə təsərrüfatıdı, hərbi hissə yox!

İnstitut rəhbəri, təbii olaraq, gözünü bərəldir və çoxdan yadırğadığı nizami görkəmini bərpa etməyə çalışır.

-Yoldaş general, mən sizi başa düşmədim!

Və Çelubeyev əlüstü onu alçaldır:

- Burda başa düşülməyən nə var ki? Demək burda rəis yoxdu, rəis yerində oturan kötükdü, demək burda müavin yoxdu, o postu tutan köpükdü, demək, burda katibə yoxdu, o vəzifəni tutan giləmeyvədi!

Qarnizon rəisinin belə söz «incilərini» saymaqla qurtarmaq olmaz.

Son əmri isə bütün «inciləri» üstələdi. Anatoli Borisoviç hətta əmri ucadan bir də oxudu və öz-özünə dedi:

-Görünür, mülki şəxslərin zabit heyətinə hücumu, zabitlərin və praporşiklərin təhqir olunub alçaldılması, onların geyiminin məsxərəyə qoyulması naziri belə bir əmr verməyə vadar edib: hərbi xidmətçilər işə gedib-gəlməlidirlər!

Anatoli Borisoviç özü bu əmrdən bir şey başa düşməsə də salona göz gəzdirdi və soruşdu:

-Yoldaş zabitlər, əmri hamılıqla anladınızmı?

İclas zalından pərakəndə səslər yüksəldi:

-Elədir ki var!

Bəli, məhz pərakəndə. Amma bunu rabitəçilərə bağışlamaq olar. Onların bir-birinə münasibəti, digər ordu birləşmələri ilə müqayisədə, daha demokratikdi, axı, necə olsa, onlar hərbi elita sayılırlar; mühəndislər, düşünən başlardılar.

Bununla belə, gərək pişik siçanları mürgüləməyə qoymasın. Anatoli Borisoviç artıq on ilə yaxındır ki, ştab rəisidir və yaxşı bilir ki, şəxsi heyətə-xüsusən elita deyilən düşünən başlara sərbəstlik vermək olmaz.

-Anlamadım… -Anatoli Borisoviç kükrədi, - yoldaş zabitlər, bəyəm rəisin sualına belə cavab verərlər? Başlayaq Daxili xidmət Nizamnaməsi üzrə zaçota!

-Zaçot lazım deyil, yoldaş podpolkovnik! -Şöbə rəisi olan kapitanlardan biri səsini qaldırdı, -xahiş edirik, lazım deyil…

«Napoleon» kimi tösmərək boy-buxunlu Anatoli Borisoviç tabeliyində olanlara üstən aşağı, alçaldıcı nəzərlərlə baxdı və gözlərini bərəldib üzünü zalda əyləşənlərə tutdu:

-Yoldaş zabitlər, qarnizon rəisinin əmri sizə aydındımı?

Bu dəfə alayın zabitləri bir ağızdan-bir səslə cavab verdilər:

-Aydındı, yoldaş podpolkovnik.

-Onda azadsınız, - Anatoli Borisoviç ucadan söylədi, amma ona elə gəldi ki, bu azadlıqdan ona əsla pay düşmür, çünki qarnizon rəisinin hərbi libasla bağlı əmri onun qəlbinə vəlvələ salmışdı.

Anatoli Borisoviç hərbi geyim formasına, demək olar ki, səcdə eləyirdi; məhz bu forma haçansa onun taleyini müəyyənləşdirib, daha doğrusu, hərbi məktəbə daxil olanda və sonradan zabit karyerasına başlayanda xüsusi rol oynayıb. Bütün bu şevronlar, nişanlar, paqonlar, kəmərlər, qayışlar, sapoq parıltısı, ulduzlar, emblemlər, kokardalar, səliqə ilə tikilmiş kitel və şinel onun üçün sadəcə zahiri görkəmin atributu deyildi; keçmişin şanlı qələbələri ilə bağlı rəmzi məna daşıyırdı. Daha bir ümdə məsələni də niyə gizlədək ki, hərbi libas Anatoli Borisoviçin bütün varlığına rəng qatmışdı, bu tösmərək insanı sanki uca boylu bir kişiyə çevirmişdi, o bu libasda özünü güclü, qalib sayırdı, hamıdan hörmət umurdu.

Bəli, Anatoli Borisoviç hərbi libası sevir və onu dəyərləndirirdi. Onu bu forma ilə elə kövrək duyğular bağlayır ki, bunları sözə çevirmək heç də asan deyil. Məsələn, ovcunun içi ilə şinelin adamı yüngülcə dalayan xovuna toxunanda keçirdiyin yaşantıya nə ad verəsən və ya yağışdan, ilk qardan sonra şineldən gələn qoxudan necə danışasan?.. Arvadı Alla, hələ o zamanlar onlar evlənməmişdən xeyli qabaq, o, kursant kimi məzuniyyətə gələndə və qonşu məhlədən olan bu sadə qızla görüşəndə və onlar qarlı şəhərin küçələrində axşamacan veyillənəndə Allanın tez-tez burnunu onun şinelinin xovuna sürtməsi xoşuna gələrdi. Alla indi də hərdənbir burnunu onun zabit şinelinə toxunduraraq, ötən günləri xatırlayır. Özü də bilə-bilə ki, bu şinel başqa parçadan tikilib, xovsuzdu, yumşaqdı və bu şinellə də həyəcanlı anlar bağlıdı…

Birincisindən başlayaq. Buraxılışa iki ay qalmış ilk zabit libasının ölçülüb-biçilməsi. Sən hələ kursantsan, amma artıq mundir və şinel tikirlər və rota komandiri icarə verir ki, sən qarnizonun atelyesinə gedəsən. Orda - yeniyetməlik arzularının təcəssümü kimi, sən güzgüdə cavan leytenant görürsən, sənin sifətini boy-buxununu daşıyan bu leytenant; sanki daha sən deyilsən, bir başqasıdır və komandirlik haqqı ona töhfə verilib yalnız özü üçün yox, başqalarına görə də qərar qəbul etməlidir… və tələskən qoca dərzi səni əməlli-başlı gözdən keçirəndən sonra dilini işə salır.

-Gözəldi, çox gözəldi, cavan oğlan! Bizim qarnizonun bütün sovoçkiləri indi oldu sizinki, bəs nə bilmişdin, sizinki gətirir. Zay qazund! Çox xoşdu! Kaş indi mənim də iyirmi yaşım olaydı, bu paqonları mən gəzdirəydim...

Söhbət yalnız bu dərzidən getmir. Müharibədən sonrakı illərdə hərbi libasda olan insana sevgini hər qarışda sezilərdi. Hətta mağazaya də səni növbəsiz buraxırdılar, əlbəttə əgər tələsirsənsə… hər hansı bir təntənədə, bayramda sən ən sevilən qonaq idin, təlimlər zamanı şəhərlərin, qəsəbələrin küçələrindən keçəndə - xüsusən də hərbi texnika ilə - məmə yeyəndən pəpə yeyənə kimi hamı yola çıxırdı: kimisi sənə bir alma, ya bir peraşki vermək istəyirdi, kimi, kepkası, kimi dəsmalı ilə səni salamlayırdı. Məhlə uşaqları isə başlayırdılar əsgərlər kimi hərbi nizamla addımlamağa, sanki öz hərbi talelərini məşq edirdilər…

Bütün bunlar mühazirə zalından çıxıb kabinetinə sarı addımlayanda Anatoli Borisoviçin içində qövr elədi.

- Hələ sən bunun tövsiyəsinə bax,- o general Çelubeyevlə razılaşmadığını tamam tək qalanda, astadan dilinə gətirdi, -bundansa nömrəli silahımızı özümüzlə gəzdirməyə, şəxsi ləyaqəti, şərəfi qorumaq üçün istifadə etməyə hüquq verəydilər... Axı, müharibədən sonra belə idi… O zaman kimin nə hünəri vardı, zabiti təhqir etsin?!

İndi müharibədən sonrakı dövrlər deyil. Yenidənqurma və aşkarlıq zamanı idi. Və ordu haqqında nə qalmışdı yazmasınlar? Hələ gör bir kimlərdi ordunu yaş yuyub quru sərənlər? Guya bütün generallar xəzinə oğrusudu, gu-

ya bütün zabitlər əsgər əməyini mənimsəyənlərdi, səfehlərdi, heyvərələrdi, qanunsuz əlaqələri ört-basdır edənlərdi. Hələ harasıdı-guya dövlət nəhəng ordunu saxlamağa həddən artıq pul xərcləyir. Necə olur ki, adi mağazalarda yel vurub yengələr oynayır, amma hərbi dükanlarda əsl kommunizmdi, hətta quş südü də taparsan! Niyə onlara nömrəli silah verilməlidi; Casusluq edəndə yararlansınlar deyə?

Anatoli Borisoviç «casusluq» etməyə hazırlaşmırdı. Hərbi libasda gəzməkdən də heç zaman qorxmamışdı və indi də nəsə bir təhlükə olsa, özünü qoruya bilərdi, hər halda idman ustasıdı, döyüş sambosu üzrə ustalığa namizəddi. Qarnizon rəisinin sərəncamını da başa düşürdü; axı, bütün zabitlər özünü qorumaq iqtidarında deyil. Bu yaxınlarda bir yandan da Çelubeyev özü ona bir həftə ərzində zabitlərin döyülməsi ilə bağlı üç hadisə danışmışdı.

- Hətta hərbi patrullara da hücum eləyirlər. Bu günlərdə növbətçi əsgərin süngüsünü oğurlayıb, hələ, milis dəstəsi özünü yetirməsəymiş patrul rəisi isə pistolentindən keçməli olacaqmış! - Çelubeyev demişdi.

Bu söhbəti xatırlayan Anatoli Borisoviç köks ötürdü, şükür elədi lap arvad sayağı; nə yaxşı onun başına belə bir iş gəlməyib və qərara aldı ki, tabeliyində olanlara nümunə göstərsin. Balam, demirlər ki, işdən mundirdə çıxmayın, baş üstə, çıxmarıq. Xoşbəxtlikdən, işdə Yeni il şənliyi keçirərkən geydiyi gödəkçəni və kostyumu evə aparmamışdı və əslində buna səbəb şənliyin şirin yerində verilən həyəcan siqnalı idi. Dərhal mülki paltarı soyunub hərbi libası geyinməli olmuşdu ki, özünü ehtiyat komanda məntəqəsinə çatdırsın.

Nədənsə, ildə bir-iki kərə geydiyi bu yeganə kostyumunu evə aparmağa əli gəlməmişdi. Bu da nəticəsi; nəinki yaradı, lap yerinə düşdü.

Tapşırığı icra etməli olduğuna görə bir icraçı kimi özünü və sərəncamı verən Çelubeyevi, eyni zamanda ordudakı vəziyyəti ürəyində bəs deyincə yamanlayan Anatoli Borisoviç əynini dəyişdi və alay növbətçisinə son tapşırıqlarını verib darvazadan çıxdı.

Hər axşam olduğu kimi tramvayda basabas idi. Anatoli Borisoviç çətinliklə də olsa, özünü tramvayın arxa meydançasına sala bildi, di gəl bir şişman kişinin ayağını tapdaladı və elə o anda da bir dirsək zərbəsi aldı. Anatoli Borisoviç üz-gözünü turşutsa da, ona dirsək zərbəsi ilə cavab qaytarmadı, daha doğrusu özünü tələ aldı ki, kobudluq etməsin. Tramvayın qapısı örtülən dəqiqə susdular, axı, onlar artıq küçədə yox, tramvayın salonunda idilər, xoşbaxtcasına yol gedirdilər. Bir qədər rahat nəfəs almağa imkan tapanda başladılar çığır-bağıra.

-A kişi, Siz kimi itələyirsiz? Qab-qacaq dükanına girən fil kimi...

-Fil özünsən, bayaqdan tuflilərimi tapdalayırsan, inək!

-Sən mənə inək deyirsən?

-Ceyrana oxşamırsan, axı, bəs nə deyim?

Növbətçi «uaziklə» səhər işə, axşam evə getməyə macal tapmayanda, tramvaya minməli olanda belə dava-dalaşları Anatoli Borisoviç tez-tez dinləməli olurdu. Uralın bu gözdən uzaq yerində tramvay əhlindən bundan artıq nə eşidə bilərsən? Bu tramvayın sərnişinləri bir qayda olaraq qara fəhlələr, satıcı arvadlar, nadir hallarda da bir neçə dalaşqan ziyalı olurdu.

Məhz qarnizon rəisinin tövsiyyəsinə əməl etməyə macal tapmayan belə ziyalı hərbçilərdən biri tramvayda növbəti qalmaqala səbəb oldu.

-Bura bax ey, qomandir, siz niyə mənə belə sürtünürsüz, axı, hələ mən Sizin arvadınız deyiləm! - Anatoli Borisoviç bu həyasız qadın səsini tramvay sürənin lap yaxınlığından eşitdi. - Bəli, Siz öz dizinizlə mənim pomidorlarımı əzirsiz! Görmürsüz, əlimdə torba tutmuşam!

-Mən Sizin pomidorlarınızı əzmirəm! -Anatoli Borisoviç bu cavabı verən hərbçinin üzünü görə bilməsə də, kal səsini eşitdi. -Mənim özümü də əzirlər. Xoşun gəlmir, düş, taksi ilə get.

-Mənə məsləhət verənə bax! Özün get taksi ilə. Taksidən dəm vurana bax… bizim pulumuz var taksi ilə getməyə! Pulu sizin başınıza havadan yağdırırlar, yüz manat verirlər.

-Necə yəni yüz! Min!

-Müftəxorlar, Sizi boynumuzda oturdublar! - kimsə səsini qaldırdı, başqası zabiti hədələdi. -Bura bax, zabit bala, qarşıdakı dayanacaqda düşüb cəhənnəm olarsan ki, bu qadınlar rahat getsinlər.

Bu sözü bütün tramvay dəstəklədi:

-Düz deyir! Düşüb cəhənnəm olarsan!

Qoca bir qadın zabitin tərəfini saxladı:

-Siz neynəyirsiz, insanlar! Axı, o, bizim keşiyimizdə durur!

-Biz bu keşikçiləri yaxşı tanıyırıq: onların peşəsi araq gillətmək, bizim oğullarımızı məsxərəyə qoymaqdı! Orduda «starik» -«molodoy» qarşıdurmasını da onlar yaradıblar!

Tramvay əhli yenə sakitləşmədi.

Bazar alverçisinə oxşayan bir xala səsini qaldırdı:

-Onlar «starik» -«molodoy» qarşıdurmasını yaradıblar ki, oturub kef eləsinlər, işləməsinlər, əsgərlər özləri bir-birini işlətsinlər.

Kimsə soruşdu:

-Sən bunu hardan bilirsən? Bəyəm sənin oğlun əsgərlik çəkib?

Xala çəmkirdi:

-Bəyəm mən axmağam? Voenkomu ələ aldım, gədəni əsgərlikdən saxladım.

…Hər halda, zabiti tramvaydan zorla endirmədilər. Anatoli Borisoviçin mənzil başına çatmasına bir dayanacaq qalmış zabit özü növbəti dayanacaqda düşdü.

Nəhayət ki, tramvay yola düşəndə Anatoli Borisoviç onun üzünü gördü. Zabit, bir xeyli yerindən tərpənmədən plaş-paltosunu əynindəcə çırpdı, kəmərini və furajkasını düzəldəndən sonra sıxıntı, üzüntü içində yerindən tərpəndi.

O sıxıntı, üzüntü Anatoli Borisoviçə də siyarət elədi. Belə çıxır ki, general Çelubeyev zabitlərin şəhər nəqliyyatında mülki paltarda getməsini tövsiyə etməkdə haqlıdır?! Bəyəm Anatoli Borisoviç özü dar məqamda həmkarını - zabit qardaşını müdafiə elədi? Haqsız qışqırıq salanları susdurmaq üçün addım atdı? İnsana olmasa da, mundirə hörmət nümayiş etdirdi? Axı, bu mundir orduya, ordu isə ölkəyə mənsubdur. Yaşadığın və ordusuna xidmət etdiyin ölkəyə hörmətlə yanaşmalısan, bunu istəsən də, istəməsən də. Əks halda ordusuz və ölkəsiz qalacaqsan və özgə orduların əsgərlərini bəsləməli olacaqsan… Bunu düşünən biz deyilik və başqa cür ola da bilməz.

Anatoli Borisoviç üzgün halda özünün Blyuxer küçəsində yerləşən evinə çatdı. El arasında bu binanı «mişar» və həm də «uğur zolağı» adlandırırdılar. Bina bir-birinə bitişik üç blokdan ibarətdi. Axırıncı blokun dördüncü mərtəbəsində öz ailəsilə Anatoli Borisoviç yaşayırdı; arvadı Allanın -onların qızı Aleksandranın, kürəkənləri-dairə hərbi hissəsinin ştabında xidmət edən kapitan Volodyanın və üçyaşlı yeganə, istəkli nəvələri Vladikin həyatı bu mənzildə keçirdi. Darısqallıq olsa da, ailə mehribandı. Çınki Anatoli Borisoviç xidməti iztirablarını özü ilə bu mənzilə gətirmirdi, astanada qoyurdu və ailə üzvlərinə də anlatmışdı ki, belə yaşamaq lazımdı.

Ancaq bu gün Anatoli Borisoviç qanqaraçılığını qapının kandarında qoya bilmədi. Hətta qapının zəngini də çalmadı, qapıya öz açarını saldı. Və qapını o qədər ehtiyatla açdı ki, mətbəxdə səsləri bir-birinə qarışmış arvadı və qızı onun gəlişini duymasınlar. Və həmişə qabağına qaçan nəvəsi Vladik soruşmasın: «Baba, mənə nə almısan?»

Anatoli Borisoviç hərbi başmaqlarını soyunub gödəkçəni asılqana keçirtdi. Qonaq otağından anlaşılmaz səslər eşidilirdi: Sanki orda kimsə ora-bura tullanır və tövşüyürdü.

Anatoli Borisoviç ehmalca qapıya yaxınlaşdı. Nəvəsi otağın tən ortasında atasının səhra libasını əyninə keçirmək istəyirdi. O birtəhər bu işi aşırandan və bu paltarın içində itib-batandan sonra desant çəkmələrini ayaqlarına keçirməyə başladı. Gödəkçənin qolları ona manne olurdu. Şalvar əynindən düşürdü. Çəkmələri tərs geyinməsə də birinin burnu arxaya idi. Uşaq şalvarını çəkirdi həm də nizamla addımlamaq istəyirdi. Amma buna rəğmən döşəməyə sərələndi.

Dərhal ağlına gələn cumub onu yerdən qaldırmaq oldu. Amma özünü saxladı. Nəvəsi döşəmədən qalxmağa can atırdı. Təzəcə dikəlmişdi ki, yenə yıxıldı yenə qalxmağa cəhd elədi.

-Necə də çətindi... -Anatoli Borisoviç nəvəsinin dilindən çıxan bu sözü aydınca eşitdi.

Nəvəsinin dilindən çıxan növbəti söz isə onu heyrətə gətirdi:

- Çox çətindi, amma xidmət etmək lazımdı…

…Və Anatoli Borisoviçin gözləri yaşla doldu. Yenə ürəyindən keçdi ki, nəvəsinə kömək etsin, boğazına tıxanmış qəhəri acı loxma kimi udub ehmalca mətbəxə keçdi.

Arvadı onu görçək:

-Bu nə qəfil gəlişdi, Tolik, - dedi, - qapının zəngini niyə çalmamısan?

Qızı Aleksandra isə qollarını onun boynuna doladı, üzündən öpdü və sevincək dedi:

-Ata, Volodka raport yazıb.

Hələ də nəvəsi barədə düşünən Anatoli Borisoviç heyrətlə soruşdu:

-Nə raport?

-Ordudan tərxis olmaq istəyir. Birdəfəlik.

Anatoli Borisoviç, çaşqın halda soruşdu:

-Niyə tərxis olunur ki?

Arvadı da söhbətə qarışdı:

-Elə mən də bunu ondan soruşmaq istəyirəm, Tolya! Başa düşmürəm…

Aleksandra anasının sözünü kəsdi:

-Siz nə başa düşürsünüz ki? İndi Sizin ordunuzda nə qalıb ki? Bax, buna görə? -Və Aleksandra xüsusi bir məharətlə gözəl barmaqlarını əyib-bükməyə başladı. - Mənzil verməyi tərgidiblər. Heç bir perspektiv də yoxdur… Amma mülki həyatda bizneslə məşğul olmaq mümkündür. Heç bilirsiz, Volodkanın nə qədər əlaqələri var? Özünə market də aça bilər, cins tikmək üçün sex də. İndi fərdi mülkiyyətçilik günbəgün şaxələnir.

«Bəs vətəni kim qoruyacaq?!» Amma Anatoli Borisoviç ürəyindən keçən bu sualla qışqırmadı, ona çox əziz olan qadınlara astadan dedi:

- Son dərəcə ağırdı, amma xidmət lazımdı!

***Rus dilindən tərcümə edənlər:***
***Məmməd ORUC,***
***Knyaz QOÇAQ***

***Kate ÇOPİN (Kate Chopin)***

# Peşmanlıq



♦ ***Hekayə***

Mamzelle Aurlie yaraşıqlı, qamətli, al yanaqlı, təkəmseyrək ağları olan qəhvəyi saçlı bir qadın idi. Fermada işləyəndə həmişə kişi papağı qoyar, soyuq olanda köhnə, mavi rəngli əsgər şineli, bəzən də uzunboğaz çəkmə geyərdi.

Mamzelle Aurlie heç vaxt ailə qurmaq haqda düşünməmişdi, heç vaxt sevməmişdi. İyirmi yaşı olanda o, evlilik təklifi almışdı və bu təklifi rədd etmişdi. Əlli yaşına qədər verdiyi bu qərardan peşman olmamışdı.

Ponto adlı itindən, fermadakı komada yaşayan, əkin-biçinlə məşğul olan zəncilərdən, ev quşlarından, bir neçə inəyindən, bir cüt qatırından, tüfəngindən (o bu tüfənglə cücələrini aparan qırğıları vururdu) və Allahından başqa bu dünyada onun heç kəsi yox idi.

Bir səhər Mamzelli Aurlie əlləri belində, eyvanda dayanıb bir dəstə uşağa baxırdı. Elə bil onlar qəfildən göydən düşmüşdülər, onların gəlişi gözlənilməz və arzuolunmaz vaxta təsadüf edirdi. Bu uşaqlar onun yaxın qonşusu Odilenin uşaqları idi. Düzünə qalsa, o, heç də yaxın qonşu deylidi.

Beş dəqiqə əvvəl gənc qadın dörd uşağıyla birgə onlara gəlmişdi. Balaca Lodieni qucağına almışdı, o biri əliylə Ti Nommeni sürüyürdü, Marklin və Marklet isə könülsüz-könülsüz onun arxasınca gəlirdilər.

Qadının gözləri ağlamaqdan şişmiş, üzü qızarmışdı. Anası ağır xəstə olduğuna görə onu yaxınlıqdakı kilsəyə çağırmışdılar. Əri Texasda idi, ona elə gəlirdi ki, əri ondan neçə milyon mil uzaqdadır. Qızını stansiyaya aparmaq üçün Valsin eşşək arabasında onu gözləyirdi.

-Mamzelle Aurlie, sizdən bir xahişim var, mən qayıdana kimi uşaqlarıma baxın. Allah şahiddir ki, başqa çıxış yolum yoxdur, yoxsa heç vaxt sizi narahat etməzdim. Onlara öz balalarınız kimi baxın, elə bilin öz uşağınızdır. Bunlarla getsəm ağlımı itirərəm, Lon da evdə yoxdur, kim bilir, bəlkə, yazıq anamı da sağ görə bilməyəcəm.

Odile uşaqları uzun, alçaq komanın qarşısındakı ensiz kölgəlikdə qoyub getdi. Günəşin parlaq şəfəqləri evin pilləkəninin köhnə kafelində oynaşır, bir neçə cücə də pilləkənin dibindəki otları dimdikləyirdi: cücələrdən biri cəsarət edib bir-bir pilləkənləri qalxıb məqsədsiz şəkildə eyvana çıxırdı. Havadan qərənfillərin xoş ətri gəlirdi, artıq çiçək açmış pambıq kolları arasından zəncilərin gülüş səsləri eşidilirdi.

Mamzelle Aurlie sakitcə dayanıb uşaqlara baxır, götür-qoy edir, belinə toppuş Lodieni götürən Marklinə baxırdı. Eyni sınayıcı baxışlarla için-için ağlayan Markletə baxır və anasının getdiyini görəndə az qala üsyan edən Ti

Nommeyi süzürdü. O, özünü ələ alıb öhdəsində qalan uşaqlara necə baxacağını fikirləşirdi. Əvvəlicə uşaqları yedizdirmək lazım idi.

Mamzelle Aurlienin işi uşaqları yedizdirmklə başlayıb- bitsəydi nə vardı ki. Onun anbarında belə fövqəladə hallar üçün kifayət qədər ərzaq vardı. Ancaq balaca uşaqlar heç də balaca donuz deyillər. Onlara diqqət və qayğı lazımdır, bu isə onun üçün gözlənilməz idi, belə işi bacarmırdı.

İlk bir neçə gün Odilenin uşaqlarına baxmaq heç də asan olmadı. Axı, o hardan biləydi ki, Markletlə yüksək tonla danışanda o, hönkürüb ağlayır? Sən demə, onun xasiyyəti beləymiş. Ti Nomme bağın ən yaxşı qardenyalarını, ən gözəl qərənfillərini yoluşdurandan sonra Mamzelle bilmişdi ki, bu uşaqda güllərə necə böyük sevgi varmış.

-Ona söz kar etmir, Mamzelle Aurlie,- Marklin dedi.- Yaxşısı budur, ayağını stula bağlayasız. O, nadinclik edəndə anam həmişə belə eləyirdi. Mamzelle Aurlie Ti Nommenin ayağını çox rahat və yumşaq stula bağladı, o da günorta isti olanda elə stula başını qoyub yatdı.

Axşam isə uşaqları toyuqları hinə saldığı kimi yatağa salanda uşaqlar çaşqın baxışlarını onun üzünə dikdilər. O, balışüzünün içindən şax gecə köynəklərini çıxarınb onlara geydirdi, bu vaxtacan belə şey görməyən uşaqlar ona necə heyrətlə baxmayaydı? Hər gecə yatmazdan qabaq anaları onların tozlu ayaqlarını ləyəndə yuyub sonra yatağa salardı, indi bunu görməyən uşaqlar ona niyə də heyrətlə baxmayaydı?

Bundan başqa, Ti Nommeyə qulyabanı və ya xortdanlar haqqında hekayələr danışmadan, Lodieyə layla çalmadan yatıra biləcəyini düşünməklə Marklin və Markletin qəhqəhə ilə gülməsinə səbəb olmuşdu.

- Baxın, Rubi xala,- Mamzelle Aurlie aşpazına dedi: - İri bir plantasiyanı idarə etmək mənə bu dörd uşağa baxmaqdan qat-qat asandır. Uşağa baxmaq dəhşətd! Mənə uşaqlardan danışmayın!

- Mənə elə gəlir ki, onlar haqqında sənə bir söz deməliyəm, Mamzelle Aurlie! Demə ki, xəbərçilik edirəm, mən dünən gördüm ki, o balaca uşaq sənin açarlarınla oynayırdı. Bəs sən hələ bilimirsən ki, açarla oynayan uşaqlar böyüyəndə necə pisniyyətli olurlar? Həm də güzgüyə baxmaq onların acıqlı olmasına səbəb olur. Uşaq saxlayan hər bir adam belə şeyləri bilməlidir.

İndiyə qədər beş uşaq böyüdüb altısını torpağa basdırmış Rubi xalanın bu müdrik təcrübələri, əlbəttə ki, Mamzelle Aurlieni qətiyyən maraqlandırmırdı. O, sadəcə, indiki məqamda işinə yaraya biləcək analıq qaydalarını öyrəndiyinə sevinirdi.

Ti Nommenin çirk-pas içində olan əllərini görəndən sonra Mamzelle Aurlie uzun illər ərzində bircə dəfə də olsun taxmadığı ağ önlükləri çıxarmalı olmuş, uşağın mehriban və sevgi dolu təbiətinin təzahürü olan nəmli öpüşlərinə özünü alışdırmaq məcburiyyətində qalmışdı. O, çox nadir hallarda istifadə etdiyi iynə-sap səbətini şkafın üstündən götürdü və cırılmış, düymələri qopmuş köynəkləri tikmək üçün əlini atıb rahatlıqla götürə biləcəyi bir yerə qoydu. Bütün günü evi başına götürən hay-küyə və gülüş səslərinə alışması bir neçə gün çəkdi. İlk gecələr Lodienin sinəsinə qısılıb yatmasına, qızcığazın isti nəfəsini quş qanadları kimi üzündə hiss etməyə alışa bilmirdi.

İki həftə sonra Mamzelle Aurlie bütün bunlara öyrəşmişdi və heç nədən şikayətlənmirdi. Məhz iki həftə sonra bir gecə Mamzelle Aurlie heyvanların otladığı sahəyə tərəf baxanda Valsinin mavi arabasının döngədən onlara tərəf burulduğunu gördü. Odlu, həyəcanlı halda mulat arabaçının yanında oturmuşdu. Araba yaxınlaşdıqca gənc qadının işıldayan üzündən evə xəbərlə qayıtdığını bilmək olurdu.

Ancaq onların bu qəfil və xəbərsiz gəlişi Mamzelle Aurliedə əzabverici həyəcan doğurdu. Uşaqları bir yerə yığmaq lazım idi. Ti Nomme hardaydı? Odur, çardaqda bıçağı bülövə çəkir. Bəs Marklin və Marklet? Eyvanda gəlincik tikirlər. Lodie isə Mamzelle Aurlienin qucağında etibarlı yerdə idi və yaxınlaşan mavi arabada anasını görən kimi sevinclə qışqırmağa başladı.

Həyəcan dolu günlər başa çatdı və uşaqlar çıxıb getdilər. Onlar gedəndən sonra ətrafa necə sükut çökmüşdü! Mamzelle Aurlie eyvanda dayanıb ətrafı dinşəyirdi. Artıq araba gözdən itmiş, günəşin qırmızı şüaları bozumtul alatoranlığa qarışıb tarlaları və arabanın gözdən itdiyi torpaq yolu qırmızımtıl dumana boyamışdı. Artıq təkərlərin cırıltısı eşidilmirdi. Amma uşaqların şən səslərini zəif də olsa, eşidə bilirdi.

Mamzelle Aurlie evə keçdi. Burda onu xeyli iş gözləyirdi, uşaqlar ətrafı tamam dağıdıb getmişdilər; amma o, dərhal işə başlamadı. Stula əyləşdi, otağa yavaşca nəzər saldı. Gecənin otağa gətirdiyi kölgələr yalqızlığını daha da artırırdı. O, başını qollarının arasına aldı və ağlamağa başladı. O, ağlayırdı. Amma qadınlar kimi sakit ağlamırdı. Kişilər kimi ağlayırdı; gözündən axan hər damla yaş bütün ruhunu didib-parçalayırdı. Alamezelli Aurlie evə qayıdırdı ki, Pontonun onun əlini necə yaladığının belə fərqini hiss etməmişdi...

*Bu hekayə ilk dəfə 1897-ci ildə, Çopinin " Akadiyada gecə " adlı hekayələr kitabında çap edilib.*

***Lao MA***

# Zaman



♦ ***Hekayə***

Kimsə qapını döyür, mən deyirəm:

-İçəri girin!

Qoca bir kişi qısa addımlarla, əlində çəlik, içəri girir. Çox güman ki, o, bu yaxınlarda insultdan müalicə alıb.

- Qoca Niu...Mən sənin... dərəcə almağını eşitdim. Ona görə...də... gəldim ki...səni təə..briiik edim.

Qoca danışmağa çətinlik çəkirdi. Sözlərin çoxunu anlaşılmaz şəklidə tələffüz edirdi.

-Ah, minnətdaram, çox sağ olun, buyurun, əyləşin, - belə deyirəm və həmin anda onun kim olmasını müəyyənləşdirməyə çalışıram.

-Sənin ofisin..necə də...böyükdür,- o, divanda oturub ətrafına baxa - baxa deyir.

Mən ona bir fincan çay təklif edəndə, o, mənə işarə edir ki, çayı stolun üstünə qoyum. Bunun səbəbini dərhal başa düşdüm; qorxurdu ki, titrəyən əlləriylə fincandakı çayı dağıdar.

-Necəsən? -sual verib ümid edirəm ki, verəcəyi cavabdan, ən azı, onun kimliyini öyrənəcəm.

- Necə olmağım...aşkar görünmür? ..Tezliklə.. öləcəm,- sözlər elə bil ağzından sıxılmış vəziyyətdə çıxır.. üzündə cüzi təbəssüm yaranır.

-Nə cəfəngiyyat danışırsan? Hələ neçə il yaşayacaqsan! - deyirəm və içimdə şübhə yaranır ki, bu adam yaxşı tanıdığım bir nəfərə çox oxşayır.

-Yamei...tez-tez məndən xahiş edirdi ki, səni görüm,- qonağım belə deyib başıyla mənə işarə etdi.

Yamei - ah, aman Allahım, birdən tam anlayıram ki, mənimlə üzbəüz oturan bu qoca kişi tələbəlik dostum Jiangqiangın atasıdır. Jiangiangın arvadı Yamei də universitetdə bizimlə oxuyurdu. O vaxtlarda Jiangqiangın atası işiylə əlaqədar şəhərə gələndə tez-tez yaşadığımız tələbə yataqxanasına baş çəkməyə imkan tapardı.

Jiangqiangla zarafat edib ona deyərdik ki, o, eynilə atasının cavanlıq şəklidir. Zaman necə də sürətlə uçarmış, zaman necə də qəddar imiş! Jiangqiangın atası indi qocalıb! Mən çox kədərləndim.

-Yamei necədir? - soruşuram.

- Yaxşıdır...Yaxşı...Ona çox ağırdır. Yazıq mənim halıma, yazıq onun halına,- o özünü gülümsəməyə məcbur edir, ancaq bu, çox dəhşətli görünür.

Bəli, bədbəxt Yamei, mən fikirləşdim. Ancaq sonra düşündüm ki, qayınatasına qulluq etmək, ona qayğı göstərmək, evin gəlini kimi onun vəzifəsinin bir hissəsidir.

Biz universiterdə oxuyanda Yamei ən gözəl qız idi. Onun ucbatından neçə-neçə cavan gecələr yatmırdılar, mən də o cavanlardan biri idim. Elə ki o, Jangqiangı özünə ər seçdi, bu gənc hamımızın paxıllıq, qibtə obyekti oldu... Sonra onlardan heç bir xəbər olmadı. Qayınatasının xəstəliyi ilə bağlı da heç nə bilməmişəm...

-Nə vaxtdan bu vəziyyətdəsiniz? - mən narahatlıqla soruşuram.

-Oy..oy..iki il bundan əvvəl.. Mən professor rütbəsi almaq üçün..gecə-gündüz yazdım..axmaq kimi..,- o, elə həyəcanla deyirdi ki, sözləri qırıq-qırıq olurdu.

Professor rütbəsi...İnsan nə qədər axmaq olar ki, bu yaşda rütbə almaq istəsin.

Xoşbəxtlikdən mən aşağıda deyəcəyim cümləni çox da bərkdən demirəm:

-Bəs Jiangqiang necədir? Onun sağlamlığı həmişə yetərincə olub. Mən onu son dəfə dörd il bundan əvvəl görəndə, o, yenə də cavan pələng kimi güclü idi.

- Necə...necə bir xuliqan olmusan sən. Sən hətta məni də tanımırsan? Rütbə almısan deyə, indi məni də tanımırsan? Yaramazın biri yaramaz!



Qoca ayağa durur, qapıya tərəf yönəlmək istəyir. Hələ də əl-ayağı titrəyir.

Onu tanıyanda az qala zərbə alıram.

-Jiangqianq...Bu sənsən? -deyib onu bağrıma basıram.

***İngiliscədən tərcümə etdi:***
***Sevil GÜLTƏN***

*Cavid ZEYNALLI*



# "DƏRD QAPINI TAPMIR"

◆ ***Hekayə***

Arvadı özündən beşbetər malın-mağmının biri. Adamın üzünə yetim-yetim elə baxır, deyərsən, uşaqlıqdan süddən yanıq, murazdan umsuqdu bədbaxt. Yar-yaraşıqdan bəxti kəm gəlib, adam içinə çıxarası bircə gözləridi; diri, dumduru gözləri. Yemə-içmə, zillən ulduz yekəlikdə o gözlərə. Fağır olanda nolar, tərs damarı, qatır inadkarlığı da var. Kənddə hər zuluma-müsibətə sinə gərdi qız, çoban dədəsinə söz çevirdi, anasının üzünə qayıtdı ki, Bakıda oxuyacam. Oxudu Gülnaz, oldu ibtidai sinif müəllimәsi, şələ-şüləsini yığıb gəldi ala qarğa bala çıxarmayan kəndə. Düz iki il dərs dedi, örüşdən birbaş məktəbə fitilləyən uşaqların əlini - ayağını nə təhər yığdısa bu mağmın Gülnaz, oldular quzu balası.

Məktəb yolunda Məsuda rast düşməsəydi, elə olacaqdı qohum-qonşunun qapazaltısı: a bədbaxt, ərə get, ay külbaş, yaşın keçir, uşaq doğa bilməyəcəksən, bizi peşman eləmə, it dölü, itdən əmələ gələn köpəyin qızı. İt dölü itdən əmələ gələn köpəyin qızı Gülnazı kənddə istəyən nə çox?! Nolar yar-yaraşıqdan bəxti kəm gələndə?! İntəhası, gözünə-könlünə yatanı hardadı: qabağına kim çıxırdısa, zırrama, ipləmə, örüşdə eşşək dalına atılan, keçiyə tamah salan cüvəllağı. Dünya dağıla, arvadı xərçəngdən ölən, ortalıqda uşağı qalan Məsuda da getməzdi Gülnaz. O yekə-yekə ulduzlu sərin iyun gecəsində Zəminə əmidostusunun hesabına Məsudla görüşməsəydi, görüşüb bu sakit adama isinişməsəydi, iki dünya bir ola, xərçəng adamın ağrı-acısını divarlarına hopduran, meyit çıxan o evin kandarına ayaq basmazdı Gülnaz. Yekə-yekə ulduzlu iyun gecəsində Məsudun lap əsdən dediyi sözlər qızın ağlını yerindən oynadırdı, Məsud danışdıqca qız ona ta səhərəcən qulaq vermək istəyir, bu çəlimsiz adamın hər kəlməsinə bel bağlayıb, şəhərə getmək üçün xəyal qururdu. Qırxı keçəndə nolar, deyirdi, əmidostu Zəminə, oxumuş adamdı, evi-eşiyi, işi-gücü, ta nə istəyirsən, başına dönüm?! Məsud o gecə qızın əllərini əlinə alıb nə dedi, nə demədi, səhəri Gülnaz Məsudu yenə o göyəm ağacının altına çağırdı. Çağırdı nədi, hələ onun isti dodaqlarını yanağında hiss eləyəndə xumarlandı Gülnaz, canı yenə o öpüşdən istədi, heç bilmədi haçan sığındı qanı qaynayan bu fağır adamın sinəsinə.

* * *

Kənddən başını götürüb çıxdığı aprel gecəsindən sonra o şeytan yuvasından evlənmək nədi, heç o uzaq gədiyin yaxasına səpələnən alçaq-dürtdək evlərdə gecələyən doğmalı-yadlı adamların topasına tüpürməzdi Məsud. Elə günün birində adına söz çıxardılar ki, bəs, doğmaca bibisinin qızı Göyçəyi yoldan çıxarıb, qız özünə od vurub oddamaq istəyir, o göydəki Allah haqqı. Dərd orasındaydı ki, Göyçək Məsudun həm də süd bacısıydı; anası xəstə yatanda bibisi döşünün birini Məsudun ağzına salanda, o birini Göyçək əmmişdi. Dərd həm də orasındaydı ki, Göyçəyin ağlını itirdiyi həmin gecə Məsud lap ertədən yerinə girmişdi, yorğanın altında qıvrılıb-qıvrılıb inildəmişdi, sonra onu qabağına qatan ağzı qara itlərdən canını qurtaranda yuxusunu təzədən, bu dəfə lap pis qarışdırmışdı. İnişilki ot yığımında at arabasının altında qalıb canını tapşıran babası qəbirdən xortdayıb ona yanaqları köz təki qızaran alma vermişdi, verib demişdi, çək dişinə, oğul balam. Məsud o qırmızıyanaq almadan yekə bir dişləm alar-almaz üst dişləri tökülmüşdü ağzına. Yuxudan dik atılıb əlini ağzına aparanda, yalançıya lənət, az qala dişlərini bircə-bircə yoxlayıb hamısının cağbacağ yerində olduğuna sevinmişdi. Bibisinin dizinə-başına döyüb qapılarının ağzını kəsdirdiyi aprel səhərindən xeyli sonra Bakıda otaq kirələyib fəhləlik edəndə Məsud öyrənmişdi ki, demə, hələ lap qədimlərdən üzü bu yana sınaqdan çıxıb ki, yuxuda dişin düşməsi adama bədbəxtlik gətirir. O-bu, ilişdi qaldı beynində, nə illah elədi, bu axmaq fikri üstündən ata bilmədi. Ali təhsil aldı, neçə-neçə ölkə gəzdi, yenə xeyri olmadı, hələ desən, bir də belə yuxu görməmək üçün hər axşam yerinə girəndə Allaha duaçı oldu, həmd elədi. O başqa əhvalat ki, süd bacısı olanda nolar, Məsudun Göyçəkdə gözü vardı, qızı razı sala bilsəydi, qohum-qonşu pis baxmasaydı, evlənib Göyçəyi özünə arvad edərdi. Yazığı gələndən-gələnə dilini şirin salıb Məsudun ürəyini yerindən oynatmağı saya salmasaq, diribaş-dikbaş Göyçək mağmın Məsuda fikir verməzdi nədi, heç onu adam yerinə qoymazdı. İllər keçəndən sonra da Məsud nə illah elədi, nə Göyçəyin ona şər atmağının səbəbini öyrəndi, nə də heç kim bilmədi ki, qızın ağlını yerindən oynadan kim olub. Məsuddan əli üzüləndən üççə gün keçmədi, Göyçək özünü heyva ağacından asdı.

Və illərin unutdura bilmədiyi o bədbəxtlikdən sonra Məsud heç özü də bilmədi kəndə niyə getdi, nə səbəbə əli ətəyindən uzun maşını sürdü dədə evinə?!

* * *

Arvadının cavan ölümü Məsudun güzəranını zəqquma çevirmişdi, olmuşdu qaraqabağın, zəhər tuluğunun yekəsi. Səmənidə o zəhrimar xəstəlik tapılanda, dünya dolandı Məsudun başına, həkimin yanından çıxıb özünü verdi xəstəxananın tualetinə, sakit-səssiz, o ki var ağladı.

Səməni ağrıyan canını qoymağa yer tapmayanda səhərəcən zarıyıb-inildəyər, Məsud da ağzında ocaq tüstüsünün tamı, siqareti-siqaretə calayıb murdar xəstəliyin cəngində çabalayan qadını ilə tanışlığını yadına salardı. Göyçək əhvalatından sonra qızdan-qadından gözü tamam qorxmuşdu, başını aşağı salıb fəhləliyini-qarovulçuluğunu edir, universitetin axşam şöbəsində oxuyub özünə gün ağlamaq istəyirdi. Elə Səməniyə mehrini salmağı da həmin o vaxtlarda oldu. Gördü qız özü də üzü bəridir, yavaş-

yavaş, yavaş - yavaş, oldular sevgili. Sonra fəhləliyin daşını atıb özünə fərli - başlı iş tapdı, sonra toy elədi, sonra Səməni hamilə qaldı, sonra Məsuda qaya parçası təki bir oğul doğub tutuldu xərçəngə, köçünü çəkdi dünyadan. Gözünün qabağında əriyən qadının çəkdiyi dəhşətli ağrıları Məsud özü də canında hiss edərdi, əsəbləri tamam pozulmuşdu, xəbəri olmazdı ki, gün hardan doğub, harda batır. Səməni öləndən sonra o qaya parçası təki oğlu yıxıla-dura otaqları dolaşıb aciz-əlacsız anasını axtaranda, elə bil Məsudun boğazına qaynar qurğuşun tökürdülər, bilmirdi köz-köz olan sinəsini harda soyutsun. Qəribəydi, tək-təkcənə darıxanda Məsud həm də uşaqlığını xatırlayardı, o gədiyin yaxasına taxılan kənd sərin su olub səpilərdi sinəsinə. Və çox keçməzdi, Göyçək əhvalatını, doğma-yad adamlara ürəyinin lap dərinliyində olan qəzəbini unudub kəndə aparan dolanbac yolu xatırlayardı, sinə açıb mal-heyvanı əzizləyən örüşü xatırlayardı, atını-itini xatırlayardı, heyva ağaclarını, göyəmi, gavalını xatırlayardı, ördəklərin vaqqıltısını, qazların qaqqıltısını, üstü kirəmitli evlərin lap o başındakı təpəlikdən üzü kəndə sarı anqıran eşşəyi, kişnəyən atı xatırlayardı, toyları-toyxanaları xatırlayardı, anasının nanə ətirli əllərini xatırlayardı Məsud.

Gülnaz nə istədisə, Məsud qızın sözünü yerə salmadı. Kəndin dedi-qodusunu eşitməzdən gəldi, pıçhapıçı eyninə almadı: bazarlıq elədilər, ciyəraxşamı keçirdilər, ağsaqqaldan-ağbirçəkdən ar edən cavanlar ağac altında, taya dibində araq gillətdilər; sonra mağar quruldu, gədikdən iki kənd o yannan çalğıçı gəldi, qoşanağaranın, qarmonun səsi qarışdı bir-birinə, uşaqlar yol kəsdi, yerdən şabaş qamarladı, Gülnaz gəlin çıxdı, bazardan nə qədər ucuz konfet almışdılarsa, qız anası səpələdi elədən-elə, belədən-belə.

Üççə gün sonra yığışıb gəldilər Bakıya - Məsudun evinə. Evə girər-girməz Gülnaz dərindən nəfəs aldı, ürəyinə rahatlıq çökdü, üstünə arxayınlıq. Amma bu rahatlıq, bu arxayınlıq uzun çəkmədi, elə ki Səməninin divardan asılan şəklini gördü, diksindi Gülnaz, möhkəm diksindi. Elə bildi, Səməni qeyzlə divardan qopub atılacaq onun üstünə. Atılıb əllərini keçirəcək boğazına, saçından tutub sürüyəcək, ətini dişləm-dişləm edib ürəyi soyumayanda, qaynar qaşığı basacaq qızın döşlərinə, baldırlarının arasına. Özünə gələndə gördü yox, Səməninin gülümsər siması elə həmən-həmənkidi, divardan qopa bilsəydi, təzə gəlinin pal-paltar, qab-qacaq yerbəyerinə kömək edərdi, çay qoyardı, Məsudun dilini-himini ona öyrədərdi. Üç gün, beş gün, lap üç-beş ay sonra da Gülnazın ev-eşikdən qorxu-hürküsü keçmədi, yenə diksindi, huyuxdu, ürpəşdi, amma heç vaxt Məsuda demədi, demədi ki, Səməninin şəklini divardan götürək.

İt dölü itdən əmələ gələn köpəyin qızı Gülnaz Məsuda bir arvad, qaya parçası təki uşağa bir ana oldu, dayan tamaşasına, Səməninin gülümsər şəklinə göz vur ki, ürəyini buz kimi saxla, a bəxtsiz, bunun harası mal-mağmındı, çoban Əsgərin yaraşığı kəm düşən kəççi qızı gör özünü necə istətdi!

* * *

Payızın selləmə yağışlı günlərindən birində Gülnaz ərinə eləcə sözgəlişi eşitdirdi ki, ürəyim yaman bulanır, nə işdisə, yeməkdən də doymuram, gözüm qab-qaşıqdan, qazan dibindən çəkilmir. Səməni qaya parçası təki oğluna hamilə qalanda da eynən belə demişdi, eynən bu səslə, eynən beləcə şübhəli-şübhəli dillənmişdi;ağzıma yiyəlik eləyə bilmirəm, yetim uşaq təki nə görürəmsə, meylim çəkir, nəfsimi boğmaq zuluma dönüb.

Məsud siqaret yandırıb pəncərəni açanda yağışın şarhaşırı dolmuşdu ev-eşiyə, qarışmışdı arvadının səsinə. Divardakı gülümsər şəkilə xəbər aparmışdı o səs, xəbər gətirmişdi, ər-arvadın doğmalığını bir boy da böyütmüşdü. Gülnaz danışdıqca Məsudun əlini əvvəl döşlərində hiss eləmişdi, sonra o istilik bətninə yayılmışdı, əzalarında gəzmişdi, qanına-canına hopmuşdu. Qaya parçası təki uşağı qonşuya verib, qoşalaşıb getmişdilər həkimə. Heç yarımca saat çəkməmişdi, arvadı xəstəxananın qapısında görünmüşdü, ayaqları yerdən üzülü, üz-gözündə təzə-tər sevinc, Gülnaz özü boyda işıq topası olub düşmüşdü Məsudun gözünə. Dördüncü mərtəbənin pilləkənlərindən ayaq tappıltısı eşidiləndə Səməni divardan qopub, şəkildən düşmüşdü, qapını açıb atılıb əvvəl Gülnazın boynuna sarılmışdı, sonra Məsudun belini qucaqlamışdı, sinəsinə baş qoymuşdu, ən axırda getmişdi qonşuya, uşağını əzizləyə-tumarlaya tapşırmışdı onlara, laldinməz qanadlanıb qonmuşdu divara.

Gün günü bastaladıqca Məsud arvadının nazını lap uşaq kimi çəkirdi, lap uşaq kimi ərköyün, dəymədüşər olurdu Gülnaz. Amma qudurğan deyildi çoban Əsgərin qızı, eləcə istəyirdi pişik kimi tumarlansın, oxşansın, kənddə görmədiyi qayğını şəhər evinin divarları arasında halalca ərindən umsun, içinə çəkib gözünü-könlünü doyuzdursun. Səhərlər yorğan-döşəkdən tərpəşməyə ərdəmi olmayanda Məsud Gülnaza qıymazdı, qaya parçası təki oğlunun əl - üzünü özü yuyar, qurulayıb ətcəmətən buraxardı evin ortasına. O qaya parçası təki uşaq balaca, bapbalaca lülüşünü dartıb-dartışdırıb "lülü-lülü" deyə-deyə çapardı evin ortasında, Səməninin gülümsər şəklinin, Məsudla Gülnazın axıb-axışan gülüşünün altında qaçardı elədən-elə, belədən-belə.

Düzü-dünyanı yağış tutan günlərdə hər şey gözəl idi, hər şey. Bircə o lənətə gəlmiş əhvalat olmasaydı. Bircə Allah Məsudun ağlını başından almasaydı.

* * *

- Babam qəbirdən xortdamışdı...

- Məsud...

- Cəfərxan babamı deyirəm e, tanıyırdın? Hardan tanıyasan, bəlkə adını eşitmiş olasan. Ot biçimində at arabasının altında qalıb canını tapşırmışdı.

- Qurban olum, yat, gecənin bu vaxtı məni qorxuzma, - Gülnaz yuxulu-yuxulu, kal səslə şikayətlənmişdi. Sonra ərinin böyrünə qısılı, ulduz yekəlikdə gözlərini yumub təzəcə huşa getmişdi ki, Məsudun səsi bu dəfə elə bil qeybdən gəlmişdi:

- Cəfərxan babam mənə yamyaşıl alma verib dedi ki, çək dişinə, oğul balam. Gör neçə il keçib, kişi heç dəyişməmişdi, Gülü. Səsi də həminkiydi, əyin-başı da. Yenə şalvarını corabına salıb, köynəyinin düyməsini dəyişik bağlamışdı.

Gülnaz bir istədi, ərinə təpinsin, ürək eləmədi, qorxdu.

- Gülü, kənddə olanda da bir dəfə yuxuma gəlmişdi Cəfərxan babam. Ancaq o vaxt yanaqları qırmızı alma vermişdi. O vaxt necə olmuşdusa, indi də elə: almaya diş vuran kimi ağzımda diş deyilən şeydən bircəciyi qalmadı, töküldü getdi hamısı... - Məsud az qalmışdı əlini dipdiri ağzına təpib dişlərini bircə-bircə yoxlasın, görsün, tökülməsə də, laxlayıb-tərpəşmir ki...

- Allah xeyrə yozsun. Ürəyini sıxma, yaddan çıxar getsin.

Məsud arvadına daha heç nə demədi. Əvvəl Göyçəyi, sonra bibisini, sonra heyva ağacını, sonra kənddən baş götürüb çıxdığı günü xatırladı.

Başını yastığa atanda dodağının altında bir ağız, bir cümləlik donquldandı. Donquldandı ki, bu yuxu döyül, Gülü, bəladı, Cəfərxan babamın urfu haqqı!

* * *

O gecədən sonra Gülnaz nə illah elədi, Məsudun qaş-qabağı açılmadı. İşə fikirli getdi, işdən qanıqara gəldi. Dindirməsən, çimdikləməsən, cınqırını çıxarmazdı: deyərdin, bir teşt xəmirdi, hara qoysan, orda duracaq. Hərdən gecələr diksinib yuxudan qalxar, zillənərdi oğlunun, arvadının üzünə, uzun-uzun baxardı, baxıb-baxıb lap ehmalca əyilərdi əvvəl oğlunun, sonra Gülnazın iyini-qoxusunu içinə çəkməyə. Vay o gecədən ki, Göyçəyi yuxuda görəydi, Göyçək caydaq boy-buxunundan utanmayıb anasının döşündən süd əməydi, onu da çağıraydı ki, o birini də sən təp ağzına. Və beləcə, qoşalaşıb biri doğmaca anasının, o biri doğmaca bibisinin sallaq döşlərini doyunca əməydilər. Amma nə sirdisə, süd əməndə də Məsudun dişləri qırıqlanıb tökülərdi ağzına, Cəfərxan babası heyva ağacının qabığını soyub qaynadar, deyərdi, ağzını yaxala, dişlərinin dibi bərkisin, oğul balam. Belə gecələrdə evin divarları ayaq açıb Məsudun üstünə yeriyərdi, yorğanı üstündən atıb əl-üzünə su vurar, siqaret tüstülədər, pəncərəni açıb payızın küləyinə, yağışına, soyuğuna yalvarardı ki, səhər tez gəlsin, işıq tez düşsün.

Sonra işdə darıxmağa başladı. Lap düzü, ev sarıdan ürəyi narahat olardı, qorxardı. İşdə bir saat, para saat oturan kimi, elə bil Məsudun içini evə tərəf dartırdılar. Telefona əl aparıb tez-tez otaqdan çıxanda iş yoldaşları deyərdilər:

\- Axır vaxtlar dalın bir yerdə tikiş tutmur. Sən ya süzənəyə düşübsən, ya qarınağrısına.

Deyərdilər, gülərdilər, gülüb Məsudun əsəblərini pozardılar. Hirsini-hikkəsini tökməyə yer tapmayanda barmağını dişləyərdi, dodağını gəmirərdi, əlinin içini dişləm-dişləm edib göyərdərdi, lap axırda siqaret alışdırıb filtri çeynəyərdi. Bu fağır adam dost-yoldaş qoymayıb hamı ilə dilləşmişdi, küsüşmüşdü, işə gedib-gəlmək o qədər zəhləsini tökmüşdü ki, deyərdin, çörək qazanmağa yox, sürgünə gedir zalım oğlu. Qorxardı o mənada ki, birdən evdə tək olanda Gülnazın başına bir iş gələrdi: deyək, yıxılıb uşağı tələf edərdi, sancısı tutanda qanaxmaya düşərdi, ya uşaq gözdən oğurlanıb çıxardı pəncərəyə, yıxılardı dördüncü mərtəbədən yerə. "Onda, - öz-özünə deyirdi, Məsud, donquldanırdı Məsud, - başıma haranın daşını tökərəm?!" Oturduğu yerdən dik atılıb özünü salardı maşına, bir də onda ayılardı ki, binanın qabağındadır, pilləkənləri iki-iki, üç-üç qalxıb arvadı ilə oğlunu qapının ağzında gülümsər görəndə ürəyinə sərin su səpilərdi. Qorxardı həm də o mənada ki, arvadı pis xəstəliyə tutular, xərçəng yenə kəsdirər qapını, qurban istəyər.

Gülnaz gecələr onu dilə tutub sakitləşdirəndə, duz kimi yalayanda Məsud doluxsunardı, gözünü sıxıb sakitləşərdi və sakitləşəndə içinə qəribə toxtaqlıq çökərdi. Di gəl, səhər açıldımı, olardı yenə həmən-həmənki. Bir dəfə usta çağırdı ki, pəncərələrə dəmir barmaqlıq toxu, uşaqdan qorxuram, sonra ürəyi yenə soyumadı, maşına kisə-kisə torpaq doldurub gətirdi ki, binanın qabağına gül çiçək əkəcəm, iraq olsun, uşaq yıxılıb eləsə, heç olmasa başı-gözü daşa-dəmirə dəyib paralanmasın. Elə o günlərin birində qonşular pıçıldaşdılar ki, Məsudun maşınının yük yerində on-on beş dənə rəngbərəng, güllü çaydan görüblər. Niyə, nə səbəbə almışdı, heç kim kəsdirə bilmədi. O güllü, rəngbərəng çaydanların sirrini bir Məsud, bir də Məsudun Allahı bilirdi ki, çox keçmədi, Gülnazın da qulağı xəbər aldı,

Gülnaz da qonşuların pıçhapıçından duyuq düşdü, hər şeyi yerli-yataqlı yığdı çinədanına. Gecələrin birində Məsudun böyrünə qısılıb onu dilə tutdu, qılıqlandı, əri deyəndə ki, Gülü, qorxuram, qorxuram ki, başın qarışar, uşaq mətbəxə keçib qaynar çaydanı dağıdar üstünə, olar ömürlük şikəst.

- Bəlkə, bu gündən sonra evdə çaydan işlətməyəsən?! Hə, Gülü, nə deyirsən?! Sabah hamamdakı vannanı da çıxarıb rədd eləyəcəm. Mənim iş yoldaşlarımdan birinin uşağı üç-dörd il əvvəl vannaya düşüb boğulmuşdu. Bazardan çaydanları alıb maşına yığdım ki, birdən kimsə alıb aparar, uşağı üstünə dağıdıb özünü yandırar. Səhv eləmişəm, Gülü?

Ərinin səsi Gülnazın iliyinə işləmişdi, sümüyünə toxunmuşdu, o səs əriyib qaynar qurğuşun kimi boğazına tökülmüşdü Gülnazın. Və cavan ömründə ilk dəfə istəmişdi ki, o gecə böyrünə qısılan, yumağa dönən kişinin qorxudan tir-tir əsən əllərini, titrəyən bədənini görməmək üçün ulduz yekəlikdə gözləri kor olsun. Səhəri dirigözlü açsa da, özünü sıxıb-sıxmalayıb toxtaq tutmuşdu, ağlamamışdı çoban Əsgərin qızı, təpəri-damarı olan adamıydı.

Səhər açıldımı, Məsud usta çağırıb vannanı elə özü dediyi kimi rədd eləmişdi, çayniki götürüb vızıldatmışdı zibil qabına. Həmin gün Gülnaz day dözə bilməmişdi, qapını bağlayıb elə vannanın yerindəcə o ki var ağlamışdı, o ki var hönkürmüşdü, istəmişdi qıyya çəksin, üzünü-gözünü cırıb, saçlarını yolub-yolmalasın. Sonra durub getmişdi aşağı mərtəbədəki təzəcə isinişdiyi, mehrini təzəcə saldığı gəlinin yanına. Məsləhət istəmişdi, qoşalaşıb yollanmışdılar fala baxdırmağa, Quran açdırmağa. Yuxuyozma kitabını alıb bir də təkrar oxumuşdu, sonra o kitaba da, orda yazılanlara da lənət oxuyub vərəq-vərəq cırıb-cırıqlamışdı, elə Məsudun gözünün qabağındaca topasına od vurub yandırmışdı, sonra ərinə yalvarmışdı ki, sənə qurban olum, Məsud, belə-belə şeylərə görə bizi bədbəxt, özünü yazıq eləmə. Sonra Məsudun qulağı eşidə-eşidə, gözü görə-görə Cəfər babasına da, süd bacısı Göyçəyə də qarğış eləmişdi ki, ikisinin də goruna od düşsün, ikisinin də goru yanıb-yağmalansın. Gülnaz heç vaxt o günkü kimi bədbəxt olmamışdı, heç vaxt o günkü kimi vəhşiləşib qabığından çıxmamışdı, əlacı olsaydı, Məsudu didim-didim didərdi, çay daşı götürüb ərinin dişini-damağını öz əlləriylə söküb-dağıdardı. Sakitləşib toxtaq düşəndən sonra gedərdi bazara, bir səbət yaşıl, bir səbət yanaqları köz təki qızaran alma alardı, (yanaqları köz təki qızaran, eynən Cəfərxan kişinin ruhunun gətirdiyi almanı tapmaq üçün Gülü dünyanın o başına da gedərdi, yerin deşiyindən də olsa tapıb gətirərdi) qoşalaşıb o ki var daraşardılar almaya, ləzzətlə dişlərinə çəkərdilər, ta ki partdamaya düşənə qədər yeyərdilər və Gülü bir də aciz-əlacsız ərinə yalvarardı ki, görürsənmi, qurban olum, heç nə olmur ey, atam-anam, heç nə olmur. Və bəlkə yenə qabığından çıxıb vəhşiləşsəydi, Gülnaz acığından onu da deyərdi ki, görürsənmi, heç nə olmur, atam-anam, heç nə olmur, sənin o çağbacağ dişlərinin sırasına-düzümünə tüpürüm, heç nə olmur, a qaragün, mənə yazığın gəlmir, heç olmasa qarnımdakına yazığın gəlsin, mən cəhənnəm, heç olmasa, onun ömrünü yemə! Gülnaz onu da deyərdi ki, niyə bu xarabanın qapısını dərdə nişan verirsən, başına dönüm, niyə dərdin yadına daş salırsan ki, başımızı yarıb, qanımızı axıtsın?

Məsud gözlərini mal-mağmın zilləmişdi od tutub yanan kağız topasına. Zilləyib fikirləşmişdi ki, görəsən, bəla niyə bu qədər gecikir?! Görəsən, qapını tapmaq o qədərmi çətin olub ki, dərd bu qədərləngiyir? Yol gözləmək Məsudun hövsələsini tamam daraltmışdı, səbri çatmırdı özünün şikəst olmasını gözləməyə, səbri çatmırdı qaya parçası təki oğlunun ölümünü gözləməyə, bezmişdi Gülnazın ölü uşaq doğacağı günün intizarını

çəkməkdən. İstəyirdi o gün tez gəlsin, Məsudu tez yarıcan eləsin, özünü dərdin ağzına atmaq o nigarançılığı çəkməkdən asan gəlirdi Məsuda. O dözülməz günlərdə evin divarları yenə ayaq açıb Məsudun üstünə yeriyərdi, yorğanı üstündən atıb əl-üzünə su vurar, siqaret tüstülədər, pəncərəni açıb gecənin sazağına, səhərin ayazına, qışın qarına-yağışına yalvarardı ki, bəla tez gəlsin, dərd içini-çölünü darmadağın eləsin ki, bu əzabdan canı tez-tezcənə qurtulsun.

Martın əvvəllərində Məsud bir gecə evə gəlmədi. Səhər yenə havalı çıxmışdı, arvadını oğlunu dindirib-danışdırmayıb zəhər tuluğu kimi yumalanmışdı pilləkən aşağı. Pəncərənin altında əkdiyi çiçək kollarını əzib-xışmalayıb tapdaq-tapdaq eləmişdi, torpağı ayaqqabısı ilə kürüyüb səpələmişdi elədən-elə, belədən-belə. Maşının yük yerini açıb beş-altı güllü, rəngbərəng çaynik çıxarmışdı, çıxarıb tolazlamışdı gücü çatan qədər binanın həyətinə. Maşın tini burulanda Məsudun qaya parçası təki oğlu qucağında, Gülnaz başını pəncərənin dəmir barmaqlığına söykəyib o ki var, ağlamışdı.

Üç gün sonra qayıtdı. Beş gün evdə qaldı, yenə həmən-həmənki. Beş gün sonra yenə o zəhər tuluğu pilləkənləri aşağı yumalandı, tini dönəndə Gülnaz qucağında uşaq, yenə pəncərədən boylanıb o ki var, ağladı. Bir həftə sonra Məsud təzədən qayıtdı. Yenə həmən-həmənki adam. On gün yenə gecənin sazağına, səhərin ayazına, qışın qarına-yağışına yalvardı ki, bəla tez gəlsin, dərd içini-çölünü yağmalasın ki, bu əzabdan canı tez-tezcənə qurtulsun. Arvadının əlini, oğlunun ayağını öpüb pilləkənləri düşdüyü on birinci gündən sonra, o balaca qəsəbədə Məsudu gördüm deyən olmadı...


# OXUCULARIN NƏZƏRİNƏ!

## 2016-cı İL ÜÇÜN

## "AZƏRBAYCAN"

**jurnalına abunə yazılışı davam edir.**

**"AZƏRBAYCAN"**

**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**

**İNDEKS: 76300**

*Qəşəm NƏCƏFZADƏ*

# DƏVƏ



Uşaqlıqda, yəni 15 - 16 yaşımacan mənimçün dünyanın ən uzaq yeri Beyləqanın Eyvazallar kəndi idi. Niyə? O kənddə dəvə çox idi; dəvə də niyəsə mənim uzaqlıq təsəvvürümlə bağlı idi, elə bilirdim harda dəvə varsa, demək, ora ən uzaq yerdir. Biz, adətən, dəvələri dağa gedəndə görürdük, düzdü, bizim də kənddə dəvə var idi, amma o qədər yorğun, arıq, zəif görünürdülər ki, onlarda bir tikə də olsa uzaqlıqdan əsər-əlamət yox idi. Bizim dəvələr, olsa - olsa, kəndimizdən fermaya qədər yol anlamına uyğun gəlirdilər. Mən dəvədən qorxduğum üçün onu çox sevirdim. Bütün fəlakətləri və yaxud əl çatmayan arzuları dəvə ilə ölçürdüm.

Dəvə - mənim getmədiyim yerlər idi.

Bizim kənddə "Karlar" tirəsi var. Əldən iti adamlardı. Gözünə döndüklərim hər gecə gedib mənim uzaq bildiyim yerlərdən dəvə gətirib kəsər, alışma edərlərmiş. Səhərə kimi bir dəvəni yeyib qurtararlarmış. Gündüz vaxtı harda dəvə görsələr, qışqırıb qaçarlarmış, hətta qaçıb evdə yorğanın altına girərlərmiş, adamlara yalvararlarmış ki, o nədisə, bizi yeyəcək, aman günüdür, qoymayın. Guya bunlar birinci dəfədir ki, belə əcaib heyvan görürlər. Halbuki axşamlar dəvənin anasını ağladırlar.

Babam danışırdı ki, bir dəfə qoyun otardığı yerdə qızmış nər onun üstünə gəlir. Babam qaçır, dəvə qovur. Dəvə babamın topuğundan yapışıb qaldırır, sonra çırpır yerə. Amma buraxmır. Babam gərməşov ağacı salır dəvənin ağzına, dəvə yenə qabağından yemir, dişləri ilə ağacı çeynəyib tökür. Sonra babamı bir dəfə də qaldırıb vurur yerə, özü də yıxılır üstünə. Babamın əynində palto varmış. Babam dəvənin altından güclə sivişib çıxır, palto qalır dəvənin altında. Dəvə elə bilir ki, altındakı babamdı. Nənəm and içirdi ki, dəvə düz üç gün həmin paltonun üstündən durmadı.

Bundan sonra dəvədən bərk qorxmağa başladım. Bu cür hadisələrə oxşar çoxlu yuxular görürdüm.

V- VI sinifdə oxuyanda hər gün burnumdan qan açılardı, nə qədər dava-dərman edərdilər, kəsməzdi, uzun müddət müalicə olundum, yenə xeyri olmadı. Axırda Xanpəri nənəm bir didim dəvə yunu verib dedi ki, yandırıb tüstüsünü verin uşağın burnuna. Odu-budu, hələ bir dəfə də olsun burnum qanamayıb.

Atamın işi düz gətirməyəndə deyirdi ki, bu at bu dəvəni qaytarmayacaq. Orasını da bilirdim ki, bizim dəvəmiz yox idi və atamın qayıtmayacaq dediyi, görəsən, kimin dəvəsiydi. Hər halda, atam bu sözü düz gəlməyən işlərə deyirdi. Mən elə bilirdim, bizim heç vaxt dəvəmiz olmaz, dəvə həmişə uzaqda olmalıdı və biz də uzağa gedəndə həmin dəvənin yanından həsrətlə baxıb keçə - keçə əl çalmalıyıq.

Bir gün babam mənim dəvə həsrətimi görüb bir əhvalat danışdı. Dedi, ay bala, mənim dəvəm olanda heç kəsin dəvəsi yoxuydu. 1942-cü ilin fevral ayı idi. Bax, bu Şirinqumun boynuna yenicə düşmüşdük. Dəvəmiz göyçək bir maya doğdu. Maya

deyirəm ey , sənə, elə bil yumurta sarısı... Dəvə balasını nə çox istəyərmiş, qardaş, - babam bu sözü deyəndə üzünü özündən kiçik qardaşına tutdu və bununla həm sözünün təsdiqini aldı, həm də söhbətin duzunu artırırdı -dəvə balasını gözündən qırağa qoymurdu. And olsun Allaha, o ili qış adamın ağzının suyunu dondururdu, maya da tir-tir əsirdi. Axırda mayanı gətirdim alaçığa, yaxşı yer düzəltdim, odun peçinin yanında. Elə bil mayanın içəridə olması bizi bədnəzərdən qoruyurdu. Anası balasını görüb toxtamaq üçün başını içəri salıb kövşəyirdi. Mayanın ətri evimizi başına götürmüşdü. Gecələr mayanı içəri gətirir, gündüzlər çölə buraxırdıq. Axşam düşən kimi maya özü gəlib içəri girirdi. Mayanın nəfəsi ruhumuzu dincəldirdi. O maya içəri gələndən ayaqlarımın ağrısı kəsdi. Arvadın başı ağrıyırdı, o da səngidi. Maya bizim söhbətlərə diqqətlə qulaq asar, hərdən də boynunu o tərəf - bu tərəfə əyərək özünü evin halalca bir sakini kimi hiss edərdi. Elə bil maya yaddaşına nəyisə yazırdı, nəyisə yadında saxlayırdı. Maya gündüzlər uzaqlara gedib otlayardı. Sürü örüşdən qayıdanda maya da özünü çatdırardı evə. Ağzından güllərin - çiçəklərin ətri gələrdi. Mayanın fəhmi hamımıza sirayət eləmişdi. Bir gün içəri gəlməsəydi, biz ocaq başına yığışa bilməzdik. Elə bil bizi ocaq başına maya cəm eləyirdi.

Günlər keçir, maya böyüyürdü. Artıq evə sığışmırdı. Qabaq dizləri süfrəmizə dirənir, başı süfrəmzin üstündə o yana - bu yana yellənirdi. Qərara aldıq ki, onu alaçığın qabağında yatırdaq. Elə də etdik. Bir də nə görsək yaxşıdır; maya boğazını içəri uzadib bizə baxır. Məni ağlamaq tutdu. Dedim, İlahi, sənə min şükür. Gör mayanın ürəyinə nətər sevgi verib ki, o bizdən, biz də onda ayrı dura bilmirik. Hər axşam maya qapının ağzında yatar, başını da içəri salardı.

Maya lap böyümüşdü. Boy-buxunu, odeey, lap uzaqdan görünürdü. Gecələr isə başı süfrəmizin bəzəyi idi. Bunu el-obada hamı bilirdi. Oğul, elə bil gözə gəldik. Dedilər, Stalin yoldaş əmr verib ki, camaatda nə qədər dəvə varsa, yığılsın. Dəvə ilə cəbhəyə ərzaq-sursat daşıyacaqlar. Əsgərlər gəlib bizim də fermaya çıxdılar. Baxan kimi gözləri mayanı tutdu. O saat da mayanı tutdular. Yalvardım ki, yerinə neçə at deyirsiz, verim, amma mayanı aparmayın. Dedilər, Stalin yoldaş dəvələri tapşırıb. Aparanda maya bizə baxıb bozdadı. Gözündən gilə-gilə yaş axdı. Getmək istəmirdi, bir-iki ağacdan sonra maya daha ferma tərəfə baxmadı. Maya qara nöqtə kimi gözdən itdi. O axşam süfrəmiz açılmadı. Səhərə kimi ağlaşdıq. Elə bil oğlumun birini müharibəyə aparmışdılar. Mən bilirdim ki, harda alaçıq görsə, maya başını alaçığa salıb bizi axtaracaq. Amma heç kəs mayanın sevgisini anlamayacaq, əksinə, onu döyəcəklər.

Babam bunu deyəndə lap hönkürdü.Özünə gələndən sonra başladı danışmağa:

- Getdik dağa, gəldik arana; yenə getdik dağa, gəldik arana - oldu düz iki il, maya, deyəsən, yadımızdan çıxmışdı. Elə bu yurdda oturmuşduq. Boz ay idi - sümük üşüdən ay. Oturub Haramı düzünə tərəf baxırdım. Gördüm uzaqda, təsbeh dənələri kimi, nəsə səyriyir. Gozümü ovuşdurdum, gördüm dəvə kərvanıdır. Amma içində bir dəvə oynayır, bizim yatağa tərəf bozdayır. Yanındakılar burnunun üstünə vururlar, yenə dəvə fınxırır. Axır ki, dəvə ovsarı qırıb, biz tərəfə qaçmağa baladı. Adamlar düşdülər dalınca. Durdum ayağa, gördüm ki, gələn mayadır. Maya yüklü idi. Alaçığa çatan kimi maya dizlərini yerə qoyub başını içəri saldı. Başladı ağlamağa. Bala, - babam deyir, - gözümdən yaş sel kimi getdi. Əsgərlər gəldilər, mayanı vurub qaldırdılar. Dedim, qoyun bir az qalsın. Bala, rus nə qanır dəvə nədir?! “Xıx” sözünü də bilmirlər, dəvəni ağacla yatırdıb, ağacla qaldırırlar. İçlərində bir musurman var idi - özbək. Dedi, iki ildi bu dəvəni ancaq döyürük. Soruşdum, bala, niyə? Dedi, başını həmişə bizim kazarmalara salır, elə bilirik bizi dişləyəcək. Bu sözü eşidəndə sinəmə dağ çəkdilər. Göyüm-göyüm göynədim. Mayanı döyə-döyə aparıb karvana qatdılar, gözdən itənə qədər maya boynunu düzəltmədi.

Sonra babam əlini çarpaz şəkildə sinəsinə çəkib dedi: bala, müharibənin məndə elə də dağı var, belə də. Rus nə qanır dəvə nədi?!

Babamın danışdığı bu əhvalatdan sönra Eyvazallara getmək istədim; dəvə ilə şəkil çəkdirməyə. Elə bilirdim, adam yaxında şəkil çəkdirməz, uzaqda çəkdirər, ya əsgərlikdə, ya da Eyvazallarda...

# "Bir nadan sözünə susuramsa mən..."



Bəxtiyar Vahabzadənin poeziyasında "Lirik xarakter və konflikt" mövzusunda araşdırma aparmaq istəyim şairin son televiziya müsahibəsində jurnalistə etdiyi bir etirafdan sonra baş qaldırdı. Şair həmsöhbətinin növbəti sualından təsirlənib həyəcanla dedi: "Hər şeyi başa düşürəm. Bir özümü başa düşə bilmirəm. Bax, qarşımda oturmusan. Səni özümdən yaxşı tanıyıram. Biri mənə desə ki, Mirşahin belə eləyib, deyərəm, yox, eləməz, onu yaxşı tanıyıram. Amma mənə desələr ki, sən belə eləmisən, deyərəm ki, ola bilər, çünki özümü tanımıram. Ömrüm boyu özümü dərk eləməyə çalışmışam. Görüm mən kiməm, mən nə istəyirəm, qərəzim nə, məqsədim nə?" (Sitat ANS-in internet saytından götürülüb). Şairin məşhur "Bircə ondan razıyam ki, özümdən narazıyam" misrası yada düşdü. Cildlərini vərəqlədim. Sən demə, "Özümü axtarıram" motivi və lirik xarakterindəki əksliklərə görə öz-özü ilə cəngi-cidalı B.Vahabzadə poeziyasında yarıməsrlik bir ömür yaşayıbmış. Hələ 1962-ci ildə o, yazmışdı:

***Tanıyıram - ömrümdə***
***İlk dəfə gördüyümü***
***Bəzən bircə sözündən.***
***Ancaq özüm-özümü***
***Tanımıram hələ mən...***
***Ömrün dolaylarında***
***Özümü axtarıram.***

1983-cü ildə yazırdı:

***Öz-özümə naməlumam,***
***Mən hamıya məlum ikən...***

1989-cu ildə yazırdı:

***Dünyanın sirrini bilmək istədim,***
***Mən özüm-özümə elə sirr ikən.***

Lirik şeirin yaranmasında şairin fərdi yaşantıları, duyğu-düşüncələri, hissi-emosional vəziyyəti iştirak etsə də onun, əlbəttə, istedadlılıq siqlətindən asılı olaraq digər insanların da könül dünyasına yad olmadığı, məhz buna görə də bəyənilib sevildiyi məlumdur. Tanınmış rus ədəbiyyatşünası L.Qinzburq haqlı olaraq yazırdı: "Lirikanın öz paradoksu var. Ədəbiyyatın ən subyektiv növü olmaqla o, digərlərindən daha artıq ümumiyə, ruhi aləmi ümuminki kimi təsvirə meyillənir". Digər tərəfdən, şairin öz zamanının övladı olması və yaradıcılıq pafosunun səmimiyyətə köklənməsi müqabilində zamanın tarixi həqiqətlərini daha düzgün inikas etməsi də danılmazdır.

B.Vahabzadənin poeziyasında lirik xarakterin qütbləşməsi sarıdan həyəcanları yarım əsrdən bəri bir çox şeirlərinin məzmunundan savayı sərlövhələrində belə yer almışdır: "Haqq - zorakılıq", "Qanmaq - qanmamaq", "Xeyir - şər", "Qışqırtı -pıçıltı", "Ölüm - həyat", "Bəhanə - gerçək", "Üz - astar", "Tapmaq - itirmək" və s. və i.a.

Lirikada konflikt problemi ədəbiyyatşünaslıqda nəzəri aspektdə çox az öyrənilmişdir. Əsasən rus şairlərindən M.Y.Lermontovun və S.A.Yeseninin yaradıcılığından bəhs olunan tədqiqatlarda lirik "mən"in ikiləşməsi, bədii şüurun gözəl, işıqlı duyğularla süslənmiş yarımkürəsinin qara fikirlərin hücumlarına məruz qalması sarıdan araşdırmalara geniş yer verilmişdir. Bu səbəbdən daxili aləmdə gedən dramatik toqquşmalar, vuruşlar və nəhayətdə, lirik "mən"in fiziki məhvi ilə iç düşmənin məğlubiyyəti insanın ali varlığının qələbəsi, əbədiyaşarlığı kimi təsdiqini tapmışdır. Böyük rus şairi V.V.Mayakovski S.A.Yeseninin ölümündən əvvəl çap etdirdiyi şeirlər barədə yazmışdı: "Bu misralardan sonra Yeseninin ölümü ədəbi fakt oldu. Dərhal aydın oldu ki, bu qədər çarpışmaları olan bu güclü şeir, məhz şeir, kəndiri boğaza keçirməyə və revolverə gətirib çıxarmalı".

B.Vahabzadənin də poeziyasında bədii konflikti lirik xarakterin ikiləşməsi, özü demişkən, "öz-özü ilə vuruşu" müəyyənləşdirir. İnsanlığın, gözəl duyğular daşıyıcısı bir şəxsin - şairin belə ruhi çarpışmalara məruz qalmasının səbəbi nə?

***Ömür yolum - içimdəki vuruşlarım,***
***Tutuşmuşam, çaxmaq yoxdur alışmağa,***
***Qaynayıram təpərim yox nə coşmağa, nə daşmağa...***

Bu vuruşun kökünü araşdıraq. B.Vahabzadənin yaradıcılığa başladığı müharibədən sonrakı illərdə artıq Azərbaycanın ziyalı zümrəsi 1937-ci il repressiya burulğanını və 1941-1945-ci illər İkinci Dünya müharibəsi tufanını görüb gəlmişdilər. Dövlət Təhlükəsizlik Komitəsinin "xalq düşməni", "dezertir", "insident" damğalarından sağ çıxanlar çap olunan hər cür yazıya üçmərhələli rəsmi nəzarət şöbələrinin mövcudluğundan xəbərdar idilər. Nəinki qələmə aldıqları sözün yekmənalı tərənnümvariliyinə, hətta dilə gətirdikləri ifadənin də hansısa bir çuğulçu şərəfsizin yanpörtü mənalar çıxara biləcəyi sarıdan da ehtiyatlı davranırdılar (məhz bu səbəbdən 1940-cı illərin sonunda 10-12 universitet tələbəsinin 10 il həbs cəzasına məhkum edilmələri faktı hamıya məlum idi - S.Q.). Sosializm realizmi doktrinləri ilə formalaşan sosial şüurun ictimai mühitin ideya-estetik düşüncə yönümünün bayraqdarı qismində təsiri çox güclü idi. Bu fikrin təsdiqi üçün 1940-cı illərin sonu, 50-ci illərin əvvəlində yaradıcılığa başlayan gənc şairlərin - Nəbi Babayev (Xəzri), Hüseyn Hüseynzadə (Arif), Adil Babayev, Qasım Qasımzadə, Bəxtiyar Vahabzadə, İslam Səfərli, Qabilin və b. ilk kitablarını vərəqləmək kifayətdir. Onları bacarıqlı bir musiqi təşkilatçısının hazırladığı xor kopellasının repertuarına bənzətmək olardı: oxuduqları mahnıların mətni də, musiqisi də eyni idi: Vətən, sülh, kəndimiz, məktəb, neftçi, həkim, bağban, müəllim və s. Bu dövr şairlərindən Q.Qasımzadənin şəxsi arxivindəki əllinci illərədək ilk qələm təcrübələrini yazdığı 6 şeir dəftəri ilə tanışlıqdan sonra belə qənaətə gəldim ki, nəşr olunmuş kitablarında bədii intonasiyasını bir-birindən fərqləndirmək mümkünsüz görünən bu xor kapellasının ifaçıları öz nəğmələrini iç aləmində oxuyurlarmış və zamanını gözləyirlərmiş.

Əllinci illərin axırlarına doğru ictimai-siyasi mühitdəki şəxsiyyətə pərəstişin ifşasından sonra ümid bəslənən, gözlənilən zamanı tələsdirmək məramı ilə B.Vahabzadə "Gülüstan" poemasını qələmə aldı. Şəki rayon qəzetində çapından çox keçməmiş üzü köçürülərək xalq arasında geniş yayılan bu həqiqət nəşidəsinə görə şairə necə dərslər verilməsini təsəvvür etmək çətin deyil. Şairin əlaqədar distansiyalar tərəfindən mənəvi-psixi sarsıntılara məruz qalması ilə bağlı son televiziya müsahibəsində deyirdi: "Mən bilirdim ki, fəlakətə gedirəm,

ancaq cəsarətim var idi. Yazdım. Altmışıncı illərin əvvəlində həbsimə qərar verilmişdi. Hər gecə evimizin qabağında maşın dayananda qorxurdum". 1972-ci ildə yazdığı "Qorxu" şeirində oxuyuruq:

***Biz qorxuruq,***
***Təzə fikir beynimizə gələn kimi***
***Tez qorxuruq.***
***Başqasından qorxduğumuz bəs deyilmiş***
***Özümüzdən biz qorxuruq!***
***Qorxu, qorxu!...***
***Bir qurd olub yeyir bizi içimizdən.***
***Nə gözləyir Vətən bizdən.***
***İradə yox, kişilik yox,***
***Biz qorxuruq, biz susuruq.***
***Qorxu bizim dilimizdə kilid olur,***
***Beynimizdə qıfıl olur.***

Gənc şairin geniş üfüqlərə pərvazlanan lirik-romantik duyğularını misralara çevirmək məqamında fikrini-hissini buxovlamaq məcburiyyəti onun bədii şüurunda ikiləşməni bir növ qaçılmaz edirdi. Lirik "mən"in etiraflarında şairin şəxsiyyətini parçalayan bu iztirabları duymamaq, səbəbini dərk etməmək mümkün deyil:

***Həqiqəti deməkdən elə qorxduq...Ağılla***
***Həqiqət arasında hörümçək tor bağladı.***

Yaxud:

***Xalq yolunda candan keçən ərənləri***
***"Xalq düşməni" damğasıyla***
***Ləkələyib məhv etdilər.***
***Haqq adına haqqı yıxıb sürütdülər.***
***Bozu ağdan seçənləri,***
***Zindanlarda çürütdülər.***

Və təsadüfi deyil ki, az sonra B.Vahabzadə ümumsovet məkanında yaradıcı insanın mənəvi vəziyyətinə güzgü tutaraq yazırdı:

***Bugünsə mən***
***Yaxşılıqla pis,***
***Haqla nahaq,***
***Yalanla ağ arasında dayanmışam.***
***İndi çalar çalasında mən ehtiyat məktəbini bitirmişəm.***
***Zidd qütblər arasında sərhəd çəkən hüdudları itirmişəm.***

Şairin 1974-cü ildə yazdığı "Belə qalmaz" şeirindəki etirafı da ağrılıdır. Totalitar rejim şəraitində ictimai şüurun hansı təzyiqlərə məruz qalması, insanın azad düşünmək, xalqın taleyüklü sosial problemləri barədə azad fikir yürütmək kimi hüquqlarının təhdid altında olması Bəxtiyarın şeirində həmin zamana tarixin verəcəyi kəskin ittihamlara çevrilirdi .

***Fikirləri güllələyib.***
***Xəyalları öldürdülər.***
***Düşünənin yanan qəlbi***
***Fikirlərin qəbristanı.***
***Kimə verək başsağlığı?***
***Ölənlərin sahibi yox.***
***Biz işıqlı fikirlilər***
***Bir fikirsiz, əqidəsiz***
***qulbeçəyə qul olmuşuq!..***
***Heç bilmirik nə məsləkdə,***
***nə dindəyik.***

***Biz hamımız kibrit boyda***
***Qutuların içindəyik.***

Şairin 1979-cu ildə yazdığı "Bəli, əsəbiyəm" şeirindəki sərt emosional ovqatın da səbəbkarı məhz ictimai-sosial mühitdəki mənəvi tənəzzülə aparan sosial durum idi. Doğrudur, bu qism şeirlərdə publisistik çalar obrazlı təcəssümü üstələsə də bədii həqiqətin zamanın fövqündən yüksək ümumiləşdirici keyfiyyəti və fikri-hissi ekspressivlik onun sənətkarlıq dəyərini enməyə qoymurdu. Həmçinin şairin öz-özü ilə belə həsb-halları içindəki ikinci "mən"in prototipi olan gerçək ünvanları da tarixin yaddaşı üçün aydınlatmaqdadır:

***De, necə od tutub alışmayım mən?***
***Fikirsiz, məsləksiz ölü canlara?***
***Sənin qərəzinin mənə dəxli yox.***
***Mənim öz görüşüm, öz qərəzim var.***

İngilis yazıçısı Corc Oruell hələ 1941-ci ildə sovet quruluşundakı yaradıcı insanların vəziyyəti barədə qənaətlərini belə şərh edirdi: "Totalitar dövlət mütləq öz təbəələrinin fikir və hisslərini nəzarətdə saxlamağa çalışır. Nəinki müəyyən bir fikir ifadə etmək, hətta ağızdan qaçırmaq qadağan olunur, həm də məhz nəyi, necə düşünmək lazım olduğu ideolojilər yaranır". (Bax: "Yeni Azərbaycan" qəzeti, 17 may 2002) B.Vahabzadənin dövlət ideolojilərinə sığmayan bədii-fəlsəfi fikir axarına sipər çəkən maneələr onun lirik xarakterinin bütövlüyünə zərbələr endirməkdə idi: "Gözünlə gördüyün mən, ayrı məndir, Əsil mən gözünə görünməyəndir" - deyə şair "mən"inin ikiləşməsini "İkilik" şeirində də etiraf edirdi:

***Əgər bağlanmırsa sözüm özümdən,***
***Başqa mən əyləşib mənim yerimdə.***
***Bir nadan sözünə susuramsa mən,***
***Demək, gizlənmişəm mən öz səbrimdə.***

Ancaq şairliyi müqəddəsliyin töhfəsi bilən Bəxtiyar onu "əsrin vicdanı", "həqiqətin, haqqın güzgüsü", "dünyaya zamanın sözü" olduğunu bəyan edir və nəhayət "Şair - cəmiyyətin üsyan səsidir" - deyə hökmünü verirdi; "Şeirim - namusum mənim, şeirim - vicdanım mənim, Şeirim - imanım mənim!" - deyə qürrələnirdi. Corc Oruellin belə bir fikri də maraqlıdır ki, "azca da olsa, dəyər kəsb edən ədəbiyyatın yaranması yazan adamın öz yazdığının həqiqət olduğunu hiss etdiyi zaman mümkündür. Əgər bu yoxdursa, deməli, yaradıcılıq instinkti də tədricən yoxa çıxacaq".

Əqidəsindən dönməz olduğunu dəfələrlə vurğulayan Bəxtiyar ictimai şüurun manqurtlaşması mühitində təslimçilik deyil, fədakarcasına müqavimət göstərmək əzmində olmuşdur. O, ürəyinin hər döyüntüsünü, vurğusunu etibar etdiyi şeirlərindən birində yazırdı:

***Mən olduğum kimiyəm,***
***Sən belə də gör məni.***
***Vur məni, öldür məni!***
***Hər sözünə, əmrinə***
***Qul olub əyilmərəm!***
***Sümüyümə düşməyən***
***Sən çaldığın havaya***
***Mən oynaya bilmərəm.***

Sovet ideoloji təzyiqinin tədricən tükənməkdə olduğu durğunluq abhavasında ictimai-siyasi proseslərin təsirilə cəmiyyətin mənəvi şüurundakı dirçəliş nəticəsində ara-sıra "zəmanənin güzgüsü" olan bədii əsərlərdə sosial gerçəklikdəki həqiqətlərin bədii inikasına da imkan yaranırdı. Lakin totalitar rejim hələ köhnə dayaqlarından ayrılmamışdı. Fərdi şüurun salındığı "kibrit qutusu"nun həcmi genişlənsə də üzləri hələ kip bağlı idi.

B.Vahabzadənin poeziyasında xalqın konkret bir zaman biçimində bütövlükdə iç dünyasının gündəliyini vərəqləmək mümkündür. "Belə qalmaz", "Səbr elədik", "Köhnə bayatı", "Qurbanlıq quzu", "Diz üstə", "Həqiqət", "Başqasının yasında" və s. şeirlərində şair öz zamanının ümum könüllərdə qubar bağlayan ağrı-acılarının tarixini yazırdı:

***Haqqımızı biz qanmadıq,***
***Biz bu günü yola verib***
***Gələcəyə inanmadıq.***
***Keçirdik öz əlimizlə***
***Boynumuzu biz xaltaya,***
***Sap olmadıq biz baltaya.***
***"Ac" olsaq da "toxuq" dedik.***
***Biz ucadan "bəli" deyə çox bağırdıq,***
***Qəlbimizdə "yox, yox" dedik.***

Şeirləri oxuduqca lirik "mən"də şairin səmimilik, əqidəlilik, cəsarət, həqiqətpərəstlik, haqsızlıqla barışmazlıq kimi keyfiyyətlərlə mayalanmış əsil siması ilə yanaşı, onu yalana, mütiliyə, ehtiyatlılığa çağıran ikinci "mən"in də mövcudluğu lirikasındakı konflikti dramatikləşdirir, ona ictimai-fəlsəfi çalar verirdi.

Bəxtiyar Vahabzadə yaradıcılığında lirik xarakterin qütbləşməsinə gətirib çıxaran ictimai-siyasi səbəblər dövrün digər şairlərinin də bədii şüurunda yer almış, zamanın maddi, mənəvi gerçəkliklərini tərənnümçülüklə yanaşı həm də sosial varlığa müxalif münasibət Məmməd Araz, Xəlil Rza, Qasım Qasımzadə və b. şairlərin də yaradıcılığında "Dünya düzəlmir ki, düzəlmir, baba!" (Məmməd Araz) yanğısı ilə vurğulanmışdır. Əksər halda şairlər bu qəbildən olan düşüncələrini xarici ölkələrə səyahət zamanı yazdıqları şeirlərdə səfər təəssüratlarına yükləyir, xalqın, Vətənin ağrılarına müəyyən eyhamlı işarələr edirdilər. Bu həqiqəti də Bəxtiyar 1981-ci ildə yazdığı bir şeirində tarixin yaddaşına köçürmüşdür:

***İçimi göstərmədim cahil tutan güzgüyə,***
***Üzdə gülüb, içimdə müşkülümə ağladım.***
***Millətimin dərdini ünvanlayıb özgəyə***
***Başqasının yasında öz ölümə ağladım.***

Elmi-nəzəri qənaətlərə görə "Lirikada subyektin daxili həyəcanları ümumin ovqatını, ruhunu özündə cəmləyir... Lirik yaradıcılıqda zaman özünün bütün əkslikləri ilə ifadə olunur". (L.Ginzburq) B.Vahabzadə poeziyasındakı lirik xarakter şairin fərdi simasından nəşət etsə də özündə məhz zamanın - iyirminci yüzilliyin ikinci yarısındakı insanını ümumiləşdirmişdir. Şair - zamanın mütəfəkkir siması olaraq xalqının, vətəninin taleyüklü problemlərində mənəvi-əxlaqi tənəzzülə aparan məqamlara laqeyd qala bilmirdi. O, insanın şüur azadlığını buxovlayan, firavan yaşamının yollarını bağlayan qüvvələri yenməyin mümkünsüzlüyü müqabilində xarakterin ikiləşməsi iztirablarına məruz qalmışsa da xalqın hüquqsuzluğuna bais ictimai durumdakı qaranlıqlara məşəl olmaq amalı ilə yanaraq yaratmışdır. Buna görə də poeziyasında zamanın həqiqətlərini deməyə qürrəli olan Bəxtiyar Vahabzadə Azərbaycanın XX yüzillikdə əbədiləşən böyük şairlərinin dünyasında məskunlaşmışdır.



***Safurə QULİYEVA***

⁂

# ◆ Dünya, səndən kimlər keçdi...

# ÖMƏR FAİQ NEMANZADƏ



"Oxucularımız Ömər Faiq Əfəndizadənin kim olduğunu bilirlər. Faiq əfəndi "İrşad", "Tərəqqi" qəzetləri vasitəsilə və daha əvvəl "Şərqi Rus"da nəşr elədiyi ötgün məqalələri ilə təməyyüz etmiş dəyərli mühərrirlərimizdən və hərarətli cəmaət xadimlərimizdəndir. Onun daha böyük şöhrəti, daha dəyərli və faydalı xidməti, məşhur "Molla Nəsrəddin" məcmuəsi zamanında keçmişdir".

"İqbal" qəzetinin 20 yanvar 1915-ci il nəşrindəki "Ömər Faiq əfəndi" adlı bu yazıdan da göründüyü kimi, Nemanzadə kəskin qələmi olan bir mühərrir, ilk xalq mücahidlərindən biri idi. Millətin müasirlik fəlsəfəsi, zirvədən düşən işıqda yeri, milli özünüdərki, bütünlükdə bəşəriyyətin sivilizasiya iştirakçısı kimi özünü təsdiqləməsi, şüur intibahının ideyada təsdiqi bütün yaradıcılığı boyu əsərlərində öz əksini tapmışdır.

Ömər Neman oğlu Nemanzadə 1872-ci ildə Tiflis quberniyasının Axalsix qəzasının Azqur kəndində ortabab kəndli ailəsində anadan olmuşdur. Ailənin əsas məşguliyyəti bağçılıq idi. Anasının arzusu ilə molla məktəbində təhsilə cəlb olunan Ömər Faiq mənasını bilmədiyi sözləri əzbərləməkdən bezib, bu məktəbdən imtina edir. Bu dəfə isə o, atasının təkidi ilə rus dilində yeni açılmış hökumət məktəbinə göndərilir və eyni zamanda, əlavə müəllimlərdən rus dili öyrənərək Qori şəhərindəki Zaqafqaziya müəllimlər seminariyasına daxil olmağa hazırlaşır.

Qoriyə ərizə göndərilir və müsbət cavab gəlir. O gündən evdə valideynləri arasında ciddi söz-söhbət başlayır. Dindar qadın olan anası Həmidə xanım oğlunun ruhani təhsili alması üçün İstanbula göndərmək istəyirdi. Dayısı Osman Əfəndizadənin Türkiyədə -Konstantinopolda yaşaması bu istəyin yerinə yetirilməsinə təkan olur. Atanın xəstə bacısını görmək üçün kəndə getməsindən istifadə edən Həmidə xanım balaca Öməri Osman Əfəndi ilə İstanbula yola salır. 1882-ci ildə İstanbula gələn Ömər, Fateh Başqurşunlu mədrəsində dərs deyən dayısının müəllimliyi ilə ərəbcə təhsilə başlayır. Dayısı ona ərəbcə sərf - nəhvdən dərs verir, balaca Ömərsə, bütün gün axşama qədər yalqız oturub anlamadığı, sevmədiyi dərsləri əzbərləməyə çalışır. "Bir yerdə büzüşüb axşama qədər oyunsuz, işıqsız, yoldaşız yaşamaq" Ömərdə mədrəsə həyatına qarsı nifrət və üsyan oyadırdı.

Bir gün dayısı ilə Soltan Səlim Camesinə gedərkən yolun kənarında geniş bir bağçanın ortasında "dordqatlı bir yapı" onun diqqətini çəkir. Bu təsadüf Ömər Faiqi sevmədiyi mədrəsə həyatından dərs proqramı və daxili nizam-intizamına görə nisbətən dünyəvi elmlərə meyilli olan, bu xüsusiyyətinə görə digər məktəblərdən fərqlənən Darüşşəfəq məktəbinə istiqamətləndirir. Bu məktəb dövlət hesabına açılmış bir tədris ocagı idi və əsasən, kimsəsiz uşaqlar təhsil alırdı. Onun müdavimlərindən dövlətə sadiq qulluqçular hazırlmaq nəzərdə tutulurdu. Bu

səbəbdən məktəbdə şəriət dərslərindən əlavə, tarix, fizika, kimya, kosmoqrafiya, zoologiya, coğrafiya fənləri də tədris olunurdu. Dillərdən fransız dilinin öyrənilməsinə xüsusi əhəmiyyət verilir, bəzi fənlərsə fransız dilində tədris edilirdi. Dünyəvi fənlərin tədrisi Ömər Faiqə yeni dunyagörüşü aşılayır. O, 1883- 1891-ci illərdə burada təhsil alır. Məktəb pansion olduğu üçün tələbələr həftədə bir gün, cümə axşamı İsatanbulda yaxınlarının evlərinə buraxılırdılar. "Darüşşəfəq"də tələbələrin camaat və ümumi həyatla əlaqələri tamamilə kəsilir, sərbəst ictimai-siyasi düşüncələrə qətiyyən yol verilmirdi. Tələbələr inqilabçı türk gənclərinin fəaliyyəti ilə gizlincə tanış olur, qəzet-jurnal oxuyur, Namiq Kamal, Tofiq Fikrət, Mahmud Əkrəm Rəcaizadə, Naci, Hacı İbrahim kimi inqilabçı maarif xadimlərinin istibdad əleyhinə yazılmış əsərlərini əldə edirdilər.

Ömər Faiq səkkizinci sinifdə oxuyarkən tələbələrlə inzibati heyətin arasının getdikcə açıldığını xatirə qeydlərində bildirirdi: "Müdir və məmurların keyfi, hərəkətləri artdıqca tələbələrin də müdafiə və mübarizə qüvvələri artırdı və bu hal böyük siniflərin narazı tələbələri arasında bir qrup vücuda gətirdi. Bu qrup əlyazması ilə bir məktəb qəzetəsi nəşr etmək təcrübəsinə girişdi".

Ayda bir dəfə çıxarılan bu məktəb qəzeti məktəb idarəsi, müdir və məmurlar əleyhinə, sonra isə məktəb və nəzarət heyəti qərarlarına, dərs proqramlarına qarşı şiddətli yazılarıyla tələbələrdə maraq və həvəsi genişlədərək, həftədə bir dəfə çıxmağa başladı. Qəzet çox gizli hazırlansa da, xəfiyyə orqanları xəbər tutur və məktəb məmurları və tələbələr arasında ciddi münaqişə yaranır.

Müdiriyyətlə tələbələrin əlbəyaxa vuruşması ilə nəticələnən "Məktəb üsyanı" yaxın qaravulxanadan gələn əsgər süngüləri ilə susdurulur. Cəza məhkəməsi isə daha ağır olur; "Günahkar" sayılan hər bir tələbəyə 40-50 zopa və iki-üç ay həbs cəzası verilir. Ömər Faiqin payıına isə, 30 zopa və bir ay həbs cəzası düşür. "Zopalardan sonra yarım saata qədər olduğum yerdən qalxa bilmədim. Qalxandan sonra da düz həbsə göndərildim. Bu həbs yadıma gələndə indi də diksinirəm."

1891-ci ildə məktəb şəhadətnaməsini alan Ömər Faiq Avropa ilə əlaqədə olan Qalata poçtxanasında işə başlayır. İdarənin yazıları fransızca idi. Ömər Faiqin bu poçtxanada vəzifəsi Avropadan gələn poçt və teleqrafları qəbul etmək olsa da, Avropa qəzet və jurnalları ilə tanış olmaq fürsəti də qazanır. Avropadakı demokratik ruhlu türk mühacirlərinin yazılarını, onların Əbdülhəmid hökümətinə son dərəcə mənfi münasibəti ilə tanış olur, türk inqilabçı şairlərinin bədii irsini davamlı şəkildə izləyərək inqilabçı türk gənclərinə qoşulur. inqilabçılarla əməkdaşlığı, onların gizli fəaliyyəti xəfiyyə tərəfindən aşkar edilir. Tutulduqları "təqdirdə yerlərimizin dəniz dibi olduğuna" şübhə etməyən inqilabçılar əcnəbi gəmilərin kömürçülərinə əllərində olan pullarını və üst paltarlarını verərək böyük çətinliklə qaçıb ölkəni tərk edirlər. Rus gəmisinə sığınan Ömər Faiq 1893-cü ilin mayında Batuma gəlir.

Ömər Faiq doğma kəndi Azqura qayıdanda artıq həyatın acısını dadmış, ictimai şəraitə fəal münasibət bəsləyən yetgin bir gənc idi. O, doğma yerlərindəki avara həyata, dini boşboğazlığa qarşı mübarizə aparmaq cəhdi ilə adamları başına yığaraq Türkiyədəki ictimai ədalətsizlikdən söhbət açır, əhalinin yoxsulluğundan və savadsızlığından, məktəb və maarifin, elmin, şəxsiyyət azadlığının əhəmiyyətini izah edirdi. Bu söhbətlər din xadimlərini narahat etdiyi üçün tezliklə Ömər Faiq "kafir", "dinsiz" elan edilərək "Gavur Ömər" a başlandı.

O vaxtlarda Ömər Faiqin Azqurda açmaq istədiyi kiçik milli məktəbə hökumət icazə vermədi. Hətta o, "hökumət əleyhinə propoqanda edirsən"-deyə ittiham edilərək tutulmaq təhlükəsi ilə də üzləşdi.

Belə bir şəraitdə Ömər Faiq "türk mətbuatında və ya hökumət məktəblərində çalışmaq ümidi ilə" Tiflisə gəlir, çox idarələrə müraciət etsə də, müvafiq iş tapa bilmir. Bir neçə türk ziyalı yoldaş tapıb onlarla birlikdə bir mətbəə açmaq, kiçik bir məcmuə nəşr etmək cəhdi də uğursuz olunca, Ömər Faiq "mərkəzdən uzaq bulunan şəhərlərdə yeni üsulla milli məktəblər açıb xidmət etmək mərkəzə qulluq etməkdən xeyirlidir" - düşüncəsilə 1894-cü ilin payızında Şəkiyə gəlir.

"Şəkidə 1892-ci ildə bir üsulu-cəhdid məktəbi açmaq üçün dövlətdən icazə alınmışdı. Bu, Şəkidə ilk üsuli-cəhdid məktəbi idi." Bütün xərcləri maarif cəmiyyəti tərəfindən ödənilən bu məktəb müəllim olmadığı üçün dünyəvi fənlərin tədrisinə az yer verərək dərs proqramını geniş şəkildə tədris etmirdi. Maarifi, xalqın savadlanmasını azadlıq yolunda əsas şərtlərdən biri hesab edən Ömər Faiqin fəaliyyəti vəziyyəti kökündən dəyişdirir. Şagirdlərin sayı 200-ə çatır, dərs proqramı yenidən tərtib olunur. Şeyxzadə Hacı Hafiz Məhəmməd Əfəndi, Molla Tacəddin, Qəzənfər Qarabağlı və Ömər Faiqdən ibarət məktəb heyətində tarix, coğrafiya, hesab və imla dərslərinin tədris yükü Nemanzadənin öhdəsində idi. Bu tədris üsulunun ən mühüm cəhəti ondan ibarət idi ki, tədris ana dilində aparılır, rus dili müstəqil fənn kimi keçirilir, dərs proqramında dünyəvi fənlər əsas yer tuturdu.

Ömər Faiqin əhəmiyyətli təşəbbüslərindən biri də, gənc müəllimləri ətrafına toplayaraq, Şəkidə teatr tamaşaları hazırlaması idi. M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının tamaşaya qoyulması şəhərdə böyük canlanma yaratmışdı, "Tərcüman" qəzetinin verdiyi məlumata görə, "bu kimi ədəbi tamaşayı ibtida görən əhali çox məmnun" olmuşdur. "Məstəli şah" rolunu Məşədi Mehdiqulu, "Müsyo Jordan"ı isə, Ömər Faiq oynamışdır. Tamaşadan əldə olunan "204 manat pulun bütünlükdə birinci məktəbi-cədidəyə ianə" olduğunu məlumat verən "Tərcüman" qəzeti, həvəskar ifaçılar içərisində Ömər Faiqi xüsusi qiymətləndirmişdir.

1896-cı ilin yazında Şəkidə "qızdırma azarına" tutulan Ömər Faiq həmin ilin payızında müalicə olunmaq üçün Gəncəyə gedir. Bir neçə aydan sonra Azqura qayıtmış, 1896-1898-ci illərdə burada yaşamışdır. O, Tiflisi türk aləminin mərkəzi, türkcə mətbuat nəşri üçün ən münasib yer sayır, türkcə nəşriyyat axtarmağa cəhd edir. "Vorontsov heykəlinin yaxınlığında Peçka küçəsində" yerləşən türk mətbəəsi və müdiri Kamal Əfəndi Ünsizadə ilə qarşılaşsa da, mətbəəyə ortaq ola bilməyən Ömər Faiq bu arada müfti Hüseyn Əfəndidən təklif alır və 1898-ci ilin fevralında Şəkiyə qayıdır.

1900-cü ilin yazında Ömər Faiq Bakıya gəlir və "bu zəngin qara qızıl ocağında türkcə nəşriyyat və maarif təşkilatı adına ciddi bir şey" görmür. "Türklərin rusca "Kaspi" qəzetəsi və mətbəəsindən başqa mətbuat adına bir şeyləri yox idi... Burada Tağıyevin açdığı qız məktəbini görməsəydim, Bakının türk maarifi üzərinə qara bir cizgi çəkəcəkdim".

Beş-on günlük Bakı səyahətindən sonra Tiflisə dönən, burada da az qalan Ömər Faiq 1900-cü ilin payızında Şamaxıya gedir, pedoqoji fəliyyətini burada boş və müəllimsiz olan məscid məktəbində davam etdirir. Bir həftə içərisində 150-ə qədər şagird yığılan bu məktəbdə 1902-ci ilin 31 yanvarına, Şamaxı zəlzələsinə qədər fəaliyyət göstərir. O, təbii fəlakətdən viran olmuş Şamaxıdan böyük çətinliklə, yaralı halda Azqura gələrək bir müddət orada yaşamışdır. 1903-ci ildə xəstə bacısını Tiflisə müalicəyə gətirən Ömər Faiq Naxçıvanda "atadan qalma mülkünün özünə aid hissəsini on səkkiz min manata satmaqla Azərbaycan dilində nəşr etmək istədiyi qəzet və yaratmaq niyyətində olduğu mətbəə üçün zəruri olan vəsait əldə etmiş" Məhəmmədağa Şahtaxtlı ilə görüşərək, "Şərqi-Rus"-un ilk əməkdaşlarından biri olur. Həmin il "xəstə arvadı Nazlı xanım Kəngərlini qayını Məhəmməd Kəngərli ilə birlikdə müalicə etdirmək üçün Tiflisə aparan Cəlil Məmmədquluzadə də burada təsadüfən M.Şahtaxtlıya rast gəlmiş", o da, eyni hadisə ilə rastlaşmış və qəzetə əməkdaşlıq edəcəyinə razılıq vermişdir. "Bununla da əsrin hər iki ictimai xadimin, (Ömər Faiq və Cəlil Məmmədquluzadənin -S.V.) hər iki əməl dostunun gələcəkdə çox çətin, lakin şərəfli birgə fəaliyyətini ilk təməl daşları qoyulur".

1905-ci ilin yanvarında "Şərqi-Rus" qəzeti borca düşüb bağlanaraq mətbəəsi satışa qoyulur.Yeni mətbəə 1905-ci ilin mart ayından "Mirzə Cəlilin sahibi-imtiyazlığı, Ömər Faiqini müdirliyi, Bağırovun maddi yardımı ilə" "Qeyrət" adı ilə fəaliyyətə başlayır. Bu mətbəə ilkin olaraq müxtəlif elmi və bədii kitablar, mübarizəyə, tərəqqiyə çağırış ruhlu əsərlərin çapı ilə Azərbaycan ədəbi-mədəni

həyatında yeni bir mərhələ açır, ”Molla Nəsrəddinçilər” adı ilə məşhur olan fikir cərəyanında bütövləşərək ideya mübarizəsinə qədəm qoyur. Ömər Faiqin 1905-ci il aprelin 2-də senzor komitəsindən çapına icazə aldığı “Nəşri-asara-dəvət” adlı əsəri də bu mətbədə çap edilərək camaata pulsuz paylanmışdır. “Dəvət” kitabının çapından sonra Ömər Faiq O.Volgenşteynin siyasi məzmunlu mündəricəli “Azadə danışmaq və bir yerə cəm olmaq nə üçün lazımdır?” əsərini, “Silk, sinif, firqə” kitablarını da çap edərək geniş oxucu kütləsi arasında yaymağa müvəffəq olmuşdur.

C. Məmmədquluzadənin “Poçt qutusu”, ”Usta Zeynal”, ”İranda hüriyyət”, ”Qurbanəli bəy”, Əhməd bəy Cavanşirin, M.S.Ordubadinin, Namiq Kamalın, Əbdürrəhim bəy Haqverdiyevin əsərləri, Harun Sultanovun “Vətən yolu”, Əbdürrəhim Talıbovun “Məsaiül həyat” və s. kitab və dərs vəsaitləri də ciddi nəzarət, senzor maneələrinə baxmayaraq, “Qeyrət” mətbəəsində işıq üzü görməsi də Ömər Faiqin uğuru idi. “Qeyrət” mətbəəsi fəaliyyətə başladıqdan sonra Ömər Faiq Cəlil Məmmədquluzadə ilə birlikdə “Torpaq” adlı jurnal çıxarmaq üçün hökumətə müraciət etmişdi. Baş mətbuat idarəsi Ömər Faiqin Türkiyədə təhsil aldığını əsas edərək jurnalın nəşrinə icazə vermir. Cəlil Məmmədquluzadənin Novruz” adında qəzet nəşr etmək “arzusu da baş tutmayanda, hər iki məsləkdaş 1906-cı ildə məşhur “Molla Nəsrəddin” jurnalının nəşrinə nail olurlar. Jurnalın rəsmi redaktoru Cəlil Məmmədquluzadə, məsul katibi Ömər Faiq təyin olunur. “Azərbaycan publisistika tarixində orijinallığı, ehtirası, sözünün kəsəri və mötəbərliyi ilə seçilənlərdən biri,...nümunə ola biləcək qələm sahibi sayilan Ö.F.Nemanzadə ilə gündəlik ünsiyyət sayəsində Cəlil Məmmədquluzadə, qəzetçiliyin və naşirliyin sirlərinə yiyələnmişdir”. Bu jurnalın nəşri ilə Ömər Faiqin publisistik fəaliyyətinin yeni dövrü başlayır. “ Molla Nəsrəddin” jurnalı - Azərbaycanda xüsusi ədəbi məktəb yaratmış qüdrətli mətbuat orqanı” idi və burdakı cəsarətli çıxışlarına, prinsipial və barışmaz mövqeyinə görə Ömər Faiq həmişə təqib edilirdi. Dəfələrlə evində axtarışlar aparılmış, yazıları müsadirə olunmuş, felyetonları jurnal və qəzet səhifələrindən çıxarılmışdır. O,1907-ci ildə həbs edilərək Metex qalasına salınmış, ictimaətin tələbi ilə həbsdən azad olunmuşdur. “Molla Nəsirəddin”-in rəssamı O.İ.Şmerlinq jurnalın 2 oktyabır 1907 - ci il, 37-ci nömrəsinin üz qabığında Ömər Faiqin tənqid və ifşa hədəfləri arasında əl-ayağı qandallı, agzında kilidlənmiş qıfilla portretini çəkmiş, çar hökumətinin timsalı olan iki şeytanı zurna ifası ilə, bir tərəfdə ruhani dəstəsini, digər yanda isə xan və bəylərin məğrur dayanan qələm sahibinə məsxərəsini əks etdirmişdir. Dərin ictimai-siyasi məzmunlu bu karikaturanın üzərində “Ömər Faiq Nemanzadə”, altında isə bu misralar yazılmışdır:

***Noldu balam ədaların,***
***O ucalan sədaların,***
***Böyüklərə cəfaların,***
***Sən deyən oldu, biz deyən?***

Jurnalın 39-cu nömrəsində isə M.Ə.Sabir ona “Soldumu gülzarın, ey Faiqi-Neman pəsər” misrası ilə başlayan şeirini ithaf etmiş, hökumət tərəfindən təqib olunan mübariz yazara bu məzmunla xitab edirdi:

***Söyləmədimmi sənə rahət otur, heyfsən,***
***Cəkmə bu millət qəmin , cək özünə keyfi sən,***
***Xanə deyildir sənin, getməlisən, zəyfsən.***
***Eyləmədin etina , qissə haman oldumu?***
***Şimdi sənə mən deyən mətləb əyan oldumu?!***

1912-1914-cü illərdəki fasilələr nəzərə alınmazsa, Ömər Faiqin bu məhsuldar publisisitik fəaliyyəti 1921-ci ildə, dövlət işinə keçənə qədər davam etmişdir. Tarixin mürəkkəb hadisələrlə zəngin olan bu dövründə, xüsusən çar mütləqiyyətinin dağılmasından sonra siyasi hadisələrin tam gedişini müəyyənləşdirmək çox çətin idi. Bu dövrlərdə Ömər Faiq “Axalsixdə müəllimlik edir və ictimai işlərlə məşgul olurdum” və həmçinin, “Axalsix uyezdində əmələ və əsgər hökumətinə üzv idim”-

deyə 1924-cü ildə Gəncə ziraət texnikumunun müdiri olduğu zaman hazırlanmış şəxsi uçot vərəqində qeyd edirdi.

Fevral burjua inqilabından sonra mürəkkəb siyasi vəziyyətdə sovetlərin nəzdində milli komitələr təşkil olunurdu. Axalsixdə də yaranmış milli komitənin əsas rəhbərlərindən biri Ömər Faiq olmuşdur. O dövrün mətbuat orqanlarının qeydlərində Axalsixdə Azqur qəsəbəsində "böyük işlərin görüldüyü" vurgulanaraq, əsas rəhbərin Ömər Faiq olması təsdiqlənir. O, regionda yaşayan azərbaycanlılar və digər müsəlman xalqları arasında böyük ictimai mədəni və siyasi işlərin görülməsinə təkan verdiyi üçün şovinist dairələrin, hətta milli hökumətin də diqqətindən kənarda qalmırdı. Münasibətlər getdikcə kəskinləşir, tərəflərin barışmaz mövqeyi ideya mübarizəsinə çevrilirdi. "1917-1920-ci illərdə Zaqafqaziyada elə böyük ictimai-siyasi hadisələr baş verirdi ki, onlardan baş cıxarmaq, xalqın mənafeyi üçün ümumi faydalı iş görmək özünün dediyi kimi "böyük millətlərin ayağı altında qalıb məhv olmamaq üçün" əsl çıxış yolu tapmaq çətin idi". Milli burjuaziya, xarici müdaxilə, müharibələr, saxta vətənpərvərlik xalqı acınacaqlı vəziyyətə salmışdı. Qafqaz başdan-başa müharibə meydanına cevrilmişdi, ən acınacaqlısı o idi ki, dəhşətli qırğınlara, təhqirlərə məruz qalanlar yenə də Qafqaz türkləri idi.

1918-ci ilin may ayının sonlarında Zaqafqaziyanın üç böyük xalqı hərəsi suveren respublika yaradaraq daxili məsələlərini öz istədikləri şəkildə həll etməyə çalışırdı. Bu dönəmdə Axalsixdə də siyasi vəziyyət qarışıq idi. Axalsixdə xalq yerli hökumət yıxmış, hakimiyyəti ələ keçirmişdi.Lakin təəssüf ki, onu əldə saxlaya bilməmişdi. "Bəsirət" qəzeti 1919-cu il tarixli sayında "martın 7-də saat 1-də Axalsix şəhərinin Gürcüstan qosunları tərəfindən işğal edildi"yini" yazırdı. Yerli əhalinin vəziyyəti daha da ağırlaşaraq dözülməz həddə çatmışdı. Axalsix Milli Komitəsi xüsusən Ömər Faiqin fəaliyyətini məhdudlaşdırırdı. "Gürcü hökumətinin ən ziyadə qorxduğu Ömər Faiq əfəndidir ki, köylü camaatının yanında onun böyük nüfuzu vardır." Gürcüstan Inqilab Komitəsinin fəal üzvlərindən biri olmuş Ömər Faiq bir qrup gürcü fəalları ilə eyni cəbhədə yer almışdı. Həmin vaxtlarda onun ərazidə yaşayan əhalinin əksəriyyətinin Qafqaz türklərindən ibarət olduğu üçün muxtariyyət məsələsini qaldırması, bütün fəaliyyətini xalqın müdafiəsinə, milli hüquqların qorunmasına yönləndirməsi gürcü cumhuriyyətini narahat edirdi.

"Azərbaycan" qəzetinin 9 mart 1919-cu il sayında o, "inqilabın birinci günlərində mən kəndlilərin hüquqlarını müdafiə edib torpaq islahatı tələb etdiyim zaman yerli bəylər və köhnə məmurlar "dişlərini mənə itiləmişlərdi" yazısı ilə ona qarşı olan aqressiv münasibəti, irəli sürülən ittihamları əks etdirirdi.Gürcü və ermənilərin Axaliskdə müsəlman əhalisinə rəva gördükləri zülm dözülməz bir həddə idi. Ömər Faiq 21 aprel 1919-cu il tarixli "Azərbaycan" qəzetində o günləri belə qeyd edir: "Budur sosialist Ramişvilli hökumətinin və müsəlman dostu gürcülərin müsəlman kəndlərinin başına gətirdiyi bəla və fəlakət! Budur sosalist maskası altında oynanılan ən mənfur milliyyətpərəstlik! Budur Nikolay Kazaklarından daha vəhşiyanə davranan demokratik gürcü əsgəri!" Onun bu vəziyyətdən çıxış yolu axtarması Tiflis hökumətini rahatsiz etməyə bilməzdi. Ömər Faiq 1919-cu ilin yanvar ayında Tiflisdə həbs edilərək Aqara və Azqurdakı var - yoxuna əl qoyulur, evləri, bağçası yandırılaraq talan edilir. Xüsusi tapşırıqlı əsgərlər tərəfindən ailəsinə divan tutulsada tərəfdarları onun ailəsini gizlətməyə müvəffəq olurlar. "Zarya" qəzetinin 30 yanvar 1919-cu il tarixli sayında "ictimai xadim.., ilk müsəlman inqilabçılarından biri Ömər Faiqin başına gətirilən bu müsibət cəmiyyətin bütün təbəqəsini həyəcana salmışdır" xəbərinə məğrur, mübariz vətənpərvərin cavabı isə bu idi: " Təki hüquqi-milliyəmiz talan edilməsin, elə xüsusi, xırda sərvətlərin məhvinin əhəmiyyəti yoxdur".

İstər, menşevik orqanı ("Qruziya"-S.V), istərsə də, dövrün digər mətbu orqanları Ömər Faiqin dəfələrlə bu qədər haqsız yerə sıxışdırılmasına geniş ictimai etirazla müdaxilə edirdi. 1906-1917-ci illərdə Qafqaz Mətbuat Komitəsinin Şərq dilləri üzrə senzoru kimi calışan Mirzə Şərif Mirzəyev "Ömər Faiq əfəndi ilə əlaqədar söhbətlər

haqqında" başlıqlı məqaləsində yazırdı: "1905-ci il hadisələri zamanı onun (Ömər Faiqin - S.V.) çevikliyi, qətiyyəti, gürcü, erməni və Azərbaycan xalqları arasında apardığı ictimai işlər, xüsusən Tiflisdə, o alovlu nitqləri hamının yadındadır. Xalq onun üçün calışanların haqsız incidilməsinə dözə bilməz".

Ömər Faiqin ədəbi və ictimai fəaliyyətinə yaxından bələd olan şair Əhməd Cavad da ictimaiyyət adından çıxış edərək "Azərbaycan" qəzetinin 1919-cu il, 3 mart sayında yazırdı: " Mən bu həqarəti Ömər Faiqə deyil, millətimə edilmiş hesab etdiyim üçün gürcü millətinin dostluğunu ürəyimdə saxlamaqla bərabər gürcü hökumətinə qələm arkadaşlarım namından etiraz ediyorum. Ömər Faiq təkcə Axalsixin deyildir, o, bütün millətin xadimidir".

Bütün bu ictimaiyyət basqılarının təsiri, eyni zamanda xalq arasındakı nüfuzunun qüvvətli olmasını nəzərə alaraq, onu həbsdən azad edir.1919-cu ilin ortalarında, Bakıya ikinci gəlişində,ona şəhər polisində nəzarətçi, nəzarət naziri kimi məsul bir vəzifə verilir.Ömər Faiq bu məsul işə cəlb olunan gündən hiss edirdi ki, demokratik respublikada milli zülümdən azad olmaq, söz, dil, din, azadlığını əldə etmək, öz milli dövlət quruluşunu yaratmaq təxirəsalınmaz məsələlər olsa da, ciddi maneələr vardı. Milli dövlətin gətirdiyi yeniliklərin, mütərəqqi ideyaların geniş xalq kütləsinə çatdırılmadıgını görən Ömər Faiq təəssüflə yazırdı: "Bunları hər kəs ürəkdən düzəltməyə can atmır, ortalıqda bir "spekulyasiyadır", bir xəyanətdir gedir.Çox deyil, bir-iki saat ticarət nəzarətində, dəmiryolu idarələrimizdə... olunuz, görünüz buralarda nə at oynadırlar, nə xəyanətlər edirlər." Ömər Faiqin, istər, istintaq işi, istərsə də, bu və ya digər dövlət sənədlərində heç bir siyasi partiyanın rəsmən üzvü olduğu qeyd olunmur.

1920-ci il aprelin axırlarında XI ordu Azərbaycana daxil olaraq Sovet hakimiyyətini yaratdı. Ömər Faiq yeni bir inam və mübarizə ilə N.Nərimanovun təklif etdiyi təzə hökumət işində fəaliyyətinin amal bir, istiqamətsə başqa olan səhifəsinə qədəm qoyur. O, demokratik prinsiplərin əməl olunmasını arzulayaraq, azadlıq, bərabərlik ideyaları ilə zahirən humanist mövqeyə əsaslanan Sovet respublikasını dəstəkləyirdi. Milli və maddi, mənəvi istismara son qoymağı vəd edən Sovet hakimiyyətində İnqilab Komitəsinin qərarı ilə "İşçi və Əkinçi Müfəttişliyi Xalq Komisarlığı" təşkil edildi. Omər Faiq isə bu komissarlıqda fəaliyyətə cəlb olunaraq bürokratizmə, süründürməçiliyə qarşı mübarizə aparmaq, dövlət idarəçiliyinin və təsərüfat orqanlarının fəaliyyətinə nəzarət etmək və başqa bu kimi ciddi məsələlərin həll edilməsinə yönləndirildi. Bu komissarlığın Azərbaycan və rus dillərində nəşr olunan "Zəhmətkeşlərin gözü" ("Ока трудящихся") adlı rəsmi və xüsusi mətbuat orqanının redaktoru Ömər Faiq olmuşdur. Ayda iki nömrəsi nəşr olunacağı planlaşdırılan bu jurnalın ilk nömrəsi 1920-ci il iyunun 30-da işıq üzü görür. Elə ilk nömrədən Azərbaycan və rus dillərində "Hamıya elan olunur ki, Bakıda İşçi və Əkinçi Təftiş Xalq Komissarlığında ayrıca bir şikayət şöbəsi açılmışdır. Bu şikayət şöbəsi istər Bakıda, istərsə mahalda veriləcək, və ya göndəriləcək hər cür əxbar-şikayətnamələr qəbul olunur. Hər kəs hər hansı məmur olursa-olsun onun qanunsuz və haqsız rəftarı barəsində və ümumiyyətlə, görüb duyduğu ədalətsizliklər və xəyanətlərdən şikayət şöbəsi idarəsini xəbərdar etməlidir." Elan olunan bu bildiriş yeni hökumətin məramnaməsi idi. 1921-ci il fevral ayının 16-da Şulaver şəhərində Gürcüstan inqilab komitəsi yaradılır.Tərkibi on nəfər tanınmış insanlardan ibarət olan komitədə Ömər Faiq də yer alırdı. Onu, fəaliyyəti boyu ən çox məşğul edən məsələlərdən biri müsəlmanlar yaşayan yerlərdə milli məsələyə qeyri - ciddi münasibət göstərilməsi, verilən vədlərin sözdə qalması idi.

"Demokratiya və azadlıq ugrunda" mübarizə fəaliyyətinin əsas amalı olan Ömər Faiq, bu dövrdə də, durmadan xalqın mariflənməsinə, sovet dövlətinə, sosializm quruculuğuna sədaqətlə xidmət etmişdir. Gürcüstanda yaşayan türklərin taleyi, əmin-amanlığı üçün o, burada çox işlər görmüş, müsəlman bölgələrində qeyri - müsəlmanların, xüsusən idarə orqanlarına soxulmuş ermənilərin qərəzli fəaliyyətini ifşa edən məruzələri ilə geniş əks-səda oyatmışıdır. Lakin onun ciddi tələbləri

burada da rəğbətlə qarşılanmamış və 1922-ci ildə hökumətdən uzaqlaşdırılmışdır. Ad isə başqa idi: "o, yaş və xəstəliyinə görə dövlət işindən uzaqlaşır." Tiflisdə "Yeni fikir"qəzetinin təşkili, yeni əlifba komitəsinin fəaliyyətində farktlar onun zəhmətinin az olmadığını göstərir. O, həmçinin həmin komitənin üzvlərindən biri təyin edilir. "1923-25-ci illərdə Gəncə şəhərində məktəb seminariyasının müdiri olmuş və kənd təsərrüfatı texnikumuna başçılıq etmişdir. 1926-1927-ci illərdə Azərbaycan hökumət nəşriyyatının redaktoru işləmişdir. Sonra Xalq Komissarları Şurasının sərəncamı ilə təqaüdə göndərilmişdir."

"Kommunist" qəzetinin 1927-ci il avqustun 3-də yazdığı məlumata görə, Ömər Faiqin, otuz üç il mədəni-maarif cəbhəsində çalışdığı nəzərə alınaraq, təqaüd alanlar sırasına keçirilməsini komissarlar şurası qərara almış və ona Ümumittifaq dərəcəli pensiya verilmişdir. Bununla belə, Ömər Faiq fəaliyyətsiz deyildi; 1927-1929-cu illərdə H.Sanılı və H.Axundovla birlikdə "Üçüncü il" adlı dərslik tərtib etmişdi.

1925-ci il dekabrin 9-da Azərbaycan Fövqalədə Komissiyasının 341№-li həbsetmə və axtarışaparma orderi ilə həbsə məhkum edilən Ömər Faiq daha çox türk casusu kimi günahlandırılmış, lakin istintaqın gedişində heç bir sübut olmadıgı üçün həmin ayın 14-də araşdırma və təhqiqat davam etmək şərti ilə həbsdən azad edilmişdir. 1933-cü il 20 mart tarixində 746 N-li orderlə eyni ittihamla vərəm xəstəliyinə mübtəla olmuş Ömər Faiq təkrar həbs edilir. Dindirilməni milliyyətcə erməni olan Tevosyan aparır. Mayın 17-də ittiham sübutsuzlugu ilə Ömər Faiq həbsdən azad edilir. "Bu qərar may ayının 17-də verilsə də, onu həbsdən azad etmirlər. Mayın 27-də Ömər Faiqin ömür yoldaşı Abidə xanım M.C.Bağırova ərizə ilə müraciət edərək, ərinin buraxılmasını xahis edir. Bu ərizədən sonra, may ayının 28 - də Ömər Faiq Nemanzadə azad edilir."

Sovet hökuməti əleyhinə yaradılmış əksinqilabi millətçi təşkilatın rəhbəri kimi, Ömər Faiq 1937-ci ilin 16 iyulunda Axalsix rayon prokuroru Odabaşyanın sanksiyası ilə yenidən həbs olunur, istintaqın nəticələri Gürcüstan SSR Daxili İşlər Komissarlığının nəzdindəki Üçlüyün sərəncamına verilir. Yenə heç bir məhkəmə olmadan, oktyabrın 19-da qocaman publisist Üçlüyün əmri ilə güllələnir.

Ömər Faiq Nemanzadə 1958-ci il aprelin 10 - da Gürcüstan Ali Məhkəməsinin qərarı ilə bəraət almışdır.



***Səadət VAHABOVA***

*İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT*

*"Açıq söz" qəzeti, 19 oktyabr 1917*
*"Azərbaycan" qəzeti 23 aprel 1919*
*"Azərbaycan" qəzeti, 18 aprel 1919*
*"Azərbaycan" qəzeti, 9 iyul 1919*
*"Bəsirət" qəzeti, 15 mart 1919*
*"Bəsirət" qəzeti, 15 may 1919*
*Ömər Faiq Nemanzadə. Seçilmiş əsərləri, Bakı ,Yazıçı , 1992*
*Həbibbəyli İ. Məmmədağa Şahtaxtlı: tale yolları və xidmətləri. Bakı ."Nurlan", 2008*
*Həbibbəyli İ. Cəlil Məmmədquluzadə:mühiti və müasirləri. "Əcəmi" Naxçıvan, 2009*
*Həbibbəyli İ. Cəlil Məmmədquluzadə. Biblioqrafiya. Bakı,"Elm", 2005*
*Rzayev S. Ömər Faiq Nemanzadənin ədəbi-publisistik fəaliyyəti*
*Azərb.SSR EA Nizami adına Ədəbiyyat İnistitutu /dis. Bakı, 1973*
*Qasımov C. Məhbus tərcümeyi -halı. Bakı, "Mütərcim" nəşriyyatı, 1985*
*Qurbanov Ş.Ömər Faiq Nemanzadə. Bakı, Gənclik, 1992, s.21*
*"Tərcüman", 7 yanvar 1896*

# ◆ Kitab rəfi




**ŞƏHRİYAR**
**Bakı, 2015**

Milli, İrsi, Mədəni, Tarixi Araşdırmalar Fondunun (MİMTA) layihəsi əsasında nəşr olunan "Şəhriyar" kitabında XX əsr Azərbaycan poeziyasının korifeyi Məhəmmədhüseyn Şəhriyarın şeirləri və tanınmış miniatür ustası Fəxrəddin Əlinin bu şeirlərə çəkdiyi miniatürlər nəfis şəkildə çap edilmişdir. Kitabda Şəhriyarın öz səsi ilə Azərbaycan dilində şeirləri və müsahibələri də disk şəklində oxuculara təqdim olunur.




**EMİN PİRİ**
**TANRININ KÖLGƏSİ**
**Bakı, "Mütərcim" nəşriyyatı, 2015**

Emin Piri son illərdə ədəbiyyata gələn, elə ilk şeirləri ilə də diqqəti cəlb edən gənc şairlərdəndir. "Tanrının kölgəsi" onun ilk şeirlər kitabıdır. Şairin oxucuları ilə bu görüşü də, zənnimizcə, onlarçün maraqlı olacaq. Çünki Emin Piri həyata, gerçəkliyə, dünyada və məmləkətimizdə baş verən hadisələrə, Qarabağ müharibəsinə fərqli, özünəməxsus münasibəti olan orijinal şairdir.

Kitab Azərbaycan Yazıçılar Birliyinin "aybKitab" layihəsinin nəşridir. Redaktoru Qulu Ağsəsdir.




**VAQİF BƏHMƏNLİ**
**BİR MƏKTUB, DÖRD SÖHBƏT**
**Bakı, "Renessans-A" nəşriyyat evi, 2015**

Bu kitab tanınmış şair Vaqif Bəhmənlinin 60 illik yubileyi münasibətilə nəşr edilib. Kitab professor Nizami Cəfərovun şairin yaradıcılığı haqqında düşüncələri ilə açılır. Daha sonra müxtəlif zamanlarda dörd ədəbiyyat adamının - Emin Piri, Fərid Hüseyn, Sərvaz Hüseynoğlu və İntiqam Qasımzadənin şairlə söhbətləri verilib.

Kitabın redaktoru Əlәddin Əsədzadədir.




**FÜYUZAT**
**№4 (84), 2015**

Ədəbi, fənni, siyasi, ictimai, həftəlik türkcə məcmuəyi-islamiyyə "Füyuzat"ın yeni sayı professor Teymur Əhmədovun "Baş redaktordan" məqaləsi ilə açılır. Məqalədə akademik Ramiz Mehdiyevin "Nadir şah Əfşar. Diplomatik yazışmalar" kitabının milli tariximizin, ədəbiyyatımızın və mənəvi sərvətlərimizin yenidən öyrənilməsində əhəmiyyətindən bəhs olunur. Jurnalın bu sayında həmçinin BDU-nun dosenti Akif Rüstəmovun "Milli oyanışa, tərəqqiyə yol açan qəzet - "Əkinçi", Gülnarə Sadıqovanın "Əli bəy Hüseynzadənin redaktorluq fəaliyyəti", Nərgiz Əliyevanın "Elm və irfan mərkəzi Gəncə", Qərənfil Dünyaminqızının Abbas Səhhətin həyat və yaradıcılığından söhbət açan "Şişə çəksəz də diriykən ətimi, atmaram mən Vətəni, millətimi" və başqa maraqlı yazılar da dərc olunmuşdur.




**BİR UZUN KÜÇƏ**
**Bakı, "Nurlar" Nəşriyyat Poliqrafiya Mərkəzi, 2015**

Şeir həvəskarları bu topluda orijinal poetik üslubları və yaradıcılıq uğurları ilə artıq neçə illərdən bəri diqqəti cəlb edən beş istedadlı şairin - Məmməd İlqarın, Qoca Xalidin, Sabir Sarvanın, Əjdər Olun və Ramiz Qusarçaylının poeziyasından nümunələrlə tanış ola bilərlər.

İlham Abbasov kitaba "Zamanına oxşayan nəsil" başlıqlı ön söz yazıb. Redaktoru Azad Yaşardır.



**ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATI ALMANAXI (gürcü dilində)**
**Gürcüstan, 2015**

Gürcüstanda Çağdaş Azərbaycan ədəbiyyatı almanaxı çap olunub. Kitabda yeni nəsil Azərbaycan poeziyasının tanınmış nümayəndələrinin əsərləri yer alıb: Qəşəm Nəcəfzadə, Faiq Balabəyli, Nuranə Nur, Mətləb Ağa, Səhər, Əkbər Qoşalı, Qulu Ağsəs, Rafiq Hümmət, Dəyanət Osmanlı, İlham Qəhrəman, Ələsgər Talıboğlu və b. şeirləri gürcü oxucularına təqdim olunub.

Kitabın məsləhətçisi və ön sözünün müəllifi AMEA-nın müxbir üzvü Nizami Cəfərovdur.




**ALİYƏ ƏSƏDOVA**
**PAYIZ NƏFƏSİ**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2015**

Aliyə Əsədova ədəbiyyata ikimininci illərdə gəlib. "Payız nəfəsi" şeirlər kitabı onun oxucularla ikinci görüşüdür. Burada müəllifin həyat, dünya, sevgi və sənət haqqında poetik düşüncələri öz əksini tapıb.

Kitabın redaktoru və "Aliyənin yolu" adlı ön sözün müəllifi tənqidçi Südabə Ağabalayevadır.




**QAFAR CƏFƏROV**
**ƏMƏLİYYATÇI**
**Bakı, "OL" MMC, 2015**

"Əməliyyatçı" Qafar Cəfərovun oxuculara təqdim etdiyi ilk kitabıdır. Müəllif kitaba "Təyinat", "Taxtı qaloş" əməliyyatı", "Amansız qətl", "Gecənin lal fəryadı", "Təhlükəli əmanət", "Namus yarası", "İkiayaqlı canavarlar", "Bu da təqaüd" kimi seçmə povestlərini daxil edib. Bu əsərlərdə əsasən cinayətkarlara qarşı polis orqanlarının apardığı əməliyyatlardan bəhs edilir.

Kitabın redaktoru Hafiz Mirzədir.




**GÜLƏMAİL MURAD**
**GÜNƏŞ QÜRUB EDƏNDƏ**
**Bakı, "Araz" nəşriyyatı, 2015**

Güləmail Muradın "Günəş qürub edəndə" kitabı bütünlüklə müharibə mövzusuna həsr edilmişdir. Kitabın qəhrəmanları əsasən Ağstafa rayonunda boya-başa çatmış insanlardır. "Dünya durduqca yaşayan insan" poeması

Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyevə həsr edilib. Kitabda haqlarında bəhs olunan Azərbaycanın daha beş Milli Qəhrəmanı da Ağstafa rayonunun yetirmələridir.

Akademik Teymur Bünyadov, ədəbiyyatşünas Elçin Mehrəliyev və şair Qəşəm Nəcəfzadə kitaba ön söz yazmışlar.




**BAYRAM APOYEV**
**ÖZ GÜLÜM-GÜL ÖMRÜM**
**Bakı, "Nərgiz" nəşriyyatı, 2015**

Bayram Apoyevin "Öz gülüm-gül ömrüm" kitabı onun oxucularla üçüncü görüşüdür. Bundan əvvəl "Ağrı" (2005) və "Qarabağım" şeirlər kitabı işıq üzü görüb. Yeni kitabındakı şeirlər "Vətən bizə oğul dedi", "Sevgisiz bir həyat həyat deyil ki!", "Qoşa saraylı dünya" başlıqları ilə təqdim edilir. Mövzu və formaca müxtəlif olan bu şeirlər özünəməxsus deyim tərzi ilə seçilir.

**OXUCULARIN NƏZƏRİNƏ!**

**2016-cı İL ÜÇÜN**

**“AZƏRBAYCAN”**

**jurnalına abunə yazılışı davam edir.**

**“AZƏRBAYCAN”**

**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**

**İNDEKS: 76300**